Qurban BAYRAMOV

# LİRİK QƏHRƏMAN və ZAMAN

(Səməd Vurğun poeziyasında lirik qəhrəman)

Bakı – 2021

Redaktor: Zaur USTAC
Ön söz: İsa HƏBİBBƏYLİ

"Lirik qəhrəman və zaman" – Qurban BAYRAMOV
Bakı, "USTAC.AZ" nəşrləri, 2021, 200 səh.
Kod: 031-06-BQF-14-20-21

*Dahi Azərbaycan şairi Səməd Vurğunun anadan olmasının 80 illiyi münasibətilə 1986 –cı ildə kril əlifbasında nəşr olunmuş bu kitab ədəbiyyatşünas alim, tənqidçi, professor Qurban Bayramovun anadan olmasının 75 illik yubiley tədbirləri çərçivəsində latın əlifbasında müəllifin yeni nəşrə şərhi və akademik İsa Həbibbəylinin ön söz məqaləsi ilə birlikdə yenidən nəşr olunur.*

Latın əlifbasına transleterasiya edən və kompyuterdə yığan: Validə AĞAHƏSƏNQIZI

.

©Q.BAYRAMOV, 1986.
©Q.BAYRAMOV, 2021.

# LATIN QRAFİKASI İLƏ NƏŞRƏ MÜƏLLİF ŞƏRHİ

***Hörmətli oxucular! Sizə latın əlifbasında təqdim olunan bu kitab mənim 47 il bundan qabaq yazdığım “Səməd Vurğun poeziyasında lirik qəhrəman” monoqrafiyasının 1986-cı ildə çap edilmiş nəşrin əslidir.***

***Kitabda ancaq korrektura baxımından düzəlişlər edilibdir. Buna görə də, həmin dövrün elmi-ideoloji tələblərindən irəli gələn istilah və ifadələrə, siyasi ədəbiyyatdan gətirilən istinadlara bilərəkdən toxunulmayıbdır...***

***Bir məsələni də xatırladım ki, kitabda gedən “Yaradıcılığının ümumbəşəri məziyyətlərinə görə Səməd Vurğunu Dante, Servantes, Şekspir, Hüqo, Rustaveli, Füzuli, Nəvai, Taqor, Tolstoy, Qorki kimi dühalarla yanaşı duran şəxsiyyət hesab etmişlər.” – fikrinə istinadən, Azərbaycan SSR MK-nın plenumunda ideoloji katibin məruzəsində məni – gənc tədqiqatçını ideoloji səbatsızlıqda günahlandırmışdılar ki, böyük sovet şairini feodalizm dövrünün sənətkarları ilə müqayisə etmişəm... Buna görə, az qala məni “dara” çəkirdilər, elmi müdafiəm neçə illərləngidildi, ikinci kitabımı isə on ildən sonra nəşr edə bildim...***

***Müasir oxuculardan xahiş edirəm ki, mütləq bunları nəzərə alsınlar və görsünlər ki, biz qələm əhli hansı çətinliklərlə, qadağalarla qarşılaşmış, lakin buna baxmayaraq, tədqiqatlarımızda milli ədəbiyyatımızın əsas meyar və ideyalarını, xəlqi mövqeyini sətiraltı mənala heabına mümkün qədər qoruya bilmişik..***

# ÖMRÜN ELMİ HESABATI

***Qurban Bayramovun "Səməd Vurğun – lirik qəhrəman və zaman" monoqrafiysının latın qrafikası ilə yeni nəşrinə akademik İsa Həbibbəylinin ön sözü***

Azərbaycan elmi-ədəbi və tənqidi fikrinin inkişafında özünəməxsus yeri olan filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Bayramovun çoxillik və çoxcəhətli fəaliyyətini səciyyələndirən əsas prinsiplər yüksək vətəndaşlıq mövqeyi ilə universal düşüncənin və professionallığın vəhdətindən ibarətdir. O, müraciət etdiyi problemlərə, ədəbi şəxsiyyətlərə zamanın gözü ilə baxmağı bacaran, qələmə aldığı məsələləri yüksək vətəndaşlıq səviyyəsində təqdim etmək vəzifəsini məsuliyyətlə, həyata keçirməyin öhdəsindən gələ bilən əsl ədəbiyyat adamıdır. Yazdığı sanballı elmi əsərlərin bir çoxu ədəbiyyatşünaslıqda və tənqiddə mühüm əhəmiyyəti ilə yanaşı, həm də böyük vətəndaşlıq borcunun ifadəsidir...

Qurban Bayramovun ədəbi-bədii fakta, seçilmiş mövzuya ziyalı-vətəndaş mövqedən yanaşması,

əsaslandırılmış, professional elmi-tənqidi münasibətin və universal düşüncəsinin kamil ifadəsi olan əsərləri bu reallığın göstəricilərindəndir.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Bayramov 1970- ci ildən ədəbi fəaliyyətə başlayıb, aspirantura təhsili görüb, ilk elmi əsəri 1979-cu ildə "Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi" mövzusunda dissertasiyası olub… Bu günə kimi dövri və elmi mətbuatda 16 kitabı, 300-dən çox məqaləsi dərc edilib… Bunlardan “Vurğun poeziyası”(1976), “Lirik qəhrəman və zaman (Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi)” (1986), “Tarixilik və müasirlik – “Sosialist realizmi müasir mərhələdə” kitabı (kollektiv) (1988), “Yaşar Qarayev: Milli yaddaş təlımi – azərbaycançılıq”, (Jalə Qurbanqızı ilə birgə) (2001), “Poeziyanın sirri…” (monoqrafiya) (2009), “Əli İldırımoğlunun yaradıcılıq yolu: Azərbaycan ədəbiyyatında avtobioqrafik roman janrının təkamülü” (monoqrafiya) (2009), “Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi

tənqiddə” (Jalə Qurbanqızı ilə birlikdə) (2014) və s. kimi kitabların müəllifidir.

Onun "Müasir Azərbaycan poeziyasında üslubi meyillər", "Azərbaycan ədəbiyyatında tarixilik və müasirlik", "M.Ə.Sabir ənənələri və Azərbaycan ədəbiyyatı", "Səməd Vurğun dünən, bu gün və sabah", "Məhəmmədhüseyn Şəhriyar poetik üslubu", "Qarabağ ədəbi mühiti – uzaq keçmişdən bu günümüzə qədər" kimi maraqlı tədqiqat işləri vardır. Qurban Bayramovun bir sıra əsərləri, Türkiyədə, İranda, İraqda – Kərkükdə, Rusiyada, Macarıstanda, Krımda, Qazaxstanda, Litvada çap olunub…

Azərbaycan ədəbiyyatının əksər nümayəndələri barəsində məqalə yazıb, fikir söyləyib, elmi və bədii kitabların redaktoru olub, onların bir çoxuna ön söz yazıb. Xüsusən, "Azərbaycan poeziyası"na həsr etdiyi ədəbi icmalları elmi mühitdə maraq doğurub…

Qurban müəllim ədəbi ictimaiyyətin əksər tədbirlərində, təqdimatlarda, elmi sessiya və konfranslarda

gənclik həvəsi ilə iştirak edir, tənqidçi nüfuzu ilə ədəbi tədbirlərə özünəməxsus rövnəq verir…

Uzun illər "Gənclik" nəşriyyatında rəsmi rəyçi, Azərbaycan Dövlət Televiziyasında "Ədəbiyyatşünaslıq və zaman", "Ədəbiyyat" (1982-1992) elmi-kütləvi, tədris televiziya verilişlərinin müəllif-aparıcısı, Ədəbiyyat İnstitutu Elmi Şurasının, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü (2011) olub.

Azərbaycan MEA-nın Rəyasət Heyətinin (2016), Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin (2011), Azərbaycan Respublikası Həmkarlar Konfederasiyasının Fəxri fərmanlarına (2016, 2019), "Tanınmış Vurğunşünas alim" (2011), "Fədakar alim" (2011), "Səməd Vurğun mükafatı" (2011), "Elm fədaisi" (2012), “Vintsas” mükafatı (2020) fəxri diplomlarına layiq görülüb.

Çap etdirdiyi elmi əsərlər Qurban Bayramovun 75 illik ömür yolunun, zəngin həyat təcrübəsinin,

zəhmətkeşlik və fədakarlığın nümunəsi kimi meydana çıxmışdır.

Bu araşdırmaların və məqalələrin sərlövhələrindən də göründüyü kimi, o, tənqidimizdə, həmişə Mikayıl Müşfiqin sənət prinsipinin – "Şairə ilhamdan maya gərəkdir!" prinsipinin qoruyucusudur! O, istedadla yazılan, insanın və cəmiyyətin inkişafina xidmət edən əsl ədəbiyyatı təqdir etmiş, elmi cəhətdən qiymətləndirilmişdir.

Xatırladım ki, Xalq şairi Səməd Vurğun haqqında bir çox görkəmli ziyalılarımız, alimlərimiz dəyərli əsərlər, qiymətli tədqiqatlar aparıb. Vurğunşünaslar Qurban müəllimin bu sahədəki tədqiqatlarını yüksək qiymətləndiriblər. O, bir tənqidçi-alim kimi ölməz şairimizin yaradıcılığını, Səməd Vurğun şəxsiyyətinin və yaradıcılığının böyüklüyünü təhlildən keçirib, xarakterizə edərək ədəbi ictimaiyyətimizə çatdırıb. Elə bu baxımdan da Qurban Bayramovun Səməd Vurğuna həsr etdiyi elm əsər fərqlidir, yenidir və önəmlidir.

Fikrimcə, Qurban Bayramov ədəbiyyatşünaslığımızın Vurğunşünaslıq qolunun ən ləyaqətli nümayəndələrindən biridir. Onun böyük Səməd Vurğun yaradıcılığına həsr etdiyi “Vurğun poeziyası” (1976), “Səməd Vurğun – lirik qəhrəman və zaman” (1986) monoqrafiyaları, onlarla məqalələri elmi mühitdə həmişə yüksək dəyərləndirilmişdir. Akademiklərdən – Məmməd Arif, Məmməd Cəfər, Kamal Talıbzadə, Bəxtiyar Vahabzadə, Bəkir Nəbiyev, professorlar – Mirzağa Quluzadə, Kamran Məmmədov, Yəhya Seyidov, Əkbər Ağayev, Qasım Qasımzadə, Qulu Xəlilov, Atif Zeynallı, Cəlal Abdullayev, Şamil Salmanov və sonralar Səməd Vurğun irsinə müraciət edən bütün tədqiqatçılar Qurban Bayramovun bu sahədə olan xidmətini yüksək səviyyədə dəyərləndirmişlər...

Bu sıradan, bütün rəy və fikirlər üçün səciyyəvi olan iki faktı xatırladıram:

- Filologiya elmlər doktoru, professor Cəlal Abdullayev: “Mən özüm də Səməd Vurğunun tədqiqatçılarındanam. Qurban

Bayramovun tədqiqatı həm böyük şairin tədqiqatı sferasında, həm də bizim ədəbiyyatşünaslıqda öz orjinallığı və yeniliyi ilə fərqlənir. Mən, doğrusu, bu tədqiqatı nəzəri səviyyəsinə görə Ümumittifaq səviyyəsində ola bilən bir əsər kimi qəbul edirəm. Əsər onun müəllifinin yüksək erudisiyaından xəbər verir."

- Filologiya elmlər doktoru, professor Yəhya Seyidov: "Qurban Bayramov ...gündən-günə yüksələn, inkişaf edən müasir ədəbi proseslə çox canlı, fəal məşğul olan, mətbuatda ciddi və yetkin məqalələrlə müntəzəm çıxış edən istedadlı tənqidçi və ədəbiyyatşünasdır."

Qurban Bayramovun Səməd Vurğun poeziyası haqqında yazdığı tədqiqatların böyük bir qismi keçmiş sovet rejiminin sərt ideoloji qadağaları dövründə qələmə alınmasına baxmayaraq, müəllif fikirlərini yüksək peşəkarlıqla ifadə edərək müasir məzmunlu, milli ruhlu bir əsər yarada bilmişdir. Və buna görə də, bu sanballı əsərlər

bugün də öz aktuallığını və elmi səviyyəsini saxlayan dəyərli ədəbiyyatşünaslıq faktlarındandır...

Təqdim edilən monoqrfiyanın birinci nəşrinə sanballı ön söz yazmış, hamımızın ustadı olmuş akademik Məmməd Cəfər Cəfərovun ifadə etdiyi kimi, “Qurban Bayramov “Lirik qəhrəman və zaman” əsərində çoxmillətli sovet şeirinin ən görkəmli yaradıcılarından biri olan Səməd Vurğunun lirik qəhrəmanı, onun şair obrazı, şair şəxsiyyəti haqqında faydalı və yeni elmi təsəvvür yarada bilmişdir. Bu kitab qüdrətli sənətkar Vurğun poeziyasının pərəstişkarlarına layiqli bir töhfədir.”

Dəyərli ustadımızın bu qiymətli fikrinə, onu da əlavə edim ki, Azərbaycan ədəbiyyatşünaslığında Vurğunşünaslığın yaradılması bütövlükdə elm tariximizin əhəmiyyətli hadisələrindəndir. Ayrı-ayrı vaxtlarda bu mövzuda yazılmış əsərlər, aparılmış tədqiqatlar, çap olunmuş məqalələr ədəbiyyatşünaslıq elmimizin “Vurğunnaməsi” kimi dərin mənaya malikdir və olduqca ətraflı, zəngin elmi-məlumat bazasını əhatə edir...

Əsasən, müasir Azərbaycan ədəbiyyatının tədqiqi məsələlərinə həsr olunmuş elmi və bədii əsərlər, Qurban Bayramovun tədqiqatlarında geniş yer tutur. Xalq yazıçısı İlyas Əfəndiyevi, tanınmış jurnalist-yazıçı Əli İldırımoğlu, görkəmli tənqidçi-ədəbiyyatşünas Yaşar Qarayev haqqındakı araşdırmalarının hər biri sistemli monoqrafik elmi əsərlərdir. Qurban Bayramov bütövlükdə müasir Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslıq elminin əsas yaradıcılarından olan bu şəxsiyyətlərin yaradıcılıq özünəməxsusluğunu müəyyən edən ana xətləri seçib ayırmağı və qiymətləndirməyi bacarmışdır.

Müasir ədəbiyyata dair digər tədqiqatlarında olduğu kimi, ədəbi elmi dövriyyəyə gətirdiyi ***"poeportret"*** janrında ədiblərə ünvanlanmış əsərlərində də, Qurban Bayramov memuar janrının cizgilərini tənqidi mətnə daxil edərək, təhlilləri və tədqiqatları ilə vəhdətdə oxuculara təqdim edir. Bu yolla yazıçıların, şairlərin və ədəbiyyatşünasların təkcə ədəbi-elmi xidmətləri deyil, həmçinin tərcümeyi-hallarının maraqlı məqamları,

şəxsiyyətləri, mənəvi dünyası da təqdim olunur. Bütün bunlar isə yazıçını və ya ədəbiyyatşünas alimi mühiti və müasirləri, mənəvi aləmi və münasibətləri ilə birlikdə tam halda oxuculara çatdırmağa şərait yaradır. Bu tip tədqiqatları və məqalələrində Qurban Bayramov sənətkar və zaman münasibətlərinə də aydınlıq gətirir. Bu əsərlərdə ədəbiyyatımızı, ədəbiyyatşünaslıq elmimizi yaradanlara, istedadlı qələm sahiblərinə dərin ehtiram qırmızı xətt kimi keçir…

İctimai həyatda ədəbiyyatın rolunu dərindən dərk edən Qurban Bayramov tədqiqatlarında ədəbiyyat və həyat məsələlərinə dair araşdırmalara geniş yer verib. O, haqlı olaraq yazır ki, böyük ədəbiyyat yarandığı zamanın tarixi, fəlsəfəsi və sosiumun kompasıdır. Zaman faktoru həmişə böyük ədəbiyyat üçün zəruri olub. Ədəbiyyat zamanı dərk və əks etdirən, irəli aparan əsas hərəkətverici qüvvələrdən biridir. Ədəbiyyat – Zamanı ələkdən keçirir və gələcəyə aparır...

Qurban Bayramov müasir ədəbi prosesi düzgün qiymətləndirməyi bacaran tənqidçi və ədəbiyyatşünasdır... O, ədəbiyyatın ümummilli inkişafdakı mənəvi-estetik funksiyasını dərindən təhlil edib qiymətləndirən tənqidçi-filoloqdur.

Tanınmış tənqidçi-ədəbiyyatşünas Qurban Bayramovun istər klassik, istərsə də müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri və ədəbi proses haqqında dəyərli araşdırmaları ədəbiyyatşünaslıq elmimiz üçün qiymətli tədqiqatlardır. Onun Molla Pənah Vaqif, Mirzə Ələkbər Sabir, Səməd Vurğun, Əhməd Cavad, Mirzə İbrahimov, Süleyman Rüstəm, Nazim Hikmət, Nikolay Tixonov, Məmmədəfər Cəfərov, Mehdi Hüseyn, Mir Cəlal Paşayev, Əli Vəliyev, İlyas Əfəndiyev, Bayram Bayramov, Kamal Talıbzadə, Bəkir Nəbiyev, İsa Həbibbəyli, Teymur Kərimli, Qasım Qasımzadə, Zeynal Xəlil, Kamran Məmmədov, Qulu Xəlilov, Əkbər Bayramov, Yaşar Qarayev, Qəzənfər Kazımov, Qəzənfər Paşayev, Seyid Məhəmmədhüseyn Şəhriyar, Əhməd Cəmil, Nəbi Xəzri,

Cabir Novruz, Adil Babayev, Yusif Əzimzadə, Cəmil Əlibəyov, Anar, Elçin, Məmməd Araz, Əliağa Kürçaylı, Fikrət Qoca, Nəriman Həsənzadə, Balaş Azəroğlu, Hökümə Billuri, Əzizə Cəfərzadə, Əzizə Əhmədova, Leyla Əliyeva, Mahirə Nağıqızı, Firuzə Məmmədli, Musa Yaqub, Xəlil Rza Ulutürk, Hüseyn Kürdoğlu, Hikmət Ziya, Tofiq Mütəllibov, İbrahim Göyçaylı, Hidayət, Sabir Rüstəmxanlı, Aydın Məmmədov, Vaqif Arzumanlı, İslam Ağayev, Akif Bayramov, Aydın Dadaşov, Nazif Qəhrəmanlı, Şirindil Alışanlı, Rəhim Əliyev, Asif Rüstəmli, Mahiras Gamzayevas (Mahir Həmzəyev), Şakir Qabıssanlı, Hamlet İsaxanlı, İslam Qəribli, Ənvər Əhməd, İsgəndər Etibar, Şahməmməd, Əli İldırımoğlu, Yusif Kərimov, Hikmət Mahmud, Əhməd Elburus, Seyran Səxavət, Aqil Abbas, Taleh Həmid, Əlirza Xələfli, Zakir Fəxri, Şöhlət Əfşar, Məmməd İlqar, Qələndər Xaçınçaylı, Elçin İsgəndərzadə, Adil Cəmil, Ziyəddin Məhərrəmov, Məsiağa Məhəmmədi, Gülhüseyn Kazım, Elxan Məmmədli, Əbülfət Mədətoğlu, Yusif Nəğməkar, Əhməd

Qəşəmoğlu, Nazim Əhməd, Zaur Ustac, Nəcməddin Mürvətov, Vəliyulla Novruz, Alim Qasımov, Ağarəhim Rəhimov, Tamxil Ziyəddinoğlu və b., xüsusən, "Qarabağ – Şuşa ədəbi mühiti: uzaq tarixi keçmişimizdən bu günümüzə qədər" (2003), "Şuşa elm və mədəniyyət mərkəzi kimi" (2003), "Qan içində "Xarı Bülbül" (2003), Naxçıvan şairlərinin yaradıcılığına həsr olunmuş tədqiqat istiqamətli "Arazın nəğmələri" (1979), "Çağdaş poeziya - ədəbi istiqamətlər və sənətkarləq məsələləri" (2006), "Müasir poeziyanın imkanları və imkansızlığı" (2011) qəbildən məqalələri, həmçinin, onlarla müasir gənc şair və yazıçılar haqqındakı elmi və ədəbi-tənqidi məqalələri müasirliyi, aktuallığı ilə ədəbiyyatşünaslıq elmimizin, tənqidimizin qiymətli faktlarındandır...

Qurban Bayramov həmçinin bacarıqlı publisistdir. O, vətəndaşlıq mövqeyindən çıxış edərək hər zaman böyük bir ruh yüksəkliyi ilə milli mətbuatımızda dövlətçiliyimizin uğurlarını təbliğ edir, ictimai-siyasi, ədəbi-mədəni proseslərə yaradıcı ziyalı kimi həssas münasibətini bildirir.

Qurban Bayramov böyük enerji ilə bu gün də azərbaycançılıq ideyaları iıə zəngin ədəbiyyatımızı yüksək vətəndaşlıq, universal ziyalı düşüncəsi səviyyəsində əzmkarlıqla təbliğ edir. Millətinə və dövlətinə, ədəbiyyatına və mədəniyyətinə bağlılıq tənqidçi-ədəbiyyatşünas Qurban Bayramovun elmi-ədəbi andıdır...

Bir cəhəti də qeyd etməliyəm, bu gün də dövrü mətbuatı açıb baxsanız, Qurban Bayramovun cavanlıq ruhu ilə yazılmış yüksək səviyyəli yazılarına rast gələrsiniz...

Bizim XX əsr ədəbiyyatımızın, hətta müstəqillik dövrü ədəbiyyatımızın tədqiqində və təbliğində Qurban Bayramovun özünəməxsus xidmətləri vardır. O, Ədəbiyyat İnstitutunun aşiqidir, Ədəbiyyat İnstitutunda uzun illərdən bəri baş verən nailiyyətləri və dəyişiklərə ürək dolusu sevinən Qurban Bayramov həmin nailiyyətləri öz tərcümeyi-halının hadisəsi kimi qeyd etməyi bacaran və onu ürək dolusu cəmiyyətə çatdıran ədəbiyyatşünasdır. Hesab edirəm ki, Ədəbiyyat İnstitutu Qurban Bayramov üçün, və ümumiyyətlə bizim hamımız üçün bir məbəddir. Eyni za-

manda, Qurban Bayramov özünün çox illik fəaliyyəti ilə doğma İnstitutun inkişafına öz töhfələrini vermişdir. Ona görə böyük sürətlə uçub gedən bu illərdən keçmişə baxarkən görürəm ki, hər hansı mərhələdə Ədəbiyyat İnstitutuna nəzər salsaq, orada Qurbanın sözü var, özü var, əsəri var. Çap etdirdiyi çoxsaylı kitabları və məqalələri Qurban Bayramovun həm də Ədəbiyyat İnstitutu qarşısındakı hesabatıdır.

Gənclik dostum Qurban Bayramovun 75 yaşını ürəkdən təbrik edir, ona daha böyük uğurlar arzulayıram.

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın Vitse-prezidenti, Millət vəkili,**
**Nizami adına Ədəbiyyat İnstitutunun**
**direktoru, akademik.**

**13.05.2021.**

Azərbaycan SSR Elmlər Akademiyası Redaksiya-Nəşriyyat Şurasının qərarı ilə çap olunur

Redaktoru: **Ş. M. Salmanov, filologiya elmlər dokroru.**

Rəyçilər: akademik **M. C. Cəfərov,**
professor **Ə. M. Ağayev**

**Bayramov Q.**

Lirik qəhrəman və zaman (Səməd Vurğun poeziyasında lirik qəhrəman). Bakı: Elm, 1986, 140 səh.

Müəllif əsərdə Azərbaycanın Xalq şairi Səməd Vurğunun lirik şeirlərinin əsas məğzi haqqında öz fikirlərini söyləyir, onun lirikasının təşəkkül yolunu təhlil edir, şəxsiyyət və lirik qəhrəmanın qarşılıqlı əlaqəsini izləyir, şairin poeziyasının bədii-estetik, fəlsəfi qayəsini açmağa çalışır. Bununla yanaşı, Səməd Vurğunun ədəbi-estetik görüşləri müasirlik problemi baxımından tədqiq olunur. Bütün bu problemlər ciddi polemik müstəvidə, ədəbi-elmi mübahisə və diskussiya zəminində, yeni düşüncə əsasında dəlillərlə izah və şərh edilir...

Əsər şairin poetik irsi ilə maraqlanan oxucu kütləsi, ədəbiyyatşünaslar, tənqidçilər, ali məktəblərin müəllim və tələbələri üçün nəzərdə tutulur.

**4603000000**
**B -------------------- 65 – 84**
**M – 655 – 84**

**S – "Elm" nəşriyyatı - 1986**

## BİR NEÇƏ SÖZ

Azərbaycan sovet ədəbiyyatının klassiklərindən biri olan Səməd Vurğun çox zəngin bir ədəbi irs qoyub getmişdir. Sovet ədəbiyyatının və ədəbiyyatşünaslığının ən görkəmli nümayəndələri, tədqiqatçıları, tənqidçiləri onun qüdrətli poeziyasının, böyük ictimai məzmunlu dramaturgiyasının, dərin elmi-nəzəri əsaslı ədəbi-estetik görüşlərinin fövqəladə təsir gücündən, aktuallığından yazmış, yaradıcılığının müxtəlif problemlərinə qiymətli tədqiqatlar, monoqrafiyalar həsr etmişlər.

"Lirik qəhrəman və zaman" əsəri də belə tədqiqatlardan biridir. Bu əsərin dissertasiya (elmi rəhbəri akademik Kamal Talıbzadə) variantı ilə də, rəsmi birinci opponenti kimi tanışam.

Monoqrafiyanın müəllifi Qurban Bayramov Səməd Vurğun irsi tədqiqatçılarının son nəslinə mənsubdur. Gənc müəllif Səməd Vurğun haqqında yazılan məqalələri, monoqrafiyaları, bu və ya digər münasibətlə deyilən fikirləri diqqətlə öyrənmiş, onlara öz münasibətini bildirmiş və sovet ədəbiyyatşünaslığının son nailiyyətlərindən səmərəli bəhrələnərək böyük sovet şairinin lirikasını tədqiq etmişdir.

Problemin nəzəri məsələlərini kifayət qədər öyrənməsi və mənimsəməsi konkret təhlillərdə müəllifə çox kömək etmiş və şairin lirikası haqqında əvvəllər çox yazılsa da, bu əsərdə Səməd Vurğun lirikasına və həmçinin lirik qəhrəman probleminə yeni, təzə baxış özünü göstərmişdir.

Monoqrafiyada Səməd Vurğun şerində lirik qəhrəmanın inkişafında, kamilləşməsində və bu lirik qəhrəmanın psixologiyasının formalaşmasında obyektiv və subyektiv amillərlə əlaqədar üç mərhələ ayrılır:

a) şairin ilk qələm təcrübələrində, xüsusən məhəbbət lirikasında daha çox özünü ifadə mərhələsi (20-ci illərin birinci yarısı);

b) gerçəkliyi dərketmə qabiliyyətinin püxtələşməsi mərhələsi (20-ci illərin ikinci yarısı və 30-cu illərin əvvəlləri);

c) inqilabi varlığı, inqilabi keçmişi, həmçinin müasirliyi geniş, vüsətli şəkildə dərk etməsi və şeirdə lirik qəhrəmanın ideal qəhrəman təbiətini kəsb etməsi mərhələsi ki, bu şairin sonrakı bütün yaradıcılığını əhatə edir.

Belə bir mərhələli bölgü, nəinki Səməd Vurğunun lirikası, ümumiyyətlə, şairin ideya-bədii yüksəlişi haqqında dürüst elmi təsəvvür yarada bilir.

Bir mühüm cəhəti, xüsusən, qeyd etmək istərdim, bu da gənc tədqiqatçı Qurban Bayramovun cəsarətli polemika mədəniyyətidir. Geniş və zəngin erudisiyaya malik olan, ədəbiyyatımızın keçdiyi tarixi inkişaf yolunu yaxşı bilən, xüsu silə həssas və incə poetik duyumu ilə seçilən tədqiqatçı monoqraf iya boyu müəyyən problemlərlə əlaqədar olaraq çox zəngin bə dii materialdan istifadə etməklə yanaşı, çox hallarda həmin pro blemə dair yazılan əsərlərin (onların müəlliflərinin nüfuzundan, titulundan asılı olmayaraq) istisnasız olaraq hər biri ilə qızğın polemikaya girir, öz qənaətlərini məntiqi şəkildə xüsusi prinsipiallıqla, ən başlıcası, elmi və poetik faktlarla sübuta yetirir.

O, lirik janrın təbitəinin mühüm xüsusiyyətlərinə, lirik qəhrəman problematikasına aydınlıq gətirmək üçün təkcə tanınmış Azərbaycan ədəbiyyatşünasları ilə deyil, ittifaq miqyasında məşhur olan – O.Berqqolts, İ.Qrinberq, N. Qribaçov, S.Smirnov, B.Runin, B.O.Korman, B.Tomaşevski, V.Nazarenko, Z.Papernıy, L.İ.Timofeyev, Al.Mixaylov, Yu.Smelyakov, E.V.Yermolova, V.V.Kojinov, T.Silman və bu kimi rus ədəbiyyatşünasları və alimləri, sənətkarları ilə çəkinmədən, heç nədən sərf-nəzər etmədən polemikaya girir, inandırıcı arqumentlərlə öz tezislərini irəli sürür...

Sosioloji təhlillərdə isə Səməd Vurğun yaradıcılığında beynəlmiləlçilik, sovet vətənpərvərliyi, xəlqilik və partiyalılıq məsələlərinə xüsusi diqqət verilir. Sovet şairinin poeziyası insanlıq və tərəqqi poeziyası, qalib sosializm poeziyası yeni həyat, yeni cəmiyyət quran insanların poeziyası, xalqlar qardaşlığı poeziyası, qəhrəmanlıq ənənələri poeziyası, fəlsəfi nikbinliklə zəngin, mənəvi kamilliyə qovuşan və komunnizmə doğru gedən yolların poeziyası kimi qiymətləndirilir.

Şairin sənətkarlıq xüsusiyyətləri araşdırılarkən onun klassik poetik formalara gətirdiyi yeniliklər, bunun kökləri və səbəbləri bir sənətkar kimi onun ideya-estetik və bədii məzmun cəhətdən orijinallığı, klassik irsə yaradıcı münasibəti müəyyənləşdirilir və beləliklə də sosioloji təhlillə bədii təhlil bir-birini tamamlayır.

Monoqrafiyada elmi mülahizələr, mübahisələr inandırıcıdır. Müəllif təhlillərini çoxmillətli sovet ədəbiyyatının problemləri ilə əlaqələndirir, müqayisələr aparır və maraqlı müşahidələr edir. Şairin müasirləri, xüsusən B.Mayakovski, S.Rüstəm, S.Yesenin, M.Müşfiq lirikası ilə aparılan paralellər müəllifin fikirlərinə aydınlıq gətirir.

Tədqiqatçının Səməd Vurğuna aid arxiv materialları ilə yaxından tanış olması da yaxşı nəticələr vermiş, şairin bir sıra məlum olmayan şeirləri təhlilə cəlb edilmiş, əksər şeirlərin ilk variantı götürülmüş, şairin bir sıra poemalarından ibarət olan "Azərbaycan" epopeyası adlanan əsərini necə planlaşdırdığı müəyyənləşdirilmişdir.

Monoqrafiyada Səməd Vurğunun bir sıra ədəbi-nəzəri fikirləri – sovet ədəbiyyatında romantika, fəlsəfi lirika, lirikanın təbiəti, mövzusu, forması, məzmunu və s. təhlil edilir, bu isə, şairin nəzəri fikirləri ilə ədəbi təcrübəsi arasındakı vəh-dəti aydınlaşdırmağa imkan verir.

Ümumiyyətlə, Qurban Bayramov "Lirik qəhrəman və zaman" əsərində çoxmillətli sovet şeirinin ən görkəmli yara-

dıcılarından biri olan Səməd Vurğunun lirik qəhrəmanı, onun şair obrazı, şair şəxsiyyəti haqqında faydalı və yeni elmi təsəvvür yarada bilmişdir. Bu kitab qüdrətli sənətkarın 80 illik yubileyi ərəfəsində Vurğun poeziyasının pərəstişkarlarına layiqli bir töhfədir.

**Akademik Məmməd Cəfər,**

**1986.**

***Əzizimiz Qarabağın loğmanı Soltan həkim Bayramovun əbədi xatirəsinə ithaf edirəm...***

## GİRİŞ

Bəşər zəkasının inkişaf prosesində, insanın mənəvi aləminin zənginləşməsində, bədii sözün qüdrəti məlumdur. Həmçinin "İstedadla yazılan ədəbiyyat və ya incəsənət əsəri milli sərvətdir. Bədii söz müasirləri ruhlandırır və nəslimiz haqqında, dövrümüz, onun həyəcanları və xarakterləri, xariqələri haqqında ürək və qəlb xatirəsini nəsillərdən-nəsillərə ötürür" (4, 88).

Sovet ədəbiyyatı tarixində bu cür qüdrətli bədii sözə malik, milli sərvətimizin ən seçmə incilərini yaradan sənətkarlardan biri də Səməd Vurğundur.

Vüsətli poeziyası ilə çoxmillətli sovet xalqlarının sevimli sənətkarı olan (97) S.Vurğunun yaradıcılığı Azərbaycan sovet dövrü poeziyasının təşəkkülü və inkişafı tarixi ilə qırılmaz surətdə bağlıdır. Görkəmli ədəbiyyatşünas M.Arif yazmışdır ki, S.Vurğun "elə yazıçılardandır ki, onların yaradıcılıq yolunu nəzərdən keçirdikdə, biz eyni zamanda, sovet ədəbiyyatının özünün inkişaf yolunu nəzərdən keçirmiş oluruq" (20, 3). Bu mənada, Səməd Vurğun yaradıcılığını ədəbiyyatşünaslığın müasir nəzəri problemləri yönümündən tədqiq etməyin özü, bir növ həmin dövrün ədəbiyyatının ümumi inkişaf qanunauyğunluğuna nəzər salmaq deməkdir. S.Vurğun çoxmillətli sovet ədəbiyyatının mühüm qolu olan müasir Azərbaycan ədəbiyyatının banilərindən biri olduğu kimi, ümumən sovet poeziyasının da, qüdrətli klassiklərindən biridir. Onun poeziyası öz ideya-estetik vüsətinə,

fəlsəfi-romantik keyfiyyətlərinə görə bütün poeziyamızın təkrarolunmaz hadisəsidir...

S.Vurğun yaradıcılığı dərin, orijinal realist-romantik keyfiyyətləri, poetik çalarları ilə də milli poeziyamız tarixində yeni hadisədir. Bu onun poeziyasının yalnız ictimai-siyasi, fikri-fəlsəfi məzmunu ilə deyil, həm də özünəməxsus bədii-estetik dəyəri, sənətkarlıq məziyyətləri, novatorluğu ilə şərtləşir. Məhz buna görə şairin yaradıcılıq yolu həmişə tədqiqatçıların diqqət mərkəzində olmuş və bundan sonra da onun bu və ya digər tərəfləri ədəbiyyatşünaslığın müasir, aktual problemləri baxımından öyrəniləcəkdir.

Məlum olduğu kimi, ədəbiyyatşünaslıqda sovet dövrü klassikası haqqında ayrıca tədqiqat sistemi, tədqiqat istiqaməti və ya tədqiqat tipi mövcuddur. S.Vurğun da yaradıcılığı bu cür ardıcıl və sistemli öyrənilən klassiklərindəndir. Belə demək mümkünsə, 20-ci illərdən bu yana Azərbaycan poeziyasına həsr olunmuş elə bir məqalə və əsər yoxdur ki, orada müəyyən dərəcədə S.Vurğun əsərlərinə toxunulmasın, şairin çoxcəhətli ədəbi fəaliyyətinin ayrı-ayrı sahələrindən bəhs olunmasın (22; 16; 123). XX əsrin əllinci illərindən etibarən isə S.Vurğun yardıcılığının geniş monoqrafik tədqiqi mərhələsi başlanır. Vaxtaşırı şairin həyat və yardıcılıq yolu barədə tədqiqat əsərləri yaranır...

S.Vurğun yaradıcılığının inkişaf mərhələlərinin izah və şərhinə şairin fəal araşdırıcıları kimi tanınan Bəxtiyar Vahabzadə (28), Həbib Babayev (122) və Cəlal Abdullayevin (5) əsərlərində müəyyən yer verildiyindən və xüsusən, son iki əsərdə şairin yaradıcılığının tədqiqi tarixi nisbətən, daha ətraflı araşdırıldığından, bir qisminin uyğun elmi qiyməti verildiyindən biz bu məsələyə konkret mövzu mövqeyindən toxunacaq, S.Vurğun poeziyasını təqdim etdiyimiz elmi-nəzəri problemə uyğun şəkildə tədqiq edəcəyik...

S.Vurğuna həsr olunan sanballı əsərlərdən M.Arifin "Səməd Vurğunun dramaturgiyası", V.Vəliyevin "Səməd Vurğunun poemaları", Q.Xəlilovun "Xalq dramı "Vaqif", S.Şükürovun "Səməd Vurğunun "Komsomol poeması", R.Vəkilovun "Səməd Vurğunun ədəbi-tənqidi görüşləri", A.Qurbanovun "Səməd Vurğunun "Vaqif" pyesinin dili və üslubu", F.Vəlixanovanın "Səməd Vurğun poeziyasının rusca tərcüməsi", Z.Həsənovanın "Səməd Vurğun və A.S.Puşkin", F.Mehdiyevin "Səməd Vurğunun publisistikası" kimi tədqiqatlarını göstərmək olar. Bu əsərlərdə böyük şairin ədəbi-bədii irsinin müxtəlif sahə və problemlərinin bilavasitə bu və ya digər cəhəti işıqlandırılmışdır. Lakin S.Vurğun poeziyasının hələ lazımi səviyyədə və miqyasda işıqlandırılmamış problemləri çoxdur. Xüsusilə, onun lirikasının hələ kifayət qədər dərindən və müasir nəzəri-elmi istiqamətdə az öyrənildiyini deməliyik.

"Səməd Vurğun poeziyasında lirik qəhrəman" problemi də belə həllini gözləyən problem və məsələlərdən biridir. Lakin eyni zamanda, qeyd etmək vacibdir ki, adları çəkilən əsərlərin əksəriyyətində və eləcə də H. Hüseynov, Y.Məmmədəliyev, M.C.Cəfərov, A.İsgəndərov, Mir Cəlal, M.Vəkilov, C.Cəfərov, H.Mehdi, Ə.Ağayev, H.Orucəli, H.Əfəndiyev, R.Rza, O.Sarıvəlli, M.Rzaquluzadə, K.Talıbzadə, Q.Qasımzadə, H.Axundov, P.Xəlilov, C.Quliyev, B.Nəbiyev, Ş.Salmanov və başqalarının əsərlərində, məqalələrində, ədəbiyyat tarixi üçün yazdıqları xülasə və oçerklərdə S.Vurğun poeziyasının, xüsusən, lirikasının bu və ya digər cəhətlərindən söhbət açılmış, maraqlı fikir söylənilmiş və müəyyən dərəcədə səmərəli tədqiqat aparılmışdır.

S.Vurğununu yaradıcılığı və şəxsiyyəti haqqında təkcə Azərbaycanda deyil, bütün ittifaq respublikalarında, eləcə də, digər dünya ölkələrində yaşayıb-yaradan bir çox məşhur ədəbiyyatşünas və sənətkarlar, söz bahadırları olduqca dəyərli söz demiş, şairin poetik aləmi, ayrı-ayrı əsərləri və lirikası barədə

əhəmiyyətli, qiymətli fikirlər söyləmişlər. P.Neruda, L.Araqon, Ə.Q.Lahuti, N.Hikmət, A.Fadayev, M.Şoloxov, N.Tixonov, B.Oleynik, M.Tursunzadə, M.Kərim, Q.Qulam, M.Tank, M.Rılski, A.Venslova, A.İsaakyan, Q.Leonidze, K.Kaladze, M.Şaginyan, G.Lomidze, A.Zayonçkovski,Y.Bukov, V.Brande, K.Simonov, V.Oqnev, K.Radevski, G.Karaslavov, M.Aliger, İ.Selvinski, Y.Sudrabkaln, P.Skosrev, A.Veyar, Q.Quliyev, R.Həmzətov, D.Kuqultinov, Ç.Aytmatov və başqalarının adını çəkmək olar. (Ətraflı məlumat üçün bax: 123; 23; 16; 122).

Həmin müəlliflərin söz səltənətinin ustadı olan S.Vurğun haqqında məqalələrini, tədqiqlərini, yazdıqları şeir və poemaları əsasən belə bir ümumi cəhət birləşdirir: S.Vurğun poeziyasının əhatə dairəsinin genişliyi, onun şair şəxsiy- yətinin əzmi, iradəsi, qətiyyəti, böyüklüyü, şerinin sadəliyi, dərinliyi, səmimiyyəti, təbiiliyi, milliliyi və beynəlmiləlliyi, dünyəviliyi, xalqa şair-vətəndaş sədaqəti, Vətənə vurğunluğu, insana inamı... Nizami Gəncəvidən sonra Səməd Vurğun Azərbaycan ədəbiyyatının yeganə planetar şairidir...

Bizim toxunduğumuz mövzunun müasirliyinin mühüm cəhətlərindən biri də ondan ibarətdir ki, ittifaq ədəbiyyatşünaslığında istər klassiklərin, istərsə də müasir şairlərinin poeziyasında “lirik qəhrəman” problemi ardıcıl tədqiq olunmaqdadır. (140; 160; 126; 143; 184).

Azərbaycan poeziyasında isə bu mühüm problem hələ də ətraflı tədqiq olunmamışdır. Bu mövzunu işlərkən qarşımızda duran başlıca elmi məqsəd ədəbiyyatşünaslığı- mızın müasir səviyyəsi baxımından, lirik janr haqqında son illərdə qarşıya çıxan bir sıra məsələlər, nəzəri müddəalar əhatəsində S.Vurğun poeziyasında lirik qəhrəmanın təşəkkülü yolunu izləmək, onun inkişaf mərhələlərini, xarakterik xüsusiyyətlərini göstərmək, lirikasının estetik və bədii-fəlsəfi qayəsini, sosial tərəqqiyə xidmət statusunun mahiyyətini açmağa çalışmaqdır...

Lirik xarakterin şəxsiyyət və lirik qəhrəman qarşılığı əsasında, obyektivlik və subyektivlik nisbətində, emosionallıq və rasioanallıq vəhdətində formalaşması yolunda S.Vurğunun istifadə etdiyi ədəbi-üslubi məqamları, sənətkarlıq xüsusiyyətlərini, lirik mətn mədəniyyətini, ovqat və ritm əlvanlığını, yeniliyini, başqa anlayışla, poetik ritmili lirik təhkiyyənin poetizmini, "səsin poeziyası" deyilən poetik ritmikanı təşkil edən sintaktik təkrar və paralelizmləri, alliterasiya və assonas nümunələrini və fiqurlarını, qafiyə sistemini, yeri gəldikcə, göstərmək, şərh etmək də, bizim tədqiq və təfsir etməyə çalışdığımız mühüm ədəbi-nəzəri, elmi məsələlərdəndir...

Onu da, vurğulayaq ki, bütün bunların cəmində lirik qəhrəman Səməd Vurğunun bir şair kimi mənəvi nüvəsini təşkil edir və yaxud, əksinə, Səməd Vurğunun şair "mən"i və xarakteri, onun poeziyasının lirik qəhrəmanının mənəvi nüvəsini təşkil edir. Bu prosess çalpaşıq-çulğaşıq bir-birini əvəzləyir ki, əsərin birinci fəslində bu problematikanın elmi-nəzəri şərhi öz əksini tapır...

# I FƏSİL

## LİRİK QƏHRƏMAN PROBLEMİ

Lirika bədii ədəbiyyatın əsas növlərindən biridir. Onun öyrənilməsinin tarixi çox qədim dövrlərdən başlayır. Hələ Aristotel lirikanı bədii yaradıcılığın üç növündən biri kimi spesifikasını təyin etmişdir. Aristotelin lirika haqqında konsepsiyası demək olar ki, dəyişməmiş, lakin onu materialist eststika və ədəbiyyat nəzəriyyəsi daha da inkişaf etdirmişdir.

Lirikanın spesifikası və tarixinin tədqiqi sahəsində müasir ədəbiyyatşünaslığın uğurları çox böyükdür və lirika ədəbiyyatşünaslığımızda geniş tədqiq olunmuş, ayrı-ayrı sənətkarların lirik yaradıcılığına əsaslı monoqrafiyalar həsr edilmişdir (Bax: 78; 94; 72; 57; 80; 111; 62; 182; 81; 184; 135). Bu məqalə və monoqrafiyalarda bilavasitə və bilvasitə lirika probleminə toxunulmuş, onun xüsusiyyətləri, meyilləri haqqında maraqlı və orijinal fikirlər irəli sürülmüşdür.

“Lirik qəhrəman” termininə, istilahına isə Azərbaycan ədəbiyyatşünaslığında 60-cı illərdən başlayaraq poeziya haqqında yazılan məqalə və əsərlərdə rast gəlmək mümkündür. Lakin “lirik qəhrəman”a açıq münasibət və mübahisələrə qoşulmaq cəhdini ilk dəfə M.Arifin “Lirika” məqaləsinin yeni işlənmiş variantında görürük (17, 158-176). Bu məqalədə lirik şeirin bir janr, növ kimi spesifik xüsusiyyətləri şərh olunmuş, lirika haqqında tənqid və ədəbiyyatşünaslıqda mövcud olan mubahisəli məsələlərə münasibət ifadəsini tapmışdır. M.Arif “Lirik qəhrəman” anlayışının əhəmiyyətini qeyd edərək, bu termini dəqiq saymışdır.

M.Quluzadənin “Füzulinin lirikası” monoqrafiyasında da “lirik qəhrəman” istilahından geniş istifadə olunur və Füzuli şeirində lirik qəhrəmanın səciyyəvi cəhətləri açılır (57, 193-270-274). Tədqiqatçılardan Ş.Salmanov (90), S.Hüseynova (104),

C.Abdullayev (5) isə monoqrafiyalarında Azərbaycan ədəbiyyatşünaslığında lirik qəhrəman problemi üzrə xüsusi başlıqlar altında fikir söyləmişlər.

S.Hüseynova isə "lirik qəhrəman" problemi ətrafında gedən ümumittifaq mübahisələrinə şərh verməyə çalışmışdır. Müəllifin gəldiyi maraqlı nəticədən biri "lirik qəhrəman" anlayışını poeziyanın səciyyəvi xüsusiyyətlərindən hesab etməsi, onu bütün dövrlərdə və yaradıcılıq metodlarında lirika üçün qanunauyğun saymasıdır (182, 27). Lakin müəllif lirık qəhrəmanın sosial mahiyyətini nəzərə almır. Bizcə, lirik qəhrəman dövrünün, zamanının mütərəqqi xüsusiyyətlərinin, tarixi-ictimai, etik-estetik cəhətlərinin daşıyıcısıdır, başqa sözlə, lirik qəhrəman müsbət idealla şərtlənir. Ona görə də, o, bütün dövrlərdə və müəyyən yaradıcılıq metodlarında ən mütərəqqi sənətkarların yaradıcılıqında özünü göstərə bilir.

"Lirik qəhrəman" ətrafında gedən mübahisələr, polemik söhbətlər dəfələrlə xatırlanmış, bu və ya digər münasibətlə şərh olunmuşdur (160; 140; 164; 129; 171; 177, 84).

Mövzumuz bu problemlə bağlı olduğundan, "lirik qəhrə-man"la əlaqədar mübahisə və tədqiqlərə bir daha qayıtmağı, mübahisələrin bəzi cəhətlərini xatırlamağı, ona öz müna-sibətnmizi, konsepsiyamızı bildirməyi vacib sayırıq...

Mübahisəyə səbəb olan xüsusiyyətlərdən biri lirik poezi-yanın təbiətini müəyyənləşdirmək cəhdi və "özünüifadə" anlayışı problemidir. Bu problem ətrafında mübahisələr əsasən iki xətt üzrə istiqamət alırdı: lirik şeirin yaranmasında yaradıcı şəxsiyyətmi, yoxsa ictimai gerçəklikmi əsasdır? Bunların lirikada qarşılıqlı əlaqəsi necədir, subyektiv xətt aparıcıdır, ya obyektiv amil? Bu əsaslı, mahiyyətli məsələlərin ətrafında gedən geniş elmi söhbətləri, sonralar bəziləri terminoloji mübahisə adlandırsa da, göründüyü kimi, söhbət lirikanın mahiyyətindən, onda gerçəkliyin dərk olunması spesifikasından getmişdir.

Polemika 1946-cı ildə (168, 189), daha sonra isə 1953-cü ildə (147, 60) bütün qızğınlığı ilə baş qaldırdı. Məsələ ondan ibarət idi ki, həmin dövrdə "konfliktsizlik" nəzəriyyəsinin təsiri ilə bir çox zəif şeirlər yazılmışdı. Bu şeirlərdə sünilik, qondarmaçılıq, üslubsuzluq özünü göstərirdi və şair şəxsiyyəti kölgələnirdi. Buna görə də, guya belə "bədnamlıqdan" yaxa qurtarmaq üçün "özünüifadə" ("самовыражение") nəzəriyyəsi lazımdır. Bunu ilkin irəli sürənlərdən biri istedadlı rus şairəsi O.Berqqolts (126) idi. O, belə bir fikir yürüdürdü ki, şair şeirdə özünü ifadə edir, lirik şeirdə qəhrəman "şairin özüdür, öz "mən"indən, özü haqqında söhbət edən şəxsiyyətdir" (125).

Bu tezis ciddi etirazla qarşılandı və lirikanın ictimai-siyasi əhəmiyyəti ön plana çəkildi. Etiraz edənlərdən İ.Qrinberqin, N.Qribaçovun, S.Smirnovun səsləri daha gur, çılğın eşidildi və "özünüifadə" termini dekadentçiliklə əlaqələndirildi. SSRİ Yazıçılarının II Ümumittifaq qurultayında bu münasibətlə A.Fadayev deyirdi: "Lirika haqqındakı mübahisələrə qayıdaraq O. Berqqoltsa məsləhət görərdim ki, "özünüifadə" sözündən əl çəksin, bu söz rusca çox boş səslənir və görünür elə ona görə o zaman bu, dekadentçilər tərəfindən bütün rəngarəngliyi ilə işlədilirdi" (132, 507).

Qurultayda sovet poeziyası haqqında böyük, əhatəli, problem dərinliyinə görə seçilən və hamının diqqətini cəlb edən məruzə ilə çıxış edən S.Vurğun da, bu məsələyə toxunmuşdur. Çıxışına hazırladığı materialları nəzərdən keçirdikdə şairin nitqinə düşməyən, lakin arxivdə saxlanılan xeyli maraqlı faktla qarşılaşdıq. S.Vurğun yazır: "Aydındır ki, şair həyatı vəsf edərək onun qəhrəmanını öz ideya və cəhdi ilə birlikdə vəsf edir... Bir sıra yoldaşlar, xüsusilə Olqa Berqqolts şairin "özünüifadəsini" həddindən çox qiymətləndirirlər. Olqa Berqqolts düz demir ki, simvolistlər və dekadentçilər üçün ifadə etməyə heç bir şey yox idi. Əgər belə idisə, simvolizm və dekadentçilik əleyhinə müba-

rizə lazım gəlməzdi"(11).

Həmin çıxışın stenoqramında oxuyuruq: "Marksist-leninçi idrak nəzəriyyəsi təsdiq edir ki, insan şüurunun bütün formaları, o cümlədən bədii forma da obyektiv gerçəkliyi əks etdirir. Lakin bu o demək deyildir ki, biz obyektiv aləmi təsdiq edərkən böyük və ya kiçik şairlərin subyektiv dünyalarını qiymətləndirmir, yaxud inkar edirik (132, 68). Sonra şair qəti şəkildə bildirir: "Mən, "özü-nüifadə" nəzəriyyəsinin əleyhinəyəm" (35, 347) və bunu S.Vurğunun böyük poetik yardıcılıq yolu da sübut edir ki, qüdrətli şairlər özlərinə qısılıb qala bilməzlər.

"Самовыражение" ifadəsi daşıdığı ideya-estetik mahiyyətə görə dekadent xətti-hərəkətinə uyğun gəlsə də insafən, O. Berqqolts geriyə qayıtmağın tərəfində yox, əsl mahiyyətin aydınlaşdırmağın tərəfində idi. Burada söhbət ideya əyintilərindən yox, mahiyyəti aşkar etmək cəhdindən getməli idi. İ.Qrinberq, N.Qribaçov, S.Smirnov və başqaları isə özlərinin düzgün və prinsipial mövqelərini bəzən mübahisənin çılğınlığı hesabına zəiflədirdilər (142; 139; 118; 138).

Mübahisələrdə elmi-nəzəri ümumiləşdirmələrlə təcrübi şəkildə əsaslandırılmış nəticələr diqqəti daha çox cəlb edirdi. Burada tipikləşdirməni lirikada əsas tutur və geniş şərh edirdilər. Mubahisələrin isti nəfəsi üzləri qarsıdığı zamanda İ.L.Qrinberqin "Lirik poeziya" kitabı çapdan çıxır və orada biz müəllifin lirik qəhrəman problemini sovet poeziyasının zəngin təçrübəsi əsasında öyrənməyə təşəbbüs göstərdiyini görürük. Kitabın dordüncü fəsli "Lirik xarakter" adlanır ki, bu "lirik qəhrəman" probleminə həsr olunmuş ilk monoqrafik fəsil kimi və lirikada xarakterin formalaşması yolunu izlədiyi üçün əhəmiyyətlidir. Burada əsasən nəsr və dramatik əsərlərdə obraz, xarakter, qəhrəman yaratma prinsipləri ilə lirikada bunların yaranma üsulu analoji şəkildə müqayisə edilir və heç də lirik və epik əsərlərin arasında bərabərlik işarəsi qoyulmur. Bu cür analogiya aydınlıq xatirinə

aparılır. İ.Qrinberq "lirik qəhrəmanı" poeziyada həyatın məzmununun açılmasında əsas vasitələrdən biri hesab edir və haqlı olaraq belə bir nəticəyə gəlir ki, "Lirik qəhrəman obrazı heç də hər bir şeirdə və həmçinin müasir şairlərin hamısını yaradıçılığında olmur" (140, 139-148).[1]

Bu tezis özünü sonralar doğrultsa da, təəssüf ki, hələ indi də müəyyən bir şairdən və ya şeirdən danışanda yerli-yersiz "lirik qəhrəman" anlayışını tez-tez işlədirlər

Yenə mübahisələrə qayıdaq. Artıq xeyli müddət keçəndən sonra B.Runin "özünüifadə" konsepsiyasını xatırlatdı və əsasən "özünüşərh"i lirikada tipikləşmənin yeganə vasitəsi saydı (171, 202).

Onun ardınca bu mövzu ətrafında yenidən mübahisələr başlandı və hətta "Literaturnaya qazeta" diskussiya açdı. B.Tomaşevski lirik qəhrəmanı "Ədəbiyyatşünaslıqda kabus" (179), V.Nazarenko isə "ədəbi qalıq" ("литературный пережиток") adlandırdı (161). Bunlara qarşı isə Z.Papernin (164) və L.Timofeyev kimi sovet lirikasının mötəbər tədqiqatçılarının qəti və əsaslandırılmış mülahizələri meydana çıxdı...

L.Timofeyev aydınlıq xatirinə lirikanı yenə də epik əsərlərlə müqayisə edərək yazırdı: "Lirika bir ədəbi növ kimi epos və drama bərabərdir və biz eyni estetik qiymət və təhlil kriteriyasını ona da tətbiq etməyə borcluyuq, yəni lirik şeirdə tipik xarakteri görməliyik və lirikaya onun daşıyıcısı olduğu ictimai ideal səviyyəsindən yanaşmalıyıq" (177).

Sənətkar bədii özünüdərk prosesində gerçəkliklə həmişə təmasda olur və belə qarşılıqlı əlaqə lirikaya da xasdır. Lirik əsərdə mənimsənilən, canlandırılan dünya, gerçəklik şair "mən"i, şəxsiyyəti vasitəsilə təqdim olunur. Buradan da lirikada konkret, fərdi insan tipindən, obrazından danışmaq imkanı meydana çıxır.

[1] Kitab 1955-ci ilin fevralında çapa imzalanıb, deməli əsər 1954-cü ildə – mübahisələrin ən qızğın dövründə yaranıb.

Başqa sözlə desək, lirik xarakter tipikləşdirilmiş xarakteri özündə təmsil edir. Lirik xarakterdə zamanın mahiyyəti, mənəvi-sosial təcrübəsi mərkəzləşir. Lirik xarakter də tipik xarakterdir, lakin ən müsbət cizgiləri özündə cəmləşdirən xarakterdir.

İ.Bexer öz poetik prinsipini müəyyənləşdirərkən yazırdı: “Lirik şair özünü ifadə edərkən öz əsərinin problemlərini ifadə etmiş olur, belə ki, bu “öz”, “şair şəxsiyyəti” xarakter yaratmalıdır. Elə bir xarakter ki, əsri təqdim etmiş olsun, dövrün yeni poetik obrazı olsun” (127, 334).

Lakin burada məsələnin mühüm bir aspektini nəzərə almaq lazımdır ki, fərdiyyətlə, şəxsiyyətlə cəmiyyət qarşılığının ümumi və xüsusi tərəflərinin izahında dəqiqlik, riyazi cavab qorxuludur, yəni bu iki qarşılıq arasına sədd çəkmək yox, birini digərinin tərkib hissəsi kimi qəbul etmək daha doğru, səmərəli yoldur.

Buna görə də, mübahisələrdə bu iki qarşılığın subyektlə obyektin qarşılığının vəhdətini qəbul edənlər daha inandırıcı nəticələrə gəlmişlər. Bizcə, subyekt-şair cəmiyyətdən ayrı bir fərd deyil, onun tərkib hissəsi, fəal bir üzvüdür. Sənətkar gerçəkliyə münasibətdə öz həssaslığı ilə başqalarından fərqlənir və gerçəkliyin müxtəlif cəhətlərini daha dəqiq şəkildə mənimsəyir. İstedadın səviyyəsi isə gerçəkliyə münasibətin səviyyəsi ilə ölçülür. Al. Mixaylov yazırdı: “Lirik qəhrəman, eyni zamanda, həm tipik xarakterdir, həm də parlaq fərdiyyətdir (159, 68). “Parlaq fərdiyyətdir” dedikdə isə, Al. Mixaylov bunu nəzərdə tutur ki, lirik qəhrəmanın xarakterində “şairin həyatı və mənəvi təcrübəsi, onun dünyagörüşü və dünyanı dərki (ən başlıca mahiyyətlər) mərkəzləşərək əks olunur” (159, 64). Al. Mixaylovun bir fikri də əsaslıdır ki, “şairin ideya-estetik və yaradıcılıq yolunun təşəkkülü lirik xarakterin və qəhrəmanın təşəkkülü yoluna uyğundur” (159, 84). Müəllif “lirik xarakter” və “lirik qəhrəman” anlayışlarını müvazi işlədir və Y.Smelyakovun yaradıcılığından danışanda lirik qəhrəmanın təşəkkülünü müxtəlif

dövrlərə, ayrı-ayrı inkişafdaxili təkmilləşmə mərhələlərinə bölür.

Lakin o, bəzən ayrı-ayrı şerlərdə obrazın müəyyən şəraitdə baş verən psixoloji vəziyyətini, xarakterin müəyyən cizgilərini lirik qəhrəmanın adına çıxır. Burada isə (söhbət Y.Smelyakovun "Briqadirin ölümü" şeirindən gedir) lirik qəhrəmanın tipik xarakterinin müəyyən cizgisi, xasiyyəti vardır. Məhz belə müxtəlif xasiyyətlər, vəziyyətlər, xarakterlər vəhdəti lirik qəhrəmanı yaradır, yəni ayrı-ayrı şeirlərdə, lirik qəhrəmanın xarakterinin yalnız bir cəhəti, bir tərəfi, cizgisi, halı, arzusu, hissi əks olunur, onun əxlaqi-mənəvi simasının bir cəhəti öz ifadəsini tapır. Ona görə də biz ayrı-ayrı lirik əsərlərdən, şeirlərdən söhbət açarkən "lirik xarakter" anlayışından istifadə etməyi daha doğru yol sayırıq...

Al. Mixaylov isə əksər vaxtlar lirik qəhrəmanı səciyyələndirmək üçün qeydsiz-şərtsiz epik poemalara müraciət edir. Ancaq muəllif epik əsərdə olan "müəllif obrazı" ilə lirik qəhrəman obrazının yerini bəzən müəyyənləşdirmir və onları eyniləşdirir. Çox vaxt epik bir obraza, məsələn, Vasili Tyorkinə aid olan xüsusiyyətlər, xarakterik cəhətlər lirik qəhrəmana aid edilir. Halbuki, epik əsərin qəhrəmanı şəxslidir. Lirik qəhrəman isə daha çox şəxssiz – ümumi qəhrəmandır. O, müəyyən bir zümrəyə məxsus olan və həmin zümrənin hər bir nəfərində tapıla bilən müsbət, aparıcı, ideal xarakterə malikdir. Bizcə, lirik qəhrəman, şairin həyatdan aldığı, həmçinin həyatda, ictimai fikirdə görmək istədiyi idealın daşıyıcısıdır və nümunədir.

Lirik qəhrəmanın bütöv xarakterini heç bir şəxsdə bütünlükdə tapmaq mümkün deyildir. Onun müəyyən prototipi yoxdur, çoxlu "prototipləri" mövcuddur. İctimai varlıqdan ona gələn yüksək etik-estetik, ictimai, siyasi keyfiyyətlərin çox mürəkkəb müsbət çalarları onda mərkəzləşmişdir. Lirik qəhrəman insanlığın ən yaxşı, seçmə cəhətlərini, xarakterlərini, xüsusiyyətlərini özündə

cəmləşdirən lirik poeziyanın bədii obrazıdır, baş qəhrəmandır və tipoloji şəkildə müxtəlif sənətkarların yaradıcılığında onun uyğun gələn cəhətləri varsa da, hər bir sənətkarın subyektiv aləminə yaxın şəkildə orijinaldır, ayrıdır, xüsusidir.

Beləliklə, aydın olur ki, lirik qəhrəman özünün bütün fərdi, bioqrafik, xarakterik cizgilərindən şairlə yanaşı, ictimai zümrənin əksəriyyətində olan musbət mənəvi-sosial cizgiləri özündə cəmləşdirir. Al. Mixaylov yazır: “Demokratik poeziyanın lirik qəhrəmanı şairin baxışlarının sadəcə ruporu deyildir, həmçinin də həmişə lirik qəhrəmanın və şairnn baxışları eyniyyət təşkil etmir. Burada adı çəkilən və çəkilməyən bütün proqressiv şairlərin lirik qəhrəmanı, hər şeydən əvvəl, tipik ictimai xarakterdir (159, 19). O, öz epoxasının qabaqcıl ideyaları bayraqdarıdır... Belə ki, lirik qəhrəman şairin şəxsi təcrübəsi səviyyəsinə uyğun ictimai gerçəkliyin ən mahiyyətli tərəflərini özündə cəmləşdirən, obyektivləşdirilmiş tipik obrazdır. O, mütərəqqi poeziyada müsbət qayənin daşıyıcısı kimi çıxış edir və lirik qəhrəmanın təşəkkülü şairin yaradıcılığının təşəkkülü ilə bağlı olduğu, kimi əsrin, dövrün ictimai-siyasi və tarixi hadisələrin təşəkkülü ilə də çox sıx şəkildə şərtlənir.

Al. Mixaylov “lirik xarakter” anlayışını “lirik qəhrəman” anlayışının sinonimi kimi işlətsə də və bu barədə onunla mübahisəyə imkan olsa da, eyni zamanda onunla belə bir mülahizədə həmrəy olmaq mümkündür ki, lirik qəhrəman bir şerdə və poemada deyil, “şairin böyük yaradıcılığı ilə dərindən tanış olduqdan sonra göz önündə canlanır” (159, 140).

70-ci illərdə çıxan bir məqalələr məcmuəsində isə tədqiqatçı E.V.Yermilova sanki bu qədər aydın həqiqətdən və elmi nəticələrdən sərf-nəzər edir və “Lirik “mən” və “şair” başlığı altında çıxış edərək, yenidən köhnə məsələləri təzələməyə çalışaraq göstərir ki, “biz lirik “mən” termini üstün tuturuq...” (145, 363)

Elə buradaca V.V.Kojinovun E.V.Yermilova ilə eyni kitabda dərc olunan məqaləsindəki fikri xatırlatsaq məsələyə aydınlıq gələr: "..hər bir lirik əsərdə eyni vaxtda müasir dünyanın obrazı da vardır" (153, 235). Lakin E.V.Yermilovanın "lirik qəhrəman" istilahına qarşı etirazına baxmayaraq, o yenə də bunsuz keçinə bilmir, belə ki, bəzən o, öz mövqeyindən sanki imtina etmiş olur və bu termindən istifadə edir (145, 265-371-378). E.V.Yermilovanın fikrincə, "lirik mən" eyni zamanda şairin özüdür, onun şərti lirik əvəzedicisi deyildir, həm də ondan ayrılıb təqdim olunan empirik insan da deyildir, müəyyən səbəblərə görə (bu səbəblər aydınlaşmır –Q.B.) ona uyğun olmayan poetik şəxsiyyətdir" (145, 366). Bəs elə isə ona uyğun olmayan bu poetik şəxsiyyətə nə ad qoyaq?

Müəllifin tezisində yeganə düzgün sezmə ondan ibarətdir ki, lirik şairlərin bir qismində və bizə görə, əsasən ilkin şeirlərdə şair ümumiləşdirmə bacarığının və təcrübə azlığının nəticəsi olaraq öz intim hisslərinə uyğun çıxış edir və bu lirik "mən" obrazında ifadəsini tapır. Bu proses heç də bütün yaradıcılıq xəttinə uyğun deyil və nisbi xarakter daşıyır. Yəni, müəllifin dediyi kimi, "mən" konkret obraza çevrilir "müəllifin obrazına" ("образ автора"). Sonra, Yermilova qeyd edir ki: "Ancaq bu cür müəllif obrazına görə bir çox tədqiqatçılar (Y.Tınyanov, L.Ginzburq və b.) "lirik qəhrəman" anlayışını qoruyub saxlamaq istəyirlər (145, 366).

Niyə də belə olmasın? Əgər müəllif "mən"i müəyyən məqamlarda konkret obraza çerilirsə (bu çox vaxt yaradıçılığın sonrakı mərhələrində belə olur) yəni ondan uzaqlaşırsa, bu obraz niyə "lirik qəhrəman" adlanmasın?[1]

Lirik "mən" anlayışına münasibətdə ədəbiyyatşünas T.Silmanın irəli sürdüyü mülahizələr bizə daha maraqlı görünür. Müəllif lirik şerdə "mən", "o", "sən", "biz", "siz", "onlar"

[1] Bu anlayış – "lirik qəhrəman" anlayışı əvvəllər də işlədilmişdir. Bax: (181, 513)

əvəzliklərini sintaktik-stilistik xüsusiyyət kimi aydınlaşdırır. (174, 86). Müəllif yazır: "Lirik şeirin mərkəzində lirik qəhrəman dayanır, belə ki, çox vaxt o ozünü birinci şəxs əvəzliyi yerində verir, ya başqa "mən"ə (lirik "sən"ə və ya "siz"ə) müraciət edir, ya da təbiətə, cəmiyyətə, dünyaya və s. münasibətini bildirir". Sonra xüsusi qeyddə oxuyuruq: "Əgər lirik qəhrəman özünü şəxs əvəzlikləri ilə təqdim etmirsə, bu zaman o nəzərdə tutulur, fikrən təsəvvür edilir" (173, 37).

Beləliklə, şəxs əvəzliklərinə sintaktik-stilistik üsluba əsaslanaraq lirik şeiri xarakterizə etmək, onun təhlilinə səy göstərmək, ifadə formasını xarakter səviyyəsində izaha çalışmaq əlbəttə, səhv nəticəyə gətirib çıxarır.

Lakin bizə elə gəlir ki, lirik "mən" anlayışı da şeirdə üslubi-sintaktik hal olan əvəzliklərin müxtəlif "obrazlar" səviyyəsinə qaldırmaqdan yaranmışdır. "Lirik şairin obrazı" bunu müəyyən mənada əvəz edə bilər. ("образ автора" "образ повествователя" kimi) T.Silman da müəyyən vaxtlar şair, müəllif əvəzinə "lirik mən" anlayışını işlədir (173, 28-29-35-36).

B.O.Korman isə məsələyə bir az başqa cür yanaşır və lirikada müəllif düşüncəsinin əsas ifadə formalarına görə belə bir bölgü aparır: "müəllif", "müəllif-təhkiyyəçi" (автор-повествователь), "lirik qəhrəman" və "rolevoy"[2] lirikanın qəhrəmanları (154, 89). Bunların hamısı isə lirikada müəllif düşüncəsinin ifadə formalarının əsas subyekti adlandırılır. Müəllif obrazının şeirdə "gizli", "örtülü" şəraitdə olmasına işarə edən tədqiqatçının fikri T.Silmanın yuxarıda gətirdiyimiz mülahizəsi ilə təqribən eyniləşir: "Müəllifin mətndə iştirakı (lirik şeirin mətni nəzərdə tutulur – Q.B.) gizli şəraitdə müxtəlif dərəcədə ola bilər. Əsaslı şəkildə isə onu şəxs əvəzliklərinin seçilməsi xarakterizə edir" (154, 89). Deməli, B.O. Korman lirik şeirdə şəxs əvəz-

[2] Bu termini V.O.Korman yaradıb- lirik mətndə müəliif düşüncəsindən fərqli düşüncə daşıyıcısı...

liklərini “müəllif obrazını” (образ автора) əvəz edən, onu ifadə edən vasitə kimi qəbul etmiş olur (Əlavə bax: 157; 135).

Bununla yanaşı, tədqiqatçının lirik qəhrəman obrazı haqqında bir çox maraqlı müşahidələri də vardır. Məsələn, o doğru göstərir: “Lirik qəhrəman – bu həm təsvirin predmeti, həm də nitqin vasitəçisidir: o, təsvir olunan aləmlə oxucu arasında açıq şəkildə dayanır. Lakin müəlliflə (təhkiyəçi ilə) lirik qəhrəman arasındakı ziddiyyət mütləq səciyyə daşımır... Belə ki, müəllif (təhkiyəçi) və lirik qəhrəman, nəinki bir-birindən ayrıdır, hətta öz aralarında əlaqəlidir. Onlar nəinki vahid müəllif şəxsiyyətinin müxtəlif təzahür formasıdırlar... şerin çərçivəsində bir insan kimi birləşə də bilirlər” (154, 93-95).

Belə olduğu halda, görünür, müəyyən hallarda, lirik yaradıcılığın fərdi təşəkkülü yoluna uyğun olaraq lirik “mən”, “lirik xarakter” və “lirik qəhrəman” terminlərindən istifadə olunması daha çox məqsədəuyğundur. Bizə görə, burada əvvəlki iki anlayış “lirik qəhrəman”ın təşəkkülünün ayrı-ayrı pillələridir.

B.O.Kormanın elmi müşahidələrində iki cəhət xüsusilə maraqlıdır. Tədqiqatçı lirik qəhrəman obrazının bir şeirdə deyil, müəyyən silsilə təşkil edən şeirlərdə ortaya çıxdığını təsdiq edir (154, 95-105). İkincisi isə şeirdə lirik xarakterin olduğunu irəli sürür, lakin bunu başqa anlayışla – “əsas emosional ton” anlayışı ilə əlaqələndirir və belə nəticəyə gəlir ki, bu, “insan həyatının daxili sferasının sadəcə olaraq xarakteridir”. Beləliklə, B.O.Korman təqribən L.İ.Timofeyevin gəldiyi nəticəyə yaxınlaşır: “Lirikada “müəllif”, “lirik qəhrəman” və “emosional ton” anlayışları arasındakı münasibət müasir eposda olan “iştirakçılar”, “personaj” və “xarakter” anlayışlarının arasındakı münasibət kimidir” (154, 108).

L.İ.Timofeyev yazır ki, epos və dram əsərlərindən fərqli olaraq, lirikada xarakterin ayrıca bir vəziyyətinin, halının, həyatının nisbətən qurtarmış bir anı təsvir olunur. Görkəmli

nəzəriyyəçi lirik qəhrəman probleminə daha rasional mövqedən yanaşır, onun əməli və nəzəri vacibliyini aydınlaşdıraraq lirikanın əsas mahiyyətini, təbiətini müəyyənləşdirən obyekt və subyekt tərəflərin nisbətini düzgün təyin edir, lirikanın gerçəkliyin bədii gerçəkliyə çevrilməsi prosesində alır və tipikləşdirməni əsas götürür (Bax: 178, 277-280).

Lirik şeirin əsas xüsusiyyətlərinin, mahiyyətinin, gerçəkliyə münasibətinin izahından sonra L.İ.Timofeyev daha konkret nəzəri müddəa irəli sürür: "... bu və ya digər lirikin yaradıcılığında müəyyən tarixi dövrün, bütöv ictimai quruluşun fikir və hissləri elə ümumiləşir ki, ona daxili bütövlük aşılayır. Belə olan təqdirdə insanın həyata münasibəti tipləri haqqında təsəvvür yaradan lirik xarakter, lirik qəhrəman, lirik "mən" barəsində danışmağa haqqımız vardır (178, 279).

Beləliklə, müəllif bu anlayışları lirikada insanın həyata münasibət növləri haqqında təsəvvür yaradan vasitə kimi izah etsə də, "lirik qəhrəman"dan başqa bu anlayışların lirik yaradıcılıqdakı sərhədləri müəyyənləşməmiş qalır. "Lirik qəhrəman" isə yenə də, doğru olaraq, ümumi lirik yaradıcılıq nəticəsində təsəvvürə gələn tipik obraz kimi, həmçinin estetik normaların, idealın daşıyıcısı kimi təqdim olunur.

Belə ki, bizcə, konkret hadisəyə münasibətdə lirik qəhrəmanın xarakterinin ayrı-ayrı tipik cəhəti aşkar olur. Burada xarakter tipik psixoloji vəziyyət əhval-ruhiyyə, hiss, düşüncə kimi nəzərə alınmalıdır. Elə bununla da "lirik xarakter" anlayışı epik əsərlərdə olan "xarakter" anlayışından fərqlənir. Ona görə də ayrı-ayrı şeirləri və ya müəyyən yaradıcılıq yoluna malik olan şairlərin lirik şerlərini təhlil edərkən orada lirik qəhrəmandan yox, onun vəziyyətinin, halının xarakterik psixoloji cəhətindən söhbət açmaq daha doğrudur. Lirik qəhrəman isə monumental, tamamlanmış, bitkin bir obraz oldu-ğundan bizcə o, böyuk istedada malik olan sənətkarların lirik yaradıcılığında özünü boya-boy göstərə bilir.

Elə şairlər də vardır ki, poetik nəfəslərinin aramlığına görə onların yaradıcılığında lirik qəhrəman formalaşa bilmir, yəni ayrı-ayrı şeirlərindəki lirik xarakterlər öz rəngarəngliyi ilə vahidləşə, monumentallaşa bilmir. Buna görə də “lirik qəhrəman” anlayışını səxavətlə, ştampvarı işlətməkdən çəkinmək və müəyyən səviyyə gözləmək üçün, əsil mahiyyəti aşkar etmək xatirinə “lirik xarakter” anlayışı işlətmək məqsədəuyğundur.

L.İ.Timofeyev də “lirik qəhrəmanın xarakteri” ifadəsini tez-tez işlədir ki, (178, 370-374) bu anlayışın ifadə etdiyi məna, fikrimizcə “lirik xarakter” anlayışına çox yaxındır, fərq budur ki, L.İ.Timofeyev, “lirik xarakter” əvəzinə, hiss-obraz” (“образ-переживание”) anlayışını işlədir və onu belə izah edir; “Biz obrazı insan həyatının lövhəsi kimi başa düşürük. Eposda bizim önümüzdəki obraz xarakterdir. Buna uyğun olaraq biz (lirik qəhrəmanın xarakterinin vəziyyətini təyin edən) hiss-obrazdan danışmağa haqlıyıq” (178, 370-374).

Əgər hiss-obraz lirik qəhrəmanın xarakterinin müəyyən əhvali-ruhiyyəsidirsə, deməli, “hiss-obraz” əvəzinə “lirik xarakter” demək daha dəqiq və dürüstdür. Yuxarıdakı fikir də bunu təsdiqləyir. Çünki hiss lirikanın predmetlərindən biridir, obrazın təşəkkül vasitəsidir, psixoloji vəziyyətin bir anıdır, hiss kiməsə aiddir, kiminsə nəyəsə və ya kiməsə münasibətidir. Ayrı-ayrı şeirlərdə və ya elə bəzi bütöv lirik yaradıcılıqda bu “kim” elə lirik xarakterdir – ümumi, aparıcı ədəbi obraz olan lirik qəhrəmanın müəyyən bir anda və ya dövrdə xarakterik, tipik xüsusiyyətlərinin daşıyıcısı olan lirik xarakter.

Buna görə də belə bir nəticəyə gəlirik ki, lirik xarakter gerçəkliyə konkret münasibətdə, konkret şərait daxilində lirik qəhrəmanın keçirdiyi hiss və həyəcanın, psixoloji vəziyyətin tərcümanıdır. Başqa sözlə, ayrı-ayrı şeirlərdə hər dəfə təkrarsız, fərdi olaraq təzahür edən bu xarakterlər getdikcə vahid poetik, estetik, fəlsəfi, ictimai-siyasi yönümdə, axarda birləşərək şəxsiy-

yətin bütöv obrazını yaradır. Bu şəxsiyyətin həyata baxışı, estetik idealı, məqsədi, mənəvi dünyası tam şəkildə göz önündə canlanır ki, belə bir obrazı "lirik qəhrəman" adlandırırıq...

Lirik qəhrəman – lirik yaradıcılığın bütün səciyyəvi, spesifik ideya-mənəvi təcrübəsini, insan konsepsiyasını özündə ümumiləşdirilmiş şəkildə ifadə edən ədəbi obrazdır.

Yaradıcılığın ilk dövründə isə ümumiləşdirmə, tipikləşdirmə və yaradıcılıq təcrübəsi az olduğundan şair ən çox özünə yaxın olur, subyektiv aləmin çərçivəsindən kənara çıxa bilmir. O hələ özü ilə məşğuldur, ancaq özünə qapılmış vəziyyətdədir. Belə bir hal sona qədər qala bilər və ya növbəti mərhələlərdə də özünü göstərər. Bu tipli şeirlərdə isə lirik "mən" anlayışı nisbətən öz yerini tutur, çünki burada lirik şairin "mən"i, onun tərcümeyi-halının ilkin çağlarının faktları əks edilmiş olur. Xarakterik cəhət odur ki, bu mərhələdə şairin şeirində subyektiv tərəf üstün olur. Bir cəhəti qabarıq şəkildə qeyd edək ki, ümumiyyətlə, bu anlayışları işlədərkən lirik yaradıcılıqda obyektiv və subyektiv tərəflərin nisbəti mütləq nəzərə alınmalıdır. Lirik şairin öz subyektiv həyəcanlarını şərh etmək cəhdləri – gerçəkliyin obyektiv qanunlarına–idrak qanunlarına əsaslanaraq, eyni zamanda, obyektiv, ictimai məqsədə – şairin əhatə olunduğu dünyanın qayğı və həyəcanlarına birləşir. Fərdiyyətlə cəmiyyətin, subyektivliklə obyektivliyin birləşməsi, uyğunlaşması, vəhdəti o vaxt baş tutur ki, sənətkarın poetik fikri, duyğusu tarixi inkişaf qanunauyğunluqları ilə üst-üstə düşür, yaxud ona yaxınlaşır, obyektiv reallığı əks etdirmiş olur. Burada emosiyaların da çox böyük rolu vardır. Çünki liriklik emosionallığın çoxçalarlığı deməkdir. Emosiyanın qiyməti onunla ölçülür ki, o, ideyada əks olunan obyektin qiymətin düzgün versin. V.İ.Lenin yazır: "İnsan emosiyalarının iştirakı olmadan heç vaxt həqiqət axtarışı olmamışdır, yoxdur və ola bilməz" (2, 237).

Bu həqiqət axtarışlarında lirik şair – yaradıcı subyekt ra-

sional əsasda həyatın – obyektivliyin ideya emosional əksini, təsvirini verir. (Əlavə bax: 156, 149, 136-148; 144). Başqa sözlə, hansı şeyi ki, şair gerçəklikdən mənimsəyib dərindən duyur, daxilən yaşayır, onu təkmilləşdirərək həyəcan keçirir, o, bunu, bu təkmil şeyi özündən kənar – gerçək aləmdə görmək istəyir, poetik ideal formasında ifadə etməyə çalışır. Beləliklə, onun fikri “obyektlə” rastlaşır, ona nüfuz edir və onda öz aləminin cizgilərini, hüdudlarını tapır, o öz “mən”indən kənara çıxır, yaxud öz “mən”inin hüdudlarını genişləndirir. Bunun nəticəsində şairin poeziyasında qərarlaşan şəxsiyyət lirik qəhrəmanı təmsil edir. Bir növ, lirik qəhrəmanda həm şair var, həm də özgəsi. Bu ikilik birləşərək lirik qəhrəmanı yaradır və ya şairin aləmi, dünyası, həyata baxışı, ideyası lirik qəhrəmanda predmetləşir – subyektivliklə obyektivlik vəhdət əmələ gətirir, yaxud, müxtəlif fərdi yaradıcılıqlarda dominant nisbətdə olurlar. Bu dominantlıq nisbətini nəzərə alaraq biz lirik yaradıcılığın təşəkkülü mərhələlərində lirik “mən”, “lirik xarakter”, “lirik qəhrəman” anlayışlarından istifadə etməyi məqsədəuyğun sayırıq. Bu anlayışlar lirik yaradıcılığın bütün komponentlərini əhatə edərək onların ifadəsinə və izahına bir aydınlıq gətirir və lirik yaradıcılığın tədqiqinə, təhlilinə, izahına elmi istiqamət verir.

Lirika haqqında mühüm nəzəri müddəalardan və S.Vurğun poeziyasının tədqiqi sahəsində təcrübələrdən çıxış edərək biz şairin yaradıcılığında lirik qəhrəman problemini onun poetik dünyabaxışının aktual tərkib problemi kimi öyrənməyin son dərəcə zəruri olduğunu deyə bilərik. Zənnimizcə, bu problemi aydınlaşdırarkən aşağıdakı elmi mövqedən çıxış etmək lazımdır:

1. Lirik yaradıcılıq gerçəkliyə daha çox hissi-emosional baxışdır. Gerçəkliyə hissi münasibətdə şəxsiyyətin – yaradıcının müxtəlif xarakter cizgiləri, psixologiyası, ictimai-etik və estetik görüşünün müəyyən cəhətləri gerçək aləmin çox rəngarəng təza-

hürləri ilə birləşərək və ondan nəşət edərək əks olunur ki, bunun yekunu kimi lirik xarakter formalaşır. Belə ki, şairin mənəvi aləmi – subyekti ilə real gerçəklikdə, obyektiv aləmdə baş verən və baş verə biləcək hadisələrin birləşməsi prosesində lirik xarakter yaranır.

2. Bir və ya bir neçə şeirdə lirik qəhrəman yaranmır. Yəni, ayrı-ayrı şeirlər lirik qəhrəmanın müxtəlif xarakter cizgilərinin təşəkkülu mərhələləridir. Bu xarakter cizgiləri bir axarda toplanaraq, birləşərək vahid ideal surəti – lirik qəhrəmanı meydana çıxarır.

3. Lirik qəhrəmanın təşəkkül yolu yaradıcılığın fərdiliyindən asılı olaraq onun müxtəlif dövrlərilə əlaqədardır və əsasən üç mərhələyə bölünür. Bunun təqribi mənzərəsi qrafik şəkildə belədir




4. Lirik qəhrəman obyektiv gerçəklikdən yaranan ideal qəhrəmandır. Onun xarakter bütövlüyü tam halda heç bir şəxsiyyətdə cəmlənə bilməz. Lakin onun təbiətinin, xarakterinin bu və ya digər xüsusiyyətləri ayrı-ayrı şəxsiyyətlərdə mövcuddur və onların hissi-fikri dünyalarının poetik ifadəsidir. Lirik

qəhrəman şairin obyektiv aləmlə təmasından, onun təşəkkülündə iştirakından əmələ gələn hiss-həyəcanlarının ümumiləşdirici poetik obrazıdır.

Lirik qəhrəman lirik yaradıcılığın yekunudur; o, bu yaradıcılıqda elə bir şəxsiyyət tipidir ki, bu tipdə onun mənsub olduğu dövrün və cəmiyyətin ən yaxşı, qabaqcıl meyilləri mərkəzləşir; psixologiyası mənəvi həyatı, siyasi-sosial baxışları ifadə olunur.

Lirik qəhrəman ahəngdar şəxsiyyətdir. Onda dövrün ideal insan konsepsiyası təcəssümünü tapır. Lirik qəhrəman – millinin və ümumbəşərliyin, milliliyin və beynəlmiləlliyin birliyidir, sintezidir. Onun duyğu və düşüncə tərzində, mühakimə və hissiyyatında, psixologiyasında mənsub olduğu xalqın tarixi və həyatı, keçmişi, bu günü və gələcəyi əksini tapır... Ancaq bununla belə, lirik qəhrəman milli çərçivəyə sığmayan poetik şəxsiyyətdir. O, konkret bir xalqın, millətin bütün bəşəriyyətə müraciət edən mənəvi oğludur.

Lirik qəhrəman qüdrətli şairlərin böyük, misilsiz yaradıcılıq hünəridir...

## II FƏSİL

## LİRİK QƏHRƏMANIN TƏŞƏKKÜL YOLU

***Şairin ilk yaradıcılığı. Şəxsiyyət və lirik qəhrəman. Ədəbi təsir dairəsi və yeniləşməyə doğru inkişaf. Lirikada subyektlə obyektin ziddiyəti. Lirik xarakterin yeni keyfiyyətə keçid axtarışları. Lirikada romantik və realist meyillərin vəhdəti. "Azərbaycan"şeri və lirik qəhrəmanın bitkin bir xarakter kimi təşəkkülünün başa çatması...***

Lirik qəhrəmanın təşəkkül yolunu izləmək, onun yaranması və inkişafını müəyyən etmək bir çox hallarda, xüsusilə, S.Vurğun tipli şairlərin yaradıcılığında sənətkar şəxsiyyəti ilə, mənəvi-fikri yetkinlinklə üst-üstə düşür və bundan asılı olur. Yaradıcı şəxsiyyətin mühiti, o cümlədən, hətta ailə münasibətləri, doğulduğu yerin təbiəti, tərbiyələndiyi şəraiti milli-tarixi amilləri, təhsili onun psixologiyasını formalaşmasına təsir etməklə bərabər, sonrakı illərdə, xüsusilə poetik yaradıcılıqda, lirik qəhrəmanın xarakterində müəyyən, özü də mühüm izlər buraxır. Ciddi müşahidə nəticəsində şahid oluruq ki, S.Vurğun lirik qəhrəmanının bir sıra mühüm xarakter əlamətlərinin başlanğıcı bilavasitə şairin taleyi və həyatı ilə bağlıdır. Başqa sözlə, S.Vurğun elə sənətkarlardandır ki, bir şəxsiyyət tipi kimi onun subyektiv aləmi poetik dünyasının yaranmasında xüsusi əhəmiyyət kəsb etmiş, biri digərini tamamlamışdır.

Səməd Yusif oğlu Vəkilov (Vurğun) 1906-cı il mart ayının 21-də Qazax rayonunun Salahlı kəndində (Qıraq Salahlı) anadan olmuşdur. Şairin uşaqlıq illəri bu kənddə keçmişdir.

"Səməd çox həssas, hər şeylə maraqlanan, kiçik bir hadisədən tez mütəəssir olan, çevik, nadinc, bədəncə zəif, eyni zamanda, cürətli və inadkar bir uşaq idi. O, el aşıqlarını sazlarına,

nəğmələrinə, söylədikləri nağıl və əfsanələrə məftun idi... Onun ilk əzbər bildiyi şeir Vidadinin “Durnalar”ı olmuşdur” (30, XXXIV).

Səməd ilk təhsilini Salahlı kəndindəki beşsinifli rus-tatar (Rus-Azərbaycan – Q.B.) məktəbində almış və rus dilini öyrənməsi ona böyük rus mədəniyyətindən bəhrələnməyə imkan vermişdir. Bunu nəzərdə tutan S.Vurğun sonralar yazırdı: “Mən 8 yaşında kənd məktəbinə daxil oldum. Bizi o zamanlar Azərbaycan və rus dillərində oxudurdular. Mən “Vaqifin və Puşkinin şeirlərinin, xüsusən onun “Буря мглою небо кроет” şeirinin məni necə özlərinə cəlb etdiklərini xatırlayıram” (13).

Onun ürəyi hələ uşaqlıqdan təbiətə, onun füsunkar, ecazkar mənzərələrinə heyranlıq hissləri ilə çırpınmışdı. Oynaq ləpəli Kür, anadil quşlarının qəmli-qəmli ötdüyü Qarayazı meşələri, dinlədiyi saz havaları Səmədin incə ruhda böyüməsinə, həyat hadisələrinə romantik əhvalla yanaşmasına, çılğın temperamentinə daha da təkan vermişdi.

Çox həssas və hər şeylə maraqlanan Səməd yaradıcılığa erkən, Qazax seminariyasında oxuduğu (1918-1924) illərdə başlamışdır. Şairin yaxın dostu Osman Sarıvəlli yazır ki, “Səmədin təxminən 1922-1923-cü illərdə məktəbin “Tələbə əfkarı” adı ilə çıxan divar qəzetinə şeirlər yazdığı bizim yadımızdadır” (91, 5).

Səməd Vurğunun çox erkən yaradıcılığa başlaması mülahizəsinin yəqinliyini onun 1925-ci ildə çap olunmuş “Cavanlara xitab” adlı mətbu şeiri də sübut edir. Çünki həm şeirin o dövr üçün xarakterik, kəsərli siyasi əhvali-ruhiyyəsi, tribun-müraciət forması, həm də gənc Səmədin şeiri çap etdirmək cəsarəti belə nəticə çıxarmağa əsas verir ki, o, buna qədər bir sıra şeirlər yazmış, necə deyərlər, “dar mühitdə”, öz dostları arasında

“şair” adını qazana bilmişdir (48).[1]

Səməd Vurğunun mətbuata ilk dəfə hansı şeirlə gəlməsi faktı da maraqlı olduğu kimi, həm də mübahisəlidir. İndiyə qədər “Cavanlara xitab” şeiri əldə edilmədiyinə görə, şairin ilk mətbu əsəri “Göy göl” (“Gənc işçi” qəzeti, 1926) və ya da “Hazır olunuz” (“Maarif və mədəniyyət” jurnalı, № 7-8, 1927) şeirləri sayılmışdır.[3] Lakin Səməd Vurğunun buna qədər üç şeirinin “Cavanlara xitab”, “Ondan da gözəldir”, “Orada” dərc olunması məlumdur.

Bir cəhət də diqqəti cəlb edir ki, “Yeni fikir” qəzetinin 1925-ci il nömrələrində “Vurğun” imzası ilə yeganə olaraq “Cavanlara xitab” şeiri çap edilmişdir və bu şairin ilk çap şeiridir...

1920-ci ildən komsomol sıralarına daxil olması və komsomolda inqilabi gənclik ehtirası ilə çalışması, öz sözü, sazı və skripkası ilə kəndlərdəki siyasi müsamirələrdə iştirakı Səməd Vurğunun belə bir mövzuya müraciət etməsinə zəmin yaratmışdır. “Cavanlara xitab” şeirində komsomolçu Səmədin başa düşəcəyi şəkildə 20-ci illər gəncliyinin qarşısında duran ictimai-siyasi vəzifələrdən söhbət açılır. Şeirin S. Vurğun yaradıcılığında əhəmiyyəti ondadır ki, o, şairin ədəbi fəaliyyətinin ilk dövrü haqqında nisbətən müəyyən təsəvvür yaradır, daha çox intim şeirlər yazdığı illərdə belə siyasi-ictimai mövzulara güclü meyl etdiyi aydınlaşır. Şeir bədii cəhətdən zəif olsa da, ö siyasi əqidəsinə və vəifəsinə inanan komsomolçu Səmədin həmyaşlarına

---

[1] Burada şeirin 1924-cü ildə ça edildiyi güman edilir. Təəssüf ki, bu mühüm fakt akademnəşrdə ixtisar edilir. Bax: (34, 87)

[2] Bu barədə tədqiqatçıların mübahisəsinə geniş yer verən və S. Vurğunun ilk çap şeirini müəyyənləşdirməyə çalışan F.A.Vəlixonavanın və Həbib Babayevin müşahidələri çox maraqlıdır. Lakin təsadüfən müəlliflər şairin ilk şeirini onun sonralar yazdığı “Cavanlara” şeiri ilə səhv salmışlar. Bax: (122, 131)

[3] “Ondan da gözəldir” şeiri “Şəki fəhləsi” qəzetinin 44-cü №-ə əlavə çıxan “Qızıl qələm” vərəqində №1 (28 iyul, 1927); “Orada” şeiri isə yenə orada, vərəqənin 2-ci nömrəsində, avqust ayında çap olunmuşdur.

müraciəti, poetik formada xitabı kimi çox maraqlıdır:

Çünki tələb edir zəvallı bəşər,
Gərək keçə sizdən ona bir əsər,
Yoxsa qan ağlayar yenə sərbəsər,
Olmaz da dərdinə çarə, cəvanlar[1].

Bu tipli müraciət S.Vurğunun digər müasirlərinə də xasdır. Belə ki, bu səpkili şeirlərdə lirik-psixoloji vəziyyətlər əvəzinə gəncliyə deklorativ xitab üstün idi. S.Rüstəm də gəncliyə müraciətlə yazırdı:

Aç gözlərini, eylə nəzər aləmə, ey gənc,
Çıx, parla və sal düşmənin matəmə, ey gənc.
Çıx pərdədən, ey şanlı qadın, al ələ bayraq,
Səndən gələcək nəsil nicat ummada ancaq! (89,10).

Bu iki şerin biri Qazaxda, ikincisi Bakıda başqa-başqa müəlliflər tərəfindən yazılmasına baxmayaraq motivlərinin uyarlığı və düşüncə tərzinin eyniliyi ilk baxışda nəzərə çarpır ki, bu da həmin illərdəki siyasi-ideoloji həyatın poeziyaya – ədəbiyyata təsirinin xüsusiyyətlərindən irəli gəlirdi.

Ümumiyyətlə, S.Vurğunun yaradıcılığının ilk dövründə maraqlı cəhətlərdən biri də budur ki, "Cavanlara xitab", "Ondan da gözəldir", "Orda", "Hazır olunuz" və bu kimi şeirlərin hamısında hiss ediləçək dərəcədə qabarıq siyasi duyğu, fikir özünü biruzə verməkdədir. Bu onu göstərir ki, S.Vurğun ilk mətbu şeirlərindən başlayaraq dövrün siyasi-ideoloji tələbatına uyğun

[1] Bu şeir ilk dəfə Məmmədşah Atayev tərəfindən 23 mart 1968-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirilmişdir. İlk çapla müqayisədə qüsurlu olduğundan, Qulam Məmmədli tərəfindən oxunan "Yeni fikir" qəzetinin 8 may 1925-ci il nüsxəsi əsas götürüldü.

olaraq (bu məsələdə qardaşı Mehdixan Vəkilov da ona təsir etmişdi) poeziyanın ictimai funksiyasını dərk etməyə və yaradıcılığında bunu göstərməyə çalışırdı...

Əlbəttə, S.Vurğunun həmin dövrdə – 1924-1928-ci illərdə məhəbbətə həsr elədiyi sırf şəxsi məzmunlu şeirləri də olmuşdur. Lakin bu şeirlər şairin sağlığında çap üzü görmədi-
yindən uzun vaxt S.Vurğunun poetik təkamülü bütün spesifik xüsusiyyətləri və çətinlikləri ilə aydınlaşdırılmamışdır.

Səməd Vurğunun bir şair kimi yetişməsində, onun ictimai-şəxsi psixologiyasının açılmasında həmin şeirlərin əhəmiyyətindən bir az sonra danışacağıq. Hələlik isə "Cavanlara xitab" motivli şerlərin yaranmasının və şairin mənəvi inkişafında, onun lirik xarakterinin formalaşmasında əhəmiyyətini daha geniş təsəvvürə gətirmək üçün Səməd Vurğunun "Komsomol mənə nə verdi?" məqaləsinə nəzər salaq: "On dörd yaşım tamam olmamış komsomola daxil olduğum bu gün kimi yadımdadır. Mən o zaman Qazax pedaqoji texnikumunda oxuyurdum. L.Tolstoyun idealist fəlsəfəsi, bizim klassik ədəbiyyatda "Leyli və Məcnun" əfsanəsi, bir də çocuqluğumun son dərəcə pərişan keçməsi məndə xəstə bir təbiət yaratmışdı. Çox zaman tək gəzir, tək düşünür, yalqızlıq aləmindən zövq alırdım. Müxtəlif qara-qura xəyallar, bəzən də daxili iztirablar mənim ən yaxın sirdaşım idi.

Bir müddət ət yemədim ki, heyvanın da canı, qanı var, o da yaşamaq üçün yaranmışdır.[4] Mənə elə gəlirdi ki, bütün fənalıqların səbəbi insandır. Mən cəmiyyətin sinfi ziddiyyətlərini bilmədiyimdən, ətrafımda rast gəldiyim haqsızlıqların səbəbini, onları yaradan istismarçı sinifləri də görməyirdim.

Komsomol bir fanar kimi mənim gözlərimə işıq verdi. O mənə göstərdi ki, insan cəmiyyəti siniflərə bölünür və bütün

[4] Qeyd: Bu əslində, gənc Səməd Vurğuna o dövrdə dəbdə olan "tolstoyçuluğun" təsiri idi... L.N.Tolstoy da, bir müdət vegeteriyan olmuşdur...

ictimai bərabərsizliyi, ağalıq va qulluğu yaradan istismarçı siniflərdir.

O vaxtdan mən yoxsulları sevməyə, zənginlərə isə nifrət etməyə başladım. Vaxt gəlib getdikcə, yuxarıda dediyim bədbinlik də silinib getdi. Yoldaşlıq, kollektiv zəhmət, həyata mümkün qədər kömək vermək mənə də adət oldu” (39)

Göründüyü kimi, Səməd Vurğun gənclik illərində mürəkkəb mənəvi-psixoloji axtarışlar və həyəcanlar keçirmişdir və bu, onun poeziyasına təsirsiz qalmamışdır. Maraqlı budur ki, o vaxtlar təkcə S.Vurğun yox, onun digər müasirləri də bu cür mənəvi hallara məruz qalıblar: Bu cəhətdən S.Rüstəmin özu haqqında etirafı səciyyəvidir. Hələ o zaman şair yazırdı: “Ədəbiyyat cəbhəsinə 23-cü ildə atıldım. Şeirimin ilk gülüşu ağlamaq oldu. İl yarım ağladım, sızladım. Sonralar yavaş-
yavaş rus proletar şairlərinin əsərlərini oxumağa başladım... Artıq şeirim gülümsəməyə başladı. Özüm də komsomol olduğumdan şeirlərimlə komsomol həyatını tərənnümə başladım” (89, 6-7).

Yeri gəlmişkən, deyək ki, S.Vurğunun yaradıcılığının ilk dövrünə aid ziddiyyətlərini təkcə onun psixoloji əhvali-ruhiyyəsi ilə bağlayıb izah etmək də o qədər doğru deyildir. Əlbəttə, muəyyən cəhətdən bu ziddiyətin yaranma səbəblərindən biri gənc şairin ilk mənəvi axtarışları ilə bağlıdır. Lakin bu, subyektiv amildir. Məsələnin obyektiv tərəfini isə biz V.İ.Leninin L.Tolstoy haqqında məşhur tezisi ilə izah edə bilərik: “L.N.Tolstoy rus inqilabının güzgüsüdür!” (3, 340). Yəni, S.Vurğun poeziyasındakı böhranlı məqamlar, intim küskünlük motivləri təkcə uğursuz ilk məhəbbətin nişanəsi deyildi həm də yeni ilə köhnənin dramatik şəkildə üzləşdiyi inqilabi gerçəkliyin şairin qəlbində və şüurunda özunəməxsus inikası idi...

S.Vurğunun ilk yaradıcılığı inqilabi keçid dövrünə təsadüf etdiyindən onun poeziyasındakı ziddiyyətlər bir tərəfdən şairin bədii təfəkkürünün hələlik bitkin şəkildə formalaşmadıqından,

təcrübəsizliyindən irəli gəlirdisə, digər tərəfdən də dövrün-zamanın ziddiyyətli, mürəkkəb xarakterindən irəli gəlirdi.

Maraqlı bir məsələni də, göstərək ki, S.Vurğun istedadı və bacarığı ilə müasirlərinin diqqətini o zamandan – gəncliyindən cəlb edə bilmişdi. “Sənaye ocaqlarında, komsomol, həmkarlar yığıncaqlarında cavan şair və ədiblərin çıxışları təşkil olunardı. Belə ədəbi məclislərdə Vurğunun gur, bakir, yeni, səmimi, cazibəli şair səsi eşidilir, sürətlə yayılırdı” (79). Məhz elə bunun nəticəsi idi ki, cəmi bir neçə şeiri qəzetlərdə çap edilən Səməd Vurğun haqqında 1927-ci ildən başlayaraq məqalə yazılır, söz deyilirdi (Bax: 24; 55).

Göründüyü kimi, 1924 - 28-ci illərdə şairin şeirlərində əsasən iki istiqamət özünü biruzə verirdi: bunlardan birincisi, ictimai-siyasi həyatın, gunün tələbindən doğan mövzularda yazılan, ikincisi isə, əsas etibarilə subyektiv hisslərin, şəxsi kədər və tərəddüdlərin məhsulu kimi yaranan şeirlər idi. Xüsusilə, ilk məhəbbət şeirləri üçün yüksək dərəcədə hissi-emosional gərginlik, ekspressivlik xas idi və şairin bu illərdəki yaradıcılığında ustünlük təşkil edirdi...

Məlumdur ki, Səməd Vurğun gəncliyində çılğıncasına sevmiş, lakin bu məhəbbət uğursuz olmuşdur. Təbiətən sadə və təmiz olan xolerik temperamentə[1] malik Səməd bu uğursuz məhəbbətdən sarsılmış, özünə “Vurğun” təxəllüsu seçərək ülvi, bakirə məhəbbətin iztirablarını qızğınlıqla, romaitik əhvali-ruhiyyə ilə tərənnüm etmişdir.

“Vurğun” təxəllüsünü Səməd bədii obraz kimi götürmüş və

---

[1] Temerament insanın psixi xüsusiyyətlərinin cəmidir ki, onun davranışında aşkar olur və onun orqanizminin fiiki vəiyyətindən asılı olaraq müxtəlif tiplərə bölünür. S. Vurğunun psixikası xolerik temperamentə daha çox uyğun gəlir. Xolerik-yüksək temperamentli insan, energiyalı xarakter, tez həyəcanlanan, hər şeydən qəzəblənən, ya sevinən, hər şeyə qarşı reaksiya verən insan psixikası. Böyük sənətkarların əksəriyyətinin psixikası bu tipə uyğun gəlir. Əlavə məlumat üçün bax: (121, 38-49)

sonralar bu, məna və məzmunca dəyişərək onun yaradıcılığının ümumi ruhunu ifadə edən bir anlayışa, daha doğrusu, estetik ideala çevrilmişdir.

Səməd Vurğun yaradıcılığının ilk illərində bir çox təxəllüsdən istifadə etmişdi ki, bu heç də təsadfi deyildi. Həmin təxəllüs-obrazlar şairin o zamankı ruhi vəziyyətlərin, həyata baxışını əks etməklə yanaşı, müəyyən dərəcədə lirik şairin tərcümeyi-halı üzərinə də güclü işıq salır və bu təxəllüslər bədii obraz səviyyəsində şairin “mən”ni özündə daşıyırdı. Bu təxəllüslər altında yazılan şeirlərin bir qismi böyük şairin ölümündən sonra “Çiçək” (49) kitabında toplanmışdır. Ümumiyyətlə, 50-ci illərin ortalarına qədər S.Vurğunun bu şeirləri çox az adama məlum idi. Buna görə şairin ilk şeirləri haqqında ətraflı mühakimə yürütmək mümkün olmamışdır. İndi əlimizdə olan bu şeirlər və şairin arxivindən əldə etdiyimiz poetik mətnlər S.Vurğun lirikasının təkamülü baxımından çox qiymətlidir.

Şərq poeziyasında söz sənətkarlarının əksəriyyəti təxəllüsə xüsusi maraq göstərmiş, sonradan isə bir çox hallarda özlərinin estetik prinsiplərini ümumiləşdirən bədii obraz kimi ondan istifadə etmişlər. Buna nümunə olaraq göstərə bilərik ki, Şərq klassikasının möhtəşəm nümayəndəsi olan Azərbaycan şairi Əfzələddin Xaqani bu məqamı – təxəllüsün mahiyyətini öz təxəllüsünə münasibətdə belə ümumiləş- dirmişdir:

İstəmirəm adımı çağıralar Xaqani,
Mən yoxsullar şairi, xəlqaniyəm, xəlqani.

Böyük Nizami fəxr ilə özünü “söz mülkünün nizamı” adlandırmışdır. Nəsimi irsinin tədqiqatçıları da “Nəsimi” təxəllüsü ilə şairin ideya-estetik baxışları arasında əlaqə olduğu nəticəsinə gəlmişlər... (Bax: 58)

Şərq və Azərbaycan ədəbiyyatı tarixindən bir çox misallar

gətirmək olar ki, məşhur şairlərin əksəriyyətinin seçdikləri təxəllüs təkcə onların şəxsiyyətini fərqləndirməmiş, yəni sadəcə bir ad, imza əlaməti olmamış, xüsusi ilə böyük şairlərin, həmçinin, bədii yaradıcılıq istiqamətlərinə uyğun olmuşdur. Bu barədə böyük poeziya ustası Füzulinin sözlərini xatırlatmaq yerinə düşərdi: "Şeirə başladığım zamanlar hər gün bir təxəllüs bəyənir, bir müddət sonra eyni təxəllüs işlədən bir şairə rast gəlir və aldığım təxəllüsü dəyişdirirdim... Füzuli təxəllüsünü aldım... həqiqətən, bu təxəllus bir çox cəhətdən tamam mənim istədiyim kimi oldu. Əvvəla, mən özumu ruzigarın yeganəsi görmək istəyirəm. Bunu təxəllüsüm təmin etdi. Fərdiyyətimin əli ortaqlıq əlindən qurtardı. İkincisi, mən bütun ulum və fünunu özündə toplamış bir insan olmaq uçün çalışırdım. Bunu ifadə edən bir təxəllüs tapdım... (101, 21)

Təxəllüs təkcə yaradıcı şəxsiyyətin şərti adı deyil, bir növ, lirik şairin subyektiv aləminin müəyyən əlaməti kimi də başa düşülə bilər. Təxəllüs, necə deyərlər, özünü özündən ayıran, fərqləndirən cəhətlərdən biridir. Təxəllüslər lirik şair tərəfindən əsasən yaradıcılığın ilk illərində qəbul edildiyi üçün onun ilkin və gələcək poetik aləminin bəzi cizgilərini müəyyənləşdirməkdə əhəmiyyətli rol oynayır...

Poetik fəaliyyətin ilk illərində yaradıcılıq psixologiya- sından irəli gələn öz-özünü axtarmaq, ümumi axara düşməmək, həmçinin, özünü poetik fərd kimi fərqləndirmək cəhdləri üstün olur. Bir sıra şairlər ilkin həyatabaxışını, münasibətini, poetik zövqlərini baş obrazla – seçdikləri təxəllüslə ifadə etməyə çalışırlar.

Səməd Vurğunun da təxəllüs seçməsi, öz "mən"ini axtarması yaradıcılıqda belə bir mənəvi vəziyyətin ifadəsidir.

Məktəbdə, seminariyada hamı onu Səməd Vəkilov kimi tanıyıb, ilk şeirlərini də "Səməd Vəkilov" və ya "Səməd Vəkil" imzaları ilə yazıbdır. Bəs, "Vurğun" adı haradan yarandı və niyə

Səməd birdən-birə "Vurğun" oldu, bu adla da məşhurlaşdı?...

Şairin məktəb yoldaşı Möhsüm Poladov xatirələrində deyir: "Səməd ilk şeirlərini yazarkən "Vurğun" təxəllüsünü qəbul etdi. Biz hamımız Səmədə zarafatla: "Kimin vurğunusan?" – deyəndə, açıq-açığına: "Dürrənin" – deyərdi" (88, 183-184).

Yar əlindən yaman şikayətim var,
Məhəbbət uğrunda zəlalətim var.
Söylə bunu yara, əmanətim var,
Vurğun olub bir biçarə, de gəlsin (32, 312).

Bəli, romantik ruhlu, romantik əhvallı Səməd ilk "məhəbbətin zəlalətindən" Vurğun olub. Gənc Səməd munis bir məhəbbətlə, yüksək gənclik ehtirası ilə vurulub, "bir cüt yağı gözlərin" vurğunu kəsilib...

İnsan gözəlliyinə məhəbbətin yaradıcı üçün əhəmiyyətini böyük rus yazıçısı M.Qorki xüsusi qeyd edərək, P.X.Maksimova göndərdiyi məktubunda yazmışdır: "Həyatla, təbiətlə birgə yaşayın və gözəl bir qız haqqında həmişə düşünün ki, o sizdə yüksək yaradıcılıq həvəsi, xoşbəxtlik dolu fikirlər oyatsın və hamımızı gözləyən təhlükəli, qeyri-təmiz həyati təzyiqlərdən qoruya bilsin. Oxuyun, öyrənin və hələ ki, vaxt var yazın. Yazmağa başlayanda isə, əgər olmasa belə, yenə də mütləq onun haqqında düşünün" (172, 171).

S.Vurğunun "dəli-dolu" gənclik çağlarında vurulması, qızğın, odlu bir qəlblə, məhəbbətlə sevməsi yaradıçılığına təsirsiz qalmamışdır; bu sevgi onun mənəvi dünyasını zənginləşdirmiş, poetik talantının səmimiyyət çalarını artırmışdır.

Təmiz və səmimi qəlb sahibi olan gənc şairdə bu dövrdən yüksək məhəbbət idealı formalaşmışdır. "Şikəstəyə məktub" şeiri onun ilk lirik "mən"ini xarakterizə etmək cəhətdən daha maraqlı və mənalıdır.

Mehtixan Vəkilovun qeydinə görə S.Vurğun bu şeiri 1924-cü ildə Qazağın II Şıxlı kəndində müəllim işlədiyi zaman "Şikəstə" imzası ilə Sabiranə şeirlər yazan Şərif Cavadzadə[1] adlı bir müəllim dostuna həsr etmişdir. Şeir axıcı, poetik forma cəhətdən xalq şeirinə yaxındır və S.Vurğunun ilk yaradıcılığının ruhi istiqamətini ifadə etdiyi kimi, onun poetik vərdişləri haqqında da gözəl təsəvvür yaradır. Görünür "Şikəstəyə məktub"a qədər də Səməd Vurğun şeir yazmaqla məşğul olmuşdur[2].

"Olmuşam" rədifi şeirə həzin, intim bir ovqat verməklə yanaşı, eyni zamanda, avtoqrafik cizgilərin ifadəsi üçün real imkan yaradır. Belə ki, bu şeirlər əsasında (ilk şeirləri nəzərdə tutulur – Q.B.) şairin tərcümeyi-halının ilk gənclik dövrünü yazmaq mümkündur" (28, 31) – deyən müəlliflə tamamilə razılaşmaq olar.

İ.Bexer demişkən, "Şair tərəfindən yaradılan bədii obraz təkcə şairin xəyalən və ya gerçəklikdən alaraq yaratdığı deyildir, bu obraz həmçinin onun öz daxilində də var" (128, 37). Bu xüsusiyyət daha çox lirik şairlər uçün səciyyəvidir. Lirikada şairin şəxsiyyəti və mənəvi təcrübəsi heç vaxt kənarda qala bilmir.

Hissi-psixoloji vəziyyətin inkişafı şeirin kompozisiya quruluşunu, söz sırasını poetik məntiqə uyğun şərtləndirir. Birinci misralar obyektə muraciətdir və bunun ardınca lirik "mən"in psixoloji-ruhi vəziyyəti gəlir:

Qəlbdən yaralı, könüldən xəstə,
Nanı zəhər, ruzu fəqan olmuşam (31, 3).

---

[1] S.Vurğun əsərlərinin akademik nəşrinin I cildinə yazılan müqəddimədə bu ad səhv olaraq Şərif Əfəndizadə getmişdir.

[2] Bizim bu gümanımızın doğruluğunu R.H.Tağıyevin "Xalq şairi açılmamış səhifələrdə" (Azərbaycan, 1976, № 6, c. 77-81) məqaləsi də sübut edir. Müəllif "Səməd Vəkilzadə" və "Səməd Vəkil" imzası altında 1924-25-ci ildə. "Yeni fikir" "İşıqlı yol" (Tbilisi), "İştirak" (Batumi), "Kəndli" (Bakı) qəzetlərində çap olunmuş şeirləri oxucuya təqdim etmişdir. Doğrudur, müəllif məqaləsində bu şeirlərin və imzaların Səməd Vurğuna aid olduğunu oxucu üçün hələlik tam sübut edə bilmir və inandırmır, lakin bu, ədəbi fakt kimi maraqlıdır.

Göründüyü kimi, sintaktik quruluş, söz tərkibləri elə seçilib, elə sıralanıbdır ki, ruhi vəziyyətdən söhbət getsə də, o, öz realistik başlanğıcını itirmir. Hətta adi danışığa xas olan xüsusiyyət belə poetik tərkibdə -- təhkiyyədə saxlanılır. Sonrakı bənddə isə bu “qəlbin yaralanmasına”, “könulün xəstələnməsinə” səbəb olan hadisə təsvir olunur, necə deyərlər, sanki hər bənddə doğan bədii sual və ya poetik səbəb sonrakı bənddəki nəticə ilə bitir və yeni bir bədii səbəb doğurur:

Çatandan bəridir on beş yaşıma
Çox bəlalar gəlib qanlı başıma,
Baltalar vurulub ömür daşıma,
Bu eşqin yolunda yaman olmuşam (31, 3).

“Çox bəlalar gəlib qanlı başıma”, “Ömür daşıma baltalar vurulub” və ya “Bu yolda yaman olmuşam” misraları xalq dilində sıx-sıx işlədilən yığcam, tutumlu ifadələrdir. Burada heç bir mücərrədlik yoxdur. Lirik “mən”in real əhvali-ruhiyyəsinin sadə, obrazlı, xalq dilində poetik təqdimidir. Reallıq bu şeirdə üstunlük təşkil edir, emosiya doğurur, lirik “mən”in vəziyyətini konkret təsəvvür etməyə imkan verir.

Bu ilk qələm təcrübələrinin üstün cəhəti onlardakı təbiilik, sadəlik və səmimiyyətdir (28, 25) – deyən, B.Vahabzadə heç də mübaliğəyə yol vermir. Lakin onu qeyd edək ki, B.Vahabzadənin: “Şairin 1928-ci ilə qədər yazdığı şeirlərinin əsas qismi subyektiv hisslərin, şəxsi kədər və tərəddüdlərin ifadəsidir. Bu parçalarda mücərrəd romantika, uğursuz məhəbbətdən doğan şikayət və etiraz, bədbinliklə yanaşı, hələ zəif olsa da, köhnəliyə qarşı üsyan və nikbin xallar da özünü göstərir” (28, 29) fikrində rasional əsas olsa da, onun, həm də 1935-ci ildə A.Musaxanlının S.Vurğun haqqında dediyi “sxolastik Şərq beytşünaslığının təsirinə qapılmaq”

kimi sırf vulqar və elmi həqiqətdən uzaq fikri ilə razılaşmasında (28, 32) isə heç bir rasional əsas görmədik. Hətta “bu dövrdə (1924-30-cu illər nəzərdə tutulur – Q.B.) şairin şəxsi, intim hisslərinə həsr edilmiş şeirlər üstün yer tutub. Bu dövr heç bir xüsusi məziyyətlərə malik deyildir. Düzünü demək lazım gələrsə, əgər şair bu dövrdə onlarca başqa şairlər kimi ədəbiyyatdan əl çəkmiş olsaydı, onun gedişi, demək olar ki, heç bilinməzdi” (59, 441) statik qənaətinə tərəf duranlara “Şairin andı”nı (1930) demirik, təkcə “Çiçək” kitabını təqdim etsək oradakı saf, məcnunanə məhəbbətə həsr olunmuş şeirlərin arxasındakı ictimai motivi, səmimi insani kədəri hiss edə bilərlər. İnsan özü ictimai olduğu kimi, onun səmimi insani kədəri də ictimai motivdədir...

M.Arif şairin ilk şeirlərini layiqincə qiymətləndirməmək təşəbbüslərinə hələ 1944-cü ildə lazımi cavab yazırdı: “Səməd Vurğunun ilk şeirləri də həyatı, təbiəti, vətəni sevmək vəzifəsinə xidmət edirdi O, sanki, gələcək, böyük yaradıcılıq fəaliyyəti üçün möhkəm bir zəmin hazırlayırdı” (8, 357).

İlkin şeirlərində, bir növ, lirik qəhrəmanı əvəz edən poetik “mən” alovlu, səmimi, mənəvi hisslərin daşıyıcısıdır. Bu lirik “mən” məcnunsayağı bir eşqə mübtəladır, lakin o, Vaqifin məhəbbəti kimi həyata bağlıdır:

O, mələk simalım, şahbaz baxışlım,
O, dodağı ballım, ceyran yerişlim,
Həm o, siyah tellim, turac gülüşlüm
Yandırıbdır məni, yanan olmuşam (31, 3).

Lirik “mən” təkcə məhəbbət odu içərisində yanmır, həm də romantikləşdirdiyi məhəbbətə haqq qazandırır. O, gözəllik və ülvilik aləmindədir. S.Vurğun bu ülviliyi, közəlliyi, romantik yüksəkliyə qaldırdığı məhəbbəti ilk şeirlərində özünəməxsus şəkildə əks etdirməyə gücü çatmadığından onu hələlik ənənəvi ob-

razların köməyi ilə ifadə edir. Şairin şeir “dünyası” hələ xalq şeirinin naxışları cazibəsindədir. “Turac gülüşlüm” ifadəsi istisna olunarsa, yerdə qalan obrazlar, təşbehlər, bənzətmələr xalq şeirindən, daha doğrusu, Vaqif şeirindən gəlir, şəkilcə də S.Vurğun hələ Vaqif şeirinin təsiri altındadır. (Bu barədə əlavə bax: 5, 5-22).

Beləliklə, gənc şair böyük səmimiyyətlə, qızğın bir temperamentlə təsəvvür etdiyi məhəbbəti qarşısına adi “Səməd” adı ilə çıxa bilmir. Lirik “mən” bu dövürdə baş poetik obraz rolunda çıxış edən “təxəllüs-obrazda” – “Vurğun”da ifadə olunur. Artıq ülviləşdirdiyi məhəbbət meydanıida o tək deyil, vəzn pozğunluğu olsa da, aşağıdakı parça göstərir ki, onun Vurğun kimi qəmxarı vardır:

Dolanır biçarə divanələr tək
Hər ölkəni, hər diyarı Vurğunun.
Könlüm evidir xəstəxanələr tək,
Axtarır içməyə ağı Vurğunun (32, 309).

Yaxud, aşağıdakı misralara nəzər salaq. Burada S.Vurğunun lirik “mən”i Füzulinin lirikasının qəhrəmanı kimi həyatını ilk sevgidən ayrı təsəvvür etmir[1].

---

[1] Bu cəhətdən Mehdixan Vəkilovun “Mənim qardaşım” xatirə povestinin bir yeri diqqətimizi cəlb etdi. Səmədin ilk dövr məhəbbət lirikasından söhbət açan müəllif yazır: “Səməd Vurğunun çılğın məhəbbətindən doğan ah-zarını ifadə etməkdə öz şeirləri gücsüz imiş kimi, o, hərdənbir Füzuliyə müraciət edər və ahəstəcə oxuyardı:

...Şəbi-hicran yanar canım,
Tökər qan çeşmi-giryanım,
Oyadar xəlqi əfqanım,
Qara bəxtim oyanmazmı? (Azərbaycan, 1976, № 6, s. 92).

Bütün bunlar və seminariya tələbəs Səmədin məktəbin səhnəsində səhnəlişdirilərək tamaşaya qoyulan “Leyli və Məcnun”da Məcnun rolunu dəfələrlə oynaması onu göstərir ki, o lap erkən Füzulinin ecazkar poeziyasının cazibəsində olmuşdur.

Bəlkə bu dünyadan əl üzdüm artıq,
Qoy nə dərd bilənim, nə yarım olsun.
İlk dəfə eşqimi söylədiyim yer
Boranlı bir gündə məzarım olsun (32, 324).

Göründüyü kimi, Vurğunun lirik "mən"i, də Füzuli lirik qəhrəmanına məxsus olan bir hisslə yaşayır, çırpınır. Tədqiqatçı doğru yazır: "Füzulinin tərənnüm etdiyi məhəbbət fədakar məhəbbətdir, orada eqoizm yoxdur, hər şey sevgili üçündur. Bu məhəbbətin əzabı "iztirabı, həsrət və fəryadları ağlasığmaz dərəcədə böyükdür, qüvvətlidir. Bu məhəbbət müsibətlidir, fəlakətlidir, çünki vüsal səadətindən məhrumdur. Burada ah, fəryad, göz yaşı hakimdir" (57, 177).

Eyni xarakteri Vurğunun ilk məhəbbət lirikasının lirik "mən"inə də aid etmək olar. Doğrudur, Füzuli lirik qəhrəman səviyyəsinə qalxmaq üçün S.Vurğunun poetik "mən" hələ böyük, uzun bir daxili təkmilləşmə, mənəvi inkişaf mərhələsi keçməli idi; lakin elə ilk şeirlərində bu qəhrəmanın ayrı-ayrı qüvvətli cizgilərini görmək çətin deyildi və bir növ, Vurğun lirik "mən"i ona oxşamağa çalışırdı.

Maraqlı xüsusiyyətlərdən biri odur ki, S.Vurğunun özü ilə, şəxsiyyəti ilə şeirlərində tanıdığımız poetik "mən"i arasında hiss-həyəcan və bioqrafiya ümumiliyi vardır. Vurğun da, sevgilisinə yetməyən lirik "mən"i kimi hər cövrə razıdır ki, sevgilisini xatırlaya bilsin, xəyalən ona qovuşa bilsin. O, səadəti, "ilk dəfə eşqini söylədiyi yerdə məzara gömülməkdə" görürdü. Bu, eşqin, məhəbbətin. romantik-ülvi, poetik təsdiqidir.

Füzulinin lirik qəhrəmanı öz eşqinə qovuşmaq üçün görün

nə arzulayır:

> Çəkdim yolunda əksini bu cismi-zarımın,
> Bəlkə ayağını öpə bildim nigarımın (101, 36).

Lakin bu aşiq-lirik qəhrəman eyni zamanda dərk edir ki, sevgiliyə qovuşmaq müşkül işdir. Bəs bu müşküllüyü necə həll etməli?

> Üzün xəyalını etmək gözəldir görməkdən,
> Yetər dəxi, səni ey çeşmi-pürnəm istəmirəm (101, 37),

Bəzən, Vurğunun da lirik “mən”i belə edir və məhəbbətə münasibətində Füzuli lirik qəhrəmanına bənzəməyə çalışır:

> İlk dəfə eşqimi söylədiyim yer,
> Boranlı bir gündə məzarım olsun (32, 324).

Budur, Vurğunun lirik “mən”i öz cəfalı və dərdli vəziyyətindən bir anlıq çıxış yolu tapır. Lakin bu, ani olur. Şairin məhəbbət cəfakeşi sevgilisinə xəyalən yox, cismən qovuşmaq istəyir, burada S.Vurğun Füzulidən uzaqlaşır, daha çox Vaqif lirikasının estetikasına yaxınlaşır. O gah sevgilisindən şikayətlənir, gah onun arxasınca yalvarır, gah da hər şeydən cana doyaraq qəzəblənir, üsyan edir. Lirik “mən”in-“Vurğunun” düşdüyü bu psixoloji vəziyyətlərə uyğun olaraq gənc şair poetik təxəllüslərini də dəyişir, gah “Vurğun”luğunda qalır, gah “Düşgün” olur, gah da “Dəli şair”, “Zavallı Vurğun”, “Xəstə Vurğun”, gah da bunların hamısını unudurmuş kimi “Səməd Vəkil” olur, sakitləşir, özünə qayıtmaq istəyir[1].

---

[1] Mehdixan Vəkilov yazır: “Səməd Vurğun 1924-28-ci illər arasında “Səməd Vəkil”, “Küskün”, “S.Vurğun”, “Vurğun Səməd”, nəhayət “Səməd Vurğun” imzaları ilə şeirlər yazırdı” (Azərbaycan, 1976, №6. s. 93). Qoşmalarında və

"Səməd Vurğun" təxəllüsü isə daşıdığı bədii-estetik siqlətinə görə əvvəlkilərdən tamamilə fərqlənir və şairin yaradıcılıq kredosunu daha dolğun ifadə edir. Bu cəhəti S.Vurğun haqqında yazmış bir çox müəlliflər də sezmişlər, onun təxəllusü ilə poeziyası arasında uyğunluq görmüşlər. Rus şairi M.Aliger yazmışdır: "Vurğun" azərbaycanca "aşiq" deməkdir. Bəli, 30 il bundan əvvəl ilk şeiri ilə çıxış edən gənc şair Səməd Vəkilov özünü "Vurğun" poetik adı ilə adlandırırsa və bu faktın özü bu şairin mahiyyətini, onun mənəvi dünyasını, arzularını həqiqi şəkildə başa düşməyə imkan yaradır" (117, 230). (Əlavə bax: 119; 159; 163; 170).

S.Vurğun poeziyası şifahi ədəbiyyat və aşıq şeiri, klassik Azərbaycan poeziyası, dünya və rus poeziyasının ən yaxşı ənənələri, xüsusilə romantik fəlsəfi ənənələri əsasında yüksəlmişdir. Şairin formalaşmasında 30-cu illərin ədəbi mühitinin də həlledici rolu olmuşdur. Əlamətdardır ki, bu təsir mənbələri S.Vurğun yaradıcılığının elə ilk dövründən qabarıq şəkildə görünür. O da təbiidir ki, bu illərdə təsirlənmə açıq şəkildə baş verirdi. Ümumiyyətlə, S.Vurğun poeziyasına, onun poetik aləminə aşıq şeiri ilə Vaqif qoşmalarının sadəliyi, səmimiyyəti, Füzulinin məhəbbət lirikasının heyrətamiz gözəlliyi, Cavidin, Hadinin fəlsəfi ruhu, romantik genişliyi, sonralar dahi Nizaminin bəşəri-fəlsəfi poetik ənənəsi daha çox təsir etmişdir.

1927-ci ildə özünu "dağların yeni yazan cavan şairi" adlandıran Səməd, artıq, 20-ci illərin sonuna doğru yaradıcılığında ciddi axtarışlara meyl edir, romantik qızğınlıqla bağlandığı ümidsiz və nakam məhəbbət dünyasından real aləmə yaxınlaşır, hadislərin sürətli inkişafı axarına düşür. Əlbəttə, "Cavanlara xitab"la başlanan, "Ondan da gözəldir" "Orda", "Hazır olun", "Oktyabr", "Dan ulduzu", "Sənət", "Uzaqlara doğru", "Əyilmə", "Son söz", "Dəli şair" qismindən olan bir çox şeir müəyyən

---

qəzəllərinin bəzilərində rast gəldiyimiz "Düşkün", "Zavallı", "Vurğun", "Xəstə Vurğun" sözləri də güman ki, Səməd Vurğunun ilkin təxəllüslərindən olmuşdur.

ictimai-siyasi motivlərdən də məhrum deyildi. Bu şeirlərdə gerçəklik, rasional əsas müəyyən qədər qabarıq olsa da, məhəbbət və təbiətə həsr olunan lirikası qarşısında hissi-emosional cəhətdən hələ sönük və bəsit idi. Lakin, bu qəbildən olan şeirlərin üstün cəhətlərindən biri odur ki, onlarda romantizm məktəbindən süzülüb gələn mənaaltı fikirlər, simvolik obrazlar, mühakimələr üstünluk təşkil edirdi...

20-ci illərin sonlarından isə Səməd Vurğun şeirində ictimai-siyasi məzmun intim-şəxsi, xüsusi məhəbbət mövzusunu sıxışdırır və şairin poetik əhvali-ruhiyyəsində yeniləşmə baş verir. Bu şeirlərdə rasional əsasla yanaşı, mahiyyətcə hissi-emosional xətt də dərinləşir. İkili xüsusiyyət tədricən aradan qalxmağa başlayırdı...

1929-cu ildən Səməd Vurğunun şəhər mühitinə düşməsi, Moskvada təhsili qızğın ədəbi mübahisələrdə fəal iştirakı onun həyatını əvvəlkindən fərqli, geniş ictimai-sosial bir axara salır, şüur və hisslərini yeni həyatın tələblərinə uyğun istiqamətləndirir. İndi onun şerləri daha tez-tez çap olunmağa başlayır. Tezliklə gənc şairin ilk şeirlər kitabı – “Şairin andı” (1930) çapdan çıxır. Az sonra “Fanar” (1932) şeirlər məcmuəsi yaranır. Bu kitablarda S.Vurğun lirik şair kimi formalaşsa da, artıq aydın nəzərə çarpırdı ki, bu lirikanın istiqaməti, hərəkət yolu böyük ictimai məzmuna doğrudur, zamanın tutumlu, əhatəli poetik qavrayışına can atmaqdadır.

Xarakterik o idi ki, dəyişməkdə olan yalnız mövzu deyildi, şairin hadisələrə, varlığa münasibət tərzi idi. Onun lirik “mən”inin şüur və hissləri idi. Artıq S.Vurğunun yaradıcılığında lirik “mən” getdikcə geri çəkilir, o, yeni keyfiyyət – lirik xarakter keyfiyyəti əxz etməyə başlayırdı. 30-cu illərin ortalarına doğru isə lirik xarakter özünü boya-boy göstərə bilirdi.

“Şairin andı” və “Fanar” kitablarındakı şeirlərin əksəriyyəti S.Vurğun poeziyasında yeni lirik xarakterin formalaşdığını

göstərirdi. Hələ 1928-ci ildə yazılan "Andım" şeirində bu misraları oxuyuruq:

Mən and içmişəm ki, bir də qələmim
Gözəllərdən ilham almayacaqdır (31, 43).

Doğrudur, şair bu deklarativ anda hələ tam sadiq qala bilmir. Ancaq o da fakt idi ki, artıq lirik "mən" yeniliyə, həyata bağlanmaq zərurəti dərk etməyə başlayırdı.

"Hərəkət", "Şairin səsi", "Yeni dünya", "Hazır olunuz", "Raport", "Rot-front", "Aprel", "Oktyabr günləri", "Hücum", "Yoldaş, hinger, amxanaqo" şeirləri ondakı bu dəyişməni əks etdirirdi.

Bu dövrdəki lirik xarakteri səciyyələndirməyə ən tipik misal "Hazır olunuz" şeiri ola bilər. Şeirdə "Şairin andı"na qədər daxili inkişaf keçirən lirik xarakterə ümumi şəkildə 20-ci illər gəncliyinə aid olan xüsusiyyətlər xasdır. Bu gənc ayıqdır, mübarizdir. Döyüşkən, düşmən qarşısına nifrətlə, dost qarşısına məhəbbətlə çıxmağı bacaran, vahid sinfi mövqeyə malik, lakin eyni zamanda sadəlövh, qızğın və çılğın, bəzən hadisələrin mahiyyətinə dərindən varmayıb, ancaq zahiriliyə uyan, bunun nəticəsində də səhvlərə yol verən bir xarakterdir. Bu onu göstərir ki, lirik qəhrəmanın "yaranması, təşəkkül tapması tarixi hadisələrin hərəkətindən çox asılıdır, sanki o əsrin ziddiyyətlərini özündə daşıyır" (160, 59).

"Hazır olunuz" şeirində S.Vurğun müasirliyin tələbindən, gəncliyin mübariz vəzifələrindən bəhs edirdi. Şeir 1927-ci ildə "Səməd Məsrur"[5] imzası ilə çap olunmuşdur. Bu illər yeni, inqilabi gerçəkliyin köhnəliklə qızğın, dramatik mübarizə şəraitində formalaşdığı, qərarlaşdığı, mənəvi və siyasi cəhətdən

[5] "Məsrur" sözünün mənası - şən, şad, şadman, sevincli; məsrur etmək - sevindirmək, şadlandırmaq, şad etmək; xoşbəxt etmək, məramına, istəyinə çatdırmaq; məsrur olmaq - şad olmaq, sevinmək, şadlanmaq.

qüvvə və təcrübə qazandığı bir mərhələ idi. Vətəndaş müharibəsi, müdaxiləçilərə qarşı döyüş, dəhşətli kapitalist blokadası dövrün səciyyəvi hadisələrindən idi. Zaman bu mübarizələr içərisində öz yeni nəslini – yeni insanını yetişdirirdi. S.Rüstəm, M.Müşfiq, R.Rza, M.Rahim kimi yeni şairlərin poeziyasında olduğu kimi S.Vurğunun da mübariz, tribun, milyonların oğlu rolunda çıxış edən lirik xarakteri bu insanı təmsil edirdi. Hətta, burada Səməd snki "Vurğun" təxəllüsündən imtina edir, "Məsrur" təxəllüsü ilə çıxış etməyə üstünlük verir. Bu dövrün ideoloji tələbi, təlabatından irəli gəlirdi... Onun poetik qəhrəmanı M. Qorki demişkən "təbiətin... qarmaqarışıq qüvvələrinin tədqiqatçısı və təşkilatçısı"na çevrilirdi (137, 273). Özünü şən, məsud – məsrur, mübariz göstərirdi:

Önümdə tufan var, hazır olunuz,
İgid Qafqazımın köhlən atları!
Poladdan möhkəmdir sizin qolunuz,
Quraq tərkinizdə pulemyotları! (31, 15).

Yeni dövr, eyni zamanda, yeni xarakterlər yetirirdi. Bu lirik xarakter üçün azadlıq işi uğrunda mübarizə, həyat və yaradıcılıq proqramı idi. Lakin bütün bu dövr poeziyamızda olduğu kimi S.Vurğunda da yeni insanın obrazı və yeni varlığın poetik qavrayışı hələ ümumi şəkildə-ritorik vəsf halında meydana çıxırdı. İnsanın mənəvi aləmi, psixoloji yaşantıları şeirdə, ədəbiyyatda elə dərindən işlənmirdi. Bu hal S.Vurğunun müasirlərindən M.Müşfiqin, R.Rzanın, M.Rahimin, Ə.Fövzinin, M.Rəfilinin, M.Dilbazinin, A.Faruqun, O.Sarıvəllinin və başqalarının təzə-təzə yazdıqları şeirlərdə, xüsusilə "Oktyabr alovları" almanaxında gedən əsərlərdə də özünü göstərir...

Ədəbi gəncliyin yeni dövrün tələblərinə uyğun tərbiyəsi və bu istiqamətdə inkişafında əhəmiyyətli rol oynayan "Qızıl gənc

qələmlər" yaradıcılıq təşkilatının çap etdirdiyi "Qızıl gənc qələm" almanaxının müqəddiməsində deyilirdi: "Mövzuda da hələlik gənc şairlərimiz çox dar bir mühit içində dolaşıyor və öz şeirləri üçün yalnız ümumi inqilabi hadisə və vaqiələri intixab ediyorlar. Şübhəsiz, gələcəkdə bu "ali mövzu"lardan bir qədər aşağı enmək və əməkçi xalqımızın həqiqi yaşayış və dərdlərinə münasib mövzular intixab etmək lazım olacaqdır" (60, 10).

S.Vurğun 1934-cü ildə "Tənqidsiz tənqid haqqında" məqaləsində həmin dövr poeziyamızın çətinliklərini səciyyələndirərək yazırdı: "Poeziyamızın həmin dövr vəziyyəti tarixi zərurət idi. İnqilabın, sosializm quruculuğunun özünün çətinlikləri olduğu kimi, sənətin də həyatdan gələn çətinlikləri var idi. Bu çətinliklər tarixi olduğu kimi də keçici idi" (48).

Lakin zamanın, dövrün gedişi, təzə həyatın sürəti böyük və vüsətli idi. Poeziya bu sürətdən geri qala bilməzdi. Yenilik zamanla ayaqlaşmağı tələb edirdi. Sənətdə irəliləyiş istəyirdi. O da sezilirdi ki, zamanın hadisələri, məzmunu, materiala çox gur, kortəbii bir axınla daxil olur; vərdiş halını almış şərtilikləri, poetik zövq və təsəvvürləri sıxışdırıb aradan çıxarırdı. Şeirdə məkan genişliyi yaranırdı. Şeirin ritmi dəyişir, publisistik pafos güclənirdi. Yeniliyin bədii təsdiqi üçün forma axtarışlarına təbii bir ehtiyac duyulurdu...

S.Vurğunun "Şairin andı", "Şərqin qapısı", "Səfil qadın", "Konsert axşamı", "Hərəkət", "Ölümün məhkəməsi", "Aprel", "Səriyyənin ölümü", "Məktub", "Fanar", "Raport" və onlarca başqa şeirləri 20-30-cu illərdə gedən poetik axtarışların təmayyüllərini təmsil edirdi. Bu şeirlərdə forma, ifadə, kompozisiya, bədii obrazların konkretliyi – bütün ifadə vasitələri həyatın, dövrün, zamanın özünə, onun diktəsinə əsaslanırdı...

Bu baxımdan, "Şərqin qapısı" şeiri forma və kompozisiya quruluşu, lirik təhkiyyə cəhətdən müəyyən yeniliyə malikdir. Müxtəlif başlıqlarla dörd hissəyə ayrılmış bu şeirdə tək

bir günun təsviri ilə qarşılaşırıq. Şeirdəki bir sıra xarakterik bədii obrazlar, təşbeh və bənzətmələr şairin yeniliyə meyilli gərgin axtarışlarından xəbər verirdi. Lakin buna baxmayaraq şeirdə həyat həqiqəti bədii həqiqətə çevrilə bilməmişdi və buna görə də şeir ancaq müşahidə təsiri bağışlayır, şeirdə müfəssəl poetik ümumiləşdirmə çatışmırdı. Doğrudur, onun “Son söz hissəsində şair belə ümumiləşdirməyə cəhd edirdi, lakin bu hələ ritorik-publisistik mahiyyət daşıyırdı...

Burada bir cəhətə də diqqət yetirilməlidir ki, əgər əvvəl gələn üç parça – “Şəhər oyanarkən”, “Axşam”, “Mədəniyyət sarayı” hecanın 11-lik ölçüsündə (6-5 təqtisi ilə) yazılmışsa, “Son söz” 16-lıq (4-4-4-4 bölgüsündə) – ləngər yaradan bir təqtdə yazılmışdı. Sözlərin düzumü, poetik-məntiqi ardıcıllıq, təkrirlər bu parçada S.Vurğun üslubuna xas, romantik-publisistik poetikanın ilkin əlamətlərindəndir...

Az da olsa şeirin başlanğıc hissələrində belə bədii ünsürlər var, lakin seyrçilik, məzmunun oçerkvariliyi bu ünsürlərə əsas vəzifəsini görməyə imkan verməmiş, fakt adi təsviri xəbər səviyyəsində qalmışdır. Bu cəhət onu göstərir ki, lirik şeirdə obyektiv tərəf – gerçəkliyin faktı dominant olanda, fakt qəlbindən, hissindən keçməyəndə şeir faktoqrafiyadan uzağa getmir, sənətkarlıq zəifləyir. Lirik yaradıcılıqda obyektiv tərəflə subyektiv tərəfin vəhdətdə olmaması, tarazlığın pozulması bu çür çatışmazlıq və poetik qüsur doğurur...

Lakin belə nöqsanlara baxmayaraq “Şərqin qapısı”, “Konsert axşamı”, “Ölümün məhkəməsi”, “Səriyyənin ölümü” və s. bu tipli şeirlər Səməd Vurğunu geniş epik yaradıcılıq yoluna gətirib çıxaran ilk təşəbbüslər kimi diqqətəlayiq olub, onun poeziyasında süjetli lirikaya meylin erkən formalaşdığını göstərir.

Qeyd etmək lazımdır ki, həmin dövrdə yeni həyatın sürətli dəyişməsini poeziyada əks etdirmək yolunda gərğın axtarışlar gedirdi və bu məqsədlə Mayakovskidən, Nazim Hikmətdən,

M.Svetlovdan, eləcə də Emil Verxarn və Uitmendən təsirlənən Azərbaycan şairlərindən bəziləri (S.Rüstəm, M.Rəfili, R.Rza və başqaları) də sərbəst şeirə müraciət edirdilər və bu poeziyada yeniləşmə, novatorluq faktı kimi qiymətləndirilir, bəzən də, buna əks fikirlər doğururdu...

Buna görə də, o dövrdə "Sərbəst şeir" problemi nəinki tənqiddə, poeziyanın özündə də qızğın mübahisələrin predmeti idi.

Yeni həyatın bədii təsvirini vermək cəhdi və bu yolda axtarışlar S.Vurğun üçün də xarakterik idi. O zamanın ritmini vermək üçün hecanın müxtəlif formaları ilə yanaşı, sərbəst şeirə də laqeyd qalmır və bu formada mövzuca aktual səslənən bir sıra şeirlər yazırdı. Bu şeirlərdə ruh yüksəkliyi, qeyri-adi görünə bilən bədii obrazlar, sözün məna kəskinliyi, ahəngin dəyişən və kəskin ritmi, siyasi pafos ilk baxışdan diqqəti cəlb edir. "Şairin andı", "Hərəkət", "Aprel", "Məktub", "Fanar", "Zərərçilər", "Raport", "Mən də bir əsgər kimi", Ölən şeirlərim", "Qızıl şərq" və s. şeirlər günün məsələlərinə həsr olunmuş, mövzu yeniliyinə, ifadə xüsusiyyətlərinə, siyasi fəallığına görə S.Vurğunun həmin dövr şeirlərindən fərqlənmişdir və yaradıcılıq axtarışları kimi də maraqlıdır.

Bu şeirlərdə yaxşı xüsusiyyətlərdən biri də, S.Vurğunun təzə və köhnə həyat, zamanlar konfliktini həll edərkən tapdığı orijinal bədii obrazlardır ki, bunlar yeni şeirin inkişafı üçün mühüm tapıntılar idi. Bu obrazların köməyi ilə yaradılan lirik xarakter zamanın övladı kimi çıxış edir. Onun istəyi, məramı aydındır, mövqeyi partiyalıdır:

Mən
  **nəfəsləri benzin**
    **və kükürd qoxulu**
**milyonların şairiyəm.**
Düşməniyəm onların –

Divanları məxmər
və ipək döşəməli
salonların (31, 102).

Bakı mədən işçilərinə müraciətlə yazılmış “Raport” (1930) şeirinin bu giriş hissəsində lirik konflkt özünün kəskin konturları ilə birbaşa və qəflətən oxucunun nəzərinə çatdırılır. Burada bütöv bədii obraz vardır. *“Mən milyonlarla fəhlələrin, proletlarların şairiyəm!”* şüarı əvəzinə, emosional qüvvəyə malik obraz – *“nəfəsləri benzin və kükürd qoxulu milyonların”* obrazında onların işi, fəaliyyəti, ideya-siyasi birliyi panoram şəkildə göz önündə canlanır; bunun ardınca isə *“Düşməniyəm onların – Divanları məxmər və ipək döşəməli salonların...”* antitezis deklorativ nidası şeirdəki emosionallıq keyfiyyətni daha da qüvvətləndirir.

Lirik xarakterin öz ictimai-siyasi mövqeyini bu cür deklorativ şəkildə elan etməsi 30-cu illər poeziyasında zəruri bir poetik prinsip idi. Məsələn, M.Müşviqdə həmin mövqeyi bu şəkildə görürük:

Mən fəqət bir sinfin şairiyəm
Göyə uçmam da zəmin
şairiyəm (83, 114).

Şairin ictimai mövqeyinin aydın, birbaşa ifadəsi onun sosial özü`nüifadəsi lirikada zəruri bir xüsuyyəti təşkil edirdi. İnqilab lirikada şair şəxsiyyətinin dərinliyinə çəkilən mənəvi yaşantılarını deyil, sosial-siyasi mövqeyinin qabarıq, fəal ifadə olunmasını zəruriləşdirirdi...

Bir tərəfdən həyatın özünün hökmü və tələbi, digər tərəfdən isə şairlərin marksizm-leninizm dünya görüşünə dərindən yiyələnmə tələbi lirikada yeni ictimai-siyasi ruh, inqilabi-publisistik üslub üçün şərait yaradırdı (Bax: 103, 165).

S.Vurğunun bu qəbildən siyasi cəhətdən kəsərli şeirlərinin yaranmasında S.Rüstəm, R.Rza, M.Rəfili, M.Müşfiqin də yaradıcılığında olduğu kimi bu iki tərəf özünü xüsusilə göstərirdi.

Gerçəkliyə uyğun olaraq şeirdə canlandırılan yeni insan zamanla qovğada yeni xarakter kimi formalaşır. Bu İnsan və Zaman dilemmasıdır. O, *"aciz xülyaları"*, *"səfil gecələrin sərxoş röyalarını"*, *"suların düyümlü səsini"* unudaraq öz mənəvi dünyasına, insanlıq aləminə dalır, iç dünyasını təftiş edir, mənəviyyatında yaşayan *"xəstə qurdu"* öldürərək özünü yenidən tapır, yenidən yaradır. Bədii obrazlar lirik xarakterin keçdiyi psixoloji anları, keçmiş zamanın tipik cizgilərini bütöv şəkildə əks etdirir və şeirin ritmi də zamanın ritminə "olum – ölüm" çağırışına uyğunlaşırdı:

Gördüm
damarlarımı dolaşan
o köhnə qanın
və onu yaradan
köhnə romantikanın
Ən xəstə qurdunu...
Öldürdüm onu!
Öl-
dür-
düm! (31, 102).

"Öldürdüm!" hökmünün hecalara bölünüb ardıcıllanması yeni ilə köhnənin mübarizə səhnəsini göz önündə canlandırır və lirik xarakterin köhnəyə son həddə varmış kinini, qəzəbini, nifrətini kəskin hiss etdirir. Beləliklə, lirik konflikt[1] kulminasiya

[1] Yuri Barabaş və başqaları göstərirlər ki, "lirikada konflikt var" bu o deməkdir ki, lirikada hissin və obrazların qarşılaşdırılması fonunda, hissi kontrast vasitəsilə ictimai mübarizə və ziddiyətlərin konfliktini vermək mümkündür (124, 98).

nöqtəsinə çatır. Şair iki dünyanın, iki zamanın vuruş səhnəsini verərkən kontrastlar yaradır və burada bədii vasitə kimi "Alqış" və "Ölüm" sözlərindən istifadə etməklə kifayətlənir. Belə bir gərginlik yenidən, *"Vur, dedim, vur. Zərbələrini bərk vur"* misralarının təkrarı ilə nəticələnir və döyüşdən qalib çıxan lirik xarakterin gələcəyə çağırışı şeirin ümumi ideya pafosunu yaradır:

Hey...
Hey...
Addımlarını möhkəm at!
Sənin çiyinlərində yüksəlir bu yeni həyat (31, 102).

Zamanın sürətli axınında lirik xarakter mənən dəyişir və bu prosesdə çətinliklərlə, psixoloji sarsıntılarla qarşılaşa-qarşılaşa xaraktercə yetkinləşir. Bu lirik xarakter "Raport", "Fanar" şeirlərinin yazıldığı illərdə bir tərəfdən *"Unutmadım adımı dolaşıq çağıran suların düyümlü səsini..."* ("Dinlə məni gözəl bahar.") (31, 108) deyirdisə, digər tərəfdən də səmimi, ehtiraslı bir lirik səslə:

İçim dalğalanır sanki bir dəniz,
Mən bu dalğalarla qucaqlaşıram.
Nələr düşünürəm, duya bilsəniz,
Sankı varlığımdan uzaqlaşıram... (31, 109).

– deyərək, özünün mənəvi təzələnməsini ictimai-siyasi hadisələr içərisində dəyişdiyini, yeni insan kimi doğulduğunu, hətta "varlığından uzaqlaşdığını" etiraf edirdi... Zamanın ziddiyyətlərindən irəli gələn bu cür ikilik və siyasi platformanı deklorativ təqdim üsulu rus və başqa xalqların ədəbiyyatında da olmuşdur.Şairlər irəliləyiş və dəyişmələrini, çox vaxt yaradıcılıq vasitəsilə sübutdan qabaq birbaşa elan etmək məcburiyyətində

qalırdılar. Məsələn, S.Yeseninin "Qadına məktub" şeirindəki elan tipoloji şəkildə S.Vurğunun "inandırmasına" uyğun gəlir:

Mən indi dəyişmişəm,
Mən indi o deyiləm...
Azad zəhmət eşqinə,
Azad bayraq eşqinə
Hazıram indi gedəm,
Burdan düz La-Manşadək (69, 67-68).

Gerçəkliyin ən qızğın inqilabi dəyişmə prosesində bilavasitə iştirak edən S.Vurğunun bir şair kim, daxilində üzləşdiyi ziddiyyətlər həyatdan irəli gəlirdi və bu ziddiyyətləri izləməyən bir sıra tənqidçilər, o dövrdə gənc şairə qarşı ciddi ittihamlar irəli sürürdülər. Bu cəhətə diqqəti yönəldən Mir Cəlal 1932-ci ildə Səməd Vurğunun ilk yaradıcılıq axtarışlarına həsr etdiyi "Özünü yenidənqurma yollarında" məqaləsində yazırdı: "Səmədin yaradıcılığı haqqında indiyə qədər prinsipli, kommunistcəsinə möhkəm bir tənqidimiz yox dərəcəsindədir. "Şairin andı" haqqında son zamanlarda yazılan "tənqid"lər isə Səmədin yazılarını düzgün kommunist tənqidi süzgəcindən keçirmək, ***onun yaralı xəstəliklərini*** (Kursiv – Q.B.) açıb şərh etmək əvəinə, daha da oxucuları dolaşdırmışdır. Bu tənqidlər Səmədi ayrı-ayrı misraları ilə cilovlayaraq, istədikləri tərəfə çəkmiş, onun yaradıcılığının ana xəttini belə müəyyən etməmişlər" (77, 31).

Şairin bilavasitə psixoloji-mənəvi forma və təkamülü ilə şərtlənən bu ədəbi çətinlikləri tənqidlərdə nəzərə alınmır, bəzən də ifrat subyektiv mövqedən izah olunaraq onun, hətta düzgün ictimai-siyasi məzmunlu əsərləri belə lazımınca qiymətləndirilmirdi. (Bax: 61; 66; 100).

Məsələn, Ə.Faruq və Ə.Dəmirçizadənin yazdıqları məqalədə belə deyilirdi: "Şairin andı" kənddən ayrılmış, şəhərdə

ziyalılaşmış, kəndin "bağlarını, bağçalarını", "mehriban dağlarını", "göy yaylaqlarını", "şahinlərin qıy vurmasını" xatırlayaraq məhzunlaşan bir sentimentalist şairin əsərləri kimi meydana çıxır" (100).

Göründüyü kimi, məqalə müəllifləri şairin ilk şeirlərinə xas kəndə baqlılıq, kənd üçün həsrət əhvali-ruhiyyəsini olduqca vulqar sosioloji planda başa düşərək onu əsas olmadan sentimentalist adlandırmışlar.

Söz yox ki, sənətkarın bütün fəaliyyətini izləməyən bu cür qeyri-səhih təhlil üslubu bəzən gənc şairin inkişafına zərər vurur, onun poetik təkamülünün təbii gedişini ləngidirdi. Buna görə də "Uzaqlara doğru" şeirində S.Vurğun başqa şerlərində olduğu kimi, özünün siyasi fikirlərini deklorativ şəkildə elan edir, şüarçılığa qapılır, düzlüyünü "sübut etməyə" çalışırdı. "Şairin andı", "Ölən şeirlərim" kimi parçalar belə hisslərdən yaranmışdır. Gənc şairin birbaşa elan etdiyi siyasi mövqeyini belə, tənqid çox vaxt birtərəfli başa düşür, hətta səhv izah edir, şairi "qeyri-səmimilikdə" məzəmmət etmək dərəcəsinə yenirdi. Yəqin, bu kimi qeyri-obyektivliyi nəzərdə tutan N.Q.Çernışevski istedadın gücünü belə zamanlarda həqiqətə arxalanmaqda görürdü. O yazırdı: "İstedadın gücü həqiqətdədir. Səhv bir istiqamət ən güclü bir istedadı da məhv edə bilər" (183, 240).

Xoşbəxtlikdən, istər dövrün ziddiyyətləri, istər öz yaradıcılığındakı çatışmazlıqlar, istərsə də qeyri-elmi, subyektiv tənqidi fikirlər əlahidə istedada malik bu gənc şairi yanıltmır, əsas poetik yoldan sapmır... O, yaşadığı sovet gerçəkliyinə, həyat həqiqətinə dərin inamla yeni, inqilabi Azərbaycan poeziyasının yaradılması kimi tarixi bir işdə var qüvvə ilə çalışırdı...

S.Vurğun şeirinə yeni keyfiyyətlərin aşılanmasında, lirik xarakterin formalaşmasında yaradıcılığında üslubi meyl kimi meydana çıxan romantikanın da əhəmiyyəti olmuşdur. Qeyd etdiyimiz kimi, romantik üslub, dünyanı romantik qavrama elə ilk

şeirlərindən etibarən özünü göstərirdi. Səməd Vurğunun ilk qələm təcrübələrində romantik çalar gözəlliyə yaxşıya aludəlik şəklində aşkar olurdu.

Ümumiyyətlə, bədii təcrübənin bütün dövrlərində “romantik yaradıcılığa” ən yaxşı şeyin təqlidi, həyat gözəlliyini, cazibəsini, lətafətini, incəlik və zərifliyini heyran-heyran, məftun-məftun təsvir etmək, yaxud təsviri bununla zənginləşdirmək bacarığı kimi baxıblar (Bax: 133, 29; 120; 148, 615; 130).

Tanınmış rus ədəbiyyatşünası Q.N.Pospelov haqlı olaraq “romantizm”lə “romantika” anlayışlarını fərqləndirməyə çalışır. Müəllif “romantizmi” ədəbi istiqamət, cərəyan kimi; “romantika-nı” isə həyata, gerçəkliyə yüksək hissi-emosional münasibət kimi qəbul etməyi düzgün elmi prinsipi hesab edir (167, 36).

S.Vurğunun ümumi yaradıcılığında da romantika belə mənada, məhz lirik qəhrəmanın düşüncə tərz ilə şərtlənir. Həyata emosional münasibət, aləmdə və insanda gözəllik, yuksək ideal təzahürləri axtarmaq, ülvi insani hiss və mənəvi ucalıq, insanın daxili ruhi gözəlliyinin dərgi, gələcəyə, bəşəriyyətin daha gözəl, daha kamil olacağına tükənməz inam S. Vurğun dünyagörüşünün və onun lirik qəhrəmanının romantk xarakterini şərtləndirən mühüm cəhətlərdəndir.

S.Vurğun sonralar nəzəri-elmi əsərlərində və çıxışlarında, xüsusən, 1954-cü ildə Moskvada keçirilən Sovet yazıçılarının 2-ci Ümumittifaq qurultayındakı “Sovet poeziyası haqqında” [6] (176[a],71-72) tarixi, dərin məzmunlu məruzəsində yeni məzmunda ortaya çıxan inqilabi romantikanı sosialist realizminin fəal tərkib hissəsi kimi həmişə təbliğ etmiş, bu sahədə onun estetik axtarışları M.Qorki ənələri ilə çox yaxından səsləşmişdir.

---

[6] Содоклад Самеда Вургуна «О советской поэзии». См.: Второй Всесоюзный съезд советских писателей. Стенографический отчет. Москва, 1956, ст. 71-72.

Səməd Vurğun təkidlə həmkarlarını, qələmdaşlarını inandırmağa çalışırdı ki, “romantikadan çəkinmək, ehtiyat etmək lazım deyil. O, yerə, torpağa, varlığa bağlı olan realist sənətkarı heç vaxt “bşqa bir aləmə, göylərə çəkib apara” bilməz, onu realist mövqedən ayıra bilməz. Romantikasız isə bizim adamların böyük qəhrəmanlıqlarını və böyük gələcəyini göstərmək mümkün deyil. ...İnqilabi romantizm – realizmdə məişətşiliyə, naturalizmə, realizmin keyfiyyətini aşağısalan, onu güclü sıçrayışlardan məhrum edən cəhətlərə gedib çıxmaqdan qoruyan ən əsas vasitələrdən biridir.” (Yenə orada, 176[a], 72.)

Səməd Vurğun bu məruzəsində “romantika”, “romantizm”, “romantik üslub”, “romantik poeziyanın xüsusi forması”, “inqilabi – romantik forma”, “romantik forma”, “yüksək romantik ton”, “ideal qəhrəman” anlayış və istilahlarından istifadə etmiş və müəyyənhallarda bunları sinonim kimi, müyyən məqmlarda isə fərqli məna daşıyıcısı kimi işlətmişdir...( 176[a], 72.) (s.57-78)

Səməd Vurğun qüdrətli şair təfəkkürü ilə yanaşı, həm də, dərin zəkalı nəzəriyyəçi idi. Şair sosialist realzm ədəbi metodunun bir qanadı kimi götürdüyü romantizmin əsas xüsusiyyətlərini, mahiyyətini şərh edərkən onu qismən üç istiqamətə bölürdü:

1. Birinci halda sənətkar “...öz əsərinin əsasına real hadisələri, real insan xarakterlərini qoyur və onları yüksək bir tonda, ən çox parlaq boyalarla tərənnüm edir.”
2. İkinci halda sənətkar “...müsbət keyfiyyətləri şüurlu kəskinləşdirir, çox zaman “qeyri-adi” , bəzən də lap müstəsna xarakterlər, hadisə və faktlar seçir, o, gələcəyi daha tez görməyə, sabaha daha tez qovuşmağa çan atır... insan adına layiq olan adam... onunla böyükdür ki, onun idealları və irəliyə doğru arzusu, onun parlaq xəyalları və fantaziyası həmişə onun real mövcudiyyətini qabaqlayır. Böyük, işıqlı və gözəl olan hər şeyə daim meyl göstərmək bütün bəşəriyyətə aid olan böyük bir xüsusiyyətdir. Buna görə də biz gərək adamların xarakterindəki (oxu: lirik

xarakter–Q.B.), onların arzu və meyllərindəki müsbət cəhələri qabarıq surətdə göstərməkdən qorxmayaq və beləliklə də bizim varlığın inqilabi inkişafına xidmət edək."

3. Üçüncü halda sənətkar "...fəal surətdə öz müsbət, yaxud ideal qəhrəmanının (oxu: lirk qəhrəmanının – Q.B.) fikirlərinə və qəlbinə, onun mənəvi aləminə qarışır. O, bu qəhrəmanın vasitəsilə öz xüsusi ideallarını, özünün tarixə və gələcəyə olan baxışını tərənnüm edir". (176[a], 57-78.)

Səməd Vurğun romantizm haqqında irəli sürdüyü bu ədəbi postulatları, artıq öz yradıcılığında praktik şəkildə sübuta yetirmişdi və bu nəzəri qənaətlər heç də mücərrəd, göydəndüşmə fikirlər deyildi..

Səməd Vurğunun belə ardıcıl ədəbi-bədii və nəzəri prinsipini A.Ovçarenko müşahidə etmiş, Sovet ədəbiyyatında romantizm məsələsindən danışarkən Səməd Vurğunun bu sahədəki fikirlərini "bədii və nəzəri kəşf" adlandıraraq bunu çoxmillətli sovet ədəbiyyatının mühüm nailiyyətlərindən saymışdır. Romantikanın inkişafına iki baxışdan danışarkən, müəllif S.Vurğunun mövqeyini təqdir edərək yazmışdır ki, "Andrey Upit romantikaya qarşı ciddi mübarizə etdiyn kimi, sovet ədəbiyyatında romantik istiqaməti ehtirasla müdafiə edən Səməd Vurğun da var idi... Səməd Vurğun özünün həddi-buluğa çatdığı dövrdən, Bayronu yarışa çağırdığı zamandan həyatının son illərində SSRİ Yazıçılarının II qurultayındakı çıxışına qədər romantizmi müdafiə etmişdir" (162, 217-218).

Sovet ədəbiyyatında romantik cərəyanın mövcud olması faktını ədəbiyyatşünaslıq artıq sübut etmişdi (Bax: 148). Bu cərəyana az-çox mənsub edilən sənətkarlardan – N.Tixonov, A.Prokofyeva, A.Kuleşov, V.Vişnevski, S.Vurğun, E.Baqritski, K.Leonidze, Y.Yakovski, M.Cəlil, M.Kərim kimi şairlər də, M.Qorki, A.Fadeyev, O.Qonçar kimi nasirlərdə müşahidə edilən

həyatın bədii təsvirində emosional başlanğıcın gərginliyi, öz ideallarının lirik bir tərzdə, möhtəşəm obrazlarda təcəssümü, fəlsəfi-poetik təfəkkürün genişliyi, gerçəklik hadisələrinə subyektiv münasibətin güclülüyu, şərtilik və simvolika, metaforik təfəkkür, parlaq – təntənəli dil və s. onların poetika və estetikasını səciyyələndirən başlıca xüsusiyyət və cizgilərdir.

Romantik uslublu yazıçıların yaradıcılığı sosialist realizmi metodunun ən ümumi və mahiyyətli qanunlarına, ideal haqqında konkret təsəvvurə, sovet xalqının həyatının perspektivlərinə yad deyildir (148, 16), əksinə, bunları daha da zənginləşdirir. Bu cəhəti böyük pus ədibi M.Qorki də vaxtilə belə şərh etmişdir: “İnqilabi romantizm – bu, mahiyyəti etibarı ilə sosializm realizminin psevdonimi – təxəllüsüdür” (136, 159).

Akademik M.C.Cəfərov isə romantikanın müxtəlif yaradıcılıq metodunda yazılmış əsərlərdə özünü göstərmiş və göstərə bilən bir manera, üsul kimi səciyyələndirərək yazır: “...romantik keyfiyyət, romantik üsul, romantik manera yalnız romantizmə aid olmayıb ümumiyyətlə, bədii yaradıcılığın təbiətinə aid olan ümumi xüsusiyyətlərdən biridir; daha dəqiq desək, bədii yaradıcılığı əsrlər boyu sınaqdan keçmiş geniş imkanlarından biridir” (110, 99-100; 108, 182-194).

Əlbəttə, burada romantizmin və ya sovet ədəbiyyatında romantik cərəyanın problem məsələlərinin həllindən və izahından uzağıq. Lakin məsələyə aydınlıq gəlsin deyə, bəzi mübahisə və izahları xatırlatdıq. Çünki sosializm realizmi metoduna əsaslanan sovet ədəbiyyatını yaradanlardan və görkəmli numayəndələrindən biri kimi Səməd Vurğun da ədəbiyyatımızda romantikanın əhəmiyyətini, bədii imkanlarını dürüst bilirdi və romantik istiqamətin praktik icraçısı, ardıcıl müdafiəçisi idi...

Bir məsələni də, qeyd etməyi özümə borc bilirəm ki, Səməd Vurğunun realizm və romantizm haqqında zəngin və ardıcıl nəzəri fikirlərinin və poetik təcrübəsinin tədqiqiqinə ciddi şəkildə, daha

dərindən başlamaq, bunların ədəbi təcürbədə daha geniş şəkildə tətbiqinə nail olmaq müasir ədəbiyyatımız üçün olduqca faydalı olardı... Bu, müasir ədəbiyyatımızı bir sıra ciddi qüsurlrını aradan qaldırmaq üçün, xüsusən, son zamanlar bir sıra əsərlərdə özünü göstərən quru təsvirçiliyin, hadisəçiliyin, detalçılığın, uzunçuluğun, pis mənada oçerçikliyin, şeirdə publisistliyin, quru sadalamaların, ruhsuz sillogizmlərin qarşısını almağa və beləliklə, ilhamlı sənət əsərlərinin yaranmasına kömək edərdi...

Tədqiqatçılardan biri demişdir: "Romantik yaranmır romantik doğulur" (166, 138). Bu sözləri tamamilə Səməd Vurğun tipli şairlərə də şamil etmək mümkündür. O, təbiətən, yaranışından xəyalpərvər, romantik əhvallı bir gənc olmuş (Bax: 29) və bu xarakter də sonralar onun yaradıcılığına sirayət etmiş, yaradıcılıq üslubunun mühüm tərəfinə çevrilmişdir.

S.Vurğunun əsərlərində romantika üstündür. Lakin bu romantika realizmə, həyat həqiqətinə zidd romantika deyildir. Romantika S.Vurğun poeziyasında həyat həqiqətinin ifadəsini daha da gücləndirən, qaldıran, ülviləşdirən vasitədir və buna görə sosialist realizminin əlvan, müxtəlif bədii imkanlarından biri kimi meydana çıxır.

Xırda hisslərlə, ötəri təsirlə yazmaq, detalçılığa uyaraq bədii faktı hissələrə ayırmaq, üzdə cövlan etmək Səməd Vurğunun yaradıcılıq manerasına qətiyyən xas olmamışdır. Hissin möhtəşəmliyi, mahiyyətə enmək, hadisələrin tarixi və fəlsəfi mənasını açmaq üçun monumental bədii, ədəbi detala müraciət, yüksək məhəbbət və həvəs, poetik ehtirs, gözəlliyin, yaxşının, müsbətin qələbəsinə, təntənəsinə müstəsna cəhd və bütün bunlardan tükənməz ilhamla istifadə etmək, romantizm əleyhidarlarına qarşı cəsarətlə, ağızdo-
lusu, ardıcıl, danışmaq S.Vurğuna xas olan xarakter, yaradıcılığının isə romantik üslubi keyfiyyətlərindəndir…

S.Vurğun gerçəkliyin, real varlığın romantik təsvirinə çağırar-

kən, həyat həqiqətlərinin, insanın mənəvi aləminin, fikirlərinin, ideyalarının daha parlaq əks etdrilməsinə kömək göstərən poetik vasitəni, bədii imkanı nəzərdə tutmuşdur (34, 257-258).

Xəyalın, romantik uçuşun əhəmiyyəti haqqında V.İ.Leninin əsərində oxuyuruq: "Əgər xəyal edən şəxs xəyalına ciddi inanırsa, həyata diqqətlə nəzər yetirib öz müşahidələrini öz xəyali planları ilə müqayisə edərsə və ümumiyyətlə, öz xəyalını həyata keçirmək üstündə vicdanla çalışarsa, onda xəyalla həqiqət arasındakı ziddiyyətin heç bir zərəri olmur. Xəyal ilə həqiqət arasında bir təmas olduqda hər şey yerində olur. Bax bu cür xəyallardan təəssüf ki, bizim hərəkatımızda çox azdır" (1, 532).

S.Vurğun "həyat həqiqətinin dərkini" (19, 148) romantik üsulla təqdim etdiyinə görə onun romantikası özünəməxsus realist xətlə həmişə tarazlıq nisbətində vəhdət təşkil etmiştdir. Romantika onun poeziyasına vüsət vermiş və romantik təsvir-tərənnüm üsulu realist-təsvir üsulu ilə yanaşı onun yaradıcılığının ilk dövründən bir-birini tamamlayaraq, zənginləşdirərək inkişaf etməyə başlamışdır.

Yuxarıda qeyd etmişdik ki, S.Vurğun təbiətən romantik əhvallı bir gənc olmuş və bu onun mənəvi aləmindən psixoloji keyfiyyət kimi yaradıcılıq aləminə keçmişdir. Bu keyfiyyətin yaranmasında ona zəngin Azərbaycan romaitizm ənənələri də təsir etmiş və o, yaradıcılığının ilk illərində romantizm üslubundan romantizm poetikasından ədəbi təsir dairəsində istifadə etmişdir.

Özünəməxsus tarixi ənənələri olan Azərbaycan romantizmi XX əsrin əvvəllərində xüsusilə qüvvətlənmiş, M.Hadi, H.Cavid, A.Səhhət və A.Şaiqin yaradıcılığında zəngin ideya-estetik keyfiyyətləri ilə meydana çıxmışdır. S.Vurğun təbiətli gənc şairin belə böyük ənənələrin yanından sükutla keçməsi təbii ki, qeyri-mümkündür. Romantizmə mənsub şeirlərin yüksək pafosu, parlaq obrazlar sistemi, xüsusilə bədii təsvir vasitələri, görünür, S.Vurğunun diqqətini cəlb etmiş, onun poetikasına daxilən cavab

vermişdir. Xüsusən, H.Cavid və A.Şaiq yaradıcılığı, M.Hadi şeirinin geniş romantik-epik nəfəsi 20-ci illər ədəbi gəncliyinə yaxından tanış idi və onların mənəvi qida mənbələrindən birini də bunda görmək lazımdır.

S.Vurğun burada da orijinal olmuş, təsirlənməkdən çox, yeni həyatın təsdiqində, lirik xarakterin səciyyəsində romantik təsvir vasitələrindən bəhrələnmişdir. XX əsr romantikləri də "klassik şeir obrazlarından, epitetlərindən, təşbehlərindən istifadə edirdilər, lakin bu obrazlar, təşbehlər bunlarda tamamilə yeni məzmun kəsb edir, yeni fikirləri, ideyaları ifadə edirdi" (107, 77).

Romantiklərin klassik şeirin bədii təsvir vasitələrinə yaradıcı münasibətlərini müəyyən şəkildə Səməd Vurğuna da aid etmək olar. O, həmin bədii ifadə vasitələrini yeni məzmunla əlaqələndirir və beləliklə, sovet poeziyasında romantik ənənənin hüququnu təmin etmiş olurdu.

"Romantiklər... dövrün ictimai-siyasi hadisələrini, inqilab ilə irticanın mübarizəsini çox yerdə təbiət hadisəsinin təsviri yolu ilə verirdilər" (107, 78).

S.Vurğunun da bəzən bu üslubdan istifadə etdiyini görürük, özünün ictimai fikirlərini, gerçəkliyə fəlsəfi münasibətini, müəyyən hallarda şəxsi sarsıntılarını da, təbiətə müraciət formasında verməsi onun romantik poetikasının qabarıq xüsusiyyətidir. Lakin bunları ayıran daha ciddi cəhətlər var idi.

S.Vurğunun romantik təsvirində ideal cəhət – varlığın, gerçəkliyin ən yaxşı tərəfinin davamı və poetik təsbitidir. Bu mənada S. Vurğunun romantikası klassik romantikaın ideya məzmunundan fərqlənirdi. Gənc şairin "Göy göl", "Orda", "Dilican dərəsi", "Çiçək", "Dan yıldız", "Kür çayı" kimi ilk şeirlərində biz bunun rüşeymini görürük. Bu şeirlərdə xəyalpərvər romantik bir şairin yeni həyat, yeni dünya haqqında hissləri, indinin keçmişdən fərqi, həyatın nəşəsi tərənnüm olunmuşdur. Xüsusilə "Göy göl", "Dan yıldızı", "Kür çayı" şeirləri daha çox romantik

xassəlidir və “Fanar” kimi simvolik obrazlarla aşılanmış şeirin yaranması xəttinin başlanğıcını təşkil etmişdir.

“Göy göl” 1926-cı ilin təxminən yanvar ayında Qubada yazılmışdır. Şeir Əhməd Cavadın[1] o zaman mübahisə doğurmuş eyni adlı əsərinə cavab şəklində düşünülmüşdür. “Göy göl”də müəyyən dərəcədə “solçuluq ünsürləri” də yox deyildir, ancaq, buna baxmayaraq S.Vurğunun prinsipial mövqeyini və o dövr üçün xüsusilə tələb olunan bədii ideya-siyasi “sayıqlığını” müəyyənləşdirmək cəhətdən də əhəmiyyətlidir.

Şeirin birinci bəndinin ilk misralarında “Göy göl” adicə dağ gölünün obrazıdır. Şeirin sonuna doğru isə bu obraz sısqa bulaqlar kimi hər bənddə yeni bir məna kəsb edərək axırda Vətən obrazı səviyyəsinə yüksəlir, yeni dövr uğrunda mübarizə bayrağı qaldıran sosialist Azərbaycanının simvoluna çevrilir. Şeirdə Göy gölün keçmişi, indisi və gələcəyi müqayisəli şəkildə verildiyindən romantik bədii kontrast kimi nəzərə çarpır, onun poetikasını şərtləndirir.

“Dan yıldızı” şeiri romantik zənginliyinə və məzmununa görə “Göy göl”dən fərqlənir. “Göy göl”də tək bir obraz simvol şəklində götürülmüşdüsə, daha doğrusu, məzmun real, forma romantik üsluba uyğun idisə, “Dan yıldızı”nın həm məzmunu, həm də forması romantik şeirin estetikasına tam uyğundur.

Burada ideya romantik şeirə məxsus üslubi vasitələrlə ifadə olunmuşdur. Şeirdə səhərin açılması, yeni sosialist həyatının başlanması rəmzidir. Gənc şairin təsvir etdiyi dan ulduzu və səhər

---

[1] Ə.Cavadın “Göy-göl” şeiri subyektiv tənqidə məruz qalmış, gənc S.Vurğun da buna uymuşdur. Şeir təbiətin gözəlliyinə həsr edilib (106, 168). Bununla əlaqədar M.Vəkilovun xatirələri diqqəti cəlb edir: “Müasirləri yaxşı xatırlayırlar ki, Səməd Vurğun səmimi adam idi: Bir dəfə o şöhrətli şair olduqdan sonra söhbət zamanı mənə dedi ki, “A Qara! O vaxtlar mən Əhməd Cavada cavab olaraq komsomolçuluğa salıb sənin təhrikinlə “Göy göl”ü yazdım, “Qanlı, “Göy göl” yaratdın füqaraya” misrasını da sən ora yamadın. Amma öz aramızdı, Əhməd Cavadın “Göy-göl”ü mənimkindən çox üstün əsərdir, o əsil poeziyadır” (29, 102).

yeni ideya məzmunu kəsb edir, əvvəlki obrazlardan fərqlidir. Lirik xarakter təbii qüvvələrdə, təbiət hadisələrində daha yeni-ictimai mənalı mahiyyət axtarır.

XX əsrin romantikləri də səhərə, günəşə, qaranlıqları aydınladan dan ulduzuna müraciətlə şeir yazmış, “Qurtuluş yolunu” gözləmişlər. A.Şaiqin 1919-cu ildə yazdığı “Ülkər” şeirində oxuyuruq:

Səndədir ümidim, ey parlaq ülkər,
Mən də bir yolçuyam itkin, dərbədər.
Qurtuluş yolunu mənə də göstər,
Mələkdən, fələkdən uca sandığım (113, 70).

Romantiklər “Günəş”, “Səhər”, “Dan yıldızı” kimi bədii obrazları inqilab, azadlıq, demokratiya, o dövrün anlayışı ilə desək, hürriyyət rəmzi kimi işlətmiş, onlardan məqsədə-
uyğun şəkildə bədii vasitə kimi istifadə etmişlər. M.Hadinin “İlaheyi-hürriyyət” şeirində qaranlıq – istibdadın; ziya – işığın, səhər – azadlığın, nəsim – inqilabın rəmzi kimi məlumdur. Romantik poeziyanın bu bədii vasitələri 20-ci illərin Azərbaycan şeirində üstünlük təşkil edirdi...

S. Vurğunun ilk şeilərində poeziyanın bu inkişaf meyli müəyyən dərəcədə, hələ xəfifdir... Lakin şair romantik poeziya obrazlarını sadəcə təkrar etmir, hər şeydən əvvəl, yeni əhvali-ruhiyyənin təsiri altında onların yeniləşməsinə can atırdı.

Məsələn, 1927-ci ildə qələmə aldığı “Dan yıldızı”[1] şeiri, formaca olmasa da, məzmunca tamam fərqlənirdi. Buradakı lirik xarakter ağlamır və ya ümidsiz-ümidsiz gözlərini üfüqə dikmir, sonsuzluqdan imdad diləmirdi. O, gerçəkliyi fəal qavrayır,

[1] Şeir ərəb əlifbası ilə yazıldığından, bizcə onun adı səhv oxunub. Biz orijinaldan şeirin adını “Dan yüzü” oxuduq. Əslində də şeir dan üzü təsvir olunur. Əsərlərində “Dan yıldızı” getdiyinə görə isə bu adı saxladıq (Bax: 10).

hadisələrin iştirakçısıdır və azadlığın, inqilabın yaradıcısıdır. Xalqın taleyinə açılan azadlıq səhərini seyr etdikcə sonsuz bir fərəh və sevinc içində çırpınır:

Uçurdu dağlara quş kimi ceyran,
Boylana-boylana səmada tərlan
Oxurdu türkülər səmiə pünhan,
Birləşin: – dedilər, bir şüar gördüm (31, 34).

“Dan yıldızı”na klassik şeirə xas ifadə və obrazlar, romantik şeir üslubu, xalq şeirinə – qoşmaya uyğun forma seçilsə də, məzmunca yeni və müasir təsir bağışlayır. Nikbinlik, ictimai ruh yüksəkliyi, sosialist inqilabının gətirdiyi ümumxalq sevinci, “Bütün ölkələrin proletarları, birləşin!” şüarına işarə - intixab şeirin lirik xarakterinin ruhuna, yaşantılarına hakimdir...

M.Hadinin “İlaheyi-hürriyyət” şeirində olduğu kimi burada da səhər dəyişdirici bir qüvvədir yeli əsir, dumanları dağıdır, təzə dövran, yeni coşqun sellərə dönərək xalqa səadət bəxş edir. Bu hissləri keçirən şair –

Əsirdi durmadan bir başa yellər,
Döyürdü bağrını dağ-daşa sellər.
Gülürdü ağ geyib, ağlayan ellər,
Bu haqqı danammam, aşikar gördüm (31, 34)

– deyir.

“Tufan”, “yel”, “səhər”, “yaz günəşi”, “qarlı qış”, “şimal rüzgarı” kimi obrazlar Səməd Vurğun şeirində müstəqim mənada deyil, inqilabın – yeninin təbii hadisələrin köməyi ilə qavranılan poetik təcəssümü kimi işlədilir və zamanın, dövrün ictimai-siyasi ruh yüksəkliyini ifadə edirdi.

Göründüyü kimi, “Göy göl”dən tutmuş “Dan ulduzu”na, “Dan yıldızı”ndan “Kür çayı”na, sonuncudan da “Fanar” şerinə

qədər Səməd Vurğunun romantik üslubu getdikcə cilalanır, formalaşır, özünün təsir mənbələrindən fərqlənir, "Fanar"dan sonra isə bu romantik üslub yeni orijinal bir keyfiyyətə keçir. Bu şeir Vurğun romantikasının perspektivini müəyyənləşdirir. Bədii ehtiras hələ zəif olsa da fəal, inqilabi, yeni məzmunlu romantikanın ilk nümunəsi kimi bu şeir S.Vurğun lirikasında mühüm yer tutur.

"Fanar" şeiri 1930-cu ildə yazılmış və çap olunmuşdur. Səməd Vurğun 1932-ci ildə dərc edilən ikinci kitabına da "Fanar" adını təsadüfən verməmişdir.

"Fanar" şeirnndə yeni keyfiyyətlərdən biri də budur ki, S.Vurğun romantikası bəhrələnmə hüdudlarını genişləndirərək "sosialist estetikasının təcrübi məktəbi" (35, 190) olan V.Mayakovski şeirinə yaxınlaşır, sosialist realizm ədəbi metodunun tələblərinə daha sıx uyğunlaşır... Artıq, bu şeirdən S.Vurğun romantikası yeni estetik sistemin – sosialist realizminin tərkib hissəsidir.

V.Mayakovski şeirinin obrazlar aləmində olan əzəmət və cəsarət, onun şairanə vüsəti, aktuallığı, tirbun pafosu və siyasi kəsəri, qabaqcıl inqilabi ideyaları mənimsəmə bacarığı, sosialist varlığını tərənnüm etməyə həmişə cəhd göstərmək kimi xüsusiyyətləri, həm də, dövrün ədəbi tələbi kimi gənc sovet şairlərinə güclu təsir bağışlayırdı, onları sosialist poeziyası yollarına çıxarmağa kömək edirdi.

Bu cəhəti xatırlayan Səməd Vurğun deyir: "Mənim otuzuncu illərdə yazdığım "Raport" və "Fanar" əsərlərim bilavasitə Mayakovskinin təsiri altında yaranmışdır. Bu şeirlər mənim o illərdə yaradıcılığımda bir dönüş mərhələsi idi. Bu şeirlərdə mən Mayakovskinin ardınca gedərək ilk dəfə aydın və açıq siyasi dildə şeir yazmışdım.

"Fanar" şeiri bütün dünyada kommunizmin qələbəsinə inam ruhunda yazılmışdır. Mən beynəlxalq kommunizm hərəkatının

həqiqi mənzərəsini yaratmağa cəhd etmişəm... həmin şeir mənim yaradıcılığımı geniş sosializm realizmi yoluna aparıb çıxartdı" (35, 211).

Lirik xarakterin hiss və düşüncələri, qənaətləri, ideya və fikirləri romantik – simvolik obraz olan "Fanar" ətrafında mərkəzləşir:

Dərin
        dənizlərin
        arxasını göstərən
bir fanar,
     yanar,
             yanar,
                     yanar...
O fanar işıqladar,
        aydınladar
Şərqin sönən,
        söndürülən
        Ülkərini... (31, 95-96).

Göründüyü kimi, əvvəlki mövzulara həsr olunmuş şeirlərdən fərqli olaraq burada bənzətmələr qeyri-adi dərəcədə yeniləşmiş, ənənəvi obrazlara baxış və münasibət dəyişilmişdir. İndi "Dan ulduzu" – "Ülkər" obrazı əvvəlki ideya-bədii funksiyasını daşımır. Onun özünün işıqlanmasına, yanmasına səbəb lazımdır, bu səbəb isə fanar olmuşdur. Təkcə bir misra – "Şərqin sönən, söndürülən ulkəri" assosiativ şəkildə Şərqin tarixi keçmişini ani vaxtda göz önunə gətirir, panoram bədii lövhə yaradaraq yeniliyin əzəmətini canlandırır. Lirik xarakter mübarizələrdən, sinfi döyuşlərdən, qanlı-qadalı yollardan keçərək, böyük hadisələrin yaratdığı qəhrəman kimi meydana çıxır.

"Fanar" şeirinin təkcə obrazları deyil, ritmi, ahəngi,

misraların quruluşu da dünyaya nikbin poetik baxışa xidmət edirdi, lirik xarakterin tendensiya və ehtirası şeirin romantik üslubunu kəskinləşdirirdi. Bu şeirlərdəki başlıca inkişaf isə, hər şeydən əvvəl, xarakterin fikir və hiss tərzində nəzərə çarpırdı.

S.Vurğunun bu əsərindəki qabarıq forma xüsusiyyətlərindən biri şairin "sərbəst şeir" poetikasına müraciət etməsi ilə bağlıdır. Bu forma məlumdur ki, 20-ci illərdə törənmiş və Azərbaycanda çox az şair tapılar ki, ona əhəmiyyət verməmiş olsun. "Sərbəst şeir" poeziyamızın yenilik hərəkatının mühüm tendensiyalarından biri olub çox mürəkkəb, bəzən hətta müəyyən ziddiyyətlərlə şərtlənən bir inkişaf yolu keçmişdir. O, özü mürəkkəb hadisə olduğu kimi, ona münasibət də mürəkkəb olmuşdur. Lakin bir cəhət şubhəsizdir: sərbəst şeir inkişafının sonrakı mərhələlərində getdikcə müəyyən yanlış meyllərdən uzaqlaşaraq - "sosialist milli düşüncəsinin, duyğu tərzinin mümkün və fəal bir ifadə formasına çevrilmişdir" (90, 124-125).

Bu şeir hadisəsinə S.Vurğun da laqeyd olmamışdır və bu fakt poeziyamızda sərbəst şeir tarixinin prinsipial əhəmiyyətə malik epizodudur.

Səməd Vurğun ilk dəfə 1929-cu ildə "Şairin andı" şeirində bu formaya müraciət edib, sonralar da bu formada bir sıra əsər qələmə almışdır, lakin sərbəst şeir onun yaradıcılığında xarakterik yer tuta bilməmişdir. B.Vahabzadə isə bu halı qanunauyğun sayır və onun "Sərbəst vəznə" (?) müraciətini "əsasən şairin öz yaradıcılıq tələbindən doğduğu" (28, 49) nəticəsinə gəlir.

Bizcə, S.Vurğunun sərbəst şeirə müvəqqəti meyli 20-30-cu illər ədəbi mühitində baş verən hadisələrə daha çox uyğundur və hamı kimi S.Vurğun da bu mühüm ədəbi hadisədən kənarda qalmamışdır və qala da bilməzdi. Bu şairin "öz yaradıcılıq tələbindən" deyil, "poeziyamızda sərbəst şeir meyli həmin illərin, həmin dövrün ictimai həyatının öz daxili coşğunluğundan, dinamikasından, bəlkə də, ideoloji tələbin-

dən doğan qanuni və zəruri bir hal idi... Yeni ictimai və poetik məzmun tələb edirdi ki, Azərbaycan poeziyasının *həm bədii təcrübədən keçmiş, həm də keçməmiş bütün imkanları səfərbərliyə alınsın, yaradıcılıq prosesinə cəlb olunsun, yeniliyə xidmət səviyyəsinə qaldırılsın"* (6, 186) (Kursiv bizimdir – Q.B). Həmçinin, o dövrdə sərbəst şeir yazmaq yeniliyin, novatorluğun atributu sayılırdı. Məhz, bu mənada Səməd Vurğunun sərbəst şeir formasında yazması ədəbi-bədii təcrübədən başqa bir şey deyildir.

Şairin qələmi siyasi mövzularda getdikcə püxtələşir, bir sənətkar kimi yetkinləşir, sərbəstdə də, heca vəznində də o, yeni dövrün həyəcanlarını əks etdirməyə çalışır. (Əlavə bax: 75; 169).

"30-cu illər poeziyasının inkişafında əlamətdar cəhətlərdən biri yeni, sosialist məzmunlu lirikanın daha da zənginləşməsi, həyatla əlaqəsinin daha da dərinləşməsi və möhkəmlənməsi idi... Lirik poeziya həm məzmun, ideya, qəhrəman nöqteyi-nəzərindən, həm də forma, janrın imkanları cəhətdən xeyli inkişaf etmiş, müxtəlif və rəngarənglik keyfiyyətinə yiyələnmişdi[1] (9, 259).

Bütün bu əlamət və keyfiyyətlər fərdi-üslubi orijinallıqla S.Vurğun poeziyasında da var idi.

Bu dövrdə şairin dünyagörüşü və şəxsiyyəti də xeyli inkişaf edib yetkinləşmişdi. "Şairin andı", "Fanar", "Könül dəftəri" (1934), "Şeirlər" (1935) kitablarının nəşri S.Vurğunu sovet şeirinin ön sıralarına çıxarmışdır.

Şair bu illərdə ədəbi-ictimai həyatda və respublikada yaradıcılıq işinin təşkilati tədbirlərində fəal iştirak edirdi. 1934-cü ildə o, Azərbaycan Sovet Yazıçıları İttifaqının məsul katibi seçilmiş, Sovet yazıçılarının birinci Ümumittifaq qurultayına nümayəndə göndərilmiş, SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinə üzv olmuş, orada görkəmli sovet yazıçıları ilə yanaşı, böyük proletar ədibi M.Qorki ilə görüşmüşdür.

[1] İcmalın müəllifi filologiya elmləri namizədi Ş.Salmanovdur.

Belə bir miqyasla, sürətlə artan şair şəxsiyyəti özünün yaradıcılıq nüfuzu ilə birləşdiyi bir vaxtda onun poeziyası yetkinlik dövrünə qədəm qoymuşdu. Şairin şəxsiyyəti ilə yaradıcılığı arasında bu üzvi əlaqəni müəyyənləşdirən akademik K.Talıbzadə yazır: "Vurğun poeziyası dosta məhəbbətlə, düşmənə nifrətlə doludur. Şairin şəxsiyyətinə xas olan bu cəhətlər onun lirik qəhrəmanının xarakterik xüsusiyyətlərindən birini təşkil edir" (176).

Əgər şərti olaraq 1927-1932-ci illəri şairin poetik və estetik idealının formalaşması dövrü hesab etsək, deyə bilərik ki, bundan sonrakı illərdə S.Vurğun poeziyasının yetkinlik dövrü başlanır, lirik qəhrəmanın xarakterlər silsiləsi nisbətən bütövləşir və lirik qəhrəman bitkin bir xarakter kimi canlana bilir.

S.Vurğun qardaşına hələ, 1926-cı ildə göndərdiyi məktubda yazırdı: "Mənim ədəbi fəaliyyətim artıq sayılmaq üzrədir. Bu azdır. Mən əzilənlər tərəfdarı olduğumu əsrin bəbəklərinə taxmalıyam" (Bax: 14)[1]. Artıq, 1932-ci ilin sonlarına doğru şair bu məramın öhdəsindən bacarıqla gəlmişdi.

S.Vurğunun bu illərdə həyata münasibətinin, gerçəkliyi dərketmə bucağının özü dəyişir, təkmilləşir, zamanın ruhuna daha yaxın olur. Belə ki, S.Vurğun poeziyası 30-cu illərdə müəyyən poetik axara düşür, öz məcrasını-üslubunu müəyyənləşdirir. Artıq tərəddüdlər, "inandırmalar" dövrü başa çatırdı, estetik-bədii idealın, bitkin, poetik xarakterin formalaşma yolu inamla davam edirdi.

Əvvəlki illərdən fərqli olaraq, S.Vurğunu əsasən həyatın ümdə bir cəhətin daha çox cəlb edirdi – yeni quruculuq, kollektivin coşğun əmək sevinci və bunun insan psixologiyasına, şəxsiyyətinə təsiri. Məsələnin bu cür qoyuluşu, poetik problemin belə bir yöndən həllinə cəhd etmək onun poeziyasını həyata daha

[1] Məktubun tarixi akademik nəşrdə səhv olaraq 1929-cu il getmişdir. (Bax: 42, 121)

da yaxınlaşdırdı, konkretlik, faktın rasional cəhətləri ön plana keçdi, şeirin publisistik ruhu qüvvətləndi, dövrün tələblərinə müvafiq yarandı. Əsrlərdən bəri ağır istismarçı zəhmətin əsarətində əzilən sadə əmək adamları humanist və əzəmətli sosializm quruculuğa yollarındakı daha ağır və çətin zəhmətdən yorulmur, əksinə, fərəhlənir, zövq alırdılar. S.Vurğun lirikası bu əmək və yaradıcılıq romantikası ilə nəfəs alırdı:

Dillərdə bayatı, kəsmə şikəstə,
Arxın kənarında pambıq dərirlər,
Biləklər çirməkli, döşlər önlüklü,
Hamısı torbalı, hamısı yüklü,
Tökür alınlardan puçur-puçur tər (31,121).

Lirik xarakterin fərəhi, nəşəsi yerə-göyə sığmır, o əfsanəvi bir qüvvə ilə aşıb-daşır, yeni romatik vüsətlə qanadlanır:

Bir dağam, qorxuncdur sıldırımlarım,
Əritsin düşməni ildırımlarım.
Bir oddur gəncliyim, yandıqca sönməz,
İnad bir insanam sözündən dönməz (31, 133).

Bu lirik xarakterin istəyi, arzusu da xeyli fərqlidir – o, yorulmaq bilməyən zəhmətkeşdir, birlik və qardaşlıq idealının daşıyıcısıdır, humanist beynəlmiləlçidir:

Qarışsın Qazağa Dilcan dərəsi,
Daha da birləşib olsunlar bir can
Yoldaş Azərbaycan, hinger Hayıtsan,
Bir də amxanaqo qızıl Gürcüstan (31, 135).

Şairin poetik həyəcanlarına qanadlı vüsət verən sosial-siyasi sərvət azadlıqdır, xalqın taleyində sosialist intibahı epoxasının başlanmasıdır:

Azad bir ölkənin azad oğluyam,
Mənim güc aldığım, qüvvət aldığım
Milyon işçilərin polad qoludur,
Bizim getdiyimiz Lenin yoludur (31, 133).

Elə Səməd Vurğun poeziyasının yeni dövrün axarına uyğunlaşması prosesi bundan ibarət idi ki, o, həyatın, gerçəkliyin tələb edilən vacib istiqamətini poetik həqiqətə çevirib onun estetik qiymətni verə bilirdi.

Əyanilik olsun deyə, S.Vurğunun bu dövrdə yaradıcılığına xas lirik xarakteri bir qədər konkret səciyyələndirək. Hər şeydən əvvəl, qeyd edək ki, o, gəncdir, səmimi olmaqla yanaşı, o həm də sadəlöhvdür, romantik bir ehtirasla həyata, gözəlliyə vurğundur; uğursuz eşqindən sitəmlər çəkir, lakin dəyanətli, yolundan dönməzdir, xeyirxahdır. Bu sifətlərlə bərabər zamanda inqilabın qələbələri uğrunda mübarizədə işirak edən bir fərddir. Onun ziddiyyətləri də olub, lakin əsil yolundan dönməyib, "içindəki xəstə qurdları öldürə-öldürə" yeni həyata qəlbən inanıb, "nəbilərin, allahların, kralların, şahların ölümünə qərar yazan", inqilabın əsgəri olub, azadlığı bayraq kimi çiyinlərində daşıyıb... Bütün bunlar dövrün, zamanın tələbi idi...

Bu lirik xarakter Səməd Vurğunun 1931-ci ildən qələmə almağa başladığı, əsas hissələri mətbuatda 1935-ci ildən çap edilən və ömrünün sonuna qədər üzərində işlədiyi ən dəyərli epik əsərlərindən biri olan "Komsomol poeması"ndakı Şahsuvarın, Cəlalın, Bəxtiyarın sanki doğma qardaşıdır, onların silahdaşı və döyüş yoldaşıdır. Bu epik surətlər bayaq xarakterizə etdiyimiz lirik xarakterin, mühüm tipik cəhətlərini özlərində cəmləşdirirlər; həm də söz yox ki, bu cəhətlər həmin epik qəhrəmanlarda dəyişilərək inkişaf edərək təcəssümünü tapmışdır.

Bu inkişafla əlaqədar olaraq indi gerçəkliyə romantik baxışın mahiyyəti də tamam yeni və özünəməxsusdur. Əgər əvvəllər bu baxış ənənədən gələn ayrı-ayrı bədii obrazlar vasitəsilə verilirdisə,

poetik faktın özü romantik dona geydirilirdisə, indi romantika hadisədən doğur. O, torpaqdan güc alır, şairin səyyar xəyalı ilə qol-qola, qanad-qanada üfüqlərə yüksəlir. Poetik hadisənin elə konturları, elə cizgiləri götürülür və sözlər elə bir ehtirasla sıralanır ki, mahiyyətin özü romantik fonda göz önündə canlanır.

Burada uydurma hadisə, qeyri-adi təsvir qəlibi yoxdur, ancaq hadisələr məlum həqiqətlər və qənaətlər poetikləşdirilmişdir: Şairin lirik xarakteri ümumiləşdirici qüvvə, miqyas kəsb edir, şair tək öz adından yox, inqilab adından danışır:

Biz az döyüşmədik qoca dünyada,
Qorxub çəkinmədik isti qanlardan.
Atımız ölüncə getdik piyada,
Çıxdıq o qarışıq imtahanlardan.

Sibir düzlərində, Türkmən çölündə,
Açıldı qolların dəmir bağları.
Nevada, Volqada, Baykal gölündə,
Cahillər boyunca qovduq ağları (31, 150-151).

Şeirin bu möhtəşəm lirik intonasiyasında bədii-sintaktik tərkibin, söz seçiminin, söz düzümünün rolu az deyildir.

Görünur, "qoca dünya", "isti qan", "qarışıq imtahan" anlayışlarının yaratdığı assosiasiyanın mərkəzi "döyüş" fokusunda cəmlənməsi, sonra isə bunları müxtəlif rakruslarda-"Sibir düzləri", "Türkmən çölü", "Neva", "Volqa", "Baykal" coğrafi genişliyində paylanması və yenidən vahid bir, bədii-məntiqi düyümdə təqdimi şeirin poetik tamlığını yaradan əsas forma və sənətkarlıq ünsürlərindəndir.

Bu iillərdə S.Vurğun şeirində həyatı epik əhatə meyli də vüsət tapırdı. Məişət mövzularından tutmuş, geniş ictimai hadisələrə qədər mühüm mövzular S.Vurğun qələmində təkrarsız

poetik həllini tapa bilirdi. Şair üçün əhəmiyyətli, yaxud az mənalı mövzu yox idi. “Səməd Vurğunun poetik fikri dünyanın taleyi ilə möhkəm tellərlə bağlanmışdı. Dünyada baş verən hər bir yeni hadisə onun fikrini hərəkətə gətirir, yaradıcılıq qüdrətini artırırdı” (176). İlk baxışda adi, gündəlik hadisə belə onun şeirində ictimai, siyasi, fəlsəfi mahiyyətdə işlənirdi.

30-cu illərdə bəzən, müasir mövzu problemi vulqar mənada başa düşülür və bunun nəticəsində mövzular ciddi və qeyri-ciddi deyə, süni şəkildə bölünür, insani hissləri, psixoloji məqamları təsvir etməklə mənəviyyat aləminə enmək sovet şeiri üçün məqbul sayılmırdı.

S.Vurğun belə hallara cavab olaraq deyirdi: “Bəzi yazıçılarımız işlərimizi doqmatik olaraq düşünürlər. Ona görə də onların varlığını yalnız əmək şəraiti ilə məhdudlaşdırırlar. Odur ki, belə yazıçılar əmək prosesini elə verirlər ki, bu, ölü, cansız, quru mexaniki hərəkətlər məcmusu olur. Lakin unutmamalıyıq ki, əməyi yaradan canlı insanlardır. Bu canlı insan bəzən sevir, sevilir, bəzən iztirab çəkir, xəyala dalır, bəzən müxtəlif təbiət gözəlliklərindən daha saf, daha dərin təsirlər alır” (41, 7).

Məsələnin bu cür qoyuluşu təkcə 30-cu illərdə və yalnız Azərbaycan ədəbiyyatına aid deyildir. Ədəbiyyatın vəzifəsi, onun mövzu əhatəsini müəyyənləşdirmək üçün uzun müddət, ümumən sovet ədəbiyyatşünaslığında, o cümlədən bizdə ciddi mübahisələr getmiş, bir çoxları şeiri “şəxsi” və “ictimai” deyə qarşı-qarşıya qoymuş, bununla lirikanın əhatə imkanlarını daraltmışlar. (Məlumat üçün bax: 140, 18).

Məhz belə ziddiyyətli konsepsiyalara qarşı nəzəri cəhətdən duran S.Vurğun, təcrübi şəkildə sübut etmək, istəyirdi ki, poeziya bölünməzdir, tamdır. Poeziyada böyük və ya kiçik mövzu yoxdur, mövzuya geniş və ya dar, məhdud baxış vardır. Bunun üçün o, macar şairi Hidaşdan iqtibas etdiyi, lakin tam sərbəst yazdığı “Sevgi” şeirini çap etdirir. Şeirə izah yazan redaksiya xatırladır ki,

“bu şeir S.Vurğunun yeni sevgi lirikası yaratmaq uğrunda cəhdidir”[1]. Bunun ardınca S.Vurğun “Sevgi”, “Sevirəm”, “Bəzək və zinət”, “Anamın dərdi”, “Sevgilimin qılığı”, “Dəniz gəzintisi”, “Çənə söhbəti”, “Cəbhədə”, “Təranə” kimi silsilə məhəbbət şeirlərini və “Komsomol” poemasında yeni məzmunlu epik-romantik məhəbbət səhnələrini yaratmışdır. Bu şeirlərin leytmotivini aşağıdakı misralar dəqiq və yaxşı ifadə edir:

Mən də bir insanam, mən də canlıyam,
Mənim də qəlbimin arzuları var.
Deyirlər arabir dəliqanlıyam,
Çox da deyinməsin dalımca əğyar,
Mənim də qəlbimin arzuları var... (31, 160).

Müasir insanın – lirik qəhrəmanın sevgisi, duyğusu, münasibətləri, ailənin ictimai məna və rolu, cəmiyyətinin yaratdığı yeni ailənin xüsusiyyətləri bu şeirlərdə əsas poetik mündəricəni təşkil edir. Şərq qadınlarının keçmiş həyatının, acınacaqlı vəziyyətinin romantik və epik təsviri fonunda canlanan yeni qadının lirik obrazı əmək cəbhəsində də, döyüş meydanında da, ailədə də, evdə də yeni etik və estetik idealın daşıyıcısıdır...

30-cu illərin ortalarına doğru, S.Vurğun lirik qəhrəmanına zamanlar toqquşmasından nəşət edən müairlik duyğusu, xalqına, vətəninə bağlılıqla mənalanan, beynəlmiləl ruhla yoğrulan xəlqilik, aydın siyasi mövqe, prinsipial ideyalılıq, mütəfəkkir düşüncə və ifadə səlisliyi hakim olmağa başlayır — “Azərbaycan” şeirinin yaranması prosesində isə artıq Vurğun poeziyasının lirik qəhrəmanı ilə qarşılaşırıq. Şairin şeirlərində müasir insanın aparıcı, xarakterik cizgilərini özündə cəmləşdirən lirik xarakterin vahid obrazı—lirik qəhrəman bütöv şəkildə ilk dəfə bu şeirdə

[1] Bax: “Hücum” jurnalı, 1932, №3-4, s. 27

görünür. Artıq bu qəhrəmanın halı, xasiyyəti, ictimai idealı, mənəvi saflığı, həyata baxışı, gerçəkliyi özünəməxsus qavrama bacarığı formalaşmışdır. Bu, Azərbaycan vətəndaşının ümumiləşdirilmiş lirik surətidir ki, tipik bir xarakter kimi təşəkkülü "Azərbaycan" epopeyasının yazılması ilə başa çatdı və bu epopeyanın proloqunda zəmanəsinin canlı, tipik əlamətlərini özündə cəmləşdirən müasir qəhrəman səviyyəsinə yüksəldi.

Səməd Vurğunun ev arxivində üzü qırmızı qumaşdan olan iri bir dəftər vardır.[7] Dəftərin titul vərəqində S.Vurğun latın əlifbası ilə "Azərbaycan", bir az aşağıda "Tarixi poema" (1934-1935), "Səməd Vurğun", "Bakı" sözlərini yazmışdır. Dəftər 134 səhifədən ibarətdir. Poema "Şairin türküsü" adlı şeirlə başlanır. Bundan sonra ayrı-ayrı sərlövhələr altında, tamamlanmış süjetə malik parçalar gəlir. Bunlar "Torpağın tələbi", "Sərgüzəşt", "Zərdüştün xülyaları", "Ölən məhəbbət", "Bulaq əfsanəsi", "Qılınc və quran", "Dar ağacı", "Füzulinin dərdi", "Qız qayası", "Şairin ölümü", "Aslan və Mahniyar", "Acı xatirələr", "Ölməz qəhrəman", "Ordenli qəhrəman" poemalarından ibarətdir.

S.Vurğun bu barədə yazırdı: "Son zamanlar mən "Azərbaycan" adlı böyük bir epopeya yazmışam. Burada mənim vətənimin iki min illik tarixinin əsas mərhələləri, ona azadlıq gətirən sovet illəri öz əksini tapmışdır. Epopeya Azərbaycan xalqının azadlıq mübarizəsinə, böyük partiyamızın göstərdiyi tarixi xidmətlərə həsr edilmiş "Ordenli qəhrəman" poeması ilə qurtarır" (34, 73).

Epopeyanın proloqu kimi nəzərdə tutulmuş "Şairin türküsü" indi geniş şöhrət qazanmış, dillər əzbəri olan "Azərbaycan" şeiridir[1]. Bunu da qeyd edək ki, "Azərbaycan" şeiri ilk variantda

---

[7] Səməd Vurğunun Ev Muzeyindəki "Əl yazmaları" saxlancı.

[1] S.Vurğunun "Epopeya" adlandırdığı bu əsəri Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 15 illiyi münasibəti ilə keçirilən müsabiqəyə təqdim etmək istəmiş, sonra nədənsə fikrini dəyişmişdir. Lakin indi həmin "Epopeya"nı şairin nəzərdə

"Şairin türküsü" adlandırılıbdır. Elə bu adla da, şeirin on bəndini 1935-ci ildə "Kirovabad bolşeviki" qəzetinin 7 iyun tarixli 129-cu sayında dərc etdiribdir. 1936-cı ildən başlayaraq isə müəllif bu şeiri "Azərbaycan" adlandırmış və bu adla "Poemanın proloqu" qeydi ilə, əlavə bəndlərlə "Ədəbiyyat qəzeti"ində (7 noyabr, 1936, №27) nəşr etdirmişdir.

Məlumdur ki, ədəbiyyatımızda istər S.Vurğundan qabaq, istər onun yaşadığı dövrdə, istərsə də sonralar Azərbaycan, vətən məhəbbəti mövzularında, hətta adları da "Azərbaycan", "Vətən" olan çoxlu şeir yazılmışdır. Bu şeirlərin əksəriyyəti doğma Azərbaycana – müqəddəs Vətənə olan böyük məhəbbəti bilavasitə əks etdirmək, onu nəğməyə çevirmək ehtiyacından yaranmışdı. Lakin bu şeirlərin heç biri S.Vurğunun "Azərbaycan"ı qədər şöhrət qazana bilməmişdir. Bunun, əlbəttə, bir sıra səbəbləri vardır. Lakin ən ümdə səbəb "Azərbaycan" şeirində S.Vurğunun vətən mövzusunu dərin şair səmimiyyəti ilə qələmə almasından ibarətdir. Şeirdə Vətən hissi mücərrəd, ümumi hiss deyildir bu, canlı, qızğın bir hisslə yaşanmış vətəndaşlıq pafosudur; Vətəni xalq təfəkkürü, xalq mənəviyyatı, xalqın tarixi təcrübəsi ilə duymağın, dərk etməyin poetik məhsuludur. Məhz bu keyfiyyətlərə görə "Azərbaycan" Vətən mövzusunda təkrarolunmaz poetik kəşfdir.

Görkəmli rus sovet şairi, ədəbiyyatımızın yaxşi dostu Nikolay Tixonov demişdir: "Səməd Vurğun xalq nəğməkarıdır, xalqın içərisindən çıxmışdır, xalqın bütün bəlalarına şərik olmuşdur. Onun öz məşhur şeirində bu misraları ucadan deməyə haqqı vardır:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən,

---

tutduğu, tərtib etdiyi strukturda nəşr etməyə möhkəm əsas olduğu kimi, ciddi ehtiyac da vardır.

Anam, doğma vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan (97, 132).

S.Vurğun haqqında yazan, onun yaradıcılığını tədqiq edən az müəllif tapılır ki, bu və ya digər məqsədlə "Azərbaycan" şeirini xatırlatmasın, ondan yan ötsün... S.Vurğunun dramaturgiyasında "Vaqif" nə deməkdirsə, lirikasında da "Azərbaycan" şeiri həmin məntiqə müvafiqdir. Bu şeir S.Vurğun poeziyasının vuran qəlbi, poetik açarıdır. Ə.Ağayev yazır: "Azərbacan" şeiri – dillər əzbəri olan bu himn, bu mahnı, bu poetik dəstgah Səməd Vurğun poeziyasının proqram mahnısıdır, onun bədii meyarının ifadəsidir, onun poetik kredosudur. Məhz bu şeir 30-cu illərdə şairin keçdiyi yaradıcılıq yolunun və bədii fikri yüksəlişinin devizidir. Məhz bu şeir Azərbaycan sovet poeziyasının 30-cu illərdən yaradıcılığa başlayan böyük qüdrətli bir dəstəsinin yolunu işıqlandırmışdır (7, 188).

S.Vurğun özü də, bu şeirinə belə yanaşmış, onun bədii-estetik qayəsinin "həyat proqramı" hesab etmişdir: "Azərbaycan" şeiri mənim həyatıma, bütün həyat proqramıma uyğundur. Mən nə qədər yaşayıb-yaratsam, 1933-cü ildə yazdığım bu kiçik şeirə aşıladığım motivləri bütün əsərlərimdə oxuyacaq, duyacaqsınız" (34, 273)[1].

S.Vurğun Vətənin gözəlliyindən ürək dolusu, böyük heyranlıqla danışır, doğma diyarın hər bir parçası onun nəzərində müqəddəsləşir və şair ana torpaqda elə rənglər, elə cəhətlər aşkar edir ki, oxucu bu lövhəni, bu yerləri dəfələrlə görsə də, şeiri oxu-duqdan sonra əsas mahiyyəti dərk edir, sinə dolusu nəfəs alır, iftixar hissi keçirir. V.Q.Belinski yazır: "Rübabi ədəbiyyat yalnız musiqi ilə müqayisə edilə bilər. Hətta elə rubabi şeirlər var ki,

[1] Səhv olaraq bu şeirin yazılma tarixi 1935-ci il göstərilir.

onlarda şeir ilə musiqini bir-birindən ayıran hədlər demək olar ki, tamamən ortadan qalxır" (26, 15).

"Azərbaycan" şeirində də vəziyyət bu cürdür Burada şeirlə musiqi, poetik obrazla musiqi obrazı çox ulvi şəkildə birləşmişdir. Lakin şeirin poetik hüsnü və ləyaqəti təkcə bu deyildir; onun ümdə məziyyəti, zənnimizcə, Vətən hissinin genişliyində və ümumiləşdirmə gücündədir. Şeirdə lirik qəhrəmanla qovuşmuş şair "mən"i qabarıqdır, fəaldır: Şairin lirik qəhrəmanı vətən obrazı ilə pralel olaraq inkişaf edir; onun hissləri və düşüncələri Vətənin təbiəti və tarixi ilə qırılmaz bir vəhdət təşkil edir. Burada artıq o, yetkin lirik qəhrəmandır, Vətən haqqında romantik-epik düşüncənin daşıyıcısıdır:

Çox keçmişəm bu dağlardan,
Durna gözlü bulaqlardan,
Eşitmişəm uzaqlardan
Sakit axan arazları,
Sınamışam dostu, yarı...

Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana:
Hankı səmtə, hankı yana,
Hey uçsam da yuvam sənsən,
Elim, günüm, obam sənsən (31, 220).

Bunların arasında şeirin şah bəndi gəlir. Bu bənd şeirdə bir daha təkrar olunmasa da, o, demək, odur ki, bütün şeirin leytmotividir:

El bilir ki, sən mənimsən,
Yürdum, yuvam, məskənimsən,
Demək, doğma vətənimsən!

Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan (31, 218).

Lakin bu bənd bütünlükdə şeirin nəqaratına çevrilir. Sonrakı hər bəndi oxuduqca sanki duyulmayacaq bir tərzdə onlarla bərabər oxunur, dil bunu təkrar edir, ürək onu həmişə, “Azərbaycan, Azərbaycan” qeyri-ixtiyari, pıçıltıya çevrilmədən odlu hisslərin arasından göyərçin kimi pərvazlanır.

V.Q.Belinski Dezdemonanın nəğməsindəki “Ah söyüd, ah söyüd, ah yaşıl söyüd” misrasını misal gətirib “misra... dərin bir mənaya malikdir; bu məna, onu ifadə etməkdən aciz olan sözdən məhrum olub duyğuya, musiqi ahənginə çevrilmişdir... Buna görədir ki, bu misra qəlbə bu qədər təsir edir və onu sonsuz bir kədərin, dadlı iztirab duyğusu ilə həyəcana gətirir” (26, 16-17) – deyəndə, çox haqlı imiş. Eyni sözü S.Vurğun şeirinin bu bəndi haqqında da demək olar. Onu təşkil edən sözlər çox adi, sadə sözlərdir; lakin onlar şeirdə necə təbii, ahəngdar, müsiqili düzülüblər? Bu misralarda məna və ahəng, fikir və musiqi ayrılmazdır, bütövdür və bu adi sözlər şeirdə istedadın sehri ilə qeyri-adi məna və mahiyyət qazanır...

Bununla yanaşı, poetik mətnin mərkəzində dayanan Vətən obrazı şeirdə əsas lirik obrazdır; şairin lirik qəhrəmanı da onun vasitəsi ilə özünü ifadə edir. Qəhrəmanla bu obrazın ideya-hissi vəhdəti “Azərbaycan” şeirinin poetikasını yaratmışdır. Vətənin lirik obrazı şairin məhəbbət və səmimiy-
yətindən yaranır şeirin pafosunda, ahəngində, musiqililiyində ortaya çıxır, xalq təfəkkürünün güclü obrazlarının köməyilə səslərin uyarlığında, alliterasiyasında reallaşır, əyaniləşir:

Hey baxıram bu **düzlərə,**
Ala **gözlü gündüzlərə**;
Qara **xallı** ağ **üzlərə**
**Könül** istər şeir **yaza;**

Gəncləşirəm **yaza-yaza** (31, 220-221).

Lirik qəhrəman ətrafına əqlinin, zəkasının, qəlbinin gözü ilə baxır. Bu baxışda onun öz boyu öz ucalığı azlıq edir. Yox, öz boyun bərabəri baxsan bu qədər aydınlıq və bu qədər vüsət görüb, duyub, anlaya bilməzsən. Bunun üçün zirvə lazımdır. Uca Qafqaz zirvəsi, Qoşqar, Kəpəz, Heydərbaba zirvəsi...

Sanki lirik qəhrəman bu zirvədə hakimdir və təsəvvürünüzə gətirin ki, o, bu zirvədən Vətənin keçmişinə, bu gününə və gələcəyinə vüsətli şairanə nəzər salır. O, sanki kinokamera vasitəsi ilə Azərbaycanda gözəl, munis nə varsa, keçmişindən tutmuş bu gününə qədər hər şeyi göstərir, obyektivi gah uzaq tarixlərin, zamanların arxasına, gah bu günə, gah da gələcəyə tuşlayır, poetik fikrin canlandırma, duyma məsafələrinin görmə bucaqlarını tez-tez dəyişir.

“Bilinməyir yaşın sənin, Nələr çəkmiş başın sənin”, “Duşdün uğursuz dillərə, nəs aylara, nəsillərə” misraları oxucu xəyalını uzaq tarixlərə çəkib aparır, gözlərinin qarşısında xalqın, ölkənin taleyi səhifə-səhifə varaqlanır. Birdən təsvir, tərənnüm öz istiqamətini qəflətən dəyişir. Təzədən şair hazıra qayıdır, gah Xəzərin ləpədöyənini, gah Muğanın zəmilərini, gah da Astaranın, Lənkəranın limon bağlarını canlandırır. Oxucu şairin təsvirində Qarabağın ürəkaçan mənzərələrinə baxa-baxa Xanın məlahətli zəngulələrinə qulaq asır, gah yenidən Nizamilərin, Füzulilərin poeziya dünyasında özünü hiss edir, gah da dönüb xoşbəxt gələcəyə yollanır...

Ümumiyyətlə, “Azərbaycan” şeiri xalqın mənəvi sərvətləri, hünəri, əməyi, estetik baxışları haqqında, sənəti, dühası haqqında lirik monoloqdur. Burada şair “mən”i xalq mənəviyyatı ilə qaynayıb-qarışmışdır. Bundan əlavə, şeirin bir məziyyəti də vardır. Bu xalqın yeni mənəviyyatının – yeni dövrdə formlaşan mənəvi simasının şeirdə dolğun, bitkin, yüksək şairanə səmimiyyətlə ifadə

olunması məziyyətidir...

Mənalı odur ki, bu geniş, ciddi məzmunda, xalq hissinin ifadəsi uçün şair çox uğurlu, sadə, bitkin forma, yəni vəzn, ritm, bənd quruluşu, qafiyə sistemi tapa bilmişdir.

Son variant olaraq 22 bənddən, 110 misradan ibarət "Azərbaycan" şeiri (dastanı) hecanın qısa ölçülü formasında (8-liyin 4+4 bölgüsündə) yazılıb, ancaq bu sadəlik şeirin məna tutumuna, emosional genişliyinə qətiyyən mane olmur. Yüksək şüurlu vətənrərvərlik hissinin poetik təcəssümü üçün səkkizliyin seçilməsi şairdən böyük cəsarət tələb edir. Belə formada fikrin son dərəcə konik, aforistik bir tərzdə ifadəsi heç də asan iş deyildir. Misralarda, bəndlərdə səslərin uyarlıqı, bir-birilə uyuşması, sözlərin oxşarlığı, təbii və üzv şəkildə əlaqələnməsi bu şeirin nəğmə kimi meydana çıxmasına səbəb olmuşdur. Eyni ahəngli səslərin təkrarı şeirdə harmonik fon yaratmış, hər bir bənddə səs uyuşmaları şeirin musiqiliyini artırmışdır. Ümumiyyətlə, təkcə sözün zahiri uyarlığı deyil, onun xisləti, məna çaları, gözəlliyi S.Vurğun şeirində yenn keyfiyyətlə zənginləşir, söz, ifadə, obraz bu sənətdə poeziya sehrinə düşür. Xalq yazıçısı, akademik M.İbrahimov demişkən, "Vətən" sözü, "Azərbaycan" sözu Səməd Vurğunda xüsusi bir ahəng, müəyyən özəllik va məlahət kəsb edir (67).

Bu iki cəhət – söz və mənanın ahəngdar birliyi S.Vurğun şeirinə müstəsna bir cazibədarlıq gətirmişdir:

Min Qazaxda köhlən **ata**,
Yalmanına **yata-yata**,
**At qan-tərə bata-bata**,
Göy yaylaqlar belinə **qalx**,
Kəpəz **dağdan** Göy gölə **bax**!.. (31, 222).

Bu bənddə 16 sözdən istifadə olunub və bütün bənddə

alliterativ ünsürün, güclü, fəal olduğu görünür. Kursivlə verilmiş sözlərin səs uyarlığından başqa “köhlən”, “yalman”, “yata-yata”, “göy yaylaqlar”, “Göy göl” sözlərindəki “y”, “l” samitlərinin təkrarı “gah”, “göy”, “Göy göl” səs tərkibləri, “ağ”, “ax”, və “t-t” samitinin yaratdığı ahəng – bütün bunlar şeirdə musiqiliyin əsasını təşkil edir; şair vətənin obrazını təkcə söz vasitəsi ilə deyil, həm də ritm, musiqi ifadəliyinin köməyi ilə yaradır. Səslərin bir-birini əvəzləməsi, onun gümrah ritmi elə bil köhlən ayaqlarının səsini əyaniləşdirir. Beləliklə, bütün bəndləri bu qaydada nəzərdən keçirsək, hər bəndin məzmununa uyğun eyni halın, mənzərənin şahidi olarıq.

"Azərbaycan" şeirində bütün şeir boyu qırmızı bir xətt keçir. Bəndləri bir-birinə bağlayan bu qırmızı xətt böyük şairin vətən sevgisi, vətənə olan məhəbbətidir. O, bu məhəbbəti bənddən-bəndə yeni rənglərlə, yeni çalarlarla, amma tam səmimiyyətlə izhar edir və sanki onu təkrar-təkrar nümayiş etdirməkdən zövq alır, rahatlıq tapır. Şeirində dəfələrlə vətənlə bağlı ifadə, o cümlədən, "Azərbaycan", "vətən", "elim", "obam", "yurdum", "yuvam", "məskənim" və sair bu kimi istilahları, ifadələri sevə-sevə işlətməsi, şairin bu torpağa, bu vətənə, bu yurda bağlılığının bariz nümunəsidir. Ölməz şair: “Anam, doğma vətənimsən! Ayrılarmı könül candan?” – deyərək, vətəni anası kimi doğma bilir, ona, ən əziz bir insana müraciət edən kimi, hər dəfə "Gözəl vətən!" deyə müraciət edir və bu ülvi sevgisini, hissini ən yüksək mərtəbəyə, ən ali səviyyəyə -- uşaq-ana, könül-can səviy-
yəsinə qaldırır:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən!
Anam, doğma Vətənimsən!
Ayrılarmı könül candan?

Azərbaycan, Azərbaycan! –

şeirin bu şah bəndi Azərbaycanda uşaqdan-böyüyə hamının könül nəğməsi, Vətənə, Azərbaycana sədaqət andıdır, müqəddəs məhəbbətin poetik etirafıdır… Bu bənd körpə uşaqlarımızın dil açarıdır, ilk əzbərlədiyi şeirdir, dilimizin ana südüdür…

Dahi şairin könülündən pərvazlanan, dillər əzbərinə çevrilən bu əsər, öncə alovlu şair ruhu, şair eşqi ilə yoğrularaq Vətən haqqında yazılmış zəngin informasiya yüklü, dahiyanə bir şeirdir, dəyərli bir poeziya nümunəsidir və həmçinin, onu Vətən haqqında – Azərbaycan haqqında poetik simfoniya da, kiçik, lakin böyük məzmunlu poetik ensiklopediya da adlandırmaq olar!!

Göründüyü kimi, şair söz sənətinin mahir ustası kimi əzablara qatlaşmış, qələmini tişəyə çevirib, söz qayalarından böyük sənət abidəsi ucaltmağa nail olmuşdur.

"Azərbaycan" şeiri poetik siqlətinin dərinliyi, möhtəşəmliyi və cazibəsi ilə, dünya ədəbiyyatının incisi hesab edilmiş, demək olar ki, dünya xalqlarının əksər aparıcı dillərinə, (həmçinin, S.Vurğunun digər əsərləri) Sovet xalqları ilə yanaşı, ingilis, alman, çex, çin, monqol, bolqar, polyak, rumın, ərəb, fars və başqa xalqların dillərinə ən məşur sənətkarlar tərəfindən tərcümə edilmişdir.

Məsələn, bu şeiri rus dilinə Adelina Adalis, belarus dilinə Maksim Tank, ingilis dilinə Qledis Evans tərcümə etmiş, bədii dəyərinə və məzmununa görə "Sovet İttifaqının poeziya antologiyasına", "SSRİ xalqlarının ədəbiyyat müntəxabatına" düşmüşdür...

"Azərbaycan" şeiri S.Vurğunun lirik qəhrəmanının xarakterik xüsusiyyətlərindən biri olan milli və bəşəri yetkinliyini bütün zənginliyi ilə meydana çıxartdı. Dastana dönmüş bu şeir şairin özü dediyi kimi, bir daha göstərdi ki, Səməd Vurğundan ötəri "ən

müqəddəs torpaq Azərbaycandır, ən doğma xalq isə Azərbaycan xalqıdır", onun dili və şeiri Səməd Vurğunun vicdan səsidir, Azərbaycan onun doğma anasıdır. Azərbaycan onun – Səməd Vurğunun ÖZÜ, SÖZÜ VƏ GÖZÜDÜR!!

Burda başqa bir məsələ də var – RUH məsələsi... "Azərbaycan" şeirində Azərbaycan xalqının, Azərbaycan məmləkətinin əbədi SÖZƏ bələnmiş, əbədi SÖZƏ bükülmüş ruhu var və bu RUH həmişəyaşardır... Bu şeirlə Səməd Vurğun söz sahibi oldu və söz mülkünün taxtı-tacına əbədiyyən yiyələndi!..

Səməd Vurğun poeziyasının dolğun həyat fəlsəfəsi, şeirinin estetik cövhəri xalqla, təbiətin vəhdətindən – Azərbaycandan doğulmuşdu... Səməd Vurğun poeziyası, belə demək mümkünsə, milli zehniyyətin məhək daşı, gizlinlərin açarıdır, poetik kodudur...

O, bu qəhrəmanın milli özünəməxsusluğunu dolğun ifadə etdiyi kimi, onun beynəlmiləlçi təbiətini də çox gözəl hiss etdirirdi. Məhz bu baxımdan, sözün tam mənasında söyləyə bilərik ki, Səməd Vurğun ədəbi yaradıcılığında milli dəyərlər xəzinəsi üzərində dayanaraq ortaya zəngin, mənalı bəşəri problemlər qoymuşdur...

Azərbaycan poeziyasının poetik manifestinə çevrilən "Azərbaycan" şeirində bu qəhrəmanın başqa bir xüsusiyyəti ilə də – onun gələcəyə qüvvətli meyli, baxışı, inamı ilə də rastlaşırıq. Sonrakı dövrlərdə S.Vurğun öz lirik qəhrəmanının bu ideya-estetik keyfiyyətlərini daha da dərinləşdirmiş, onun düşüncə üfüqlərini genişləndirmişdir...

Səməd Vurğun bəşəriyyəti xilas edə biləcək insan faktorunun dayana biləcəyi istinad nöqtəsini üzə çıxarmış və "Qalib gələcəkmi cahanda kamal?" – deyərək, ümumbəşəri fəlsəfi problemi ortaya qoymuş və möhtəşəm zehniyyətli lirik qəhrəmanını bu problemin həllinə yönəltmişdir... Bu dövrdən gur realist xəlqilik, cazibədar milli – etnoqrafik kolorit, xalis dünyəvi

nikbinlik fəlsəfəsi bu dahi şairin – Səməd Vurğunun poeziyasının ən bariz xüsusiyyətidir və bütün bunların daşıyıcısı isə onun ***yetgin lirik qəhrəmanıdır...***

# III FƏSİL

# LİRİK QƏHRƏMANIN YETKİNLİYİ

*Yetkin lirik qəhrəmanın yaranmasında yeni tipli lirikanın qabaqcıl ideya-estetik prinsiləri əsas vasitədir. Poeziyada gözəllik anlayışı və yeni insan konsepsiyası, şeirdə emosional və rasional tərəflər, konflikt və xarakter. Mövzu aktuallığı, forma müxtəlifliyi və novatorluq, yetkin lirik qəhrəmanın formalaşmasına xidmətdə...*

30-cu illər ədəbiyyatı dövrü prinsipə əsasən bütöv götürülsə də (bu tam qanunauyğunluqdur), ayrı-ayrı sənətkarların fərdi yaradıcılıq prinsiplərinə görə onu bir neçə mərhələyə ayırmaq olar. Əgər, ədəbi dövr ictimai-siyasi inkişafın qanunauyğunluqları ilə şərtlənirsə fərdi yaradıcılıq təşəkkülünü çox vaxt bu amillər əsasında təsnif etmək olmur; xüsusən poeziyada onun ideya-estetik prinsiplərinin inkişafı fərdi yanaşma tələb edir. Əlbəttə, bu halda yaradıcılığı ictimai-siyasi və ədəbi proses daxilində götürüb izah etmək vacib şərtdir. Bu, sənətkarın ideya inkişafına düzgün estetik qiymətin verilməsinin, onu əsərlərində gerçəkliyin bədii həqiqətə çevrilməsinin ümumi, spesifik xüsusiyyətlərinin səhih müəyyən edilməsinin əsas meyarıdır. Belə meyarı əsas götürdükdə tədqiqatçı poetik yaradıcılığın həm subyektiv, həm də obyektiv tərəflərini vəhdətdə nəzərdən keçirir. Bu qanun lirikanın tədqiqində də qüvvədədir; çünki lirika da nəticə etibarilə ictimai aləmin inikasıdır. Düzgün fikirdir ki, “lirik yaradıcılıq “şairin özündən başlasa da onunla qurtarmır” (143, 40).

Bu nöqteyi-nəzərdən, S.Vurğunun 30-cu illərin ortalarından yeni, daha vüsətli bir inkişaf yoluna düşən lirikasına nəzər saldıqda görürük ki, bu dövrdə şairin poeziyasında epik təsvir, varlığı epik duyum gücləndiyinə baxmayaraq, lirika yenə onun yaradıcılığının əsas qolu olaraq qalır, həm də ideya-mövzu

baxımından ictimai-siyasi hadisələr bu lirikada geniş əhatə olduğu kimi, bədii forma və poetik idrak cəhətdən də onun xeyli inkişaf etdiyi açıq nəzərə çarpır və S.Vurğunun lirikası yetkin bədii dünyagörüş əlamətlərini mənimsəyir.

Şairin yaradıcılığında özünü hiss etdirən bu yüksəliş Azərbaycan gerçəkliyindəki sürətli inkişafla, onun özünün qızğın ictimai fəaliyyətə başlaması ilə sıx bağlıdı. “1935-37-ci illər Səməd Vurğunun həyatında ayrıca bir mərhələ təşkil edir. Sovet xalqının həyatında olduğu kimi, yazıçıların yaradıcılığında da qələbə ruhu hakim idi. Bu dövrdə Səməd Vurğun partiya və dövlət işində, siyasi mübarizənin gedişində fəal surətdə iştirak edirdi. O, öz siyasi lirikası və atəşin çıxışları ilə mahir bir natiq kimi də tanınmışdı” (31, 44).

Səməd Vurğunun həyat və yaradıcılığının bu dövrünün mənzərəsinə qısa nəzər salsaq, onun istedadlı birsənətkar kimi necə sürətlə böyudüyünü, xalq arasında böyük nüfuz və etimad qazandığını görərik. O, bu dövrdə, bütövlükdə Sovet İttifaqının ən tanınmış şairi kimi diqqəti cəlb edir.

Şairin bu əzəmətli inkişafı hər şeydən əvvəl, onun lirik qəhrəmanının xarakterində, bu qəhrəmanı düşündürən fikirlərin böyüklüyündə meydana çıxırdı.

S.Vurğunun lirik qəhrəmanı ən çətin anında, ən xoşbəxt çağlarında leninizmə arxalanır, Leninin inqilabi təfəkküründən bəhrələnirdi:

Son andım
Leninizm bayrağımız,
Hindin uzaq sərhəddində
alınacaq sorağımız (31, 63).

Yaxud, Mikayıl Müşfiqə müraciətlə yazılan “Şairin səsi” şeirində bütün inamı və səmimiyyəti ilə deyirdi:

Bütün arzularım gülür yarına,
Xəyaldan ilhamlar almamaq üçün,
Baxıram Leninin kitablarına
Dəstədən geriyə qalmamaq üçün (31, 109).

S.Vurğun bir həqiqəti çox dərindən dərk etmişdi ki, sosializm uğrunda mübarizədə marksizm-leninizm nəzəriyyəsinə mükəmməl yiyələnmədən, əsrin qabaqcıl ideyaları ilə silahlanmadan lirik qəhrəmanın simasında müasir insanın böyük, aparıcı xüsusiyyətlərini cəmləşdirmək olmaz, onu əsrin qəhrəmanı səviyyəsinə qaldırmaq olmaz. Məhz buna görə S.Vurğun öz şair “mən”ini ictimai varlıqdan ayırmır, bəlkə əksinə, bu varlığa daha möhkəm və üzvi şəkildə bağlanır.

O, ictimai məsələlərə “siniflər döyüşündən törənən bir əsgər kimi” (31, 117) baxır və sona qədər də bir əsgər-şair kimi öz andına sadiq qalır.

“Günəşi yarışa çağıran böyük günlər şairi”nin (31, 128) bir çox hallarda prototipinə çevrilən lirik qəhrəman qürur hissilə deyir:

Döyüşdən yarandım, qolum qırılmaz,
Yollarda axsayıb qalsam da bir az,
Arxam qaranlığa... günə doğruyam...
Azad bir ölkənin azad oğluyam (31, 133).

Aydın görünür ki, S.Vurğun ən müxtəlif mövzularda belə V.İ.Lenin ideyalarına sadiqdir, bu mənəvi sərvətə dönə-dönə müraciət edir, şeirinin qayəsini, estetik idealını leninizm mövqeyindən şərh edir. S.Vurğunun lirik qəhrəmanı “fəhlə və kəndli kütləsinin öz gündəlik işlərində həqiqətdə yaratdığı yeniliyi” (3, 324) daha çox “özündə cəmlədiyi” üçün dövrünün

dolğun, realist poetik obrazıdır. Şair Lenin ideyaları uğrunda qəhrəmanlıqla həlak olmuş 26-ları da, faşistlərə qarşı sinə gərən kommunist G. Dmitrovu da, tətil zamanı öldürülən fransız Eduard Mazeni də, görkəmli partiya və dövlət xadimlərinin xidmətlərini də bu mövqedən qələmə alır, onların simasında yeni insanı – azad dünya uğrunda mübarizin parlaq obrazını yaradır.

V.İ.Lenin yazmışdır: "Biz öz səhvlərimizdən qorxmuruq. İnqilabın başlanması nəticəsində insanlar müqəddəs olmamışlar. Əsrlər boyu zülm altında saxlanıb əzilmiş, zorla yoxsulluq, avamlıq və vəhşilik məngənəsi içərisinə alınmış zəhmətkeş siniflər səhvsiz inqilab edə bilməzlər" (3, 321). İnsanların yeni tarixi birliyinin asan, yüngül yol ilə təşəkkül tapdığını düşünmək yanlış olardı. Bu tarixi fenomenin arxasında partiya və dövlətin, bütün xalqın nəhəng, çoxcəhətli əməyi dayanır. İnqilabi cəmiyyətin həyatını əks etdirən ədəbiyyat da mürəkkəb yol keçərək öz qəhrəmanını, öz yaradıcılıq prinsipini bərqərar etmişdir. Sovet ədəbiyyatının keçdiyi bu yolu onun hər bir görkəmli nümayəndəsi də bu və ya digər dərəcədə öz yaradıcılıq taleyində hiss etməmiş deyildi...

Otuzuncu illərin ortalarında S.Vurğun həm epik poeziyada, həm də lirikada yeni qəhrəmanı ehtirasla axtarırdı və diqqətəlayiq cəhət odur ki, o, qəhrəmanı həyatda, müasirlərinin arasında tapırdı və yüksək poeziya ilə vəsf ednr, şöhrətləndirirdi. Burada, məsələn, "Bəsti" poemasını xatırlamaq kifayətdir.

Lakin qəhrəman axtarışında S.Vurğun bəzən idealizəyə, şəxsiyyətin rolunu həddindən artıq şişirtmək hallarına da məruz qalırdı. Belə hallar onun görkəmli rəhbər şəxslərə həsr etdiyi şeirlərdə xüsusən, sezilirdi...

S.Vurğunun yaradıcılıqında şəxsiyyətə iki cür münasibətlə qarşılaşırıq. Birinci halda onlar V.İ.Leninin yaxın silahdaşı kimi leninizm uğrunda mübariz kimi tərənnüm olunurlar. Əksər vaxtlarda belə şəxsin obrazı S.Vurğun şeirlərində ümumiləşən,

onların həqiqi şəxsiyyətindən çox-çox uzaqlaşan, ideal kommunist rəhbər obrazı kimi meydana çıxır.

Məsələnin ikinci tərəfini V.İ.Lenin daha aydın və dəqiq izah etmişdir: “...bizim mətbuat da, köhnə burjua mətbuatı kimi, *siyasətin xırım-xırda cəhətlərinə, siyasi rəhbərliyin şəxsi məsələlərinə həddən artıq yer və diqqət verməkdədir...* Buna nail olmaq lazımdır və biz buna nail olacağıq ki, sovet kütlələrinə xidmət edən mətbuat **siyasi rəhbərlərin şəxsi heyəti məsələlərinə, yaxud bütün siyasi idarələrin gündəlik fəaliyyətini, adi işini təşkil edən doqquzuncu dərəcəli siyasi tədbirlərə az yer versin”** (2, 197). (Mətndəki kursiv bizimdir – Q.B.). Belə mənfi təzahür ədəbiyyatımızın müəyyən dövrlərnndə “şəxsiyyətə pərəstiş” əlaməti ilə özünü hiss etdirmişdir.

Bu isə, bir sıra, trafaret, şablon, mədhiyyə xarakterli mövzuların ədəbiyyat aləminə daxil olmasına şərait yaratmış, müəyyən bir müddət bədii yaradıcılıqda realizmin inkişafına mənfi təsir göstərmişdir. Hətta mövzu kasadlığına gətirərək ədəbiyyatın diqqətini “...kütlələri... həyatın həqiqətən ciddi, dərin və əsas məsələlərindən yayındır”mışdır (3, 319).

Bu halın S.Vurğun yaradıcılığında da müəyyən izləri aydın hiss olunur və bəzi vaxt bu qüdrətli poeziyanın imkanlarını məhdudlaşdırmaq dərəcəsinə qədər gedir. Şair bəzən ciddi mövzuları qələmə alarkən ya sonluq şəklində, ya da şeirin kompozisiyasına qeyri-təbii şəkildə daxil edilən haşiyələrdə, müəyyən dərəcədə şəxsiyyəti idealizə meyllərinə məruz qalırdı və beləliklə də, mövzunun əsas həllindən, lirik qəhrəmanın xarakterindən diqqət yayınmış olurdu.

Lakin o da var ki, bu cür hallar S.Vurğun şeirinin, o cümlədən lirikasının əsas ruhuna, qəhrəman axtarışına xələl gətirə bilmir, onu romantik realizm mövqelərindən qətiyyən yayındırmır. S.Vurğunun bu mövqeyi onun tənqidi çıxışlarında da tez-tez ifadəsini tapırdı. S.Vurğun 30-cu illərin ortalarında dərin və geniş,

sosial-ictimai xarakterli lirika yaratmağın zərurətini çox yaxşı başa düşürdü. O, deyirdi ki, biz yeni sinfin-fəhlə sinfinin "...böyük ideyalardan aldıqları mənəvi zövqləri lirika vasitəsilə ifadə etməliyik" (34, 34).

Şairin lirik qəhrəmanının ideya-mənəvi simasını, sosialist düşüncə tərzində, dünyaya nikbin bağlılıqda axtarmaq lazımdır. Yeni quruluşun ictimai sərvətləri sosialist vətəninə qızğın məhəbbət, milli qürur hissi və beynəlmiləlçilik S.Vurğunun lirik qəhrəmanının bir insan və vətəndaş kimi xarakterində əsas yerlərdən birini tutur.

Real həyatın dərkində, onun yüksək poetik dillə, qabaqcıl ideyalar mövqeyindən qiymətləndirilməsində S.Vurğun istedadını cilalayan, ona istiqamət verən bir əlamət də vardır ki, bu da sosialist cəmiyyətinin sənətə münasibətindən irəli gəlir. S.Vurğunun qənaəti belədir ki, heç bir ictimai quruluşda sənətə, sənətkara, mədəniyyətə bu qədər geniş hüquq və azadlıq verilməyib. Bu baxımdan, onun Azərbaycan və dünya ədəbiyyatının klassiklərinə həsr etdiyi "Böyük ədib" "Şairin ölümü", "Sabirin şərəfinə", "Şeirimizin ağsaqqalı", "Böyük şairin şərəfinə", "Sənət ustasına", "Nizami" və başqa şeirləri çox qiymətlidir.. Bu şeirlərdə S.Vurğunun lirik şair "mən"i – sosialist estetik idealının tərcümanıdır. Bunlarda şair "Azad ilham" şeirində qoyduğu ideyaya qayıdırdı:

Ey azad ilhamım, nə bəxtiyarsan!
Taleyim, hünərim güvənir sənə!
Nə qədər dünyada varlığa varsan,
Ömür çox görməsin bu haqqı mənə! (31, 231).

Şairin azad ilhamı azadlıq və gözəlliyin vəhdətini tərənnüm edir. Bu ilham gözəllik və azadlıqdan yaranmışdır. Onun estetikasına:

“Pul verin! Çox verin! Mən sənətkaram!
Yoxsa siyasətlə pozular aram..” (31, 193).

– deyən, cızmaqaraçıların mövqeyi tamamilə yaddır.

Vuruldum o gün ki, şeirə, sənətə,
Unutdum sevdiyim əyləncələri.
Aşiqəm insana və təbiətə,
Əlim qələm tutub yazandan bəri (31, 184).

Cəmiyyətdə, həyatda şairin müşahidə etdiyi, şerə gətirdiyi mənəvi-estetik sərvətlər bu mövqedən qiymətləndirilir və gözəlliyin belə bədii dərki həqiqəti tapmağa – gerçəkliyin dərkinə, insanlığın dərkinə kömək göstərmiş olur.

Estetik kateqoriya cəhətdən gözəlliyin əks qütbü olan “eybəcərliyin” birbaşa inkarı S.Vurğun lirikası üçün çox az xarakterikdir. S.Vurğun gözəlliyi təsdiq edir və bu təsdiq öz ruhu, niyyəti etibarı ilə eybəcərliyə qarşı dayanır.

Lakin bununla belə, S.Vurğunun mənəvi-sosial eybəcərliyə qarşı bir silsilə satirik ruhlu şeirləri də vardır. “Səfil qadın”, “Ölümün məhkəməsi”, “Səriyyənin ölümü” və “Zərərçilər” kimi şeirlər siyasi pafosu ilə bərabər, sosial-mənəvi eybəcərliyin tənqidini və inkarını da özündə ehtiva edir. Belə ki, həyatın birtərəfli təsviri S.Vurğun poeziyasına yaddır. Şair insanın eybəcər, naqis, xudpəsənd cəhətlərini də qələmə alır, bu cür sifətləri öz lirikasının fəal həyat mövqeyindən pisləyirdi. Mövzusunun bu cür həlli onun bir sıra yeii tipli satirik şeirlərinin yaranmasına səbəb oldu. “Tikanlı sözlər”, “Şeir və xaltura”, “Əhli qələm”, “Çil toyuğun tək yumurtası”, “İncə xanım”, “Karyerist”, “Xeyrə-şərə yaramaz”, “Dar göz”, “Xain” kimi satirik şeirlər şairin yaradıcılığında bu cəhətdən əhəmiyyətli əsərlərdəndir.

S.Vurğunun satirik-tənqidi şeirlərində onun “mən”i ilə lirik

qəhrəmanının inkar mövqeyi çox qabarıqdır və eyni mövqedədir. Lakin o da var ki, lirik qəhrəmanın belə özünüifadəsi S.Vurğun poeziyası üçün daimi xüsusiyyəti deyildir. S. Vurğun ifşa üsulunu, eybəcərliyi inkar üsulunu həyatda və insanda gözəl başlanğıçı, ülvi gözəlliyi yüksəltmək, şöhrətləndirmək yolu ilə yerinə yetirirdi:

Bu torpaq da bilir, bu göy də bilir –
Əzəldən aşiqəm mən gözəlliyə.
Açılsın qarşımda hər dağ, hər dərə,
Qələm çalmalıyam gözəlliklərə (31, 188).

Bu estetik mövqe S.Vurğunun lirikası üçün, bir növ, dəyişilməzdir. İnsanda və təbiətdə gözəllik axtarmaq, gerçək gözəlliyi poetikləşdirmək şairin lirikasında romantik dünya duyumunun əsas xüsusiyyətlərindəndir.

Poeziya tariximizdə eybəcərliyi, ictimai-mənəvi bəlaların inkarı və bu qayda, bu üsul ilə gözəlliyin təsdiqi M.Ə.Sabirə və tənqidi realizm ədəbi məktəbinə, başqa sözlə, “Molla Nəsrddin”çilərə məxsus ədəbi-estetik metoddur.

S.Vurğun təbiətli şairlərin yaradıcılığında isə gözəlliyin, işığın, yaxşılığın vəsfi əsasdır və bu da eybəcərliyin inkarına xidmət edir. Məhz bu nöqtədə M.Ə.Sabirlə S.Vurğunun estetik qayəsi birləşir, onların arasında poetik varislik əmələ gəlir.

M.Ə.Sabirlə S.Vurğunu birləşdirən əsas amillərdən biri də, onların hər ikisinin yaradıcılığının mahiyyətində xalq ruhunun, xalq mənəviyyatının üstünlük təşkil etməsidir. S.Vurğun M.Ə.Sabir haqqında yazırdı: “Onun xüsusiyyətləri ilə bizim xalq dərindən-dərinə bağlıdır. Sabirin yaradıcılığında xalqımızın ruhu, həyatı vardır” (51). Təsadüfi deyildir ki, müasirləri S.Vurğun haqqında demişlər: “Azərbaycan və S.Vurğun eyni bir məfhumdur” (87, 56). Göründüyü kimi, ayrı-ayrı poetik üslubun

nümayəndələri olan iki böyük sənətkar bir nöqtədə birləşirlər – xalqa, Vətənə, millətə sonsuz məhəbbət!!

S.Vurğun lirikasında gözəllik kateqoriyasının poetik dərki zəngin və çoxcəhətlidir. İstedadlı, tanınmış estetik M.Məmmədov yazırdı: “Gözəllik” anlayışı S.Vurğun yaradıcılığında getdikcə inkişaf edən estetik başlanğıcdır. Məlumdur ki, “gözəl” sözü, “gözəllik” anlayışı hadisələri qiymətləndirməyin yüksək meyarına çevrilir. Gözəlliyi görmək, duymaq-həqiqəti tapmağa, onu dərk etməyə bərabərdir” (73, 3-4).

S.Vurğun da həyata “gözəllik qanunları uzrə” yanaşır, insanı “yer üzünün əşrəfi” adlandırır; gözəlliyin dərki şairin lirik qəhrəmanının vətənə beynəlmiləlçilik, xəlqilik, humanizm, vətənpərvərlik, millilik kimi ən yaxşı bəşəri-sosial sifətləri ilə birləşir, bu sifətlərin tərkib hissəsi kimi meydana çıxır. Çünki bu keyfiyyətlərin özü kamillik nöqteyi-nəzərincə yeni insanın, milli düşüncəli adamın ən xarakterik cizgilərindəndir; insanın mənəvi gözəlliklərindəndir...

N.Q.Çernışevskinin:“Təbiətdə və canlı insanda kamillik yoxdursa, sənətdə və insanın əməllərində daha az kamillik olar” (105, 82) tezisi tamamilə S.Vurğunun həyat gerçəkliyinə bədii-estetik münasibətlərində özünü doğruldur. Azad təmizlik, nikbin əhvali-ruhiyyə, həyatdan doğan sevinc S.Vurğun lirikasının daxili ab-havasıdır. İnsan səadəti və fərəhi S.Vurğun üslubunu hətta şərtləndirdiyini deyə bilərik. Belə bir cəhət şairin üslubuna genişlik, təntənəli ahəng aşılayır:

“Bizdən də bəxtiyar bir insanmı var?” –
Deyən uşaqların körpə yaşına,
Günəşlər yurdunun vətəndaşına
Baxdıqca böyüyür gözümdə insan,
Çəkdiyim ağrılar çıxır yadımdan (31, 248).

Bu bəxtiyarlığı şair zəngin təbii bir nəşə kimi yaşayır. İnsanın mənəvi gözəlliyi S.Vurğunun lirikasında hələlik xalqın nail ola bilmədiyi sosial tərəqqinin ən yuksək təzahürü kimi tərənnüm olunur.

S.Vurğun, hər şeydən əvvəl, insanın zəkasını, mənəvi qüvvəsini tərənnüm edir. Onun lirikasında insan zəkası misilsiz yaradıcılıq qüvvəsinə malikdi; insan, onun kamalı təbii qüvvəyə, ictimai ədalətsizliyə qələbə çalır, dünyanı gözəllik qanunu ilə yenidən yaratmaq yollarını arayır və işıqlandırır...

S.Vurğun çox vaxt məsələyə insan mənəviyyatının kamilliyi mövqeyindən yanaşır, sosialist cəmiyyətinin idealları işığında lirik qəhrəmanın daxili dünyasını müəyyənləşdirir. Çünki "gözəllik idealı, estetik ideallar heç vaxt mücərrəd olmur. Onlar həmişə konkret və müəyyən dövrlərin, cəmiyyətlərin, siniflərin ideallarıdır" (73, 40).

S.Vurğunun insanı – lirik qəhrəmanı xeyrin, işığın qütbündədir. Bahar – həyatın metaforası kimi, S.Vurğun şeirində ölümə, qana, zülmətə, qışa qarşı mübarizə aparır. Həyatın əzəli-əbədi ziddiyyəti – həyat və ölüm dilemması Səməd Vurğun yaradıcılığının hələ ilk çağlarında özünü büruzə versə də, 30-cu illərin ortalarından onun poeziyasının əsas konfliktinə çevrilir. "Bahar və mən", "Bülbül", "Bənövşə", "Səhər-səhər", "Yazla qışın deyişməsi", "Hürmüz və Əhrimən" şeirləri bu cəhətdən S.Vurğun lirikasının qiymətli nümunələridir. Bunlarda təzə, nikbin həyat fəlsəfəsi xeyirlə şərin barışmaz ziddiyyətində həll olunur və Xeyirin – Baharın təntənəsi əsas, aparıçı poetik məzmun kəsb edir. Bu şeirlərdəki Bahar təbii hadisə, ilin fəsillərindən biri kimi deyil, yeni dünyanın metaforası kimi yüksəlir, ümumiləşir:

Bahar nə xoş gəlir, ruha dad verir,
Xəyala, duyğuya qol-qanad verir.
Var olsun şeirimiz, şairlərimiz! –

Hər gülə, çiçəyə təzə ad verir (31, 269).

"Yazla qışın deyişməsi" şeirində "Günəşin eşqinə dastan qoşan", "Həyatın gözəlliyinə vurğun olan" şair romantik üslubda yazla qışı qarşılaşdırır:

Adım yazdır; yazılmamış taleyimə nə dərd, nə qəm...
Səhərlərin ney səsiyəm.
Könlümdədir sədəfli saz,
Soran olsa: – Nədi bu yaz?
Deyin: – Sovet ölkəsiyəm!

Qış nə deyir? – Mən faşistəm, yaranmışdır üzüm qara.

Zülm edirəm insanlara;
Qan içirəm, həzz alıram,
Bu dünyanı mən salıram
Boranlara, tufanlara (33, 275).

S.Vurğun lirikasında təbiət obrazları arasındakı təzad, konflikt tədricən ictimai-siyasi məna ilə dolğunlaşır, fəlsəfi məzmun alır. Bu şeirlərdə şairin baharla ünsiyyətdə açılan lirik qəhrəmanı humanistdir, geniş ürəkli, fədakar vətənpərvərdir. Bu iki cəhət vəhdət şəklində biri digərini doğurur. Deməli, xeyrin, həyatın tərəfində durmaq üçün böyük humanist, cəfakeş vətənpərvər olmalısan…

S.Vurğunun lirik qəhrəmanı Hürmüzə bənzəyir, şair müasirini romantikləşdirərkən onu bəzən əfsanə zirvəsinə qaldırırdı. Şairin lirik qəhrəmanı böyük, nəcib ideallar daşıyıcısı və tərcümanıdır:

Bu xeyir iş, bu məhəbbət yaşasın,
Yaşasın, mehr ilə ülfət yaşasın.
Yaşasın ulduzu sönməz gecələr,
Yaşasın daima sevdalı səhər!

Yaşasın buğda biçən əllərimiz!
Suyu bol, torağı bol ellərimiz.
Yaşasın sünbülü  dolu zəmilər.
Qalmasın yerdə səfalətdən əsər (33, 276).

Lirik qəhrəman məhəbbətin, mehri-ülfətin, sülh və əmin-amanlığın, zəhmətin aşiqidir. O, "vətən sevgisi xoşdurmu? – sualına, böyük bir inamla, etiqadla belə cavab verir:

O şərbət kimidir,
Vətən andı, vətən eşqi əbədiyyət kimidir… (33, 279).

S.Vurğunun lirik qəhrəmanı mənən vətənə, xalqa bağlıdır, xalqın, vətənin övladıdır. Onun qəhrəmanının bu xüsusiyyəti bilavasitə şairin şəxsiyyəti ilə şərtlənir. S.Vurğunun "lirik qəhrəmanı" ilə onun şair-vətəndaş şəxsiyyəti arasında çox təbii, üzvi yaxınlıq və ümumilik vardır. A.Y.Adalis S.Vurğunu nəzərdə tutaraq "o, öz şeirlərinə çox oxşayırdı" (116) demişdir. Həqiqətən, S.Vurğunun şəxsiyyəti lirik qəhrəmanla boy-boya dayanır. Nairi Zaryan yazırdı: "...Azərbaycan xoşbəxtdir ki, Vurğun kimi bir şairi vardır" (64). Bu sözlərin, qənaətlərin hamısı S.Vurğun yaradıcılığının xəlqiliyindən, vətənpərvərliyindən, milliliyindən doğur, ondan irəli gəlirdi.

Görkəmli ədəbiyyatşünas, akademik M.Cəfər hələ 40-cı illərdə S.Vurğun sənətindən danışarkən şairin xəlqiliyinin dərin mahiyyətinə diqqəti cəlb edib yazır: "...xalqçılığı yalnız dilin sadəliyində və folklora poetik yaxınlıqda axtarmaq səhvdir. Sənətdəki xəlqiliyin əsasını xalqı bir mütəfəkkir sənətkar kimi duymaqda axtarmaq lazımdır" (109). Səməd Vurğun tənqidçinin şərhində belə təfəkkür sahibi olan sənətkar kimi yüksəlirdi...

Hələ yüz il bundan əvvəl V.Q.Belinski tərəfindən deyilmiş bu sözlər indi də öz təravətini və gerçəyini itirməmişdir: "Bizim

zəmanəmizdə xəlqilik ədəbiyyatın birinci məziyyəti və şairin ən yüksək xidmətn halını almışdır. İndi bir şairi “xəlqi (xalq ruhunda yazan) adlandırmaq, onu ən yüksək dərəcəyə qaldırmaq deməkdir. Xəlqilik bir növ dahilikdir...” (26, 91-97).

Vurğun xəlqiliyi, Vurğun vətənpərvərliyi də onun poeziyasında məhz belə bir keyfiyyətdə təzahür edir:

Sünbülüm, sünbülüm, sarı sünbülüm!
Adına söz qoşum barı, sünbülüm!
Ellər həsrətidir bu əmri verən:
Şirin gecələrdə yuxuma girən

Yaşıl tarlamızın mənzərəsidir,
Xırman üstündəki ana səsidir[1] (31, 259).

Şeirdə Azərbaycan adı çəkilməsə də, bu, Azərbaycanın tarlalarında dalğalanan buğda zəmiləridir. Şeirdən duyulan Azərbaycan çörəyinin ətridir. Ananın laylası yel vurub tel-tel olan sünbüllərin ahənginə uyuşur, qulaqları oxşayır, oxucunu doğma vətənə, ana torpağa bağlayır.

Lirik qəhrəman Vətənin gözəlliyindən ürək dolusu danışır, doğma diyarın hər bir parçası onun nəzərlərində müqəddəsləşir:

Binələri çadır-çadır,
Çox gəzmişəm özüm, dağlar.
Qüdrətini sizdən alır,

[1] Kitabda verilən izahatda oxuyuruq ki, şeir təxminən 1937-ci ildə yazılmış və bir neçə dəfə dərs kitablarında çap olunmuşdur. Bu izah N.A. Axundovun “S.Vurğun, biblioqrafiya” kitabında da təkrar verilmişdir. (Bax: N.Axundovun göstərilən biblioqrafiyası. S.Vurğunun I cildində isə şeirdən üç bənd verilmişdir (Bakı, Azərb. SSR EA Nəşriyyatı, 1965, s. 48). “Kommunist” qəzetinin 1936-cı il 17 mart tarixli nömrəsində dərc edilən həmin şeir 112 misradır, oxuculara isə dərsliklər üçün ayrılmış 18 misra çatdırılıb.

Mənim sazım, sözüm, dağlar (32, 125).

Vətənə, xalqa yüksək, şüurlu məhəbbət, həyatı dərinliyi ilə duymaq məharəti S.Vurğun poeziyasında sosialist lirikasının ən qabaqcıl, düşündürən, duyğulu, təsirli hadisələrindən birinə çevrilmişdir. Şairin qələm dostu A.Fadayev çox gözəl yazırdı: "Əziz dostum Səməd! Sənin vüsətli poeziyan sovet xalqının yaratdığı ən gözəl poeziyanın kəhkəşanında parlaq ulduz kimi şəfəq saçır." (98, 133).

S.Vurğun dövrün gerçəkliyini dərindən araşdırdıqca gözəlliyin bədii tədqiqi də onun poeiyasında dərinləşmiş olurdu. S.Vurğun ətrafdakı hadisələrə mütəfəkkir kimi baxmağı bacarır, bu hadisələri böyük poeziya predmetinə çevirməyin öhdəsindən məharətlə gəlirdi. "Səməd diqqətli müşahidəçi, müşahidə etdiklərinin istedadlı ifadəçisi idi" (227) – deyə, onu Y.Bukov xarakterizə edir.

S.Vurğun lirikasının bu xüsusiyyəti 30-cu illərdən başlayaraq tədricən dərinləşir, yeni-yeni ideya-estetik çalarlarla zənginləşir.

1935-1941-ci illərdə şairin sənətkarlıq imkanları sürətlə inkişaf edir, istedadının yeni özünəməxsus tərəfləri meydana çıxır. O, həm lirik şeirlər, həm epik poemalar, "Şekspir ehtiraslı" dramlar müəllifi kimi, həm də mahir tərcüməçi kimi fəaliyyət göstərir, qüdrətli sənətkar kimi daha geniş əhatədə tanınmağa başlayır. S.Vurğun poeziyasının mövzu zənginliyi, janr müxtəlifliyi, forma təzəliyi onun sənətkarlığının boya-başa çatmasından nişan verirdi.

M.Qorkinin şair haqqında dediyi sözlər S.Vurğun sənətinə, şəxsiyyətinə uyğundur... "Şair – əks-sədadır, o, həyatın hər bir səsinə, çağırışına cavab verməyə borcludur" (137, 335). S.Vurğun böyük poeziyanın bu tələbinə əməl edərək əsərlərində həyat həqiqətini tam dərinliyi ilə əks etdirməyə çalışırdı.

Sosializm quruculuğu prosesində yaranan sovet adamının ümumiləşdirilmiş, tipik və real surətlərini, onların yeni həyat uğrunda fədakarlığı və nəcib insani sifətləri, sovet hakimiyyətinin möhkəmləndirilməsi uğrunda gedən tarixi mübarizələr, kənddə sosializm-quruluşu və yeni sosialist şəhəri, beynəlxalq imperializmə qarşı mübarizə, ölkənin müdafiəsini möhkəmləndirmək sahəsində sovet adamının yüksək fədakarlığı; humanizm, beynəlmiləlçilik, vətənpərvərlik S.Vurğun yaradıcılığının diqqət mərkəzində dayanır və onun poetik görmə miqyasını genişləndirirdi.

S.Vurğun şeirində üslubi keyfiyyətlər, forma xüsusiyyətləri, bədii vasitələr böyuk ideya məzmunu ilə vəhdət təşkil edir. S.Vurğun şeiri məhz buna görə yüzlərlə əsərin içərisində imzasız belə öz sözü, nəfəsi ilə seçilir. Bu, S.Vurğun üslubunun orijinallığıdır "Bütün bu rəngarəng nəğmələr eyni qəlbin müxtəlif çırpıntılarıdır. Eyni qəlb – üslub deməkdir! Öz üslubunu təyin etmək və ona daim sadiq yaşayıb-yaratmaq şair üçün səadətdir" (34, 253).

S.Vurğun zəngin sovet poeziyasında lirik, epik-lirik, lirik-epik poemaların orijinal nümunələrini yaratmış, bununla da böyük poetik formada yeni məzmun, yeni ifadə imkanları kəşf edən şair kimi tanına bilmişdir. Bu sahədə də o, klassik Şərq epik poetikası ilə kifayətlənməmiş, onun poetikasını təzələmişdir. Bunu "Komsomol poeması", "Ölüm kürsüsü" "26-lar", "Talıstan", "Aslan qayası", "Bəsti", "Ayın əfsanəsi", "Hürmüz və Əhrimən", "Bakının dastanı" "Zəncinin arzuları", "Muğan", "Aygün", "Zamanın bayraqdarı" kimi həm məzmunca, mövzuca, həm də formaca müxtəlif olan poemaları təsdiq etməkdədir. S.Vurğunun epik və ya lirik əsərləri üslubca vahid, ardıcıl olsa da, formaca, bədii imkanca süjet və kompozisiya cəhətdən biri digərinə çox az bənzəyir.

Qeyd etdiyimiz, kimi, 30-cu illərin ortalarından etibarən,

əsasən “Komsomol poeması”nı yazdığı zamandan başlayaraq S.Vurğun heca növlərinə sərbəst yanaşmış, formalizmə qapılmayaraq hecanın daxili imkanlarından məharətlə istifadə etmişdir. S.Vurğunun tez-tez dəyişən məzmuna, hissə uyğun olaraq və ya növbələşdirərək müxtəlif ölçülü bəndlərdən, həm də müxtəlif bölgü, heca və qafiyələndirmə üsulundan cəsarətlə istifadə etdiyi məlumdur. S.Vurğun milli poetikaya yeni janr – forma əlamətləri də gətirirdi. Burada məşhur “Vurğun beşliyi” adlanan formanı yada salmaq olar. Müəllif özü bu beşliyin formalarını, ölçülərini sonrakı şeirlərində ustalıqla təzələyir və təkmilləşdirirdi.

“Klassik beşlik formasından fərqli olaraq” (82, 83) “Vurğun beşliyi”ndə bir qayda olaraq, hər bəndin ikinci misrası beşinci misra kimi təkrar olunur. Bu, bəzən yerini dəyişir, birinci misra bəndin sonunda təkrarlanır. Bu formanı S.Vurğun ilk dəfə 1933-cü ildə yazdığı “Bahar” şeirində işlətmişdir:

Bahar! Gəl demə ki, qanım soyuqdur,
Mənim də qəlbimdə əməllərim var…
Kim deyir sevginin mənası yoxdur?
Gözlə qırılmasın ortada ilqar,
Mənim də qəlbimdə əməllərim var (31, 52).

“Komsomol” poemasının (1932) başlanğıcında bütöv lövhəni əks etdirən yeddi misralıq belə bir bənd var ki, o da orijinal quruluşu və qafiyə üsulu ilə təzədir və yuxarıdakı kimi misra təkrarı hifz olunmuşdur.

Maraqlıdır ki, belə bir beşlik formasına rus şeirində S.A.Yesenində təsadüf olunur. Yəqin, “İran nəğmələri” silsiləsində misraların təkrar edilməsi S.Yeseninə şeirində Şərq motivi yaratmağa kömək etmişdir. Görkəmli rus şairi öz beşliyində misraları müxtəlif yerlərdə təkrarlayır, gah birinci

misra axırıncı, gah dördüncü, gah ikinci misra axırıncı misra kimi təkrar olunur. S.Yeseninin elə şeirləri var ki, bu üsuldan bütün bəndlərdə, elə şeirlər də var ki, bir-iki bənddə istifadə olunur. Bir numunəyə diqqət yetirək:

Свет вечерним шафранного края
*Тихо розы бегут по полям.*
Спой мне песню, моя дорогая,
Ту которую пел Хаям
*Тихо розы бегут по полям* (146, 282).

Görünür, S.Vurğunun bundan xəbəri olmuş, o, bu formanı cəsarətlə Azərbaycan şeirinə tətbiq etmişdir. Misranın belə təkrarı şeirin lirizmini qüvvətləndirir, ona harmonik, ecazlı, effektli emosionallıq gətirir.

Bütün bu axtarışlarda orijinal poetika yaratmaq meylini görmək çətin deyildir. Bu cür axtarışlar, tapıntılar poetik halın, mövzunun, zamanın ahənginə, ritminə uyğun olmaq zərurəti ilə bağlıdır, lirik qəhrəmanın gerçəkliyin temporitminə yaxınlaşan xarakterik əhvalını əks etdirir[1].

Şeirin formasındakı hər incə dəyişiklik musiqi alətinin, cihazının köklənməsinə bərabərdir, kiçicik bir müdaxilə tonu, ahəngi vurğunu dəyişə bilər. Beləliklə, ustad sənətkarlar bu incəlikdən bacarıqla istifadə etməyə xüsusi əhəmiyyət verirlər, bununla da şeirin ritmini mövzuya müvafiq kökləyə bilirlər. S.Vurğunun poetik axtarışları da belə yaradıcı mahiyyət daşımışdır. S.Vurğunun nail olduğu forma yenilikləri, özünəməxsus qafiyə sistemi, obrazlar sırası, ifadə tərzi şeirin zamanla şərtlənən ritmik axtarışlarıdır. "Ritm şeirin əsas gücü, əsas enerjisidir. Onu izah etmək olmaz, onun haqqında maqnetizm, elektrik yükləri

[1] K.S.Stanislavski temporitmin müxtəlif–10 çalarlarını müəyyənləşdirmişdir. Bax: (175, 152)

haqqında necə danışılırsa, o cür danışmaq olar" (158, 420)

1938-ci ildən etibarən S.Vurğun şeirinin ahəngində əlavə bir sanbal, xüsusi ləngər, əzəmətli tərz, ritm dönümləri ozünü göstərirdi. Şeirin ölçüsü, obrazları elə seçilir, sintaktik tərkib elə sıralanır ki, ifadədə astanalar yaranır, ritm dəniz dalğaları kimi qüvvətli olur, vurğulu bölgülər bu ritmin əsas elementinə çevrilir.

S.Vurğun ciddi, möhtəşəm mövzular üçün çox vaxt ağır, ləngərli təqt olan 15-16-lığı tətbiq edir, bəzən, yeri gəldikcə, eyni şeir daxilində ölçü, bölgü, təqt rəngarəngliyi yaratmaqdan çəkinmir və bu təşəbbüs nəticəsində şeirdə ritm dəyişir, əlvanlaşır. Bu xüsusiyyət "Mavzoley", "Qızıl əsgər", "Gələcəyin toy-bayramı" qəbildən olan şeirlərə də xasdır.

"Mavzolez" şeiri hecanın nisbətən ağır forması olan 16-lıqla yazılmışdır. Lakin S.Vurğun hecanın bu şəklinə xas daxili bölgüdən ustalıqla istifadə edə bilmiş, daxili təqtilərin axıcı olmasına fikir vermişdir və nəticədə formaya xas ağırlığı aradan qaldırmışdır. Şeirin təqtisinin 4-4-4-4 ritmik hissələrə təsnifi, bu hissələrin fikri-məntiqi ardıcıllıqla silsilələnməsi onun poetik təsirliliyini artırmışdır. Bəndarası, belə bir təqtə yaxın olan 8-liyin 4-4 bölgüsündən istifadə şeirə müəyyən forma əlvanlığı gətirmişdir.

S.Vurğunda vəznin müəyyən ölçüsü həmişə şeirdə ifadə olunan əhvali-ruhiyyəyə uyğundur. "Mavzoley" şeirində də belədir. Şeirdə onaltılıq lirik qəhrəmanın yaşadığı yüksək romantik həyəcanların konkret ifadəsinə tam müvafiqdir. Onaltılıq lirik qəhrəmanın əhvalına, ovqatına bir əzəmət, genişlik, əhatəlik verirsə, səkkizlikdə oynaqlıq, fikrin rəqsi üstündür. Bu da forma-da, ahəngdə kontrast yaradır:

Uçar könlüm tərlan kimi şığıyaraq göy havadan,
Salam verər, salam alar bizim Qızıl Moskvadan.
Qızıl meydan! Qızıl meydan! Danış, səndə nə sirr var, –

Harda uçsa könlüm quşu gəlib səndə qərar tutar?!
Mehribansan, aç sinəni!
Al, bağrına bas da məni!
Öz canımdan çox sevirəm
Al bayraqlı bu Vətəni!

S.Vurğun poetikasında qafiyə əsas unsürlərdəndir və o şeirin ideya mündəricəsinə tabedir; o şeirə məna gözəlliyi verir, poetik fikrin ifadəli səslənməsinə göstərir. Qafiyə həmçinin, şeirin musiqililiyini təmin edir, ritmini nizamlayır, ona ahəngdarlıq gətirir. Nəzmin bu ünsürü lirik qəhrəmanın hiss və həyəcanlarının ifadəsi məsələsinə də etinasız deyildir. Məsələn, ardıcıl qafiyə, sonra qoşa qafiyə, nəhayət birdən-birə çarpaz qafiyə, uzaq qafiyə və ya əks keçidlər, bu və ya digər dərəcədə lirik qəhrəmanın temperamenti, ruhi keçinişləri ilə şərtlənir. Şair "Mavzoley" şerində onaltılıqda məsnəvi qafiyəsindən yəni ardıcıl qafiyələnmədən istifadə edib, səkkizliklə yazdığı bənddə bayatı formasına keçirsə, "Qızıl əsgər" şeirində onbirliklə başlayır, bayatı qafiyəsində 12 misra yazır, sonra birdən-birə onaltılıq formasına keçir və vəzn quruluşu ilə qafiyələndirmənin müxtəlif şəkilləri şeirin ideya pafosunu ifadə edən bir vasitəyə çevrilir. Şeirdə qafiyənin vəznə, məzmuna müvafiq olaraq əlvan formalarda düzümu şeirin ritmini sürətləndirir, fikri keçidə, kompozisiyaya təsir göstərir.

Şeirdə təkcə dörd misraya nəzər salsaq görərik ki, şair düşünülmüş tərzdə, ölçüb-biçərək, ilham alovunda "söz külçələrini" əridərək məzmuna, lirik əhvali-ruhiyyəyə uyğun forma axtarır, formanın ozündən məzmun, obraz yaratmağa nail olur. Lirik qəhrəmanın nəinki fikri, hissi, hətta hərəkəti dinamik şəkildə canlandırılır:

Şaqqıldatdın şaşqanı sən – dağ bir yana, daş bir yana,
Şaqqaladın şaşqınları – leş bir yana, baş bir yana.

Sən şığıdın şahin kimi, dağlar, daşlar aşdın yenə,
Şırıl-şırıl toplaşaraq çaylar kimi daşdın yenə (39, 21).

Burada hissin odundan, xəyalın qanadlanmasından əvvəl mütləq əqlin, zəkanın gözü iş görüb, seçib, arayıb, səs fonunda-alliterasiya vasitəsilə hadisəni əyaniləşdiribdir[1].

Sözlərin dəqiq seçilməsi, düzümü, ahəngi döyüş səhnəsini təsəvvürdə canlandırır – əlində siyirmə qılınc olan döyüşçünün – lirik qəhrəmanın sağa-sola qılınc çalımının ahəngi yaranır. Hər bölgü bir qılınc çalımıdır: “Şaqqıldatdın – Sağ! Bir! Şaşqanı sən – Sol! İki” – əyani şəkildə görünür – birinci çalımda “dağ bir yana”, ikinci çalımda “daş bir yana!”[2] Təqtin, bölgünün yaratdığı ahəng şeirin mənasını, qüvvətləndirir, poetik təsir gücünü artırır. Belə bir assosiasiyanın yaranmasına “ş-ş” samiti ilə yanaşı, səs tərkibi eyni və yaxın sözlərin də köməyi böyük olmuşdur. Belə bir bədii vasitəyə poeziyamızda tez-tez rast gəlirik. S.Rüstəmin “Çapayev” şeiri, M.Müşfiq və R.Rzanın bir çox şeirləri bu cəhətdən qeyd oluna bilər.

S.Vurğunun şeirində onaltılıqla bağlı bir maraqlı xüsusiyyət də müşahidə olunur. O da budur ki, şairin bu cür şeirlərində misra əksər hallarda həm məna, həm də ritm, ahəngdarlıq baxımından bütöv olur, emosional və rasional tərəflərin tarazlığı saxlanılır, misrada fikir və emosiya, fikir və hiss pozulmaz bir vəhdət təşkil edir. Şairin misraları üçün səciyyəvi olan bu xüsusiyyəti aşağıdakı nümunələr əsasında izah edək:

---

[1] Ədəbiyyatşünas Tamara Silman da göstərir ki, “sintaktik səs” təkrarları böyük şairlərin əsərlərində “vahid səs süjeti” yaradır ki, bu da spesifikasına görə şeirin fikir süjetinin əvəedicisinə çevrilir. Bax: (173, 56). Əlbəttə, “səs süjeti” fikir süjetinin əvəzedicisi ola bilməz, bu “süjet” fikrin daha qabarıq təzahürünə səbəb ola bilər.

[2] “Koroğl” dastanındakı “Leş bir yana, baş bir yana” misrasının təqti , ritmi yada düşür.

Düşmən öldü, qan kəsildi, bülbül olub girdin bağa,
Saz götürüb şərqi dedin bu budaqdan o budağa.
El bənzədi toy günündə çıraqbanlı bir otağa,
Sənə baxan anaların yazıq qəlbi döndü dağa (32, 22).

Bu bənddə əsas fikir ondan ibarətdir ki, düşmənin məğlubiyyətindən sevindin, el də sənə qoşuldu və səninlə öyünən anaların qəlbi dağa döndü. İndi bu fikir tutumunu daşıyan əsas sözlərə fikir verək:

Düşmən öldü, qan kəsildi,
Saz götürüb şərqi dedin...
Sənə baxan anaların
Yazıq qəlbi döndü dağa.

Göründüyü kimi, bu parçada sintaktik tərkib, söz düzümü, qətiyyən dəyişilməmişdi və bu şəkildə də şeirin bu bəndində ifadə olunan fikir oxucuya çatır, hətta qafiyəsiz olaraq bu parçada ahəngdarlıq ünsürləri də vardır. Bəs onda:

...bülbül olub girdin bağa
...bu budaqdan, o budağa
...çıraqbanlı bir otağa –

ifadələri hansı funksiyanın daşıyıcısıdır? Əgər bəndin misralarını parçalayanda şərti də olsa məna ilə bərabər ahəngdarlıq da qalırsa, o halda misraların bu əlavə hissələri şeirdə nəyə xidmət edir? Elə şeirin, poeziyanın sirri də bu sözlərin daşıdığı sehirli, daxili mənadadır. Məhz, əsas fikri, məzmunu daha da mənalı, emosional edən, şeirin obrazlılıq, musiqililik, ahəngdarlıq məziyyətini yaradan da bu sözlərdir. Əlbəttə, poetik boyaların bu üstünlüyünü şərti qəbul etmək lazımdır, çünki

şeiriyyət üçün təkcə bunlar kifayət deyildir; bunun üçün şeirdəki hər misranın, bəndin bütün sintaktik tərkibləri, strukturu iştirak etməlidir. Obrazlı şəkildə desək, şeirdə sözlərin bir qismi şair könlünün günəşindən gələn işıq şüalarıdırsa, o biri əqlin mayasından ayrılan zərrələrdir: onlar birləşib min bir çalarla bərq vurur, şeirin bütün ruhuna hopur.

Bu şeirdə bircə sözdən başqa, yerdə qalan ifadələr bir məqsədə xidmət edərək şairin estetik məqsədini açır, onun mənasını qüvvətləndirir, emosional təsirini artırır. Lakin son misrada "yazıq" sözünün yerinə düşmədiyini demək lazımdır. O, bu poetik mahiyyətdə sanki ögeydir. Burada "yazıq" sözünün nə kimi bədii gücü, mənası var? Onun yerinə "titrək", "incə", "kövrək" sözlərindən biri olsa idi, məna daha da emosional olardı, obraz həqiqi təyinini tapardı. Çünki oğlu cəbhədə olan anaların qəlbində "yazıqlıq yox", "titrəklik", "kövrəklik", "səksəkəlilik" yuva salır. Burada yazıqlığın yox, incəliyin çoxçalarlığı, çoxahəngliliyi var.Yazıqlıq – mütilikdir. Kövrəklik – məhəbbətdir, ana qürurunun o biri üzüdür...

S.Vurğun lirik qəhrəmanının estetik niyyəti belədir ki, o mütiliyə qarşı həmişə mübarizə aparmış, insanın əyilməz vüqarını yüksək mənəvi keyfiyyət kimi qiymətləndirmişdir. S.Vurğunun lirik qəhrəmanı "əyilməz vicdanın böyük heykəli" – deyərək, hər məqamı da möhtəşəmdir. Bu bircə sözün yaratdığı nöqsanı ona görə belə qabarıq göstəririk ki, bəzi hallarda yerinə düşməyən bir ifadənin şeirin ümumi qayə və pafosunu necə pozduğunun və sözün, mənanın poeziyada siqlətinin əyani şahidi olaq.

S.Vurğun poeziyasında forma cəhətdən orijinal xüsusiyyətlərdən biri də bəndlərdə misraların müxtəlif saylarından istifadədir ki, biz ötəri olsa da yuxarıda bunu qeyd etmişik. Xatırlatmalıyıq ki, bəndlərdəki misraların sayı bir tərəfdən məzmunun bədii formaya düşməsində əhəmiyyəti olan qafiyə sisteminə, digər tərəfdən məzmunun özünün ifadə vasitələrinə

təsir edir. S.Vurğun şeirində belə bəndlərin ən tipik nümunəsi 10-12 misralı və müxtəlif qafiyə sisteminə malik bəndlərdən ibarətdir.

Doğrudur, Azərbaycan klassik şeirində “Tərkib-bənd”, “Tərci-bənd” kimi misraların sayı çox olan lirik şeir formaları vardı və S.Vurğunun bu sahədə yaratdığı yenilik, əlbəttə, ənənəyə möhkəm bağlıdır, lakin, eyni zamanda, deməliyik ki, tamamilə onun təsiri altında deyildir. Onun şeiri öz quruluşu, qafiyə sistemi, mövzu və məna tutumu cəhətdən fərqlidir və müasir keyfiyyətlərə malikdir.

S.Vurğun lirikasında on iki misralı bəndlərə “Böyük şairin şərəfinə” şeirindən sonra tez-tez rast gəlirik. Misraların sayı çox olan bəndlərə S.Vurğunun əvvəlki şeirlərində də təsadüf etmək mümkündür. Hətta onların arasında on iki misralı bəndlər də vardır. Lakin “Böyük şairin şərəfinə” və sonralar yazdığı bir sıra şeirlərdə eyni qafiyə sistemli, on iki misralı bəndlər xüsusi forma kimi diqqəti cəlb edir. Belə poetik struktur isə S.Vurğun şeirində ötəri hal sayıla bilməz.

Artıq bu dövrdə, S.Vurğunun öz ifadəsi ilə desək, şair “ömrünün iki ilinə yanmayaraq, alnının inci tərini axıtmış” və rus şeirinin şah əsərini – “Yevgeni Onegin”i Vaqifin şirin dilinə çevirmişdir. Onu da qeyd edk ki, bu müvəffəqiyyətli tərcümə böyük rus şairinin şah əsərinin SSRİ-də yaşayan bir sıra xalqların arasında sürətlə yayılmasına səbəb olmuşdur və “Yevgeni Onegin”in türkdilli tərcümə məktəbini yaratmışdır. (Bax: 37).

S.Vurğun əsəri tərcümə edərkən ona yaradıcı yanaşmış, A.S.Puşkin sənətinin məziyyətlərini qoruyub saxlamağa çalışmışdır. Şair bu haqda yazmışdır: “Bu böyük əsərin tərcümə heç də təsadüfi deyildir, bu, Puşkinin mənim yaradıcılığıma olan dərin təsirinin canlı bir məhsuludur” (37).

Əlbəttə, burada A.S.Puşkinin S.Vurğun sənətinə təsiri məsələlərini öyrənmək məqsədini qarşımıza qoymamışıq, lakin araşdırılması vacib və mühüm olan bu məsələnin bir cəhəti

xatırladırıq ki, "Onegin strofası" və qafiyələndirmə qaydalarının təsiri ilə" "Vurğun bəndi" meydana çıxmışdır.

Şeiri "Böyük şairin şərəfinə" adlandırdığı kimi, sanki bu bəndi də, Azərbaycan poeziyasına A.S.Puşkinin şərəfinə gətirmişdir. Hətta bənd quruluşu da, bütöv ifadə və qafiyə sistemi də "Onegin strofası"na yaxınlaşır.

Vaxtilə, M.Rahim M.Rəfili ilə "Yevgeni Onegin"i tərcümə etmək istəmişdi. Sonralar S.Vurğunla bu barədə söhbətini xatırlayaraq M.Rahim yazırdı: "Yevgeni Onegin"in hər parçası 14 misradan ibarətdir. Biz, bu qanunu pozmuşduq. Tərcümə etdiyimiz parça 16 misra çıxmışdı. Təkcə misra artırmamışdıq. Qafiyələrin düzülüşü qaydasında da, sərbəst olmuşduq. "Yevgeni Onegin" dastanında birinci dörd bənd aşırı qafiyəlidir, 5-6-cı misralar qoşadır, 7-8-ci sətirlər də qoşadır, 9, 10, 11, 12-ci misralar isə aşırı gedir[1]. Sonluq, yəni 13-14-cü misralar qoşa qafiyəlidir. Bu olduqca çətin formadır. Böyük Puşkin Rusiya şeirinin bu ölməz dastanını belə mürəkkəb şəkildə yaratmışdı. Bu, tərcüməçinin əl-qolunu bağlayır, onu əsarətdə saxlayır. Səməd isə bu əsarətlə döyüşdən qalib çıxmışdı" (74, 140).

S.Vurğun "Onegin strofası"nı tərcümədə olduğu kimi saxlamışdı, çünki bu forma məzmunla sıx əlaqədə idi və bundan yan keçmək məzmuna xələl gətirərdi. "Onegin bəndindən" fərqli olaraq "Vurğun bəndi" 12 misradan ibarətdir və əvvəlinci dörd misra aşırı, 5-6-cı misralar bir-birilə qafiyələndirilir və sonrakı misralar da eynilə bu qaydada – aşırı və qoşa qafiyə üsulu ilə sıralanır.

S.Vurğun poeziyasının özünəməxsus xüsusiyyətlərindən biri də odur ki, şair əsərlərində bəzən muəyyən bir fikrə dönə-dönə qayıdır. Bəzi tədqiqatçılar bunu "özünütəkrar" adlandırmışlar;

[1] Burada M. Rahim 13-14-cü misralardan qabaqkı 9, 10, 11, 12-ci misraların qafiyələnməsini düz müəyyənləşdirmir. Bu misralarla 9-12-ci misralar bir qafiyələnir (uzaq qafiyə). 10-11-ci misra isə bir qafiyələnir (yaxın qafiyə).

lakin bizcə, bu, təkrar deyil, müəllifin yaradıcılıq manerasıdır, bəlkə də, yeni formatda təkrirdir...

Bir sıra sənətkarlar belə “təkrarçılığın” tərəfdarı olmuş, yaradıcılığın müəyyən amillərinin təkrarını məziyyət saymışlar. Bu cəhətdən alman şairivə nasiri İ.R.Bexerin mülahizəsi maraqlıdır: “Mən, təkrarçılığın tərəfdarıyam! Bir çox şeylər var ki, onu nəqarət kimi təkrar etmək və oxucuya yenə və yenə çatdırmaq, xatırlatmaq lazımdır. ...Elə vacib prinsiplər var ki, onu bir dəfə az elan etməkdənsə, bir dəfə çox elan etmək yaxşıdır” (128, 220).

Şair, məhz vacib bildiyi ideyanı, əhvali-ruhiyyəni öz oxucusunun şüuruna yeritmək istədiyindən, vaxtaşırı müxtəlif əsərlərində həmin fikrə qayıdır, onu müvafiq forma və biçimdə təzədən təsvir edir.

Şairin əsərlərində təsvir olunanlara fəal, canlı münasibətin ifadə forması olan lirik ricətlər də S.Vurğun sənətinə xas xüsusiyyətlərdən və epikliklə lirikliyi qaynaq edən vasitələrdən biridir. Bu cür ricətlər şairin müəyyən süjetə əsaslanan şeirlərindən tutmuş, demək olar ki, bütün poemalarında mövcuddur. Epik poeziyada “lirik ricət bu, həm şairin, həm lirik qəhrəmanın öz daxilini açma formasıdır” (159, 102). Həmçinin, lirik ricət ya bir məqamdan digərinə keçid zamanı, ya da təsvir olunan hadisələrin hissi yekunu kimi işlədilir; əlahiddə isə bu ricətlər tam, müstəqil lirik parçalar kimi təsir bağışlayır. Burada, əsasən müəllifin təsvir olunan vəziyyətə müstəqim, birbaşa münasibəti əksini tapır və beləliklə də, ricət müəlliflə oxucu arasında intim, emosional əlaqə yaradır. Lirik ricət poemanın ünsürü olmasına baxmayaraq, Səməd Vurğunun elə şeirləri var ki, özlüyündə, bütöv şəkildə zamana, insana poetik ricətdir, ricətlə çuğlaşan lirik xitabdır...Məsələn, S.Vurğunun “Yanğın” adlı həcmcə elə də b öyük olmayan bir şeirində adama elə gəlir ki, burada lirik ricə tə nə ehtiyac ola bilərdi. Ancaq şeirin forma-
laşmasına, məna və mahiyyətinə daha dərindən vardıqca

tamamilə aydın olur ki, ricət yerinə düşmüşdür, çünki şair burada hökmən öz münasibətini, bəlkə də, müdaxiləsini göstərməli idi...

Gözəllər dolmamış hüsnə, camala,
Yanır od içində min incə pəri.
Bəlkə də, yetməyib bəşər kamala,
Bəlkə də, görməyir bu dəhşətləri (32,120).

Və yaxud, olduqca vacib mövzuya həsr olunan "Körpünün həsrəti" süjetli şeirini götürək. Körpünün həsrəti problemi torpaq, vətən, bir-birindən ayrı düşmüş dilbir, qanbir, canbir qardaşların ölüm-dirim məsələsi, ən ağrılı-acılı, necə deyərlər, Vətəndən Vətənə həsrətlə baxan adamların dərdi-səri kimi bədii ümumiləşdirmələr şəklində öz ifadəsini tam aydınlığı ilə tapmışdır:

Araz qırağında dayandı qatar,
Elə bil qəlbim də dayandı bir dəm...
Sıxlaşdı göydəki seyrək buludlar,
Deyəsən, başıma dolandı aləm. (32, 232)

Bundan sonra şair ətraf aləmi az qala bədii nəsrdəki dəqiqliyi ilə verir: körpünü basmış yabanı otlardan, onu quran mühəndisin xar olmuş əməllərindən danışdıqdan sonra birdən qəlbin iç dünyasının vulkanik püskürməsi nəticəsində lirik ricətə vararaq, özü də mötərizədə) yazır:

(Ah, ürək duyduqca bu səhnələri,
Adətim olmuşdur alışıb yanmaq.,
Yanğına düşmüşdür könlüm şəhəri,
Böyük bir dərd imiş şair yaranmaq.)

Şairim! Bu sözlər qalsın bır yana,
Yaş ötür... Qayıtma ricətlərə sən!
Bir şeir bağışla Azərbaycana,
Araz üstündəki bir daş körpüdən! (32, 233).

Şair bu lirik ricətdən sonra, sanki, şeirə təzədən başlayır və ricətdə dediyi kimi, bu mövzuda millətin ayrılığına həsr etdiyi şeirini Azərbaycana bağışlayır...

Belə, hiss və həyacanla dolu lirik ricətlər, lirik haşiyələr S.Vurğunun “Bəsti”, “Zəncinin arzuları”, “Ölüm kürsüsü” təkin lirik-epik, epik-lirik poemalarında daha bariz şəkildə özünü göstərir... Beləliklə, lirik ricət əsərin mətnində bədii element təkin vacib, lazımlı bir bədii vasitədir.

Lirik-epik poemalarda lirik ricət, çox vaxt müstəqil şeir təkin özünü göstərir, amma poemanın poetik məna və məntiqini qüvvətləndirən şeir olur. Məsələn, “Komsomol poeması”ndakı məşhur, dillər əzbəri olan “Dünya” şeiri buna nümunədir.

Səməd Vurğunun "Dünya" rədifli şeirində insan həyatının və dünyanın mənası, mahiyyəti və fəlsəfi dərki barəsindəki özünəməxsus lirik-emosional düşüncələrin miqyası heyrətamizdir. Bədii biçiminə və şəklinə görə bütün bu məzmunda yazılan şeirlərdən fərqlənən bu şeirdəki əsas fəlsəfi obrazlar bədii təfəkkürün mühüm bədii yenilikləri sırasındadır.

Azərbaycan klassik poeziyasında və aşıq şeirində dünya obrazına dəfərlərlə müraciət olunduğu məlumdur. Amma fitri istedad sahibi Səməd Vurğun ənənəvi və məşhur dünya obrazına öz möhürünü vura bilib. Şair dünya surətinin mahiyyətindəki iki mühüm cəhətə və xüsusiyyətə diqqətimizi yönəldir. Birincisi, dünyanın gözəlliyi və məftunluğu, cazibədarlığı və sirliliyidir:

Buludlar dağılır uzaqda lay-lay,
Yenə öz yerində yuvarlanır ay,

Fəqət nə Cəlal var, nə də ki, Humay,
Nə ömrə acıyır, nə yaşa, dünya.

Ulduzlar havanın bağrını dəlir,
Qayalı dağlardan duman yüksəlir,
Xəyalım gecəni salama gəlir,
Çapdırır atını birbaşa dünya.

Yerlərə baxıram bağçalı, bağlı,
Göylərə baxıram qapısı bağlı,
Kainat ixtiyar, sirli, soraqlı,
Əzəldən yaranıb tamaşa dünya.

İkinci mühüm cəhət isə insanın dünya üzərindəki müvəqqəti və keçəri həyatıdır. Dünyanın əbədiyyəti önündə insan ömrü bir andır. Əbədiyaşar dünya və fani insan ziddiyyəti, bu fəlsəfi-bədii təzadın sonsuzluğu müəllifi heyrətlərə qərq edir:

Bir də görürsən ki, açılan solur,
Düşünən bir beyin bir torpaq olur.
Bir yandan boşalır, bir yandan dolur,
Sirrini verməyir sirdaşa dünya.

Əzəldən belədir çünki kainat,
Cahan daimidir, ömur amanat.
Əldən-ələ keçir vəfasız həyat.
Biz gəldi-gedərik, sən yaşa dünya!

"Bir yandan boşalıb bir yandan dolan" və min illərdir sirrini sirdaşa verməyən, insanı həmişə nigaranlıqda və intizarda saxlayan Dünya obrazı özünün həyati fəlsəfəsi və təbii poeziyası ilə, həmçinin, insan, zaman, məkan, mühit dialektik və bir az da mistik konfiliktli, paradoksal münasibətlərinin sirrlərinə nüfuz

etmək cəhdi ilə oxucunu heyran qoyur...

Şair dünyanın xarakteri və xasiyyəti haqqında düşünərkən, eyni zamanda, insanın əbədiyyətlə bağlı düşüncələrini də ifadə edir və bütün bunlar kiçik bir şeirdə monumental mahiyyət, məna kəsb edərək bədii təhlil və təsvir predmetinə çevrilir...

Yüksək mənəvi keyfiyyətlər, alicənablıq və mərdlik, mənəvi zənginlik və yüksəklik ilə əbədiyyət arasındakı gözəgörünməz bağlantıları göstərməyə can atır, dünya həyatın ümumi obrazı kimi öz mahiyyətini, “nə ömrə, nə yaşa acımayan dünyanın” insana münasibətini və yaxud insanın dünyada tutduğu yeri fəlsəfi ümumiləşdirmələrlə açıq-aşkar nümayiş etdirir...

Yaxşı, novator cəhət bu idi ki, Səməd Vurğun şeiriyyətindəki bədii fəlsəfənin kökləri xalq şeirindən, xalq yaradıcılığından qidalanırdı. Eyni zamanda, onun əsərlərində Şərq və Qərbin klassik-çağdaş mütəfəkkirlərinin hikmətləri, Avropa və Asiyanın fəlsəfə məktəblərinin həyatsevər və humanist meylləri gözəl bir surətdə çuğlaşmış, bir-birinə qovuşmuşdu və “Dünya” şeirinin sehri də buna bağlı idi... və poeziyada lirik ricətin bədiivasitə kimi mahiyyətini, əhəmiyyətini bütünlüklə əks etdirir.

Bədii təzad da, S.Vurğun şeirinin orijinal xüsusiyyətlərini təmin edən ifadə vasitələrindəndir. Poetik təzad onun lirik şeirdə hissin, fikrin, obrazların, bənzətmələrin zaman və məkan ziddiyyətlərindən yaranır ki, bu da əsərin lirik konfliktini təmin edir. Əsərlərində zidd hisslərin, əhvali-ruhiyyələrin üzləşməsi, çulğalanması S.Vurğun lirikasının dramatizmini artırır. Konflikt əsasən lirik qəhrəmanın cəhd etdiyi amaldan, öz idealı və məqsədləri uğrunda mübarizəsindən, mürəkkəb daxili aləminin inkişafından törənir. “Konfliktli lirika – mübarizələr və ziddiyyətlər lirikasıdır” (124, 98).

Əlbəttə, bu mübarizə və ziddiyyətləri vermək üçün epik şeirdə olan geniş imkanlar lirik şeirdə yoxdur. Burada ancaq hissin gərginliyi, zamanların qarşılaşdırılması, bədii ifadə vasitələrinin

zənginliyi, fikri ziddiyyətlər, təzadlı obrazlar (məsələn, yuxarıda nəzərdən keçirdiyimiz "Yazla qışın deyişməsi" şeirində olduğu kimi) konflikt əmələ gətirir.

Bu təzad və konfliktlər ya bütöv lövhələrdə, ya ayrı-ayrı hadisələrin təsvirində, ya da tək-tək misralarda, hətta misra daxilində işlənən ifadələrdə özünü göstərir:

Xəyal et, **daşlardan, boz qayalardan**
Bir surət yaradır bir heykəltəraş,
Sanki nəfəs alır **canlı bir insan**
Yaşayır yüz əsrə, min əsrə sirdaş (32, 221).

"Ana abidəsi" şeirindən götürdüyümüz bu bənddə sükunətlə hərəkət, müvəqqətiliklə əbədilik anlayışları qarşılaşdırılıb, "daş", "boz", "qaya" sözləri ilə "canlı insan" sözlərinin yaratdığı bədii təzad şeirdə fəlsəfi fikrin aydın, dolğun ifadəsinə xidmət edir. "Ana abidəsi" şeirindəki konflikt hissi-fikri konflikt kimi müəyyənləşdirilə bilər.

Bədii suallar, nidalar, xitablar da S.Vurğunun lirikada tez-tez istifadə etdiyi poetik vasitələrdir. Poetik formanın, bədii üsulbun orijinal səslənməsində, nəhayət şairin fərdi üslubunun inkişafında bu ifadə vasitədərinin də xüsusi əhəmiyyəti vardır.

Bədii suallar və nidalar bəzən təsvir oluran obyektə obrazın özü-özünə, bəzən də lirik qəhrəmana muraciəti şəklində işlədilir ki, yerinə düşən bu vasitələr şeirdə assosiasiya zənginliyi yaradır, bədiiliyi, obrazlılığı quvvətləndirir. Əksər hallarda bu cür bədii suallar S.Vurğun şeirində poetik cavabı da özündə ehtiva edir – emosional fon yaradır. Məsələn, aşğıdakı parçada olduğu kimi:

Cavab ver sorğuma, Ağcaqum çölü,
Nədir qoynundakı qızıl qan gölü?
Aymı parçalandı, günəşmi söndü,

Yoxsa alovlanıb küləmi döndü
Döyünən bir könül, düşünən bir baş –
Neçin dalğın keçir o fəhlə yoldaş? (32, 160).

Şeirlərdə tez-tez rast gəldiyimiz “ey azad ilham”, “könlüm”, “vurğun könlüm”, “doğma diyar”, “Odlar yurdum”, “anamın dilbər gəlini”, “insan” və s. kimi bədii xitablar S.Vurğun lirikasının özünəməxsus ifadə vasitələrindəndir- Belə bədii xitablar, müraciət şeirdə fikir və hiss genişliyi, mənalı poetik məntiq, fərdi üslubi pafos yaradır, intonasiyanı yüksəldir. Məs:

**Bakı, Bakı** üstündəki bu səmanın
Bir əvəzi varmı görən bu cahanda?

Və ya,

**Oxu, Oxu! Ana yurdun körpə qızı!**
Mavi dəniz xumarlanır nəfəsinlə,
Günəş belə salamlayır baxtımızı,
Oxu, **quzum**, öz qəlbinlə, həvəsinlə (33, 290).

yaxud,

**Ana torpaq, Ana torpaq** –
Əlindəki bu al bayraq,
Beşbucaqlı bir ulduzun
Ülkəridir baxtımızın,
O daima parlayacaq! (33, 291).

Şeirdəki bədii xitablar, müraciətlər, hətta bütöv xitab bəndlər, xitab şeirlər onun əsərlərinə Səməd Vurğun koloriti verir, üslubi cəhətdən fərdiləşdirir.

Şeirdə bədii məntiqin gücü ilə poetik nəticəyə gəlmək

S.Vurğun poetikasının daha bir əlamətdar xüsusiyyətlərindəndir. Məntiqi obraz həyat həqiqətindən, gerçəklikdən kənarda yarana bilməz. Gerçəkliyi təhrif edən məntiq mücərrədlikdir, obrazlı, yəni poetik məntiq deyildir. Obrazlı məntiqin formal məntiqdən fərqi bundadır ki, burada məntiq obrazın inkişaf qanununa uyğun gəlir. Yəni obraza çevrilən gerçəkliyin, real hadisənin bədii fikrin özünəməxsusluğunu saxlayan məntiq obrazlı, poetik məntiqdir. Obrazlı və ya poetik məntiq həmçinin təsvirlə fikrin bədii ardıcıllığının birinin digərindən doğması, yaranmasıdır. Bir bədii fikir digərini doğurur və bu proses davam edir. Burada hadisənin adi təsviri ilə başlanan misralar bədii məntiqin gücü ilə qəflətən, mənaca çevrilir və şeirin poetik nəticəsi sonrakı misralardan doğur. Məsələn:

Öz kinini dişlərilə kilidləmiş böyük torpaq,
Faşistlərnn pəncəsində bir qul kimi qalmayacaq,

Fikrin ardıcıl təsviri burada bitir, lakin şeirdə gözlənilmədən dönüş edilir, müəyyən ideya-fəlsəfi nəticə çıxarılır:

Demək, tarix əyə bilməz cəlladlara öz başını,
Qoca dünya tez qucaqlar öz ədalət qardaşını.
Bütün xalqlar, qəbilələr od içindən çıxacaqdır. və s. (32, 97).

Beləliklə, bu cür poetik nəticə əvvəl söylənən fikri əsaslandırır, ona yekun vurur. Həmçinin təzə fikrin törənməsinə, onun genişlənməsinə zəmin yaradır, lirik təhkiyəni gücləndirir.

“Azərbaycan” şeirinin məşhur bəndinə nəzər salaq:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam məskənimsən.

Qəti dönüş –

Demək, doğma vətənimsən

və poetik nəticə –

Ayrılarmı könül candan?!
Azərbaycan Azərbaycan.

Şeirin ilk çaplarında, əksər nəşrlərində belə getmişdir və sonralar nədənsə “demək” sözünün yerinə düşməməsinə naşirlər bilmədən irad tutmuş və bu söz “anam” kəlməsi ilə əvəz edilmişdir. Bizcə, bu şairin fərdi üslubi keyfiyyətini müəyyən edə bilməkdən gələn bir yanlışlıqdır. Lakin, “yanılış da, bir naxışdır” – deyiblər və “anam” ifadəsi, poetikməntiqi pozsa da, burada şeiri məzmunca qüvvətlən- dirir..

Göründuyü kimi, S.Vurğun poetik formanın ən yaxşı nümunələrindən istifadə etməkdə böyük sənətkarlıq qüdrətinə malik olduğunu göstərmiş, şeirin məna gözəlliyi, ifadəliliyi, bədiiliyi naminə axtarışlar aparmış, orijinal poetika yarada bilmişdir...

S.Vurğun yaradıçılığının poetiik xəzinəsindən biz yalnız bir sıra bədii sənətkarlıq xüsusiyyətlərini xatırlatmaqla kifayətləndik, həyat hadisələrinə geniş, dərin məna vermək, onu ümumiləşdirmək və yüksək, kamil bədii formada təqdim etmək şairin yaradıcılıq imkanlarının tükənməzliyini, zənginliyini, bununla yanaşı onun söz üzərində gərgin işini göstərən, sübut edən bir xüsusiyyətdir.

S.Vurğun nədən yazır-yazsın, qələmə aldığı aləmə, obyektə, gerçəklik hadisələrinə şəxsi münasibətini bildirmədən, onu mənalandırmadan, onun xarakterinə yenilik, təzəlik gətirmədən ötüşə bilmir. Şair hər şeyə öz gözü ilə baxmağa çalışır:

Məqsədim fəlsəfə deyildir, dostlar,
Nə yazsam görürəm öz gözüm ilə.
Məndən də bu üslub qalsın yadigar,

Mənim də öz dilim, öz misalım var (32, 114).

Həyata, zamana belə baxışın nəticəsidir ki, S.Vurğun poeziyasında lirik qəhrəman həmişə bütöv bir şəxsiyyətdir. S.Vurğunun lirik qəhrəmanı aydın fəlsəfi konsepsiya baxımından dünyaya nəzər salan onun hadisələrini dərk edən yetgin qəhrəmandır. S.Vurğun poetikasının novatorluğu, sistemliliyi də bilavasitə bu qəhrəmanın bədii kəşfi və dünyanı estetik dərki ilə bağlılığındadır. Belə ki, şairin lirik qəhrəmanı öz mənəvi axtarış və səylərində daha yetkin mərhələyə, kamillik dövrünə qədəm qoyur, ictimai-estetik idealına qovuşur.

# IV FƏSİL

# LİRİK QƏHRƏMAN VƏ ESTETİK İDEAL

*Bəşəri ideyalar – vətənpərvərlik, xəlqilik və beynəlmiləlçilik uğrunda mübarizədə lirik qəhrəmanın yeni xarakter keyfiyyətləri. Lirikada ekspressivlik və fikir. Müasirlik və gələcəyə romantik baxış. “Özüm və zaman” poetik estetik prinsipini bədii-fəlsəfi kamilliyə çevrilməsi.*

Böyük Vətən müharibəsi illərində Səməd Vurğun poeziyasında siyasi, ictimai, fəlsəfi məzmunlu lirika dərinləşir, onun istedadının yeni xüsusiyyətləri meydana çıxır.

S.Vurğun üçün vətənə bağlılıq, vətəndaşlıq müqəddəs duyğularla, ideal inamla müvazi idi və bu ali hissin tərənnümü, vüsət və həyəcanla vəsfi onun hələ müharibəyə qədərki şeirlərində özünü göstərirdi. Müharibə dövründə isə bu keyfiyyət şairin yaradıcılığında get-gedə artdı, poeziyasının əsas mahiyyətinə çevrildi. “Əgər insanların dəyəri əməllərinin dəyəri ilə ölçülürsə” (Qustav Lebon), belə meyarla yanaşdıqda Səməd Vurğunun müharibə dövrü ahəngdar, cazibəli, vurğunedici yaradıcılığı onu əməlpərvər şair səviyyəsinə yüksəltdi.

Onu, daha çox, Vətənin və insanın taleyi beynəlxalq masştabda düşündürməyə başladı... S.Vurğun poeziyasında belə bir cəhəti müşahidə edən şair, filoloq Q.Qasımzadə yazır: “İlk yaradıcılıq dövründən fərqli olaraq Böyük Vətən müharibəsi illərində və ondan sonrakı dövrdə S.Vurğunun əsərlərində beynəlmiləlçilik və xalqlar dostluğu ideyası kon-kret hadisələrlə və insan talelərilə daha çox əlaqələnirdi” (152, 155).

Vətəni və bəşəriyyəti faşizmdən müdafiə S.Vurğunun hələ 30-cu illərin əvvəllərində əhəmiyyət verdiyi mövzulardandır. Xalqı ayıq-sayıqlığa çağıran bu şeirlərində şair bəşəriyyətə və

insanlığa qənim kəsilə biləcək qüvvələrə - faşizmə qarşı qəzəblə çıxış edirdi. 1930-1938-ci illərdə yazdığı "Mən də bir əsgər kimi", "Vətən ordusu", "Qızıl əsgər" şeirlərində şairin lirik qəhrəmanı Vətən qarşısında sanki and içir, onun müdafiəsində canından keçən bir əsgər olacağını bildirirdi:

Sabahkı hərb meydanında bir əsgərəm, bu bəllidir,
Hər bir sözüm saldıracaq min faşistin yarağını.
Böyük Vətən bir nəfəslə qalxacaq bir çekist kimi,
Tülkülərə verməyəcək aslanların yatağını (31,274).

Hələ müharibə başlamazdan belə inam və əqidə ilə formalaşan lirik qəhrəman, Vətənin, dövlətin ağır günlərində - müharibənin ilk günündə yeni bir xarakterik keyfiyyətilə "Vətən keşiyində" şeirində meydana çıxdı:

Bilsin ana torpaq, eşitsin Vətən,
Müsəllah əsgərəm mən də bu gündən! (32, 66)

– andı ilə döyüşə atılan lirik qəhrəman oxucu qarşısında yeni psixoloji aləmi və keyfiyyətləri ilə dayanır. O, öz indiki simasında faşizmin hücumuna məruz qalan sovet adamının mənəvi keyfiyyətlərinin ümumiləşdirilmiş obrazını canlandırır. Sovet vətənpərvərinə xas olan ümumi bir məziyyət lirik qəhrəmanın daxili dünyasının inam mərkəzində möhkəm yer tutur: "Vətənə, torpağa bağlılıq, qələbəyə etiqad!"

Müharibənin ağır sınaq günlərində yazılmış "Bütün xalqlar, qəbilələr od içindən çıxacaqdır", "Nəsibimiz səadətlə ilk bahardır", "Gələcəyin toy-bayramı", "İstiqabal təranəsi" şeirlərindən tanıdığımız lirik obraza nikbin əhvali-ruhiyyə, fikir genişliyi, dünyaya və hadisələrə geniş nəzər və qələbə əzmi xasdır.

Səməd Vurğunun lirik qəhrəmanın nikbinliyi və müdrikliyi çətin tarixi şəraitdə, idealın gücünə, cəmiyyətimizin gücünə dərin inamdan yaranmışdı. Elə S.Vurğunun müharibə dövrü lirik şeirlərinin əsas üstünlüyü də bu inamdan doğurdu. S.Vurğun qələbəyə inamı ifadə edərkən bütün sovet xalqlarının monolit birliyini həmişə ön plana çəkirdi. "Məhəbbət", "Moskva", "Ukrayna partizanları", "Salam, Moskva" və başqa şeirlərində yaratdığı lirik qəhrəmanın xarakterində faşizmə qarşı dünya və ölkə xalqlarının sarsılamaz birliyi, qardaşlıq və dostluğun yaratdığı qadir qüvvəyə inam qabarıq şəkildə özünü göstərirdi.

Lakin bu birlik və qardaşlıq şəraitində S.Vurğunun lirik qəhrəmanı öz milli xüsusiyyətlərini də boya-boy nümayiş etdirə bilir. Şair Azərbaycan xalqının əsrlərdən keçib gələn dözüm və mübarizə, qorxmazlıq və yenilməzlik, dostluğa sadiqlik kimi xüsusiyyətlərini milli iftixar və milli ruh səviyyəsində lirik qəhrəmanına aşılayır və onun vasitəsilə bunları ifadə edirdi... "İgid şahin", "Bayraqdar", "Partizan Babaş", "Azərbaycan balası" şeirlərində həm tarixi-milli qəhrəmanlıq nümunələri, həm də vətən müharibəsində fövqəladə mərdliklə döyüşən Azərbaycan oğullarının real, həqiqi obrazları lirik qəhrəmanın şəxsində əbədiləşdirilmiş-
dir. Bu şeirlərin yüksək estetik keyfiyyətlərindən biri o idi ki, burada lirik qəhrəman xalqa məxsus olan, qərinələrin sınağından çıxan vətənpərvərlik, insanpərvərlik, beynəlmiləlçilik və qəhrəmanlıq ənənələrinin yeni dövrdə daşıyicisi və inkişafetdiricisi kimi meydana çıxırdı.

S.Vurğunun bu dövr lirik qəhrəmanı tarixi hadisələlərin bilavasitə iştirakçısı olmağa çalışırdı. Bu cəhət şeirlərinə bəzən publisistik ruh aşılasa da, həyatın təmkinli təsvirini arxa plana keçirsə də, emosionallığı və perspektivliyi zəiflətsə də, bütövlükdə poeziyasına kəskin bir aktuallıq gətirir, zamanla ayaqlaşmasını təmin edirdi.

Belə bir xüsusiyyət S.Rüstəmin, R.Rzanın, Ə.Cəmilin, Z.Xəlilin, O.Sarıvəllinin də həmin dövr poeziyasında müşahidə olunur. Əlbəttə, ekspressivlik, emosionallıq heç də həyat həqiqətindən uzaqlaşmaq demək deyildir. Əksinə, gerçəklik lirik şeirdə öz gözəlliyini emosional çalarların köməyi ilə daha yaxşı aşkar edir. S.Vurğunun və eləcə də, müharibə dövrü yaranan şeirlərin əksəriyyətində təqdim, təsvirçilik bədiiliyi üstələyirdi. Hadisənin özü hisslər qaynağında, qəlb ocağında lazımi qədər qızdırılmadan meydana çıxırdı. Bədiilik cəhətdən belə hal şeirə xələl gətirsə də, zamanın sürətini operativ əks etdirmək baxımından bu yol ilə getmək lazım idi...

Bu keyfiyyətlərə görə, müharibə dövrü lirikasında yeni bir xüsusi növ, üslubi cəhətdən siyasi-publisistik lirika növü meydana çıxdı ki, bu elə bil, təxminən nəsrin oçerk janrının poeziyada qarşılığı idi. S.Rüstəmin "Mən istərəm", "Sarsılmaz qala", O.Sarıvəllinin "Qan qardaşı", "El oğlu", R.Rzanın "Bəxtiyar", M.Rahimin "O yenə seyr edəcək", "Leninqrad göylərində", A.Faruqun "28 qvardiyaçı". Z.Xəlilin "Döyüşçünün vəsiyyəti", Ə.Tələtin "Yanan qanadlar" qəbilindən şeirləri müharibədə baş verən konkret hadisələr əsasında yazılmışdı. Rus şairlərindən M.İsakovskinin, A.Surkovun, K.Simonovun, A.Tvardovski və İ.Tixonovun müharibəyə həsr edilmiş bir sıra şeirləri də bu baxımdan səciyyəvidir. Bu şeirlərdə lirik ünsürlər müəyyən dərəcə arxaya çəkilir, gündəlik hadisələrin təsviri qabarıq görünürdü. Burada şairin mövqeyi, tendensiyalılığı dərhal nəzərə çarpırdı, vətəndaşlıq pafosu ideyallar mübarizəsində, ictimai və mənəvi konfliktlərdə özünü tapırdı (Bax: 159, 44).

Adətən, belə şeirlərin mövzusu qəzet xronikalarından, radio məlumatlarından, əsgərlərlə görüşlərdən, arxa cəbhə hadisələrindən isti-isti götürülür və misralara çevrilirdi. "Sovqat", "Qoca qəhrəmanın çıxışı", "Qızxanımın hünəri", "İgid şahin", "Partizan Babaş", "Daşsalahlı yoldaşlara" qəbildən şeirlər, demək

olar ki, belə yaranmışdır.

Müəyyən vaxt isə bu effekt əksinə özünü göstərirdi. Hadisəni tam şəkildə, sona qədər izləmədən və ya adi xəbərdən təsirlənərək yaranan şeirdə emosional cəhət, ekspressiya həddindən artıq olurdu. Rasional əsasdan məhrum olan emosionallıq şeirdə ritorikaya, sözçülüyə gətirnb çıxarırdı. Şair məqsədi izah etmək, lirik qəhrəmanın xarakterini mənalandırmaq xatirinə fikri intişar etdirir və bu ümumilik fonunda xüsusini işıqlandırmağa çalışırdı.

Məsələn, 1942-ci ildə Moskvada S. Vurğunun ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovla görüşü nəticəsində yaranan "Azərbaycan balası" şeiri ekspressiv çalarlarla qələmə alınsa da, ümumi şəkildə azərbaycanlı oğlunun, igidinin necə canlandırıldığı və xüsusidə ümuminin necə götürüldüyü oxucunu düşündürür. Burada İsrafil Məmmədovun, ümumiyyətlə döyüşçünün göstərdiyi qəhrəmanlığın konkret lövhələrinin təsvirinə az yer verilmişdir. Qəhrəmanlığın vəsfi, milli-ənənəvi xüsusiyyətlərdən gələn xətlər romantik boyalarla əks olunsa da, İsrafilin və ya qızıl əsgər olan, faşizmə qarşı döyüşən azərbaycanlının göstərdiyi qəhrəmanlıq, onun mahiyyəti, başqalarına nümunə ola biləcək cəhətlər şeirdə nisbətən zəif işıqlandırılır və ya kölgədə qalırdı.

Şeirin kompozisiya tərtibindəki ardıcıllıq, dinamiklik, ənənəvi-romantik obrazlılıq, emosional zənginlik, düşünçə tərzinin milli koloritliyi oxucunun "qartal yuvasında" doğulan, "turaclı çöllərdə at oynadıb nişan atan, qılınc oynadan", "harınlaşmış buğanı məğlub edən" bir igidin qəhrəmanlığının qavranılmasına xidmət edən vasitələrdəndir. Həmin vasitələr sayəsində oxucu qəhrəmanı sanki gözləri ilə görür, seyr edir, onu qəhrəmanın növbəti şücaəti önündə saxlayır. Məhz, önündə saxlayır, əsas mahiyyəti və məqsədi göstərə bilmir. Aydınlıq hasil olsun deyə, şeirin bu hissəsinə diqqəti cəlb etmək istəyirik:

Sən əsgər olduğun o vaxtdan bəri,
Qaldı qulağında ana sözləri.
Nə yağmur, nə yağış, nə boran, nə qış,
Nə də fil xortumlu dəhşətli toplar,
Nə düşmən hiyləsi, nə duman, nə çən,
Nə də ki, başının üstündən keçən
Qara qarğaların ölüm xəbəri
Səni qorxutmadı o gündən bəri.
Üşütmə düşmədi canına bir an,
Güllələr çoyuyub keçdi yanından (32, 110).

Əsas tezisimizi aydınlaşdırmazdan qabaq, haşiyə olaraq, şeirin bu hissəsində bir cəhətə – yüksək üslubi keyfiyyətə, emosionallıq ünsürlərinə diqqət yetirək. Köklü və daxili qafiyələr, eynicinsli səslərin və sözlərin təkrarında yaranan ahəngdarlıq – "Nə yağmur, nə yağış, nə boran, nə qar" misrasındakı "nə" təkrir—alliterativ ünsürü, tərkibində "d" samitinin çoxluğu olan sözlərin ardıcıllığı və qoşa qafiyəli misralarda eynitipli qafiyələrin sıralanması və s. bu kimi üslubi şərtlər, bədii vasitələr şeirə yüksək dərəcədə emosional, ekspressiv çalar vermiş və eyni zamanda burada rasional əsasa uyğun gəlmədiyindən, bədii gerçəkliyin təsvirində bir mücərrədlik əmələ gətirmiş, qəhrəmanın nə iş gördüyünü, məhz nə kimi qəhrəmanlıq göstərdiyini tam əyaniləşdirə bilməmişdir.

S.Vurğunun müharibə şeirlərinin təqdirəlayiq bir cəhəti var: bu, həmin şeirlərin mövzu əhatəsinin genişliyindən və bir də mərdliyə, igidliyə, mübarizəyə çağırış ruhunun yüksək poetik pafosundan ibarətdir.

Bu genişlik baxımından Səməd Vurğunun müharibə lirikasına nəzər saldıqda, ən əvvəl, "İgid şahin", "Partizan Babaş", "Azərbaycan balası", "Ukrayna partizanları", "Bayraqdar", "Ananın öyüdü", "Daşsalahlı yoldaşlara", "Qızxanımın hünəri", "Yanğın", "Mənə belə deyirlər ki", "Göyərçin" kimi şeirləri qeyd

etmək lazım gəlir.

Vətən övladlarının fədakarlığını, vətənpərvərlik duyğularını, döyüş meydanlarında göstərdikləri misilsiz hünərlərini, doğma adamları cəbhədə vuruşan ata-anaların, bacıların, gəlinlərin mərdliyini, məhəbətdə dözümlüyünü, xalqın arxadakı qəhrəmanlığa bərabər əməyini yüksək poetik ehtirasla təsvir və tərənnum edən bu şeirlər gözlərimiz qarşısında faşizmə, əsarətə, vəhşiliyə qarşı ayağa qalxan vahid lirik qəhrəmanın monumental obrazını canlandırır.

Bu şeirlərin ümdə məziyyəti gerçəkliyə düzgun münasibətdir. Yəni, təsvir obyektinə real baxış, əyanilik və bu əyaniliyə yüksək hissi münasibət! Başqa sözlə, hadisənin lirik vüsətlə, gerçəkliyin xarakterinə uyğun pafosla oxucuya təqdim olunmasıdır. Bu şeirlərdə seçilən mövzu, mövzuya uyğun gələn məzmunun özü lirik mahiyyətlidir.

“Göyərçin” şeiri bu mənada yaxşı nümunədir. Şair gördüyü hadisədən təsirlənmiş, cəbhədə şahidi olduğu həyat lövhələrini şeirə çevirmişdir. Gerçəkliyə hissi münasibətdən və təsvir üsulundan yaranan bitkin kompozisiyanın əsasını real həyat hadisəsi təşkil edir.

Süjeti qabarıq şəkildə nəzərə çarpan şeirlərdə lirik xarakterin hisslərindən, duyğularından ziyadə, fəaliyyəti, hərəkəti ön plana çəkilir. Lirik şeirdə hissin, duyğunun rasional səpkidə tərənnümü üstündürsə, süjeti çox qabarıq olan şeirlərdə lirik xarakter şairlə oxucu arasında rabitəçiyə çevrilir, gördüyünü nəql edir. Burada hadisənin özü bitkin bədii təsvirdə lirik lövhəyə çevrilir, yüksək ekspressivlik kəsb edir. Bu tipli şeirlərdə obyektiv mahiyyət dominantdır. Hadisə haqqında hissi-emosional təsəvvür, rasional mühakimə, əksər vaxt, yalnız şeirdə təsvir edilən hadisəni qavradıqda, yaxud şeiri başa çıxandan sonra yaranır.

Belə effekti maraqlı hadisəni dinləmək yolu ilə də əldə etmək mümkündür, lakin hissi nəql yolu ilə vermək isə çətindir və

o, istənilən emosional effekti yaratmır. Tərənnüm lirikasında lirik xarakterin hissi-psixoloji aləmi vardır. “Göyərçin”də olduğu kimi süjeti daha qabarıq şeirlərdə isə lirik xarakterin belə bir aləmi hadisəyə münasibətdə ortaya çıxır və oxucunun təsəvvüründə sonradan bütövləşir.

“Göyərçin” süjetinin qısalığına baxmayaraq kompozisiyanın aydınlığına və zəngin assosiasiyasına görə yığcam lirik poemanı da xatırladır. Lirik xarakter əvvəlcə düşdüyü vəziyyətlə oxucunu tanış edir, “Kənd biçimli bir şəhərin” obrazını canlandırır.

Qəddarlığın əli ilə “ömrün, həyatın xəyala” çevrildiyi yerdə dayanan lirik xarakter müşahidə obyektini daha səciyyəvi lövhəyə yaxınlaşdırır, ölümlə, fəlakətlə, gözəlliyin, sülhün, əmin-amanlığın rəmzi olan göyərçini qarşılaşdırır. Göyərçinlə həsbi-halda əvvəlki xoşbəxt həyatı, vəziyyəti xəyalən gözü önündə canlandırır, mövcud vəziyyətlə kontrast yaradır. Şeirin bu hissəsindən başlayaraq obyektiv təsvirlə, xəyali təsvir paralel gedir. Yəni, bu hissəyə qədər müəllif gördüyü real hadisəni, mənzərəni təsvir edirdisə, indi bunların təkanı ilə yaranan və təxəyyülün gücü ilə uydurulan, lakin həqiqətə muvafiq gələn hadisəni nəql edir. Belə bir kontrast hadisəni daha da ifadəli, hissi cəhətdən canlı, təsirli edir:

Onun şair qəlbi varmış,
O sevərmiş təbiəti,
Günəş belə salamlarmış
O qızdakı şeiriyyəti.
Bu eyvanda o saf pəri
Çox vaxt roman oxuyarmış,
Arabir də ağ əlləri
İsti corab toxuyarmış (32, 152).

Bəs, belə bir xəyali assosiasiya şairin təxəyyüllündə necə

yaranmışdır?

“Göyərçin” şerinin meydana gəlməsində əsasən üç assosiativ ünsürü qeyd etmək olar:

a) müharibənin xarabazara çevirdiyi şəhər tipli kəndin dəhşətli görkəmi;

b) dağıdılmış evin qarşısında budağa qonan göyərçinin pərişan halı;

v) toz-torpağa qərq olmuş kitabın – romanın cırıq vərəqləri...

Göründüyü kimi, “Göyərçin”in yaranmasında bir sıra faktik assosiativ ünsür əsas olmuşdur və görünən, nəzərə çarpan bu fakt, predmet şeirin kamilliyinə təsir göstərmişdir. Bəs, o halda, bir sıra müəlliflər, o cümlədən şairin bir sıra tədqiqatçıları digər əsərləri niyə həyati faktsız hesab edirlər? (28, 164-168).

Yaradıcı və gerçəklik münasibətində, obyektiv və subyektiv nisbətdə yazıçı, onun bədii təfəkküri faktdan kənara çıxa bilərmi? Bütün incəsənət növlərinin yaranmasında və əsasında həyati fakt durduğu kimi, lap mücərrəd əsərlərdə belə, müəyyən predmet, detal yaradıcıya assosiativ ünsür kimi təsir etməlidir. Belə təsir olmadan əsər yarana bilməz[1].

Bununla yanaşı “Göyərçin” şeirini emosional müstəviyə qaldıran cəhətlərdən biri də onui romantik naxışlarla bəzədilməsidir. Yuxarıda dediyimiz assosiativ ünsürlərdən biri olan “Göyərçin əhvalatı” yəni, məsumluq simvolu göyərçinlə həsbi-hal kimi bədii üsuldan istifadə etmək, Şərq aləmində, “Məlikməmməd”, “Xeyir və Şər” nağıllar dünyasında böyüyən Səməd Vurğun kimi şairə mümkün olardı. Göyərçinin belə görkəmi başqa xalqa, millətə mənsub şairə təsir etsə də, o belə bir bədii üsuldan – göyərçinlə həsbi-hal etmək üsulundan istifadədə güman ki, çətinlik çəkərdi, bəlkə də, şeirin axarını başqa səmtə

[1] S.Vurğunun mücərrəd hesab olunan və fəlsəfi məzmunlu lirik şeirlərinin təhlilinə və bu barədə məlum olan fikirlərə münasibətə sonra yer veriləcəyindən hələlik bu qeydimizlə kifayətlənirik.

yönəldərdi...

Beləliklə, bədii təfəkkürün formalaşmasında milli təfəkkür, milli dərketmə üsulu da unudulmalı deyildir. Mövzuların qnoseoloji cəhətdən yaranması və ifadəsi səbəbini burada da axtarmaq lazımdır. Ümumiyyətlə, mövzu, mövzuya uyğun məzmun, məzmuna kamil forma seçmək kimi yaradıcılıq psixologiyasına xas cəhətlərin kökləri ənənəvi – milli qnoseoloji əsasla da izah edilməlidir...

S.Vurğun özü bu barədə "Mən necə yazıram?" məqaləsində orijinal fikir söyləyir: "Sosializm mündəricəli şeirimizdə milli forma yaratmaq proqressiv bir iş sayılmalıdır. Həyatdan aldığımız bir qəhrəmanı hər yerdə və hər millətdə ola biləcək bir formada deyil, əsas etibarı ilə, onu bir millətin bir sinfinə mənsub spesifik bir şərait insanı olduğunu göstərməyi bacarmaq lazımdır... "Komsomol poeması"ndakı Gəray bəy tipinin ***türk*** (seçmə-Q.B.) mülkədarı olduğunu bildirmək üçün:

"Belə getsə bu güzaran,
Əllərimdə donmasa qan.
Papaq mənə haram olsun" –
dili ilə danışdırıram" (40).

Burada, "Papaq mənə haram olsun!" fikri, düşüncəsi tamamilə milli düşüncəyə, milli xarakterə bağlıdır. Beləliklə, mövzunun əhatə olunmasında, bədii üsulun formalarından istifadədə, xarakterin yaradılmasında, gerçəkliyi bədii-dərketmə prosesində ənənəvi milli təfəkkür tərzinin qnoseoloji əhəmiyyəti aydınlaşır.

"Göyərçin"dəki motivin qneseloji xətti ənənədən – nağıl dünyasından nəfəs alaraq problematik cəhətdən aktuallıq kəsb etmiş və yeni romantik boyalarla süslənərək müasir keyfiyyət almışdır. Şeir S.Vurğun lirikasına xas olan nikbin sonluq cəhətdən

də təsirlidir. “Vaxtsız ölmüş məhəbbətlər”, “bu zillətlər, bu möhnətlər” vaxt gələcək ki, cavab “istəyəcək”, “torpaq altdan baş qaldıraraq, qisas deyə hayqıracaq”... Real həyat hadisələrindən çıxan bədii, məntiqi, fəlsəfi nəticə real müşahidənin poetik təhlilindən hasil olur. Şeir gələcəyə nikbin baxışla, ədalətin təntənəsinə möhkəm inam hissi ilə bitir.

Şairin uzaqgörənliyini, gələcəyə nikbin baxışını həyat özü təsbit etdi. Burada bir cəhəti də qeyd etməliyik ki, S.Vurğunun lirik şeirlərinin əksəriyyətində irəli sürülən ideyaların böyük bir qismi ictimai həyatda özünü doğrultmuşdur və doğruldur. Bu cəhət, Vurğun ideyalarının əzəmi dərəcədə ictimailiyini və bəşəriliyini, həyatiliyini, uzaqgörən şair fəhminin müasirliyini aydınlaşdırır.

Şair özü bu tələbi ədəbiyyatımızın qarşısında qoyaraq deyirdi: “Bizim yazacağımız əsərlərin verdiyi hökmlər, tarixin hökmləri kimi mütləq olmalıdır!” (34, 245).

S.Vurğun lirik qəhrəmanının bu illərdə inkişaf xüsusiyyəti, orijinal ideya məzmunu onun şeirlərindəki poetik nikbinliyin yeniliyi ilə şərtlənir. Xalqımızın, vətənimizin ağır anında, başının üstünü təhlükə aldığı vaxtda, müharibənin yaratdığı kədər şəraitində S.Vurğun şeirinin nikbin ruhu zəifləmir, titrəmir, əksinə, onun lirik qəhrəmanının həyat eşqi, haqq-ədalətin sarsılmazlığı, xeyrin şərə qələbə çalacağına inam və etiqadı daha da qüvvətlənir, daha da artır. Şair həyəcanla, romantik vüsətlə bu inamı tərənnüm edir:

Üfüqlər qızarıb güləndə səhər,
Bülbül öpə-öpə oyatsın gülü.
Çirməyib qolunu qızlar-gəlinlər
Yığsın qucağına sarı sünbülü
Torpağa düşməsin havayı bir dən,
Çörək bol olarsa basılmaz vətən (44, 32).

“Tarla nəğməsi” şeirindən olan bu parça, elə bil dəhşətli müharibənin səkkizinci günü yazılmayıb. Nikbinlik vacib olanı, əsas məqsədi diqqət mərkəzində saxlayır, arxa cəbhənin vəzifəsini müəyyənləşdirir. S.Vurğun müharibənin ilk çağlarında lirik şeirlərinin janr əlvanlığına xüsusi diqqət yetirir. O, daha çox səfərbəredici lirik formalarda – müraciət, nəğmə, marş, çağırış formasında lirik şeirlər yazır...

S.Vurğun inanırdı ki, onun xalqına, vətəninə belə ağır anda, məhz nikbinlik bəxş edən nəğmələr, təmkin, inam dolu lirik şeirlər lazımdır. Bu məsələnin mahiyyətini, köklərini görkəmli tənqidçi, ədəbiyyatşünas Məmməd Arif dürüst müəyyənləşdirərək yazırdı: “Klassik Azərbaycan ədəbiyyatına məxsus olan yüksək patriotizm və sağlam optimizm ənənələrini S.Vurğun böyük bir məharətlə inkişaf etdirir. Belə qüvvətli bir patriotizmə və optimizmə biz ancaq Nizaminin, Dədə Qorqudun və Koroğlunun məğrur səsində rast gəlirik. Bu qüvvətə malik ancaq bəşəriyyətin səadətinə qəlbən inananlar malik ola bilərlər” (18, 5-6).

S.Vurğun isə bu məsələni belə izah edirdi: “Bəzən deyirlər nə üçün biz müharibənin kədər və qəmini vermirik... Lakin mən iddia edirəm ki, bütün xalqımızın ürəyində olan qəm, qüssə hisslərinə baxmayaraq, bu saat bizim xalqımız üçün qalibiyyət eşqi, düşməndən intiqam almaq hissi, zəhmət və fədakarlıq hissləri daha xarakterikdir” (34, 267).

Yeri gəlmişkən qeyd edək ki, sovet poeziyasında K.Simonovun “Gözlə məni”, M.Rahimin “İkiqat cinayət” qəbilindən “müqəddəs kədər” motivini ifadə edən şeirlər xalqın intiqam hissinin qüvvətlənməsində təsirli rol oynayırdı. Lakin bundan fərqli olaraq S.Vurğun rübabı daha çox nikbinlik notları üzərində köklənmişdir. Onun demək olar ki, bütün müharibə dövrü lirikası bütövlükdə nikbin, qüvvətli, mübariz hisslərin tərənnümündən ibarətdir. Müharibə qurtaranda yazdığı “Zəfər bayramı” şeiri bu

nikbin poetik məzmunu tamamladı, başa çatdırdı. S.Vurğun lirikasında xalq zəfəri ölüm və həyat arasındakı barışmaz mübarizədə həyatın qələbəsi, təntənəsi şəklində meydana çıxırdı. Ölümə, zülmətə, rəzalətə və əsarətə qarşı müharibənin qalibiyyətlə bitməsi, S.Vurğunun nikbinliklə dolu şeirinin təntənəsi oldu:

Qoy çalıb oynasın Vətən torpağı,
Göylər səcdə qılsın bu ülviyyətə,
Ölümün, zülmətin qara bayrağı
Bu gün təslim oldu bizim qüdrətə! (32, 199).

S.Vurğun lirikasının təsir-təlqin gücu böyük olmuşdur. Ədəbiyyatşünas A.Turkov doğru demişdir: “Lirika – qüdrətli tərbiyəçidir!” (180, 150).

Yaradıcılığı bu cəhətdən nümunəvi şair haqqında düşünsək, yəqin ki, ilk xəyalımıza gələn Səməd Vurğun olar. S.Vurğunun lirikası döyüşçuyə təmkin, dözüm və iradə aşılayırdı, onda öz əcdadının ruhu qarşısında ehtiram kimi müqəddəs hissi qüvvətləndirirdi. Bu əhəmiyyətli fikri müharibə dövründə cəbhə qəhrəmanlarının, döyüşçülərin şairə ünvanladıqları, yazdıqları məktublar da təsdiq etməkdədir (Bax: 12; 35; 56).

Beləliklə, təkcə müharibə şeirləri belə bir nəticə üçün əsas verir ki, “Səməd Vurğunun qəhrəmanı əbədi bir bəşəriyyət baharı uğrunda çarpışan, azad vətən, həyat uğrunda fədakarlıq göstərən qəhrəman insanlardır.” (18, 6).

S.Vurğunun poeziyasının lirik qəhrəmanı xaraktercə böyüyür, daha yüksək, ideal mənəvi keyfiyyətlər mənimsəyir, müdrik filosof kimi bəşəriyyətin taleyi haqqında düşünür, xeyrin, səadətin, xoşbəxtliyin təntənəsinə ümid bəsləyir. O, öz üzərinə böyük vəzifəni – İnsanın xeyir və ədalətin qələbəsi uğrunda mübarizəsinə kömək etmək vəzifəsini götürürdu. Bəşəriyyətin taleyini həll etmək borcuna sadiq qalması onu insan kimi oxu-

cunun nəzərində ucaldırdı. Xeyrin keşiyində dayanan bu lirik qəhrəmanın mənəvi aləmi üçün xarakterik cizgilər get-gedə müəyyənləşir, onu nəcib, ülvi bir bəşər övladına və dostuna çevirirdi...

Buna müvafiq olaraq lirik qəhrəmanın təlqin etdiyi ideyalar da fəlsəfi ümumiləşdirmə səviyyəsinə yüksəlir, qabaqcıl, sülh məramlı bəşəriyyətin arzu və amalı kimi mənalanırdı. Lirik qəhrəman yüksək amalın aparıcısı olaraq böyüyür və yüksəlirdi. Azərbaycan poeziyasının xəlqilik və sənətkarlıq vəzifələrini dərindən dərk edən S.Vurğunun lirik qəhrəmanı ideal qəhrəman keyfiyyəti kəsb etmiş olurdu.

Bu qəhrəman kimdir, onun real zəmini haradan gəlir? "Bayraqdar" şeirindən gətirdiyimiz parça ümumi şəkildə bu suala yaxşı cavab olardı:

O igidin tunc sinəsi
Bir Koroğlu qalasıdır.
Qulağıma gəlir səsi, -
Azərbaycan balasıdır! (32, 147).

Bu cür kök üstündə yetişən, pərvəriş tapan, ümumiləşən xarakter özünün vətənpərvərlik və beynəlmiləlçilik keyfiyyətləri ilə inkişaf edərək ümumbəşəri qəhrəmana çevrilir, böyük İnsan anlayışına yaxınlaşırdı. Artıq onun məqsədi, amalı, idealı tam şəkildə, bütün aydınlığı ilə özünü göstərir. Bütün bəşəriyyətdə görmək istədiyi yüksək ideal uğrunda – **Məhəbbət, Səadət, Həqiqət, Kamal** uğrunda mübarizə onun həyat amalına və məqsədinə çevrilirdi.

Bu mərhələdən etibarən lirik qəhrəmanın idealının məhvəri bu dörd böyük və müqəddəs estetik məna ətrafında hərlənir. Bununla da Səməd Vurğunun poetik təkamülündə yeni dövr başlanır. S.Vurğun müharibə illəri ədəbi inkişafın mərhələ

təsnifini verərək bu mərhələlərin birini belə səciyyələndirmiş olurdu: “Müharibə zamanı ədəbiyyatımızda üçüncü bir dövr başlamışdır. Bu dövr yaşadığımız zamanın böyük fəlsəfəsi ümumiləşdirmələrini vermək dövrüdür” (34, 290).

S.Vurğun belə hesab edirdi ki, poeziya daha ümumi ideya və şüarlarla kifayətlənə bilməz, o tarixi epoxanın bəşəri həyəcanlarını daha böyük etik-estetik və fəlsəfi kateqoriyalarla mənalandırmalıdır. Mütərəqqi bəşəri ideyalar, xalqları düşündürən, onların mənəvi aləmini hərəkətə gətirən fikirlər yeni mərhələ, yeni dövr poeziyasının ən başlıca problematikasına çevrilməlidir. Hadisələrin bəşəri miqyası poeziyanı daha çox düşündürməlidir.

Belə düşüncə tərzi S.Vurğun poeziyasının lirik qəhrəmanına xas cəhətlərdən idi. Lirik qəhrəman yalnız özünü, öz ətrafını yox, daha geniş mənəvi dünyanın xəritəsi üzərində fikirləşməli olurdu. O, özünü dərk etmiş, ***“Məhəbbətin”, “Səadətin”, “Həqiqətin”, “Kamalın”*** fəlsəfi-ictimai mahiyyətini, mənasını bədii təxəyyülündə cəmləşdirirdi. İndi lirik qəhrəman ideal mənəviyyatı, ideal məqsəd və niyyəti nəinki ifadə edir, onun təntənəsi, gerçəkliyə çevrilməsi uğrunda mübarizə aparırdı.

S.Vurğun poeziyasının həyati fəlsəfi, ictimai-siyasi mənasının yeni qüdrəti də burada açılır. Lirik qəhrəman böyük sovet xalqlarının ümumiləşdirilmiş nümayəndəsi kimi-humanist təbiətə, beynəlmiləlçi əqidəyə, mənəvi bütövlüyə malikdir. Bütün bunlar isə S.Vurğun poeziyasının fikri tutumunu müəyyən edir və S.Vurğun poeziyasının fəlsəfi mahiyyəti, hər şeydən əvvəl, lirik qəhrəmanı həyata, zamana və xüsusilə, insanın özünə münasibətində təkmilləşir.

S.Vurğun şeiri, ümumiyyətlə, ağıl və hissin qovuşub-qarışmasının poeziyasıdır. Onun lirikasının ən yaxşı kamil nümunələrində emosionallıqla fəlsəfi məzmun sintez şəklində təzahür edir. Lakin bəzən emosionallıqla fikrin bu tərzdə uzlaş-

ması, ayrı-ayrı şeirlərdə dominant nisbətdə ortaya çıxdığından, fikri tutumu üstün olan şeirlərin əksəriyyətini ya mücərrədlikdə qüsurlu hesab edir, ya da bunları fərqləndirmək üçün nəzəriyyədə "fəlsəfi şeir" anlayışını işlədirlər.

Ümumiyyətlə, müasir lirik poeziya nəzəriyyəsində anlayışa münasibət müxtəlifdir. "Fəlsəfi şeir" termini mübahisələr əmələ gətirmişdir. Al. Mixaylov haqlı qeyd edir: "Terminaloji mübahisələr xeyirlidir, çünki anlayışın məzmununu, mahiyyətini ortaya çıxarmağa kömək edir" (159, 327)

Bizcə, bu terminin ortaya çıxmasına əsas səbəblərdən biri, (özü də zahiri, formal səbəb) şeirin fəlsəfə ilə tarixən əlaqədə olmasıdır. Söhbət mahiyyətli əlaqədən yox, fəlsəfənin şeir formasından ifadə olunmasından gedir[1]. XIX əsrin əvvəllərində buna əsaslanan "Hikmət sevərlər (lyubo-mudrıye) cəmiyyəti" öz fəlsəfi fikirlərini şeir vasitəsilə həyata keçirmək istəmiş, bir növ "rus fəlsəfəsini" inkişaf etdirmək arzusunda olmuş və o cəmiyyətə daxil olan şairlər öz şeirlərini "fəlsəfi şeir" adlandırırmışlar (135, 50-52).

Təsadüfi deyildir ki, ədəbiyyat nəzəriyyələrində və ədəbiyyatşünaslıq lüğətlərində də müəlliflər şeirin janr xüsusiyyətləri haqqında geniş ənənəvi bölgünü verəndən sonra, çıxarış şəklində məzmun və ideyaya əsaslanan forma bölgüləri sadalamalı olurlar və ya heç bunu xatırlamırlar (76; 82, 178)[1].

---

[1] Q.D.Qaçev lirikanın ilkin fəlsəfə ilə əlaqəsini aydınlaşdırmışdır (134, 144-198) Müəllif Hegel triadasına (Tezis-antitezis-sintez) əsaslanaraq təbii, həyati qanunauyğunluq formulası irəli sürür: "həyat-ölüm-yaradıcı ölüm". Lirikanın fəlsəfi mahiyyəti bu "yaradıcı ölümü" göstərməkdir. Çünki müasir riyazi elm sübut edir ki, hər bir harmonik quruluşda "proobraz" yox, "posleobraz" kəşf olunur (134, 188). Buna görə lirikanın fəlsəfi mahiyyətini "proobrazı" necə kəşf etməyində yox, "posleobrazı"n kəşfində axtarmaq lazımdır.

[1] Təkcə bu kitabda (Bax: 76) müasir şeiri strukturaya görə təsnifə cəhd edilib. A.İ.Timofeyev isə lirikanı – hiss lirikası, fikir lirikası, təsviri lirika, təhkiyə lirikası kimi təsnif edir. (Bax:178).

Yəqin, buna görə də, “fəlsəfi lirika” anlayışından geniş şəkildə istifadə edən Al. Mixaylov bu anlayışa münasibət haqqında yazmışdır: “Fəlsəfi lirika adını çəkməkdən nədənsə utanırlar, ya onu dırnaq arasına alır, ya da necə deyərlər, izahedici söz ilə yanaşı işlədirlər. Həqiqətdə də ola bilər ki, fəlsəfi lirika termini o qədər də müvəffəqiyyətli olmasın? Ola bilsin ki, “fəlsəfi” təyinində çəkindirici bir əlamət var?.. Məsələn, Bryusov çəkinmədən “elmi poeziya” janrını fərqləndirir. Bütün bunlara baxmayaraq, hələlik müvəffəqiyyətli bir termin tapılmadığı halda “fəlsəfi lirika” terminindən niyə istifadə etməyək? (159, 189).

Bəlkə, bunun üçün E.Mejelaytis, “düşünən poeziya” (“мысляшей поэзии”), Yevq. Vinokurov isə “fikir poeziyası” (“поэзия мысли”) anlayışlarından istifadə etməli olurlar.

Elə Al. Mixaylov göstərilən kitabında bu qəbildən olan şeiri “Fikrin ali aktı” (159, 320), Qrinberq isə “fikir axtaran lirika” (141, 139) hesab edirlər ki, belə məfhumların sayını çoxaltmaq da olar...

Əlbəttə, həqiqi lirik şeirdə fəlsəfəyə aid modus qurulub həll olunmur və bu, şeirin vəzifəsinə qətiyyən daxil deyildir. Şeirdə gerçəklik, həyat hadisələri haqqında, insan və zaman, insan və təbiət nisbətlərində hissi-emosional mühakimələr, bədii-məntiqi mülahizələr verilir. Yəni şeirin fikir tutumu, zəka və əql yükü çox olur. Bü cür mühakimə və nəticələr isə şeirə “fəlsəfi” mahiyyət verir. Belə mahiyyət əksər şeirlərə xasdır ki, bunları xüsusi növə – “fəlsəfi lirika”ya daxil etmək məqsədəuyğun deyildir. Burada yalnız məzmun dərinliyindən, fikir tutumunun üstünlüyündən danışmaq olar. “Elə buna görə belə şeirlərdən söhbət açan tənqidçilər, tədqiqatçılar sanki məcbur olub, “şeirdən çıxan fəlsəfi nəticə”, “yürüdülən mühakimələr” kimi ifadələrdən yaxa qurtara bilmirlər...

S.Vurğun yaradıcılığında isə “Həyat fəlsəfəsinə”qədər “fəlsəfi şeir” nümunəsi olmadığını söyləyir və beləliklə də yal-

nışlığa yol verirlər (28, 166). Bədii yaradıcılıqda, xüsusən, poeziyada fəlsəfi düşüncəni konsepsiyanı müəyyən bir dövrlə yox, onun bütün ikişaf yolu ilə izləmək daha doğru, daha obyektiv nəticəyə gəlmək imkamı verir. S Vurğunun "Həyat fəlsəfəsi" şeirindən iki il əvvəl yazdığı və mövzuca ondan kəskin fərqlənən "Ala gözlər" əsəri ənənəvi bir mövzuya – gözəlin, gözəlliyin, məhəbbətin tərənnümünə həsr edilmişdir.

Yenə qılıncını çəkdi üstümə,
Qurbanı olduğum o ala gözlər.
Yenə cəllad olub durdu qəsdimə,
Qələm qaş altında piyalə gözlər. (47)

Burada şairin gözəllik qarşısında vəziyyəti yüksək, qızğın emosiya ilə təqdim olunmuşdur. Eyni zamanda, tam əsasla demək olar ki, bu, həm də gözəllik haqqında, mühakimədir – gözəllik insanı əsir edə bilər. Poetik detala bu cür hissi münasibətlərdən yaranan bədii-əqli mühakimələrlə şeirin sonunda həyat haqqında, "Gözəllik insanı əsir edə bilir!" – mühakiməsi irəli sürülür, bunlardan bədii-məntiqi hökm, "fəlsəfi" nəticə çıxarılır. Hiss ilə əqlin, emosiya ilə zəkanın sintezi gerçəkliyin məntiqi nəticəsini ortaya çıxarır:

Cahanda hər hökmü bir zaman verir,
Dünən dövran sürən bu gün can verir.
İllər xəstəsiyəm, yaram qan verir,
Siz məni saldınız bu hala, gözlər.(47)

Bu misralar heç də göydəndüşmə, filosofçuluq məqsədi ilə söylənilmir. Maraqlı burasıdır ki, bu bədii-fəlsəfi nəticə uzun bir ədəbi-fikri prosesin davamı kimi ortaya çıxır.

“Ala gözlər” şeirində fəlsəfi “məsələlər”, “problemlər” yoxdur, dünyəvi, bəşəri hissin düşüncəylə mənalandırılması var. Bu gözəlliyə baxış konsepsiyasının nəticəsi kimi şərtlənir. Burada “canlar alan” bir gözəldən, ülviləşdirilmiş həyati bir varlıqdan bəhs edilir. Ala gözlər sahibinə S.Vurğun Vaqifanə baxır, onun metaforaları ilə gözəlin surətini cızır:

Gərdənin minadır, boyun tamaşa,
Ay da həsrət çəkir o qələm qaşa.
Bir cüt ulduz kimi verib baş-başa,
Yanıb şölə salır camala gözlər.(47)

Lakin vaxtilə lirik xarakter bu gözəlliyə bir müddət etinasız olmuş, sevdanın qəmini unutmağa çalışmış, lirik “mən”in “tar-mar düşüncəsi”, “zəhərli” əhvalı üsyana çevrilmişdir. Bu etiraz gözəlliyin, məhəbbətin, mənəviyyatın dərkindən yox, dərk-edilməzliyindən yaranır.

“Ölən şeirlərim” bu qəbildəndir. Həmin dövrdə qədəmləri yeni-yeni bərkiyən lirik xarakter “mavi gözləri” – insani, bəşəri gözəlliyi illüziya sayır. Əvvəllər mavi gözlərə belə münasibət, müəyyən bir dövr yaradıcılığından keçərək, konseptual şəkildə dəyişmişdir. Lakin bədii fikir prosesi yeni, ən yüksək bir həqiqəti aşkara çıxarır məhəbbət, gözəllik insanı “tar-mar düşüncəli, dar xəyallı” etmir! O, insan həyatını “vərəmli və sitəmli” gecələrə döndərmir! Ülviləşən gözəllik, gerçəklikdən, varlıqdan doğan gözəllik, bu gözəlliyə bəslənən məhəbbət insanı daha da ucaldır, onu həm də zövqcə kamala yetirir. Gözəlliyə əqil və zəka ilə, ilham dolu bir ürəklə baxanda o, daha da mənalanır. Nəhayət, belə yüksək bədii və konseptual qənaət hasil edən lirik qəhrəman butün səmimiyyətilə deyir:

Mən qədir bilənəm əzəldən bəri,

Sizinlə yetmişəm kəmala, gözlər.

Göründüyü kimi, lirik qəhrəman keçmiş baxışlarına, görüşlərinə dialektik şəkildə yenidən nəzər salır, özünün indiki bədii qənaəti ilə dünənki geri çəkilməni əsaslandırır:

Cahanda hər hökmü bir zaman verir.
Dünən dövran sürən bu gün can verir.

Beləliklə, bu cür dərin mənalı şeirlərin yazılması dövru heç də 1940-cı illərə yox, S.Vurğun yaradıcılığının lap ilk dövrlərinə qədər gedib çıxır.

Deməli, "Həyat fəlsəfəsi" qəbilindən olan şeirləri S.Vurğun lirikasında "fəlsəfi şeir növu" hesab etmək olmaz. Poeziyada, xüsusən, bir "fəlsəfi yaradıcılıq növu", məsələn, "fəlsəfi lirika" qolu ayırmaq çətindir. Bu dövrdən S.Vurğun poeziyasında kökləri, rişələri əvvəllərə bağlı yeni bir keyfiyyət özünü büruzə verməyə başlayır, onun həyata baxışı təkmilləşir, şeirlərin problematikası əhatəli olur. Təsadüfi deyildir ki, poeziyaya yeni baxış şairin tənqidi görüşlərində də özünü hiss etdirir.

S.Vurğun şeirin qarşısında əhatəli məna vəzifəsi qoyurdu – poeziya tərəqqiyə, insanlığa, xoşbəxt gələcəyə böyuk ideallar mövqeyindən xidmət etməlidir. Şair poeziyanı "kommunizm poeziyası", "insanlıq və tərəqqi poeziyası", "xalqlar qardaşlığı poeziyası" adlandıraraq, onun zamanın ideya-siyasi fikir mədəniyyəti səviyyəsinə qalxmasını arzulayırdı. S.Vurğun məhz bu səbəbdən poeziya və sənətə ümumbəşərilik mövqeyindən yanaşırdı. O, bu nəticəyə gəlirdi ki, "bəşəriyyətin bədii fikri yalnız böyük ideallar əsasında inkişaf edə bilər. Qabaqcıl fəlsəfi-ideallardan kənarda heç bir böyük ədəbiyyat yaşaya bilməz..." (35, 328).

Poeziyanın bu ali vəzifəsini həyata keçirərkən S.Vurğun həyatın romantikasına müraciət etməli olurdu. Məhz buna görə

müharibə illərində S.Vurğun lirikasının romantikası yeni vüsət alır: əqlin, zəkanın və hissin, xəyalın yeni qatları, əngin səmaları şair tərəfindən araşdırılır. Romantik təxəyyü-lün gerçəkliyə, həyata müdaxiləsi güclənir və bunun nəticəsində S.Vurğun lirikasında hadisələr geniş məkan miqyası alır[1].

S.Vurğun poeziyasının baş qəhrəmanı "İnsan şərəfini yüksəldən, onun həyatını və taleyini gözəlləşdirən, bəşəriyyətə zulmətlər içindən işıqlı gələcəyə yol göstərən" (34, 368) bir qəhrəman şəklində meydana çıxır. Xalq və vətən mənafeyi naminə, məslək və amal eşqilə odlardan, alovlardan keçmək, həyat naminə mərdanə ölümə getmək, həyatın əsil və müqəddəs mənasını artırmaq, öz azadlığına və başqasının azadlığına kömək etmək, işıqlı, xeyirə xidmət edən ideallar uğrunda çarpışaraq bütün insanlığa xoşbəxt gələcək yaratmaq bu qəhrəmanın estetik mahiyyətini və məzmununu təşkil edir. Lirik qəhrəmanda insanlığa dərin etiqad, inam, gələcəyin təntənəsinə aparıb çıxaran hünər, həyat eşqi vardır. Onun idealı **"Ədalət, Həqiqət, Səadət, Gözəllik** və **Məhəbbət"**in Vətəndə bərqərar olması və bütun dünyaya yayılması ideyası şəklində təzahür edir. Onun təsəvvüründə dalğalanan mübarizə bayrağının üzərində **"Hünər"** və **"Zəfər"** sözləri yazılmışdır. "Sözün şöhrəti" bu mənada S.Vurğun lirikasında, eləcə də, poeziyamızda çox səciyyəvi hadisədir.

S.Vurğunun qəhrəmanı bu şeirdə təkcə böyük, ədəbi mənalar, mətləblər üzərində düşünmür, həm də bunların həyatda bərqərar olması üçün həyəcan keçirir, narahat olur. "İstiqbal təranəsi", "Dörd söz", "Nəsibimiz səadətlə ilk bahardır", "Sözün şöhrəti", "Qoca qartal", "Məhəbbət ilhama çağırır məni", "Şair, nə tez qocaldın sən", "Düşüncələr", "Bahar duşüncələri", "Mən tələsmirəm", "Yada sal məni", "Qürbət eldə" kimi dərin mənalı

[1] S.Vurğun poeziyasının romantik mahiyyəti haqqında H.Babayev "Поэт и время" kitabında daha ətraflı danışmışdır. A.Ovçarenkonun müəlliflə polemik söhbəti də maraqlıdır və burada rasional müşahidələr vardır. Bax: (162, 238-244; 148)

şeirlərini, "Zəncinin arzuları", "Avropa xatirələri", "Muğan", "Leninin kitabı", "Zamanın bayraqdarı" kimi lirik-epik əsərlərini, "Aygün" epik poemasını, "İnsan" pyesini də bu estetik ideal mövqeyindən yazır. Onun romantik poeziyasındakı fikir – **"Qalib gələcəkmi cahanda kamal?"** təkin, fəlsəfi problematika ətrafında çırpınır, belə bir çətin və mürəkkəb suala qənaətləndirici, ümumiləşdirici cavab axtarırdı.

O da, qeyd olunmalıdır ki, bu sual ilk baxışda bəlkə, o qədər də, mühüm və müşkül deyildir. Ancaq məsələ bununla bitmir. Məsələ bu suala cavab axtaran qəhrəmanın işıqlı, ali, nəcib səylərində idi, onun bəşəriyyət üçün gözəl bir sabah, müharibəsiz və silahsız ölümsüz və şərsiz bir gələcək arzulamasında idi. Məhz, buna görə S.Vurğun qəhrəmanının dilində bu sual təbii və yerində səslənirdi. Mövzuca müxtəlif, lakin problematika etibarı ilə yaxın olan bu əsərləri kamal dərinliyi kimi bir xüsusiyyət birləşdirir[1].

Lirik qəhrəman, yalnız yuksək vüsətə, mənaya çatmağa cəhd edir:

Deyirəm ki, bayram günü çöldə, çəməndə
Ürəklərə nəğmə tutan bir ney olaydım.
Mən özümü bu dünyada, dünyanı məndə,
Dərk eləyib, məna dolu hər şey olaydım... (32, 237).

Əvvəllərdə deyildiyi kimi, S.Vurğun həyatda, insanda həmişə yüksək, ülvi, ali başlanğıcı tərənnüm etmiş, fənalığa düşmən kəsilmiş, gözəlliyin, insanlığın yüksək amalını sənətinin baş amalı saymışdır.

S.Vurğun şerinin lirik qəhrəmanı zaman və məkan hüdudlarını söküb dağıdır, uzaq gələcəyi romantik poetik xəyalın və

---

[1] "Ünvansız məktubun" müəllifi M.C.Cəfərov da şeirdə, poeziyada əsl fəlsəfi məzmunla fəlsəfəçiliyin fərqini konkret izah edir. Bax: (112)

zəkanın gucü ilə oxucunun gözü önündə canlandırır. Bu romantikanın özünəməxsusluğu ondan ibarətdir ki, S.Vurğun lirikasında romantik gələcəyin obrazı real zaman və məkan əlamətlərini, cizgilərini özündə cəmləşdirirdi. Şair bu gələcəyin mümkün olacağına oxucusunu inandırdı:

İllər gəlib dolandıqca qərinələr keçəcəkdir,
Bütün aləm qurtuluşun şərbətindən içəcəkdir.
Min bir kitab bağlanacaq yenə ömrün camalına
Ulduzlar da baş əyəcək insanlığın kamalına.
Yer üzündə nə xəyanət, nə də iblis qalacaqdır.
İnsan qonaq gedəcəkdir ulduzların məclisinə,
Dünya qulaq verəcəkdir kainatın ney səsinə.
Tarix gəlib qovuşacaq ən müqəddəs bir niyyətə.,
Biz indidən söz qoşuruq o ilahi şeiriyyətə (32, 165).

Göründüyü kimi, "Gələcəyin toy-bayramı" adlanan bu şeirin lirik mətnində zaman anlayışı çox mühüm poetik amildir. Şeirin əsasını təşkil edən ən təbii model bundan ibarətdir: keçmış + indi + gələcək – ümumiləşmə. Bu modeldəki zamanlar müxtəlif tərkiblərdə yerlərini dəyişə də bilərlər[1]. Şeirdə zaman anlayışı hissin vəziyyətini müəyyənləşdirir. Yəni onun hərəkət istiqamətini aydınlaşdırır, müasirlik ruhunu əyaniləşdirir.

Ədəbiyyatda, poeziyada müasirlik zamanda əbədi olanı, keçməyəni estetik cəhətdən qavramaq və mənalandırmaqdır. Vaxt, zaman ötür, nəhr kimi axıb gedir. Bədii fikir bu nəhrin ən mühüm, ən vacib məqamını, mənzərəsini tutub saxlayır. *Bu saxlanılan*

[1] Şeirin süjetində zaman anlayışının mühüm əhəmiyyəti haqqında əlavə məlumat üçün bax: (173, 14-27). Bu şeir 1943-cü ildə, müharibənin ən ağırzamanında yazılıb. Amma adama elə gəlir kiş bu günlərin şeiridir. Hələ o vədə kosmosa-ulduzlara uçuş, kosmik raket və s. barəsində elə də, təsəvvür yox idi, amma şair "Ulduzlar da bş əyəcək insanlığın kamalına" – deyir...

*sözdə və səsdə, rəngdə və mənzərədə həkk edilib mənimsənilən bu məqam müasirlikdir. Bədii müasirlik adi zaman anlayışından geniş və ümumiləşdiricidir. Müasirlik donmuş zaman yox, müəyyən bir zamanda ortaya çıxan keyfiyyətin bütün zamanlara aidliyidir.*

Müasirlik bədii yaradıcılığın həmişə çox ciddi və zəruri məziyyəti sayılmışdır. Qabaqcıl estetik fikir müasirliyi gerçəkliyin bədii dərkinin təzəliyində və mündəricəsində görmüşdür. O təkcə "fakt həqiqəti" deyildir, bu həqiqətin bədii dərkidir. Belə bir müasirliyi "həmişə olduğundan daha fəlsəfi" hesab etmişlər...

S.Vurğun poeziyasında da müasirlik məhz belə bir keyfiyyətdə meydana çıxmış və inkişaf edib zənginləşmişdir. Bu cəhəti izah edərək M.İbrahimov yazmışdır ki, belə bir müasirlik onda romantikləşdirmə meylini gücləndirir. Fəlsəfi ümumiləşdirmələrə gətirib çıxarır. Həyatın hər bir hadisəsinə müstəsna həssaslıq göstərir (68, 22).

Belə ki, S.Vurğun poeziyasında müasirliyi faktların zahiri şərhində yox, onların estetik izahında, poetik təfəkkürün siqlətində axtarılmalıdır. Ümumiyyətlə, S.Vurğunun bu qəbildən olan şeirlərində zamanlar kino-kadr kimi bir-birini əvəz edir, fikrin hərəkətində dönüşlər, kəskin zamanlar konflikti meydana çıxır. Təkcə bir şeirdə keçmiş indi və gələcəyin iki tipi – yaxın və uzaq gələçək bir-birini əvəz edir...

"İstiqbal təranəsi" (1944) şeiri də, bu baxımdan Səməd Vurğun lirikası üçün səciyyəvi xüsusiyyətləri özündə cəmləşdirir. Şeir həm fəlsəfi-poetik problematikasına, həm də formasına görə möhtəşəmdir. Burada əsas mahiyyət üç poetik detalda birləşir, şeirin kompozisiyasını istiqamətləndirir, ideyasını aydınlaşdırır: **insan-hünər-həyat!** Şeirdə poetik ideal səviyyəsində canlandırılan bu üç amil bəşəriyyəti istiqbala çatdırır. S.Vurğun bu yolda bəşəriyyətin əzablardan, məhrumiyyətlərdən keçəcəyini göstərirdi. Gələcəyə belə baxış S.Vurğun lirikasında ***ölümlə həyat,***

***şərlə xeyir, qaranlıqla işıq*** arasında mübarizə vəsitəsi ilə ifadə olunurdu.

Şeiri poetik fikrin inkişafına və zamanlar təsvirini müxtəlifliyinə görə şərti olaraq iki hissəyə bölmək olar. Ahəngdə ağır, ləngərli bir təqt vardır. Bu təqt şeirdə sanbal, siqlət yaradır. Sözlər, ifadələr, metoforik birləşmələr ilk baxışda adi sözlərdən ibarət olsa da, S.Vurğunun poetik təfsirində mənalı və yeni səslənir, hər bir misra obraza, lövhəyə çevrilir.

"Günəşlər, aylar, ulduzlar vüqar ilə dolaşdıqca" ifadəsi adi bir mətləbi, zamanın keçməsini, ötməsini ifadə etsə də, daxili fikri siqlətə, məna sehrinə də malikdir. Belə bir məziyyət misranın deyiliş tərzində, ahəngində, emosional tutumluğunda da özünu göstərir. İfadə olunan mətləb və məna ondan ibarətdir ki, keçən vaxt, ötən gün, zaman adi deyildir, o nəsə gətirməli, nəsə yaratmalıdır.

Beləliklə də, elə ilk misradan hissi gərginlik əmələ gəlir, necə deyərlər, oxucunu öz sehrinə salır, onu "səadətlə fəlakətin" döyüş meydanına gətirib çıxarır. Şeirdəki bu döyuş meydanı indiki zamandır, yəni ziddiyyətli bir gerçəklikdir:

Müqəddəs intiqam eşqi, qılınc çəkmiş üfuqlərdən
Xəyalım tək uçur göydə şəfəqli, nurlu bir yelkən...
O, şimşəkdən qanad taxmış, süzür göylərdə sürətlə,
O, insandır, o, insandır, ucalmış ərşə qüdrətlə.
O, insandır ki, hər haqqı, nəsibi qəhrəmanlıqdır.
Hünərsiz millətin yurdu gunəşsiz bir qaranlıqdır.
Zamanın şanlı övladı qılınc taxmış bu inamla,
Axar çaylar, yaşıl düzlər boyanmışdır qızıl qanla.

Dumanlar, tüstülər qopmuş qılınclar, toplar ağzından,
Həyat eşqilə odlardan, alovlardan keçir insan (32, 180).

Bu müqəddəs döyüş insanın səadəti uğrunda, gələcəyi uğrunda gedir. Şeirdə bu parçanın funksiyası ondadır ki, o, zamanın geniş, əzəmətli bir faciəsini ifadə edən mənzərəsini canlandırır. Bu lövhədə romantikanın zəngin çalarları dövrün mahiyyətini, insanın vəzifəsini aşkarlayır, müəyyənləşdirir və ideal bir istiqbaldan xəbər verir ki, elə bu yerdə şairin səyyar xəyalı oxucusunu da müasir aləmdən uzaqlaşdırır. Şeirin ritmi, ahəngi, forması dəyişirsə də əsas motiv yenə də sabit qalır ki, bu da şeirin təntənəli, ləngərli ritmini mühafizə edib saxlayır.

Yeni məzmun, bədii təfəkkürün fikir axtarıcılığı S.Vurğun şeirində yenilik yaradır, şairin lirikasında hətta təzə, qeyri-adi bölgü və qafiyə quruluşu əmələ gətirir. Yeni forma ideal gələcəyin obrazını – şən, firavan, azad dünyanı təsəvvürə gətirməyə kömək göstərən, səadətdən xəbər verən oynaq ritm yaradır:

Uçub səyyar xəyalımla uzaqlaşdım bu aləmdən,
Zamanlar adlayıb keçdim, bir istiqbala vardım mən.
Bir istiqbal ki, qoynunda gül açmışdır bütün aləm.
Onun ulduzu hüsnündə,
Müzəffər şanlı köksündə,
Nə bir qəm var, nə bir matəm!
Şahidlər qəbri üstündə o istiqbal qurulmuşdur,
Bulanıq çaylar, ümmanlar, tamam, yer, göy durulmuşdur,
Könüllər mülkü ney tutmuş, xuramandır bütün dünya..,
Əməl, arzu, xəyal, sevda
Ötür bir sazda, bir simdə, bir ahəng, bir səadətlə,
Ötür hər qəlbə, vicdana, hər eşqə hüsnə hörmətlə,

Gülür torpaq, gülür insan,
O çıxmış yas libasından,
Səma şəffaf,
Çiçəklər saf,
Yerin qəlbində toy-bayram!
Gülür sənət,
Gülür ilham.
Günəştək nurə qərq olmuş, bütün xilqət! (32, 180)

Şeirin canlandırdığı bu gələcəkdə səadət butün dünyada cilvələnib, yaşamaq, yaratmaq xoşbəxtliyə çevrilib, bəşəriyyət, bütün insanlıq bəxtiyarlığa qərq olub. S.Vurğunun poetik təsvirində bu gələcək ümumbəşəri ideal, ümumdünya səadət səviyyəsinə qalxır. Burada romantika böyük ideyanın – bütün dünyada ***“əməl, arzu, xəyal, sevda”***nın qalibiyyət təntənəsi, insan ***əqlinnn, zəkasının, kamalın*** qalibiyyət təntənəsi ideyasının daşıyıcısıdır. Bütün tərəqqipərvər bəşəriyyətin bu cür ideal uqrunda apardığı mübarizə və arzuların romantnk təsvir və tərənnümündən sonra lirik qəhrəman yenə bu günlərə qayıdır, həm təəssüf, həm də ümid hissi ilə deyir:

Xəyaldır bəlkə bunlar, ah ... Qoy olsun, daş deyil insan,
Xəyal idrakla bir yerdə gəlib keçmiş zamanlardan...
Xəyalın hüsnü heç solmaz... Bu sənət daima vardır –
Zamanı fəth edən ərlər yenilməz qəhrəmanlardır... (32, 182).

S.Vurğun poeziyasının müdrikliyi, onun lirik qəhrəmanın bəşəri ideyalara çatmaq niyyəti burada açılır. Bu qəhrəman zamanı fəth etmək, onu qabaqlamaq, sabahı indidən görmək istəyir. Yəqin, elə bu keyfiyyətə görə P.Antakolski şairin yaradıcılığı haqqında yazırdı: “Onun poeziyası oxucular qarşısında dünyanı dərk etmək və dəyişdirmək üçün geniş imkanlar açır” (15).

Bu dərketmə yolunda müharibənin odları, alovları arasında ***"Qalib gələcəkmi cahanda kamal?"*** sualının, məhz S.Vurğun poeziyasında səslənməsi məntiqi və təbii idi. S.Vurğunun lirik qəhrəmanı bu problemi ortaya ataraq kənara çəkilmir, onun təntənəsi, qələbəsi üçün əqli mübarizəyə qoşur. Bu çağırış onun mübarizə proqramıdır. "İstiqbal təranəsi", "Gələcəyin toy-bayramı" və bu sıradan olan silsilə şeirlərində təsvir olunan ideal gələcəyin poetik təsviridir. O, dialektik qənaətə bel bağlayır: *"Hər vuruş yol açır, bar qurtuluşa..."*.

Qeyd etdiyimiz kimi, bu ideal S.Vurğun lirikasında müdrik, fəlsəfi, ictimai-siyasi mahiyyətli bir problemdir. Zamanın düşünən zəkasının irəli atdığı vacib bir problemdir. Elə buna görə də biz onu S.Vurğunun təkcə lirikasında deyil, bir sıra epik, dramatik qəhrəmanlarının, məsələn, filosof Şahbazın ("İnsan" dramı) dilindən də eşidirik. Sualı ata Şahbaz ortaya atır, onun oğlu kiçik Şahbaz isə: ***"Qalib gələcəkdir çahanda kamal!"*** – hökmünü verir. Bu da, bədii vasitədir və Səməd Vurğun inanır ki, ataların ortaya atdığı problemləri oğullar əzmikarcasına yerinə yetirəcəklər...

Lakin bu möhtəşəm qələbə necə qazanılır, hansı mərhələdən keçir? S.Vurğun lirikasında bu yol göstərilmir. Biz mahiyyəti indi dərk edirik və mahiyyətə gətirib çıxaran mübarizə mərhələlərini S.Vurğun yaradıçılığının sonrakı səhifələrində görürük. Bu mübarizənin mahiyyəti "Dünyanın xəritəsi"nin müxtəlifliyində, "Yandırılan kitablar" da, "Körpünün həsrəti"ndə, "Zəncinin arzuları"nda ortaya çıxır; "Leninin kitabı" bu mübarizəyə yol göstərir, "Zamanın bayraqdarı" isə mətin addımlarla öndə gedir. Bu mahiyyəti nəzərə alan S.Vurğun yazır: "Sovet qəhrəmanı, hər şeydən əvvəl, dünya miqyasında yüksəlmiş insandır. O, öz böyük idealları və irəliyə doğru can atıması ilə zaman və məkan üzərində yüksəlir!.. Mən Azərbaycan şəraitində məhz belə bir ədəbiyyat uğrunda həm yaradıcılıq mübarizəsi, həm də nəzəri mübarizə aparıram" (34, 329).

Beləliklə, hadisələrə, gerçəkliyə bu yüksək, bəşəri ideal zirvəsindən baxmaq üsulu şairin istəyini həyata keçirir, onun poeziyasında yeni keyfiyyətlər yaradır, əvvəllər onun poetikasında ançaq sezilən bir sıra üslubi xüsusiyyətləri daha qabarığ şəkildə ortaya çıxarır. S.Vurğun şeirində adi bir vəziyyət, detal vacib qanunauyğun hal səviyyəsində, ictimai-siyasi mahiyyət kimi mənalandırılır. Belə keyfiyyət şairin romantik dünyagörüşünün, həyat duyumunun üzvi, təbii xüsusiyyətlərindəndir:

Bir böyüklük görünsə də bütün aləm,
Necə rəngdən yaranmışdır hər mənzərə.
Bir ümmanı görməyinlə fəxr etmə sən,
Kor da görsə o ümmanı deyil hünər,
Sənət deyir: ümman yarat zərrələrdən (33, 280).

Monumentallıq, genişlik, kiçik həyat materialında “zərrəsində” mahiyyət axtarmaq, hadisələrin köklu məsələlərinə müdaxilə şairin bu dövr poeziyasına xas olan ümdə məziyyətlərdəndir. Bax, həyatın fəlsəfəsi budur: “zərrənin” bu sirrini dərk edərək, bu sirrin sirrinin şifrəsini açmaq... Onu daha çox gerçəklik haqqında mühakimə, bədii romantik-fəlsəfi düşücələr maraqlandırır. Belə ki, S.Vurğun lirikasında insana, onun həyatına, zəhmətinə, sevgisinə poetik baxışın özü romantik və fəlsəfi mahiyyətlidir.

“Dörd söz”,“Şair, nə tez qocaldın sən?”, “Unudulmuş tək məzar”, “Məhəbbət ilhama çağırır məni”, “Lalə”, “Ceyran”, “Gödəkçə”, “Mən tələsmirəm...”, “Yada sal məni” və bu qəbildən şeirlər zahirən adi həyat hadisələrini, əslində isə qəlb arzularını, həyat eşqini, mənəvi dünyanı lirik qəhrəmanın psixoloji vəziyyətini, “zərrədə gizlənən sirrin sirrini” əks etdirir. Bu şeirlərdə, bir çox hallarda nikbinliyin gur akkordları arasında, həyatın əbədi olmamasından doğan “müqəddəs kədər” notları da eşidilməkdədir. Bu şeirlər psixoloji əhvalı əks etdirən lirikanın ilkin nümunələri

kimi maraqlıdır. Əsasən, "Bir səs" şeirilə başlanan ("Dərman verin", "Qoça qartal", "Unudulmuş tək məzar", "Şair, nə tez qocaldın sən?") kimi şeirlərində yaşamaq eşqi ideyası halında təzahür edən və həzinliyi ilə seçilən bu həyat nəğmələri lirik qəhrəmanın "özüm və zaman" fəlsəfi-həyati qənaəqlərinin bədii yekunu olaraq meydana çıxır...

1940-cı ilin 27 yanvarında yazılan və şairin ev arxivində saxlanılan "Bir səs" şeiri şairin hissi-psixoloji aləmini əks etdirən əsər kimi maraqlıdır. Şeir çox həyəcanlı, lakin etiraz ifadə edən bir ruhla başlayır:

Qərib bir səs gəldi bu gün qəlbimdən
Ömrün baharında öləcəyəm mən...
Didib parçaladı bağrımı bu qəm,
Üzümə boylandı əlimdə qələm!?
Of!.. Bu səs! Nə qədər ömrümə yaddır.
Mənim ki, gəncliyim qəmdən azaddır.

Bu misralarda lirik qəhrəman zamanın, həyatın, dövranın repressiv təzyiqləri, basqıları, xofları ilə mübarizəyə başlayır. Bu daxili mübarizədə şairin həyat və yaradıcılıq eşqi qalib gəlir:

Dağılın başımdan, qara xəyallar,
Hələ açılmamış əməllərim var.
Dövran mənzilimə xoş gələcəkdir.
Azəri yurdunun şeir bayrağı
Mənim sənətimlə yüksələcəkdir (38; 36, 281).

Romantik üslubda yazılan, M.Qorkinin "Fırtına quşu"nu xatırladan "Qoca qartal" şeirində isə həyatla ölümün mübarizəsi gedir, ölüm qoca qartal obrazında predmetləşən lirik qəhrəmanı haqlasa da, o, təslim olmur, qıy vurub asimana qalxır, buludlarla, şimşəklərlə pəncələşir, bir qul kimi yox – səmaları fəth etmək döyü-

şündə; həyat eşqi yolunda məhv olur.

Yaxud "Mən tələsmirəm" şeiri heç də adi günün, ziyafətin seyrçi təsviri deyildir. Burada insan həyatının, onun yaratmaq eşqinin, özünüdərkinin dərin ictimai, mənəvi məzmunu əks olunub. Heç bir güzəşt bilməyən zamanın özünü təmkinə çağırmaq insanın psixoloji-fəlsəfi hisslərinin mahiyyəti olaraq meydana çıxır. "Ömrün hər bir anını uzatmaq", ona əbədilik bəxş etmək! Lirik qəhrəman həyata bu cür yanaşır:

Hələ yer üstündə, insan yanında
Deyib danışmaqdan doymamışam mən.
Uzadaq ömrünü hər bir anın da,
Yel kimi keçməsin vaxt üstümuzdən...
Bu aylı gecədə, bu dağ döşündə
Bu saat, bu dəm
Heç yana, heç yerə mən tələsmirəm! (32, 291).

Həyat eşqi, yaratmaq həvəsi, ömrün mənası yüksək hissi-emosionallıqla, dərin məzmunla mənalandırıldığından şeir oxucunu mütəəssir edir. Həyatın dialektikası, həqiqətin sərt üzü həzin bir kədər də doğurur. Lakin bu kədər üzücü, bədbin kədər deyildir. Bu kədər yaşayıb-yaratmaq eşqinin gücündən yaranır.

"Mən tələsmirəm" də insan ömrünün bir anı, müəyyən bir hissəsi poeziyanın nəfəsilə təqdim olunmuşdur. Həyat həqiqətini, adi bir detalı, "zərrəciyi" ümumiləşdirmək yüksək ideallar, arzular səviyyəsinə qaldırmaq, ona psixoloji-məntiqi ruh aşılamaq S.Vurğun lirikasının bəşəriliyini, ictimailiyini, həyatiliyini daha da artırır. Bu xüsusiyyət təkcə onun ayrı-ayrı əsərlərində, lirik nümunələrində deyil, yaradıcılığının əsas mahiyyəti kimi ortaya çıxır, poetik detalda ümumiləşdirilərək fəlsəfi-estetik mahiyyət kəsb edir. Bu keyfiyyəti nəzərə alan Mir Cəlal vaxtı ilə belə yazmışdır: "Səməd Vurğun nədən yazır-yazsın, onun əsərlərində bir filosof xəyalı, alim təmkini, təfəkkür üstünlüyü vardır" (78, 50).

Həyatı poetik, fikri-bədii dərk S.Vurğun şeirində qanadlı

fikirləri, gücü ehtirasları, zamanın qabaqcıl meyllərinə, mütərəqqi ideallarına hissi-rəğbəti daha da qüvvətləndirir, onun sənətkar şəxsiyyətini müdrik xalq şairi səviyyəsinə yüksəldir. Buna görə də Nikolay Tixonov yazırdı: "S.Vurğun xalqın ən şirin arzularını, dərin hiss və duyğularını ifadə edən müdrik şair idealına sadiq idi" (96).

1947-ci ildə Avropada – Londonda rəsmi səfərdə olan şair həmin hadisələrdən təsirlənərək Azərbaycan poeziya tarixində ilk dəfə "dünyaya geniş pəncərə açmış", məşhur "Avropa xatirələri" şeirlər silsiləsini yaratmışdır. "Berlin", "Ana heykəli" "Ziyafət", "Marksın qəbri üstündə", "Eduard Maze", "Qoca Şərqə günəş doğur" və s. şeirlərində təkcə S.Vurğunun lirik qəhrəmanın deyil, bütövlükdə poeziyamızın baxış əhatəsi genişləndi.

1948-ci ildə Polşanın Vrotslav şəhərində mədəniyyət xadimlərinin Ümumdünya sülh konqresində iştirak edən şair sovet poeziyasını "Zəncinin arzuları" kimi sənət incisi ilə zənginləşdirdi. K.Simonov "Zəncinin arzuları" haqqında demişdir: "Bu əsər bizim son illərdəki bütün dünya poeiyamızın ən əhəmiyyətli nümunələrindən biridir" (92, 120).

"Zəncinin arzuları" təkcə irqi ayrı seçkiliyə, müstəmləkəçiliyə qarşı şairin etirazı və ya əzilən bir xalqın üsyan dolu səsinin bədii əks-sədası deyildir. İnsan şərəfi, insan ləyaqəti bu əsərdə poetik-fəlsəfi yüksəkliyə qaldırılaraq tərənnüm olunur:

Deyirəm ki, yurdumuzun
Hər yayında, hər qışında
Həyat görüm, dünya görüm,
Hər insanın baxışında
Bir müqəddəs məna görüm!..
İnsan eşqi zəfər çalsın,
Səadətlə nəfəs alsın (33, 362).

Göründüyü kimi, zənci-rəssamın arzusu, idealı "İstiqbal təranəsi" şeirində təsvir olunan ideal arzulara müvafiqdir, bunlara bərabər, bunlara müvazi arzulardır. S.Vurğun 1948-ci ildə yazırdı: "Həyat və səadətin zəfərinə inanmayan, ümidsizlik, acizlik tərənnüm edən poeziya insan şərəfini, insan ləyaqətini ucuzlaşdırır"

(45).

Buna görə də, “Zəncinin arzuları” poeması insan şərəfi və insan ləyaqəti haqqında möhtəşəm bir poetik nəğmə adlandırıla bilər... Bu əsər, təkcə, irqi təqiblərə məruz qalan bir zəncinin arzularını deyil, bütün insanlığın, bəşərin arzularını tərənnüm etmişdir...

Bu nəğmənin fəlsəfi və estetik davamını daha canlı şəkildə biz “Zamanın bayraqdarı” əsərində görürük. “Zamanın bayraqdarı” poeması bədii formaya salınmış tarixi həqiqətdir, əsrləri arxada qoyub gələn insanlığın ideal arzularının həqiqətidir, lirik qəhrəmanın tarixə romantik səyahətidir, tarixliyin müasir dərkidir. Burada tarixnn yeni səhifələri açılır, “zaman yaşa dolur, insan ağıla” və bəşəri ideallar bir-bir həyata keçir, arzu dönüb gerçəklik olur.

Poemanın ideya axarı cəmləşib bir fikir – “dünyada dəyişməz nədir?” – fikri əsasında qərarlaşır:

Şair! Dəyişməyən cahanda nədir?

Elə oradaca şair, insanlığın ən müqəddəs bir mənəvi keyfiyyətini, həyatın, gerçəkliyin bütün qanunauyğunluğuna qarşı qoyur və inamla deyir ki, “dəyişməyən, odu sönməyən”, “üzü dönməyən” – “bir məslək eşqidir, bir də əməldir!!” və bunu yerinə yetirməyə qadir olan siyasi-ideoloji güc – platforma. Beləliklə, siyasi məzmunlu lirikanın seçmə nümunəsi, poeziyamızın nadir və qiymətli incisi olan “Partiyamızdır” şeirinin hissi-psixoloji və bədii əsası yaranır:

Bəşərin vicdanı, eşqi, ürəyi,
Zehni, düşüncəsi, fikri, diləyi,
Bütün yer üzünün xoş gələcəyi;
Hər zövqü-səfası partiyamızdır! (33, 553).

Bu əzəmətli himn "Qalib gələcəkdir cahanda kamal"-ideyasının poetik təsdiqidir.

S.Vurğun şeiri insanlığa xidmət etmiş, bəşəriyyətin mədəni tərəqqisinə kömək göstərmiş sənətdir. Onun poeziyası çoxmillətli poetik mədəniyyətimizin işıqlı zirvələrindən biridir. Görkəmli gürcü şairi K.Leonidze yazmışdı: "Mənim sevimli dostum S.Vurğun təkcə öz oxucularına deyil, bizə sovet şairlərinə də çox şey bəxş etmişdir". Məşhur Kabarda-Balkar şairi Qaysın Quliyev hörmət hissi ilə demişdir: "Səməd, biz Vətəni, xalqı hörmətlə sevməyi səndən öyrənəcəyik" (Sitatlar buradan götürülmüşdür: 53).

Belə bir yüksəklik, insanpərvərlik, xalqsevərlik poeziyası, qüdrətli bir şair şəxsiyyəti kimi S.Vurğunu əbədiləşdirdi, onu xalqımızın ölməz sənətkarlarından birinə çevirdi. Bunu nəzərdə tutan Sosialist Əməyi Qəhrəmanı, xalq yazıçısı Süleyman Rəhimov yazırdı: "Sənin adın xalqın qəlbində, hər bir ailədə, hər bir evdə, hər sazın səsində, hər bir mahnıda min illər boyu yaşayacaqdır" (53, 50).

Görkəmli xalq yazıçısı olduqca haqlı idi, indi təkcə Azərbaycan ədəbiyyatında deyil, Ümumittifaq xalqlarının ədəbiyyatlarında da S.Vurğun poeziyası böyük və diqqətəlayiq hadisədir. Şairin şəxsiyyəti, həyatı, yaradıcılıq fəaliyyəti ədəbiyyat, sənət mövzularına çevrilir, onun şərəfinə sənət mövzularına çevrilir, onun şərəfinə sənət əsərləri yaranır və ədəbi prosesin axarına çevrilir. Bu, hələ şairin sağlığında başlanmış, bizim günlərdə isə geniş miqyas almışdır.

Şair sanki bunu duyaraqdan deyirdi:

Mən söhbət açsam da yüz qərinədən,
Bu gündən ayrıla bilməyəcəyəm.
Böyük kommunizmin sahabına mən,
Sadə xatirə tək gəlməyəcəyəm,
Ellər uzadacaq şair ömrünü... (33, 550).

Şair ömrü S.Vurğunun lirik qəhrəmanının ömründə əbədiləşir. Bu birgəliyi ədəbiyyatşünas, tənqidçi, akademik Kamal Talıbzadə belə izah edir: “Şair Səməd Vurğun həmişə öz müasirlərinin nəzərində şəxsiyyət Səməd Vurğunla yanaşı dayanmışdır. Bu iki aləm—böyük şairlə böyük şəxsiyyət birləşib böyük Səməd Vurğun yaratmışdır”. (95).

Bu birgəliyi böyük şair özü də duyaraq “Uzaq nəslə məktub”unda sanki lirik qəhrəmanına üz tutaraq yazır: “Mənim əziz və doğma nəslim! Mən əsrlərin başı üzərindən xoşbəxt sifətini, sənin böyük günəş kimi parlaq taleyini – dünya kommunizm cəmiyyəti vətəndaşının taleyini görürəm. Mən xəyalən sənə çatıram, səninlə bir cərgədə addımlayıram. Mən elə bil səninlə birlikdə nəfəs alıram, səninlə əl-ələ verərək addımlayıram...Mənə belə gəlir ki, mən həyat və yaradıcılığımı davam etdirirəm, sən mənim simamsan, (proobraz – Q.B.). Mən səninlə fəxr edirəm, mənim əziz nəticəm. Mən fəxr edirəm ki, sən özün yüksək fikrinlə, ideallarınla və arzularınla məni davam etdirirsən mənim başladığım və tərənnüm etdiklərimi zənginləşdirirsən, inkişaf etdirirsən...” (54, 145).

“Müasir dünya ədəbiyyatının iftixarı olan” (Lui.Araqon), Dədə Qorquddan gəlib Qurbanidən, Aşıq Abbasdan, Sarı Aşıqdan, Aşıq Ələsgərdən keçən yolun boyük bir zirvəsi xalq şairi Səməd Vurğundur. O, elə xoşbəxt sənətkarlardandır ki, ömrü yaratdığı şeir, həyatı danışdığı dil qədər yaşarıdır. Səməd Vurğun Vətənin və poeziyanın yaddaşında təkrarsız poetik şəxsiyyət, milli və beynəlmiləl ictimai xadim, elm və sənət təşkilatçısı, qeyri-adi şair, dramaturq, mütərcim və mütəfəkkir kimi yaşayır və yaşayacaqdır...

# NƏTİCƏ

Sovet klassikasının görkəmli nümayəndələrindən biri olan S.Vurğunun lirik qəhrəmanının təşəkkülü formalaşması mürəkkəb, qanunauyğun və özünməxsus bir yol keçmişdir.

Bu yolu əsasən üç dövrə ayırmaq mümkündür;

a) Lirik qəhrəmanın təşəkkülü dövründə (1924-1935), bir müddət (1924-1928) lirik "mən" aparıcı olmuş, şeirlərdə subyektiv tərəf dominantlıq təşkil etmişdir. ("Şikəstəyə məktub", "Sızıltılarım", "Tərlanım", "Onu görürkən" və s.). Bu mərhələdə S.Vurğun lirikasında obyektiv tərəfi üstün olan şeirlər də var idi və bunların əksəriyyəti mətbuatda dərc edilmişdi ("Cavanlara xitab", "Ondan da gözəldir", "Orda", "Hazır olunuz" və s.). Lirikada obyektiv tərəflə subyektiv tərəfi bu cür ziddiyyəti, yəni müvəqqəti olaraq nisbi tarazlığa gəlməməsi S.Vurğun şeirinin mövzusunda, formasında, obrazlar sistemində, təsir dairəsində (Füzuli, L.Tolstoy, Vaqif, Hadi, T.Fikrət və b.), təxəllüs-obrazların tez-tez dəyişməsində ("Səməl Vəkil", "Vurğun", "Düşgün", "Xəstə Vurğun", "Dəli şair", "Vurğun Səməd", "Səməd Vurğun"), sənətkarlıq xüsusiyyətlərinin dəyişkənliyində və s.-də özünü göstərirdi. Deməli, lirik qəhrəmanının təşəkkülü dövrünün birinci mərhələsində (1924-1928) şairin şeirlərində iki istiqamət özünü göstərmişdir ki, bunlardan birincisi əsasən subyektiv hisslərin, şəxsi kədər və tərəddüdlərin ifadəsi kimi yaranan şeirlər idi və bu şeirlərin əksəriyyəti hissi-emosional tərzdə yazılmışdır, ikinci meyl isə ictimai-siyasi həyatla əlaqəli, günün tələbindən doğan mövzularda yazılan şeirlər idi ki, bunlara publisistik ruh, fikrin birbaşa deyiliş tərzi xas idi.

20-ci illərin axırları, 30-cu illərin əvvəllərindən ikinci qol get-gedə qüvvətlənir, şairin lirik "mən"i təmizlənmə, durulma prossesi keçirir, şəxsiyyətlə lirik qəhrəman bir-birinə qovuşmağa başlayır. "Andım", "Hərəkət", "Raport", "Hücum" və s. şeirlərin

mövzu dairəsi genişlənir, ənənəvi obrazlar yeniləşir, romantik və realist xətlər qaynayıb qovuşur, əvvəlki dövrdə özünü büruzə verən bir sıra prinsiplərdən imtina, özünə zidd getmə halları da olur. (“Andım”, “Şeirim”, “Ölən şeirlərim”, “Dönüş” və s.); lirik xarakter getdikcə zənginləşir, sabitləşir, vahid bir poetik qəhrəman kimi formalaşmağa başlayır və həyata müəyyən bədii-estetik baxışı, emosional-fəlsəfi münasibəti, əxlaqi prinsipləri olan qəhrəmana çevrilir, bəhrələnmə hüdudları genişlənir. (M.Qorki, V.Mayakovski, S.Yesenin);

30-cu illərin ortalarına doğru S.Vurğunun poetik üslubu müəyyənləşir. Bu mərhələdə Vurğunun lirik xarakteri tərəddüdlərdən, daxili ziddiyyətlərdən xilas olur. Bununla əlaqədar S.Vurğunun “poetik istedadının nüfuz dairəsi” Azərbaycan sovet ədəbiyyatında ön cəbhəyə keçir. Əvvəlki illərdən fərqli olaraq S.Vurğunu həyatın əsas bir cəhəti daha çox cəlb edir – yeni quruculuğun, kollektiv əməyin insan psixologiyasına, şəxsiyyətinə, mənəviyyatına təsiri məsələləri lirikanın mövzusu olur. İndi gerçəkliyə romantik baxışın mahiyyəti də yenidir.

Əvvəllər bu, ənənədən gələn ayrı-ayrı obrazlar vasitəsilə verilirdisə, poetik faktın özü romantik dona geydirlirdisə indi romaitika gerçəklikdən – faktın “özündən doğur, realist təfəkkürlə zənginləşir. Poetik problemin belə həlli onun poeziyasını həyata daha da yaxınlaşdırır: konkretlik, faktın rasional cəhətləri on plana keçir, şeirn təsir və təlqin gücü qüvvətlənir (“Qızıl Şərq”, “Rot-front”. “Bahar”, “Oktyabr günləri”, “Sevgi”, “Azərbaycan” və s.).

30-cu illərin ortalarına doğru “Azərbaycan” şeirinin yaranması prosesində artıq S.Vurğunun lirik xarakterləri bütövləşərək lirik qəhrəman kimi göz önündə canlanır. Bu lirik qəhrəman xaraktercə çoxcəhətli və möhtəşəmdir. O, beynəlmiləl mübariz və xalq xadimidir.

b) Lirik qəhrəmanın yetkinliyi dövründə (bu da iki mərhələdən ibarətdir (1935-1937; 1937-1940) şairin lirikasında

sosialist sənətinin ideya-estetik prinsipləri qərarlaşır. Lirik qəhrəman mənsub olduğu cəmiyyətin fəlsəfi-siyasi düşüncəsi, təfəkkürü səviyyəsinə yüksəlir, mövzu əhatəsi genişlənir. Yeni dövrün üstünlükləri, xalqın ictimai-mənəvi azadlıq arzuları, həyat, təbiət, insanlıq S.Vurğun lirikasının bədii obyektlərinə çevrilir.

Lirik qəhrəman həyata, insanlığa yalnız gözəllik anlayışı ölçüsündən yanaşır, gözəlliyin dərki gerçəkliyin dərkinin və poetik dəyərləndirmənin meyarına çevrilir. Lirik qəhrəmanın vətənpərvərlik, beynəlmiləlçilik xəlqilik, humanizm kimi ən yaxşı xarakter keyfiyyətlərinə yeni çalar verir... Bədii estetik kateqoriya kimi "gözəlliyin əks qütbu olan "eybəcərliyin" birbaşa ifşası S.Vurğun yaradıcılıqında çox az yer tutur. Azad məhəbbət, ülvilik, ictimai xoşbəxtlik həyatdan doğan sevinc S.Vurğunun bədii insan konsepsiyasını şərtləndirir. Onun insanı—lirik qəhrəmanı xeyri, işığı təmsil edir. Xeyirlə şərin mübarizəsi lirikanın əsas konfliktinə çevrilir ("Yazla qışın deyişməsi", "Bahar". "Dörd soz" və s.). S.Vurğunun lirik qəhrəmanı bütun varlığı ilə xeyirin tərəfindədir və bu mənada şairin şəxsiyyəti ilə lirik qəhrəmanı yanaşı addımlayır.

S.Vurğun poeziyasının sənətkarlıq imkanları təkmilləşir: movzu zənginliyi, janr müxtəlifliyi, forma təzəliyi və başqa yeni keyfiyyətlər lirikanıı əsas xüsusiyyətləri kimi müəyyənləşir. Bu bədii vasitələr formal şəkildə qalmır, lirik qəhrəmanın əhatəli şəkildə canlanmasına xidmət edir. Bu yenilik şeirin obrazlar sistemində, ritmində, strukturunda, alliterativ ünsürlərində, səs və məna vəhdətində emosional və rasional tərəflərin harmonik nisbətlərində hissin, fikrin və vəziyyətin yaratdığı konfliktdə özunü göstərir.

Bütün bunlar isə lirik qəhrəmanın hissi-fikri vəziyyətinin bədii həqiqətə çevrilməsinə xidmət edir. ("Mavzoley", "Qızıl əsgər", "Gələcəyin toy-bayramı", "Bütün xalqlar, qəbilələr od içindən çıxacaqdır.", "Böyük şairin şərəfinə", "26-lar" və s.).

Beləliklə, S.Vurğun poeziyanın potensial imkanlarından istifadə edərək monumental lirik qəhrəman yaradır. Əvvəllər lirik qəhrəman həyatın müxtəlif cəhətləri, problemləri ətrafında müxtəlif yolla düşünürdüsə, indi müəyyən və aydın konsepsiya baxımından dünyaya nəzər salmağa başlayır, onun düşüncə tərzi dəyişir. O, məhəbbətin, mehri-ülfətin, sülh və əmin-amanlığın, zəhmətin yaratdığı xoşbəxtliyin, bərabərliyin mübarizidir, carçısıdır və ona görə də bəşəriliyə doğru gedir.

c) Lirik qəhrəman indi bəşəri ideyalara qovuşmaq dövründədir (1943-1947; 1948-1956). Bu dövrün başlanmasını müharibənin qalibiyyətlə bitməsindən, bəşəriyyətin faşizmdən xilasından yaranan psixoloji vəziyyət sürətləndirdi. İndi S.Vurğun poeziyasında siyasi-ictimai kəsər, fəlsəfi məzmun daha da artır, vətənpərvərlik, xəlqilik, xalqlar dostluğu ideyaları konkret hadisələrə, bəşərin gələcək taleyinə daha sıx bağlanır (“Vətən keşiyində”, “Ukrayna partizanları”, “Moskva”, “Nəsibimiz səadətlə ilk bahardır” və s.).

Lirik qəhrəman müharibənin çətin anında hadisələrə dialektik yanaşmağı bacarır, nikbinlik, qələbəyə inam, böyuk iradə onu səciyyələndirir. Bu dövr S.Vurğun lirikasında xəyali təsvirlə obyektiv təsvir paralelliyi guclənir, birinci ikincini tamamlayır. Şeirlərin əsasını predmetlilik, aktuallıq təşkil edir (“Göyərçin”, “Qızxanımın hünəri” və s.); bədii təfəkkür milli köklərə daha möhkəm bağlanır; şeirlərinin əksəriyyətində irəli sürülən ideyalar həyata keçir ki, bu cəhət, lirik qəhrəmanın ictimailiyini və bəşəriliyini, obyektiv əsasda olmasını, müasirliyini şərtləndirir.

“Muqəddəs kədər” motivi S. Vurğun tipli şairlərin lirik qəhrəmanının xarakterinə az uyğundur. Şair nikbinliyi həmişə yüksək həyəcanla, romantik vüsətlə tərənnüm edir (“Sünbülüm”. “Gələcəyin toy-bayramı”, “Zəfər nəğməsi”, “İstiqbal təranəsi” və s.).

Bu motiv şairin sonrakı dovr lirikasında da aparıcı yer tutur.

(“Mən tələsmirəm”, “Avropa xatirələri”, “Zamanın bayraqdarı” və s.). İndi lirik qəhrəman daha yüksək, ideal mənəvi keyfiyyətlər kəsb edir, bəşəriyyətin taleyini xeyirlə həll etmək, mütləq azadlıqa qovuşdurmaq kimi müqəddəs bir vəzifəni üzərinə götürür. Bu borc hissi lirik qəhrəmanı yüksəldir, kamil insan səviyyəsnnə qaldırır. O bəşəriyyətdə görmək istədiyi ideallar uğrunda **Məhəbbət, Sədaqət, Həqiqət, Kamal** uğrunda mübarizə aparmağa başlayır...

Bu dövrdən etibarən lirik qəhrəmanın idealının məhvəri bu böyük estetik məna ətrafında hərlənir və S.Vurğunun poetik aləmində yeni mərhələ başlanır – zamanın böyük fəlsəfi ümumiləşdirmələr yolu ilə poetik dərki mərhələsi... İndi lirik qəhrəman malik olduğu mənəvi keyfiyyətləri özündən kənara çıxarmağa cəhd edir, onu həyatın özünə qaytarmaq uğrunda düşünür. S.Vurğunun lirik qəhrəmanının yeni mahiyyəti də məhz burada açılır və fikrinin fəlsəfi məzmunu həyata, zamana və insana münasibətində təkmilləşir. S.Vurğun şeiri ağıl və hiss, zəka və ürək poeziyasıdır və bu bu keyfiyyət indiki mərhələ üçün daha xarakterikdir.

Bu dövrdən S.Vurğun poeziyasında lirik qəhrəmanın həyata baxışı daha da müdrikləşir, təkmilləşir, fikirlərinin problematikası əhatəli olur. Şair lirik qəhrəmanın fikir axtarışlarını təqribən ***“Qalib gələcəkmi cahanda kamal?”*** bədii-estetik və fəlsəfi problematikası ətrafında qurur (“İstiqbal təranəsi”, “Nəsibimiz səadətlə ilk bahardır”, “Sözün şöhrəti”, “Qoca qartal”, “Məhəbbət ilhama çağırır məni”, “Yada sal məni”, “Mən tələsmirəm”, “Zamanın bayraqdarı” va s.) və belə bir poetik nəticəyə gəlir: İnsan kamalı ədalətə, həqiqətə, gözəlliyə, məhəbbətə xidmət etsə, pislik, rəzalət, ölüm yox olar, bəşəriyyət səadət dolu bir istiqbala qovuşar!

Bədii təfəkkürün fikir axtarıcılığı S.Vurğun şeirinə forma yeniliyi də gətirir, poeziya tarixinda indiyə qədər müşahidə edilməyən bölgü, təqt, qafiyə quruluşu, obrazlar sistemi yaranır və

əvvəllər örtülü, potensial şəraitdə olan bir sıra sənətkarlıq xüsusiyyətləri qabarıq şəkildə ortaya çıxır. İndi lirik qəhrəmanın mənəvi dünyasında da, psixoloji yaşantılarında da dəyişmə var.

Lirik qəhrəmanın daxili, mənəvi-psixoloji dünyası indi daha mənalı tərzdə, yeni cizgilərlə cizilir. Bu səpkili şeirlər ədəbiyyatımızda psixoloji əhvalı, mənəvi, fərdi ovqatı dərindən əks etdirən lirik nümunələr kimi də maraqlıdır. ("Bir səs", "Dərman verin", "Qoca qartal", "Unudulmuş tək məzar", "Şair, nə tez qocaldın sən?" "Gödəkçə", "Yada sal məni" və s.) və 60-cı illər poeziyamızın bir sıra yeni keyfiyyətlərinin başlanğıcı da, Səməd Vurğunun yaratdığı bu böyük ənənəyə - insan amilinin mənəvi-psixoloji yaşantılarının səmimi ifadəsinə bağlıdır...

Həyatı müdrikcəsinə poetik dərk, insan kamalının qabiliyyətinə inam, romantik vüsət Səməd Vurğun şeirində qanadlı və güclü ehtirasları, zamanın qabaqcıl meyllərinə, mütərəqqi ideallarına məhəbbəti və inamı qüvvətləndirmiş, onun şair şəxsiyyəti ilə yanaşı addımlayan lirik qəhrəmanına əbədi poetik ömur bəxş etmiş, onu müasir tipli insana çevirmişdir.

Bir də, son olaraq, onu qeyd edim ki, Səməd Vurğun kimi müdrik, qeyri-adi əzəmi və azman, görkəmli şəxsiyyətin, vətənpərvər şairin vaxtsız-vədəsiz, əlli yaşında həyata vida etməsi ancaq Azərbaycan xalqı və ədəbiyyatı üçün deyil, həm də bütün dünya xalqları ədəbiyyatı üçün böyük itgidir.

Ancaq bu günümüz və gələcəyimiz üçün təskinlik olan odur ki, əsl şairlər ölmürlər, onlar gələcək nəsillərin yaddaşında əbədi yurd salıb, əbədi şair talelərini şərəflə yaşayırlar. Səməd Vurğun da, poeziyasında yaratdığı əbədiyaşar lirik qəhrəmanın ömründə əbədən yaşayacaq, "şair ömrü bitməyəcək, davam etdəcək", onu sevə-sevə mütaliə edənlərin qəlbində əbədi sakin olacaqdır...

Səməd Vurğun mənsub olduğu xalqın dilini və əməlini aydın başa düşən, öz sənətini xalq həyatı və mübarizəsilə qidalandırmağı

bacaran, zəhmətkeş insanı öz qəlbində yaşada bilən və onunla birlikdə nəfəs alan bir sənətkardır. Onun sənətinin qüdrəti, şerinin təsir gücü, hər şeydən əvvəl, əsərlərində təsvir və tərənnüm etdiyi həyat həqiqətlərində, ümumxalq iradəsində, zəngin xalq mənəviyyatındadır. Onun əsərləri başında şərəfli bir tarix dolanır ki, bu, onun mənsub olduğu xalqın tarixi və bugünkü varlığıdır...

Vətən, xalq taleyi Vurğun yaradıcılığından çıraqban, düşüncəli zəhmət yolları kimi keçir. Onun poezisiyası – şairin bitib-tükənməyən xəzinəsidir. O, ana yadigarı, ata töhfəsi, Vətən, xalq kürsüsüdür; elə bir vətəndaşlıq yoludur ki, ulu bir diyardan – Kür qırağından, sazlı-sözlü bir ocaqdan başlayıb, dünyanın ən izdihamlı meydanlarından keçir, ən təntənəli kürsülərinə qalxır. Bu kürsüdən Vurğun səsi ucalır- Azərbaycan arxalı ("Dağ olmaq istəsən dağa arxalan"), təəssübkeş bir övlad səsi; bu kürsüdən Vurğun nəğmələri qanadlanır – bu nəğmələr heç vaxt susmayacaq, səngiməyəcək, saralıb-solmayacaq. Çünki kökü-ilhamı, qüdrətli bir xalqın ürəyindədir...

Səməd Vurğun Antey misallı, ağalar və qullar dünyası ilə mərdliklə çarpışan, ruhən sərhədsiz poetik idealının böyük hərfli ŞAİR qladiatordur...

Vurğun sənəti Dədə Qorqud müdrikliyihdən, Nizami hikmətindən, Nəsimi dözümündən, Füzuli heyrətindən, Vaqif sadəliyindən, Sabir kəsərindən bəhrələndi, əsrin qabaqcıl ideyaları ilə silahlandı, onun üçün Vətən – məbəd, xalq dühası (məktəb) – mehrab oldu...

**S O N**

## ƏDƏBİYYAT

1. Lenin V.İ. Əsərləri, 4-cü nəşri, 5-ci cild. Bakı: Azərnəşr, 1948.

2. Lenin V.İ. Əsərləri, 27-ci cild. Bakı: Azərnəşr, 1952.

3. Lenin V.İ. Ədəbiyyat haqqında. Bakı, Azərnəşr, 1970; Əsərləri, 4-cü nəşri, 15-ci cild, səh. 200—207.

4. Sov. İKP XXV qurultayının materialları. Bakı: Azərnəşr, 1976.

5. Abdullayev C. Səməd Vurğunun poetikası. Bakı: Gənclik, 1976.

6. Ağayev Ə. Azərbaycan sovet poeziyası (1920-1970) İnkişafın əsas meylləri (Birinci məqalə). Azərbaycan, 1974, № 3.

7. Ağayev Ə. Azərbaycan sovet poeziyası (1920-1970). İnkişafın əsas meylləri (İkinci məqalə). Azərbaycan, 1974, № 4.

8. Azərbaycan ədəbiyyatı tarixi, II cild, Az. FAN. Bakı: 1944.

9. Azərbaycan sovet ədəbiyyatı tarixi, I cild. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1967.

10. Azərb. SSR EA Respublika Əlyazmaları Fondu. Arx. 46. Q–82– (1559).

11. Azərb. SSR EA Respublika Əlyazmaları Fondu. Arx. 46. Q–34– (336), vər. 8.

12. Azərb. SSR EA Respublika Əlyazmaları Fondu. Arx. 46. Q–40– (384).

13. Azərb. SSR EA Respublika Əlyazmaları Fondu. Arx. 46. Q–15– (60).

14. Azərb. SSR EA Respublika Əlyazmaları Fondu. Arx. 46. Q–82– (1558).

15. Antokolski P. Qəlbin səsi. Ədəbiyyat və incəsənət, 23 aprel 1966-cı il.

16. Arzumanov V.M. Əbədiyyətə qovuşan sənət. Bakı:

Gənclik, 1976.

17. Arif M. Seçilmiş əsərləri, I cild. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1967.

18. Arif M. Vətənpərvər şair. Bax: S.Vurğun, "Sənət uğrunda". Bakı: Azərnəşr, 1942.

19. Arif M. Sosialist realizmi sovet ədəbiyyatının əsas yaradıcılıq üsuludur. "İnqilab və mədəniyyət", 1948, №10.

20. Arif M. Xalq şairi Səməd Vurğun. Azərbaycan SSR EA-nın elmi əsərləri (Ədəbiyyat, dil və incəsənət seriyası), 1956, №4.

21. Atayev M. S.Vurğunun "Cavanlara xitab" şeirinin təkrar nəşri. Ədəbiyyat və incəsənət, 23 mart 1968.

22. Axundov N. Səməd Vurğun. (Biblioqrafiya). Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1965.

23. Axundov R.N. Səməd Vurğun xarici mətbuatda. Bakı: Bilik, 1976.

24. Bayramov Q. Şair haqqında ilk söz. Ədəbiyyat və incəsənət, 9 avqust 1975-ci il.

25. Bayramov Q. Vurğun poeziyası. Bakı: Bilik, 1976.

26. Belinski V.Q. Seçilmiş məqalələr. Bakı: Uşaqgəncnəşr, 1948.

27. Bukov Y. Səməd Vurğunla görüşlərim. Azərbaycan gəncləri, 23 mart 1966-cı il.

28. Vahabzadə B. Səməd Vurğun. Bakı: Azərnəşr, 1968.

29. Vəkilov M. Mənim qardaşım. Azərbaycan, 1976, № 6.

30. Vəkilov M. Səməd Vurğunun tərcümeyi-halı. Bax: Səməd Vurğun: Əsərləri, 6 cilddə, I cild. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1960.

31. Vurğun S. Əsərləri, 6 cilddə, I cild. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1960.

32. Vurğun S. Əsərləri, 6 cilddə, II cild. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1960.

33. Vurğun S. Əsərləri, 6 cilddə, III cild. Bakı: Azərb. SSR

EA Nəşriyyatı, 1961.
34. Vurğun S. Əsərləri, 6 cilddə, V cild. Bakı: Elm, 1972.
35. Vurğun S. Əsərləri, 6 cilddə, VI cild. Bakı: Elm, 1972.
36. Vurğun S. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1976.
37. Vurğun S. Böyük sənətkar Puşkinin ölümünün 100 illiyi qarşısında. Ədəbiyyat və incəsənət, 24 may 1936-cı il.
38. Vurğun S. Vladimir Mayakovski və şeirimiz. Ədəbiyyat qəzeti. 15 aprel 1950-ci il.
39. Vurğun S. Komsomol mənə nə verdi? Ədəbiyyat qəzeti, 29 oktyabr 1938-ci il.
40. Vurğun S. Mən necə yazıram? Ədəbiyyat qəzeti, 10 fevral 1934-cü il.
41. Vurğun S. Oktyabr və Azərbaycan ədəbiyyatı. İnqilab və mədəniyyət, 1934, № 11-12.
42. Vurğun S. Ondan da gözəldir. "Şəki fəhləsi" qəzetinə əlavə: "Qızıl qələm" vərəqi, №1, 28 iyul 1927-ci il
43. Vurğun S. "Orda" (Şeir) – "Şəki fəhləsi" qəzetinə əlavə: "Qızıl qələm" vərəqi, № 2, 1927-ci il, avqust nömrəsi.
44. Vurğun S. Səadət uğrunda. Bakı: Azərnəşr, 1942
45. Vurğun S. Sənət aşiqi. Kommunist, 6 iyun 1948-ci il.
46. Vurğun S. Sünbül. Kommunist, 17 mart 1936-cı il.
47. Vurğun S. Ala gözlər. Revolyusiya və kultura, 1940, № 5-6.
48. Vurğun S. Tənqidsiz tənqid haqqında. Ədəbiyyat qəzeti, 21 oktyabr 1934-cü il
49. Vurğun S. Çiçək. Bakı: Uşaqgəncnəşr, 1957.
50. Vurğun S. Cavanlara xitab. Yeni fikir, 8 may 1925-ci il.
51. Vurğun S. Formalizm və naturalizm əleyhinə. Ədəbiyyat qəzeti, 2 aprel 1936-cı il
52. Vurğun S. Şeirlər. Bakı: Azərnəşr, 1935.
53. Vurğun qəlbimizdədir. Bakı: Azərnəşr, 1976.
54. Vurğun S. Uzaq nəslə məktub. Azərbaycan, 1976, № 6.

55. Vurğun haqqında. "Şeir maraqlısı" gizli imzası ilə dərc olunan məqalə. Şəki fəhləsi, 26 sentyabr, 1927-ci il.

56. Vurğuna cəbhədən məktublar. Ədəbiyyat qəzeti, 2 fevral 1963-cü il.

57. Quluzadə M.Y. Füzulinin lirikası. Bakı: Azərb SSR EA Nəşriyyatı, 1965.

58. Quluzadə M.Y. Böyük ideallar şairi. Bakı: Gənclik, 1973.

59. Qurbanov Ş. Əsərləri, üç cilddə, III cild. Bakı: Azərnəşr, 1969.

60. "Qızıl gənc qələmlər" almanaxı. Bakı: 1926.

61. Ələkbərli M.K. Səmədin həsrəti. Ədəbiyyat qəzeti, 9 yanvar 1935-ci il.

62. Əlioğlu M. Hüseyn Cavidin lirikası. Azərbaycan, 1968, № 12.

63. Zatonçkovski A. Səməd Vurğun Azərbaycan nəğmə-karıdır. "Przuyazn", 1956, № 25.

64. Zaryan N. S.Vurğun haqqında. Kommunist, 22 may 1966-cı il

65. Zeynallı A. Keçilməmiş yollarla. Bakı: Elm, 1970.

66. Zəngili. Şairin andı. İnqilab və mədəniyyət, 1931, № 3-4.

67. İbrahimov M. Müharibə və ədəbiyyat. Vətən uğrunda, 1933, № 3.

68. İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı: Azərnəşr, 1965.

69. Yesenin S. Şeirlər və poemalar. Bakı: Gənclik, 1970.

70. Kitabi-Dədə Qorqud. Bakı: Azərnəşr, 1962.

71. Mehdiyev F. Alovlu publisist Səməd Vurğun. Bakı: Gənclik, 1967.

72. Məmmədov K. Qasım bəy Zakir. Bakı: Azərb SSR EA Nəşriyyatı, 1957.

73. Məmmədov M. Estetik haqqında söhbətlər. Bakı: Gənclik, 1975.

74. Məmməd Rahim. S.Vurğun haqqında xatirələrimdən. Azərbaycan, 1969, № 1.

75. Məmməd Rahim. Şeirimizlə əlaqədar bəzi mülahizələrim. Ədəbiyyat və incəsənət, 20 fevral 1965-ci il.

76. Mir Cəlal və Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1972.

77. Mir Cəlal. Özünü yenidənqurma yollarında. Hücum, 1932, № 5-6.

78. Mir Cəlal. Xalq şairi S.Vurğun. Bakı: Azərnəşr, 1966.

79. Mir Cəlal. Xatirə dəftərimdən. Bakı: 14 may 1966-cı il.

80. Mir Cəlal. Füzulinin poetik xüsusiyyətləri. Bakı: 1940.

81. Mirəhmədov Ə. Sabir. Bakı: Azərb SSR EA Nəşriyyatı, 1958.

82. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Azərnəşr, 1965.

83. Müşfiq M. Əsərləri, üç cilddə, I cild. Bakı: Azərnəşr, 1958.

84. Nəbiyev B. Süngüyə çevrilmiş qələm. Bakı: Azərnəşr, 1970.

85. Nəbiyev B. Lirika – 1971. Azərbaycan, 1972, № 6.

86. Orucəli H. S.Vurğun. Bakı: Uşaqgəncnəşr, 1956.

87. Osipov G. Şairin şöhrəti. Bakı: Uşaqgəncnəşr, 1956.

88. Poladov M. Xatirələrimdən səhifələr. Bax: Qalacaqdır dünyada kitabında. Bakı: Azərnəşr, 1973.

89. Rüstəm S. Ələmdən nəşəyə. Bakı: 1927.

90. Salmanov Ş. Azərbaycan sovet şeirində ənənə və novatorluq problemi. Bakı: Elm, 1980.

91. Sarıvəlli O. İlk axtarışlar. Səməd Vurğun. “Çiçək” kitabına müqəddimə əvəzi. Bakı: Uşaqgəncnəşr, 1957.

92. Simonov K. Vurğun haqqında. Azərbaycan, 1976, № 9

93. Tağıyev R. Xalq şairi açılmamış səhifələrdə. Azərbaycan, 1976, № 6.

94. Talıbzadə K.A. Abbas Səhhət. Bakı: Azərb SSR EA

Nəşriyyatı, 1955.

95. Talıbzadə K.A. Sənətkarın ömür yolu. Ədəbiyyat və incəsənət, 16 noyabr 1976.

96. Tixonov N. S.Vurğun haqqında. Azərbaycan gəncləri, 13 may 1966-cı il.

97. Tixonov N. Xatirələrimdən səhifələr. Bax: Qalacaqdır dünyada kitabında. Bakı: Azərnəşr, 1973.

98. Fadeyev A. S.Vurğun haqqında. Azərbaycan, 1976, № 9.

99. Fadeyev A. S.Vurğuna təbrik teleqramması: Ədəbiyyat və incəsənət, 12 may 1956-cı il.

100. Faruq Ə., Dəmirçizadə Ə. Şairin andı. Kommunist, 8 may 1931-ci il.

101. Füzuli M. Əsərləri. 5 cilddə, III cild. Bakı: Azərb SSR EA Nəşriyyatı, 1958.

102. Xəliliv Q. Lirik şeirlərimiz haqqında. Azərbaycan, 1955.

103. Xəndan C. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1972.

104. Hüseynova S. Müşfiqin sənətkarlığı. Filol. elm. nam. alimlik dərəcəsi almaq üçüm təqdim olunmuş dissertasiya, 1974.

105. Çernışevski N.Q. Sənətin varlığa estetik münasibəti. Bakı: Azərnəşr, 1956.

106. Cavad Ə. Şeirləri. Bakı: Azərnəşr, 1958.

107. Cəfərov M.C. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: Azərb SSR EA Nəşriyyatı, 1968.

108. Cəfərov M.C. Klassik romantizm ənənələrinə münasibətimiz. Azərbaycan, 1969, № 11.

109. Cəfərov M.C. S.Vurğun yaradıcılığında xəlqilik. Ədəbiyyat qəzeti, 23 mart 1940-cı il.

110. Cəfərov M.C. Sənət yollarında. Bakı: Gənclik, 1975.

111. Cəfərov M.C. Füzuli düşünür. Bakı: Uşaqgəncnəşr, 1959.

112. Cəfərov M.C. Ünvansız məktub. Vətən uğrunda, 1945, № 7-8.

113. Şaiq A. Əsərləri. Beş cilddə, 2-ci cild. Bakı: Azərnəşr, 1968.

**Rus dilində**

114. Маркс К. и Энгельс Ф. Об искусстве. М.: Искусство, 1957, т. 1.

115. Абдуллаев А.А. Творческие стили в азербайджанской советской поэзии: Автореф. дисс... филол. наук. Баку, 1977.

116. Адалис А.Ю. Титанические образы. Бакинский рабочий, 1966, 15 мая.

117. Алигер М. Признание в любви. Дружба народов, 1957, № 11.

118. Антокольский П. Оптимизм обоснован. Литературная газета, 1954, 7 дек.

119. Антокольский П. Народный поэт Самед Вургун. Литературный Азербайджан, 1958, № 5.

120. Аристотель. Об искусстве поэзии. М.: Госполитиздат, 1957.

121. Арнаудов М. Психология литературного творчества. М. Прогресс, 1970.

122. Бабаев Г. Поэт и время (Самед Вургун и его место в советской литературе). Баку: Изд-во АН Азерб. ССР, 1966.

123. Бабаян А.М. и Темурова Н.М. Самед Вургун в русской печати: Библиография. Баку: Элм, 1976.

124. Барабаш. Ю. Письма об идейности лирики. В сб.: Литература и современность. М.: Сов. писатель, 1959.

125. Берггольц О. Против ликвидации лирики. Литературная газета, 1954, 28 окт.

126. Берггольц О. Разговор о лирике. Литературная газета, 1953, 16 апр.

127. Бехер И.Р. В защиту поэзии. М.: Иностранная лит., 1959.

128. Бехер И. Любовь моя поэзия. М: «Худож. лит.», 1965.

129. Бузник В.В. Лирика и время. М.-Л.: Наука, 1964.

130. Ванслов В.В. Эстетика романтизма. М.: Искусство, 1966.

131. Велиханова Ф.А. Русские переводы поэзии Самеда Вургуна. Баку: Изд-во АН Азерб. ССР, 1968.

132. Второй Всесоюзный съезд советских писателей: Стенографический отчет. М.: Сов. писатель, 1956.

133. Гаджиев А.А. Романтизм и реализм. Баку: Изд-во АН Азерб. ССР, 1972.

134. Гачев Г.Д. Содержательность художественных форм. М.: Просвещение, 1968.

135. Гинзбург Л.Я. О лирике. М-Л., Сов. писатель, 1964.

136. Горький М. Полное собрание сочинений: В 30 т. М.: Гослитиздат, 1953, т. 27.

137. Горький М. Полное собрание сочинений: В 30 т. М.: Гослитиздат, 1955, т. 30.

138. Грибачев Н. Степь и человек. Новый мир, 1956, № 4.

139. Грибачев Н. и Смирнов С. «Виолончелист» получил канифоль...» — Литературная газета, 1954, 21 окт.

140. Гринберг И.Л. Лирическая поэзия. М.: Сов. писатель, 1955.

141. Гринберг И. Три грани лирики. М.: Сов. Писатель, 1975.

142. Гринберг И. Оружие лирики. Знамя, 1954, № 8.

143. Гусев В.В. В середине века. М., Сов. писатель, 1967.

144. Холодный ум против горячего сердца? – Литературная газета, 1975, 13 авг.

145. Ермилова Е.В. Лирическое «я» поэта. В кн.: Проблемы художественной формы социалистического

реализма. В 2 т. М.: Наука, 1971, т. 1.

146. Есенин С.А. Собрание сочинений: В 6 т. М.: Худож лит., 1977, т. 1.

147. На рубеже, 1953, № 8.

148. Залесская А. О романтическом течении в советской литературе. М.; Наука, 1973.

149. Зись А. Объективное и субъективное. В кн.: Искусство н эстетика М.: Искусство, 1975.

150. История эстетики; Памятники мировой эстетической мысли. М.: Искусство, 1964, т. 2.

151. Караев А. Лирический герой современной туркменской поэзии; Автореф. дисс... каид. филол. паук. Ашхабад, 1966.

152. Касумзаде К.Х. Поэзия братства и дружбы народов. В кн; Самед Вургун (высказывания, воспоминания, исследования о поэте). Баку: Элм, 1976.

153. Кожинов В.В. Поэтическая форма и преобразование мира. В кн.: Проблемы художественной формы социалистического реализма. М.: Паука, 1971, т. 1.

154. Корман Б.О. Лирическая система Некрасова. В кн.: Н.А.Некрасов и русская литература. М.: Наука, 1971.

155. Либединская Л. Благодарная память. Бакинский рабочий, 1966, 18 мая.

156. Мазилу Г.Г. Соотношение эмоционального и рационального в молдавской советской лирической поэзии. Автореф. дисс... каид. филол. наук. Кишинев, 1969.

157. Максимов Д.Е. О лирике Лермонтова. Литературная учеба. 1939, № 4.

158. Маяковский В.В. Как делать стихи? — В кн.: Русские писатели о литературном труде. М.: Сов. Писатель, 1956, т. 4.

159. Михайлов Ал. Лирика сердца и разума. М.: Сов.

писа-
160. Михайлов А.А. Поэт и лирический герой. Архангельское кн. изд-во, 1960.
161. Назаренко В. Язык искусства. Л.; Сов. Писатель, 1961.
162. Овчаренко А. Социалистическая литература и современный процесс. М.: Современник, 1975.
163. Огнев В. О романтической поэзии. Литературная газета, 1961, 14 февр.
164. Паперный З. Образ, а не призрак. Литературная газета, 1963, 11 июля.
165. Паперный З. Поэтический образ у Маяковского. М.: Изд-во АН СССР, 1961.
166. Плачинда С. Олександр Довженко (життя і творчість).— Київ: Радянський письменник, 1964.
167. Поспелов Г.Н. О литературных направлениях. Научные доклады высшей школы. Сер. филол. наук, 1958, № 1.
168. Резник О. Жизнь в поэзий. М.: Сов. писатель, 1972.
169. Расул Рза. Хорошие и разные. Известия, 1964, 6 окт.
170. Рафили М. Патриотическая поэзия. Дружба народов, 1956, № 7.
171. Рунин Б, Спор необходимо продолжить. Новый мир. 1960, № 11.
172. Русские писатели о литературном труде: В 4 т. М.: Сов .писатель, 1956, т. 4.
173. Сильман Т.И. Заметки о лирике. Л.: Сов. писатель, 1977.
174. Сильман Т.И. Синтактико-стилистические особенности местоимений. Вопросы языкознания. 1970, № 4.
175. Станиславский К.С. Собрание сочинений: В 8 т. М.: Искусство, 1955, т. 3.

176[a] Содоклад Самеда Вургуна «О советской поэзии». См.: Второй Всесоюзный съезд советских писателей. Стенографический отчет. Москва, 1956, ст. 71-72.

176. Талыбзаде К.А. Великий современник. Баку: 1976, 17 нояб.

177. Тимофеев Л. Биография поэта и лирическое «я». Литературная газета, 1963, 3 окт.

178. Тимофеев Л. И. Основы теории литературы. М.: Просвещение, 1971.

179. Томашевский Б. Призрак в литературоведении. Литературная газета, 1963, 1 июня.

180. Турков А.М. Поэзия созидания. М.: Сов. Писатель, 1962.

181. Тынянов Ю. Архаисты и новаторы. Л., 1929.

182. Усейнова С. Мастерство Мушфика: Автореф. дпсс. канд. филол. наук. Баку: 1974.

183. Чернышевский Н.Г. Полное собрание сочинений. М.: 1949, т. 2.

184. Юдкевич А. Лирический герой Есенина. Изд-во Казанского университета, 1971.

## MÜNDƏRİCAT

1. Latın qrafikası ilə nəşrə müəllif şərhi..........................3
2. İsa Həbibbəyli. Ömrün elmi hesabatı...........................5
3. Məmməd Cəfər. Bir neçə söz ....................................20
4. Giriş.......................................................................24
5. I Fəsil. Lirik qəhrəman problemi..............................29
6. II Fəsil. Lirik qəhrəmanın təşəkkül yolu..................46
7. III Fəsil. Lirik qəhrəmanın yetkinliyi.......................104
8. IV Fəsil. Lirik qəhrəman və estetik ideal.................139
9. Nəticə..................................................................174
10. Ədəbiyyat.............................................................181
11. Mündəricat...........................................................192




**Kitabın 1986-cı il nəşrinin cildi.**



АЗӘРБАЈҸАН ССР ЕЛМЛӘР АКАДЕМИЈАСЫ
НИЗАМИ АДЫНА ӘДӘБИЈЈАТ ИНСТИТУТУ

ГУРБАН БАЈРАМОВ

ЛИРИК ГӘҺРӘМАН
ВӘ
ЗАМАН

(Сәмәд Вургун поезијасында лирик гәһрәман)

Бакы—Елм—1986

**Kitabın 1986-cı il nəşrinin titul vərəği.**

QURBAN FƏRMAN OĞLU BAYRAMOV

# LİRİK QƏHRƏMAN VƏ ZAMAN
(Səməd Vurğun poeziyasında lirik qəhrəman)

**Nəşriyyat redaktoru:** G.Davudova

**Rəssamı:** V.Ustinov

**Bədii redaktoru:** F.Səfərov

**Texniki redaktoru:** T.Həsənova

**Korrektoru:** T.Piriyeva

İB № 1030

Yığılmağa verilmiş 18.11.85. Çapa imzalanmış 18.03.86. FQ 07367. Kağız formatı 84X108 1/32. Mətbəə kağızı № 1. Şrifti ədəbi qarnitur. Yüksək çap üsulu. Şərti çap vərəqi 7,03. Titajı 1200. Sifariş 866. Qiyməti 1 man, 10 qəp.

“Elm” nəşriyyatı, 370143, Bakı,-143, Nərimanov prospekti, 31. Akademiya şəhərciyi. Əsa bina. Azərbaycan SSR EA mətbəəsi, Bakı, Nərimanov prospekti,31.



## Müəllif haqqında məlumat:

**Tənqidçi-ədəbiyyatşünas, doktor-professor Qurban Bayramov 1946-cı il mayın 30-da Azərbaycanın Ağdam rayonunun Əlimədədli kəndində anadan olmuşdur. Orta təhsilini burada almış, indki N.Tusi adına ADPU-nin filologiya fakültəsini (1963-1967) bitirmişdir. Orta məktəbdə müəllim, tədris işləri üzrə direkor müavini vəzifələrində çalışmışdır (1967-1971). Hərbi xidmətdə olmuş (1967-1968), AMEA-nda aspirantura təhsili almışdır (1970-1974). 1972-ci ildən AMEA-nın Ədəbiyyat İnstitutunda baş laborant, elmi işçi, baş elmi işçi olmuşdur. Hazırda həmin institutda aparıcı elmi işçi vəzifəsində işləyir.**

**1970- ci ildən ədəbi fəaliyyətə başlayıb, ilk elmi monoqrafiyası 1979-cu ildə “Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi” mövzusunda dissertasiyası olub… Bu günə kimi dövri və elmi mətbuatda 16 kitabı, 300-dən çox məqaləsi dərc edilib… Bunlardan “Vurğun poeziyası”(1976), “Lirik qəhrəman və zaman (Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi)” , “Tarixilik və müasirlik – “Sosialist realizmi müasir mərhələdə” kitabı (kollektiv) , “Yaşar Qarayev: Milli yaddaş təlimi – azərbaycançılıq”, (Jalə Qurbanqızı ilə birgə) , “Poeziyanın sirri…” (mini-modern monoqrafiya), “Əli İldırımoğlunun yaradıcılıq yolu: Azərbaycan ədəbiyyatında avtobioqrafik roman janrının təkamülü” (monumental monoqrafiya) , “Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə” (Jalə Qurbanqızı ilə birlikdə) və s. bu qəbildən kitabların müəllifidir.**

**Onun “Müasir Azərbaycan poeziyasında üslubi meyillər”, “Azərbaycan ədəbiyyatında tarixilik və müasirlik”, “M.Ə.Sabir ənənələri və Azərbaycan ədəbiyyatı”, “Səməd Vurğun dünən, bu gün və sabah”, “M.H.Şəhriyar poetik üslubu”, “Qarabağ ədəbi mühiti – uzaq keçmişdən bu günümüzə qədər” təkin maraqlı tədqiqatları var. Bir sıra əsərləri, İranda, Türkiyədə, İraqda, Rusiyada, Macarıstanda, Litvada, Krımda, Kərkükdə, Qazaxstanda dərc olunub… Azərbaycan ədəbiyyatının əksər nümayəndələri barəsində məqalə yazıb, elmi və bədii kitabların redaktoru olub, onların bir çoxuna ön söz yazıb, dissertantlara elmi rəhbər və opponent olub, xüsusən, “Azərbaycan poeziyası”na həsr etdiyi ədəbi icmalları maraq doğurub… Uzun illər “Gənclik” nəşriyyatında rəsmi rəyçi, Azərbaycan Dövlət Televiziyasında “Ədəbiyyatşünaslıq və zaman”, “Ədəbiyyat” (1982-1992) elmi-kütləvi, tədris televiziya verilişlərinin müəllif-aparıcısı, Ədəbiyyat İnstitutu Elmi Şurasının, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Prezidentinin bir illik fərdi təqaüdçüsü (2011) olub. Azərbaycan MEA-nın Rəyasət Heyətinin, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin , Azərbaycan Respublikası Həmkarlar Konfederasiyasının, AMEA-nın Azad Həmkarlar İttifaqının Fəxri fərmanlarına , “Tanınmış Vurğunşünas alim” , “Fədakar alim”, “Elm fədaisi”, “Vintsas” mükafatı” fəxri diplomlarına, “Səməd Vurğun mükafatı” na, "Avropa Nəşr Mətbu Evi"nin "Qızıl medal"ına layiq görülüb, Respublika Əmək Veteranıdır.**

**Qurban BAYRAMOV**

*(Bayramov Qurban Fərman oğlu)*

Redaktor: Zaur USTAC
Naşir: Tuncay ŞƏHRİLİ.
Kitabın adı: "Lirik qəhrəman və zaman".
Kitab "Yazarlar"ın kompüter mərkəzində yığılıb.
Təşkilati dəstək: www.ustac.az *(Qeyri- kommersiya)*
Üzqabığının müəllifi: Tuncay ŞƏHRİLİ.
Çapa imzalandı: 21.05.2021.

*Kitab xeyriyyə məqsədi ilə nəşr olunur. Odur ki, heç bir kommersiya marağı yoxdur və gəlir əldə olunması nəzərdə tutulmamışdır. E-kitab hazırlanıb elektron kitabxanalara yerləşdiriləcək.*

Müəllif hüquqları qanunlarla qorunur.

Qiyməti: Pulsuz.
Sayı: 100 ədəd. (Elektron variantı var)
Əlaqə: zauryazar@mail.ru (+994)70-390-39-93 .
Kitab "El kitab çapı" mərkəzində çap olunub.




**Müəllifin digər kitabları.**

# QEYDLƏR




**Üzqabığının müəllifi: Tuncay ŞƏHRİLİ (MUSTAFAYEV).**